# ƏSATİRLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

"ŞƏRQ-QƏRB"
BAKI–2005

*Bu kitab "Azərbaycan mifoloji mətnləri" (Bakı, Elm, 1988), "Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru" (Bakı, Sabah, 1994) və "Bu yurd bayquşa qalmaz. Folklor nümunələri" (Bakı, Yazıçı, 1995) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

| | |
|---|---|
| Tərtib edənlər: | **Arif Acaloğlu**<br>**Cəlal Bəydili** |
| Ön sözün və şərhlərin müəllifi: | **Arif Acaloğlu** |
| Redaktoru: | **İsrafil Abbaslı** |

**398.2'094754 - dc 21**
**AZE**
**Əsatirlər, əfsanə və rəvayətlər.** Bakı, "Şərq-Qərb", 2005, 304 səh.

Xalqın milli-mənəvi mədəniyyətinin qaynağı və özülü olan mifoloji irsi onun keçmişi ilə yanaşı, bugününü də dərk etməyə, çağdaş ədəbiyyatını və incəsənətini daha geniş kontekstdə öyrənməyə, tarixi-mədəni perspektivi düzgün müəyyənləşdirməyə böyük yardım göstərir.

Azərbaycan əsatirləri, əfsanə və rəvayətlərinin təqdim olunan nəşri xalqımızın mifoloji görüşlər sisteminin aşkara çıxarılması baxımından əhəmiyyət daşıyır. Kitaba respublikanın dəyişik bölgələrindən toplanmış folklor mətnləri daxil edilmişdir. Mətnlər elmi təsnifata uyğun bölgülərlə təqdim olunmuşdur. Milli mifoloji sistemin özəllikləri, mövzu dairəsi nəzərə alınaraq bir sıra mətnlər ayrı-ayrı başlıqlar altında qruplaşdırılmışdır.

Kitaba daxil edilən mətnlərin toplanılmasında Sədnik Paşayev, Maqbet Əhmədov, Arif Acaloğlu, Yusif Səfərov, Vəli Nəbioğlu, Muxtar Qaradaşlı, Əfzələddin Əsgər və b. iştirak etmişlər. Mətnlərin böyük qisminin Azərbaycanın bir çox yerlərində müşahidə olunması və hazırkı nəşrin kütləvi xarakter daşıması kimi mülahizələrdən çıxış edilərək söyləyənlər haqqında məlumat verilməmişdir.

Mətnlərdə şifahi sintaksis koloriti, dialekt və şivə xüsusiyyətləri mümkün qədər qorunub saxlanılmışdır.

**ISBN 9952-418-80-6**

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ÖN SÖZ

Tarix meydanına çıxmış olan hər bir xalq tam bir sıra əlamətlərlə səciyyələnir: irqi, etnik, dil, sosial-siyasi, hərbi, psixoloji, ədəbi və s. Təbii ki, ayrılıqda bu əlamətlərin heç biri konkret xalq haqqında dolğun təsəvvür yarada bilməz. Buna görə də uyğun araşdırmalarda həmin əlamətləri daha tam əhatə etməyə cəhd göstərilir. Lakin bir əsərdə həmin əlamətlərin hamısına toxunulması hələ məsələnin tam və düzgün həlli demək deyil. Belə bir "əhatə cəhdi" çox vaxt (hətta eyni bir əsər daxilində) bir-birindən təcrid edilmiş, tarixi-mədəni perspektivlə uzlaşdırılmayan faktlar və sitatlar yığımının yaranmasına səbəb olur.

Faktların sadalanması və təsviri etnoqrafiyanın ilk pilləsi kimi dəyərli olsa da, folklorşünaslıq əsərində dastan, nağıl, lətifə və b. məzmununun verilməsi elmi təhlili əvəz edə bilməz. Başqa cür desək, folklorşünasın vəzifəsi nağıl haqqında nağıl danışmaq yox, nağılın bədii strukturunu, mifopoetik simvolikasını, köklərini, təkamülünü öyrənmək, mədəniyyət sistemindəki yerini müəyyənləşdirməkdir. Bu işin yerinə yetirilməsi üçün yuxarıda göstərilən əlamətlər vahid kompleks halında götürülməli və əlaqədar elmlərin uğurları işığında, onlarla uzlaşdırılaraq öyrənilməlidir. Əlaqədar elmlər dedikdə tarix, arxeologiya, etnologiya, antropologiya, ədəbiyyatşünaslıq, dilçilik, psixologiya və b. nəzərdə tutulur. Elmlərin yüksək inkişaf sürəti və inteqrasiyası nəticəsində folklor araşdırmalarında bir sıra başqa elmlərdən (kibernetika, informasiya nəzəriyyəsi, struktur dilçilik, semiotika və b.) də uğurla istifadə edilir. Bütün bunlar, hər bir xalqın tarixi həyatının müxtəlif təzahürlərini və əlamətlərini ayrı-ayrılıqda deyil, bir bütöv olaraq kompleks şəkildə öyrənməyə imkan verir. Bu cəhətin ön plana çəkilməsi qədim və arxaik, eləcə də stabil mədəniyyətlərin öyrənilməsində xüsusilə zəruridir. Çünki qədim və ən qədim dövrlərin mədəniyyətindən danışarkən təbabəti ovsundan, mifi elmdən, oyunu mərasim və ayindən, eləcə də şeri nəsrdən, zamanı məkandan və b.k. ayırmaq, demək olar ki, qeyri-mümkündür. Təxminən eyni vəziyyət orta yüzilliklər mədəniyyətində də özünü göstərməkdədir. Bütün keçmiş mədəniyyətlərə xas olan bu sinkretizmin və mürəkkəb sistem olmaq üzrə mədəniyyətlərə xas olan bu sinkretizmin və mürəkkəb sistem olmaq üzrə mədəniyyətin xüsusi daxili qanunauyğunluqlarının nəzərə alınması daha geniş perspektivdə aparılan ardıcıl sistemli araşdırmaların əhəmiyyətini daha da artırır. Aydın olur ki, qədim təbabət, qayaüstü rəsmlər, qədim memarlıq, mifologiya, folklor, dil tarixi, etnopsixologiya, tarixi coğrafiya və b. bir-biri ilə elə qovuşmuş-

dur ki, onların ayrı-ayrılıqda uğurla öyrənilməsi, sadəcə olaraq, mümkün deyil. Daha doğrusu, onlar vahid bir sistemin qolları, təzahür formalarıdır.

Təsadüfi deyil ki, mədəniyyət tarixinə dair aparılan ən dəyərli araşdırmalarda etnik və mədəni həyatın ayrı-ayrı təzahür formaları deyil, bütövlükdə *etnik-mədəni sistem* əsas götürülür. Bu tipli araşdırmalar bir-birini tamamlayan iki istiqamətdə işləməyə imkan verir: ayrı-ayrı tərkib hissələrinin əlaqəli götürülməsi nəticəsində bütövlükdə sistemin müəyyənləşdirilməsi və bu sistemdən çıxış edərək konkret təzahürlərin izah edilməsi. Bu iki istiqamət müntəzəm olaraq bir-birini tamamlayır, təshih edir və beləliklə, tarixi-mədəni inkişafın mənzərəsini almağa şərait yaradır.

Aydındır ki, hər bir etnik-mədəni sistemin öyrənilməsində onun müəyyən sahələrinə, müəyyən faktlara dövrdən asılı olaraq daha böyük əhəmiyyət verilir. Başqa cür desək, onlar dövrün mədəni dəyərlər düzümündə daha yuxarı cərgələrdə yer alır. Bu cəhətin mütləq nəzərdə tutulması yalnız konkret mədəniyyətin deyil, mədəniyyət tipologiyasının da öyrənilməsində zəruridir. Məsələn, orta yüzilliklər Azərbaycan mədəniyyəti sistemində şeir, miniatür sənəti, kalliqrafiya, fəlsəfə, memarlıq və b. daha yüksək səviyyələrdə dayanırlar. Nisbətən aşağı səviyyələrdə münəccimlik, aqioqrafiya, əlkimya, dəqiq elmlər və b. yerləşir. Başqa dövrlərdə (əvvəlki və sonrakı) bu nisbət, sözsüz ki, dəyişir. Həmin yüzillərin rus mədəniyyətində isə sistemin yuxarı pillələrində salnaməçilik, tərcümə, aqioqrafiya, ikona sənəti və b., nisbətən aşağıda – bədii ədəbiyyat, fəlsəfə və b. dayanır. Dəqiq elmlərin bu sistemdəki xüsusi çəkisi çox cüzidir. Göstərilən sahələrin sistemli və struktur-tipoloji planda öyrənilməsi bütövlükdə etnik-mədəni sistemin, yaxud onun ayrı-ayrı komplekslərinin bərpasına yol açır.

Göstərilən istiqamət nisbətən yaxın dövr mədəniyyətlərinin araşdırılmasında özünü doğrultduğu kimi, arxaik və qədim mədəniyyətlər sahəsində də uğurla tətbiq edilir. Bu sahə özünün müəyyən xüsusiyyətlərinə görə sistemli tədqiqatlara daha çox möhtacdır. Digər tərəfdən isə onun öyrənilməsində və düzgün bərpa edilməsində sistemli yanaşma, görünür, hələlik yeganə məhsuldar yoldur. Məsələ burasındadır ki, yeni dövr və orta yüzillər mədəniyyətlərindən fərqli olaraq arxaik mədəniyyətlərdə nəinki ideoloji sahədə, hətta bütövlükdə etnik-mədəni sistem daxilində elə bir gözəgəlimli diferensiasiya yoxdur. Onların başlıca səciyyəvi cizgisi, yuxarıda göstərildiyi kimi, sinkretizmdir. Deməli, sistemli-struktur yanaşmanı öyrənilən obyektin özü tələb edir.

Arxaik sinkretizmin özülü və başlıca şərti mifologiyadır. Başqa sözlə, bütövlükdə qədim mədəniyyətin, yaxud tək-tək etnik-mədəni sistemlərin bərpası üçün birinci olaraq mifologiyanı öyrənmək gərəkdir. Onun ayrı-ayrı ünsürlərinin araşdırılması və bu yolla milli mifologiyanın bərpası, öz növbəsində, konkret etnik-mədəni sistemin bərpasını təmin edir.

Bəşər tarixində tutduğu belə bir müstəsna mövqeyə görə mifologiyanın öyrənilməsi son bir neçə yüz il ərzində həmişə elmin diqqət mərkəzində olmuşdur. Buna görə də mifoloji düşüncənin və mifoloji strukturların daxili qanunları, səciyyəvi cizgiləri barədə elmin gəldiyi nəticələrin şərhindən əvvəl məsələnin tədqiqi tarixini ötəri olaraq gözdən keçirmək məqsədəuyğundur.

Birinci növbədə qeyd etmək gərəkdir ki, mifoloji araşdırmaların kifayət qədər uzun və zəngin tarixi var. Bu sahədə ilk əsərlər Rusiyada XIX yüzilliyin ortalarında meydana çıxmağa başlayır. F.İ.Buslayev, A.N.Afanasyev və b. görkəmli alimlərin dövrün qabaqcıl elmi ideyaları ilə səsləşən fundamental əsərləri məhz həmin illərdə yaranmışdır[1]. "Mifoloji" məktəbin (Y.Qrimm, M.Müller, A.Kun və b.) ənənələri ilə bağlı olan bu araşdırıcılar həmin məktəbə xas olan müəyyən məhdud görüşlərdən və ifrat meyllərdən azad deyildilər. Onların əsərləri və topladıqları material sonradan A.A.Potebnya və A.N.Veselovski kimi araşdırıcıların nəzəri və müqayisəli mifologiya sahəsində axtarışları üçün bir özül olmuşdur[2]. Bu sonuncuların yaradıcılığı mifologiyanın öyrənilməsi sahəsində rus elmində xüsusi mərhələ təşkil edir (maraqlıdır ki, A.Veselovskinin irəli sürdüyü ideyalar bir sıra nöqtələrdə M.Kazımbəyin[3] nəzəri görüşləri ilə səsləşir). A.A.Potebnyanın araşdırmalarında dilçilik metodları və semantik təhlil başlıca yer tutur. Bu mövqe mifologiyanın uğurla öyrənilməsi sahəsində irəliyə doğru ciddi addım idi və sonralar bir sıra sovet və xarici ölkə alimlərinin əsərlərində inkişaf etdirilmişdir. A.A.Veselovski isə mifologiyanı başqa planda – etnologiya və tarixi poetika baxımından araşdırır. Onun əsərlərində mifologiya (ibtidai sinkretizm) bütövlükdə bədii yaradıcılığın və ayrı-ayrı bədii təsvir vasitələrinin qaynaqlarını müəyyənləşdirmək məqsədilə araşdırılır.

Klassik rus elminin bu ənənələri sonradan sovet alimləri tərəfindən mənimsənilmiş və inkişaf etdirilmiş, mifoloji araşdırmalar başlıca olaraq iki istiqamətdə aparılmışdır: 1. etnoqrafiya və din tarixi; 2. filologiya. Birincilər barədə danışmayaraq yalnız onu göstərmək kifayətdir ki, onların araşdırmaları filoloqlar üçün həmişə ilkin mənbə və zəmin olmuşdur. İkinci istiqamət 1920-30-cu illərdə bir sıra görkəmli alimlərlə təmsil edilir. Bu illərdə mifologiya birinci növbədə N.Y.Marr və onun ətrafında toplaşan bir sıra filoloqları cəlb edir.

---

[1] *Ф.И.Буслаев*. Исторические очерки русской народной словесности и искусства, т.I-II. СПб.; 1861; *А.Н.Афанасьев*. Поэтические воззрения славян на природу, т.I-III. М.: 1865–1869.

[2] *А.А.Потебня*. Из записок по теории словесности. – Харьков, 1905; yenə də onun. Эстетика и поэтика, М., 1976; *А.Н.Веселовский*. Историческая поэтика. М., 1940.

[3] *Мирза А.Казем-бек*. Мифология персов по Фирдоуси. – "Северное обозрение", т.III. СПб., 1848, раздел IV, с.1-12.

Onların müxtəlif dövri nəşrlərdə, kollektiv monoqrafiya və məcmuələrdə çap edilən əsərlərində mifologiya müxtəlif baxımlardan (dilin mənşəyi, semantika, poetika, üslub, bədii obraz və b.k.) araşdırılır. Bu araşdırmalarda N.Y.Marrın "fantastik ideyalarının" müəyyən təsiri duyulsa da, həmin təsir daha çox zahiri və deklarativ səciyyə daşıyır. Belə ki, o dövrdə N.Y.Marr ilə əməkdaşlıq edən O.M.Freydenberq və İ.Q.Frank-Kamenetskinin mifoloji semantika sahəsindəki axtarışları, əldə etdikləri nəticələr "paleontoloji" nəzəriyyənin sərhədlərindən faktiki olaraq kənara çıxır. Təsadüfi deyil ki, O.M.Freydenberq artıq 1932-ci ildə "Marr məktəbi" ilə formal əlaqəni belə kəsərək, öz axtarışlarını davam etdirir. Onun mifoloji semantika və simvolika aspektində apardığı araşdırmalar öz dövründə antik ədəbiyyatın və ədəbiyyat nəzəriyyəsinin öyrənilməsində yeni perspektivlər açmışdır.[1] Başlıca olaraq xristian mifologiyası sahəsində işləyən İ.Q.Frank-Kamenetskinin əsərləri haqqında da eyni sözləri demək olar. Göstərilən müəlliflərin və bir sıra başqalarının fəal iştirakı ilə müəyyən tematik məcmuələr və kollektiv monoqrafiyalar yaradılmışdır. Onlardan ən başlıcası kimi "Tristan və İzolda" mövzusuna həsr edilmiş kollektiv monoqrafiyanı göstərmək olar.[2]

Həmin illərdə mifologiya problemləri ilə ardıcıl məşğul olan mütəxəssislər arasında A.F.Losev, V.Y.Propp, İ.İ.Tolstoy, İ.M.Tronski və V.V. İvanovun xüsusi mövqeyi vardır[3].

1941-45-ci illər müharibəsindən sonrakı dövrdə mifologiya və arxaik folklor sahəsindəki araşdırmalar yeni vüsət alır. Araşdırıcıların yeni nəsli yetişir, axtarışların xronoloji və coğrafi sərhədləri daha da genişlənir. Eyni zamanda 1950-1960-cı illər yuxarıda qeyd edilən yeni metod və üsulların intensiv şəkildə mənimsənilməsi dövrüdür. Həmin dövrdə sovet elmi müqayisəli mifologiya və mif nəzəriyyəsi sahəsində A.F.Losev, Y.M.Meletinski, S.S.Averinsev, V.V.İvanov, V.N.Toporov, Y.M.Lotman, B.A.Uspenski, M.İ.Steblin-

---

[1] Bax: *О.М.Фрейденберг.* Поэтика сюжета и жанра. Л., 1936; Миф об Иосифе Прекрасном. "Язык и литература". т.VIII, Л., 1932; Сюжетная семантика Одиссеи. Yenə orada, т.IV. Л., 1935.

[2] Тристан и Изольда. От героини любви феодальной Европы до богини матриархальной Афроевразии. Коллективный труд сектора семантики мифа и фольклора. Труды Института языка и мышления, т.II. Л., 1932.

[3] Onların bir çox əsərləri 20-40-cı illərin mətbuatında, bəziləri isə sonrakı illərdə çap edilmişdir. Bax: *А.Ф.Лосев.* Диалектика мифа. М., 1930; yenə də onun, Очерки античного символизма и мифологии, т.I. М., 1930; *В.Я.Пропп.* Морфология сказки. М., 1969, 2-ci nəşri; yenə də onun. Исторические корни волшебной сказки. – Л., 1946; *И.И.Толстой.* Статьи о фольклоре. Л., 1966; *И.М.Тронский.* Античный миф и современная сказка. Сб. "С.Ф.Ольденбургу". К 50-летию научно-общественной деятельности. Л., 1934; *В.В.Иванов.* Дионис и прадионисийство. – Баку, 1923.

Kamenski, F.X.Kessidi və başqa görkəmli alimlərin bir çox fundamental əsərləri meydana çıxmış, nəhayət, dünya elmində hadisəyə çevrilən ikicildlik ensiklopediya yaradılmışdır[1]. Sözsüz ki, bu səviyyənin əldə edilməsində göstərilənlərdən əlavə bir çox başqa (mifologiya ilə birbaşa məşğul olmayan) araşdırıcının da böyük xidmətləri olmuşdur (məsələn, M.M. Baxtin, A.Y.Qureviç, P.Q.Boqatıryov və b.) [2].

A.F.Losev mifoloji düşüncənin aşağıdakı başlıca xüsusiyyətlərini müəyyənləşdirmişdir: "Mif – ümumi ideya ilə ən adi hissi obrazın birbaşa maddi eyniyyətidir. Mücərrəd təfəkkürün yalnız gerçəkliyi əks etdirən hər cür düzümü – mifologiya üçün bütün hissi keyfiyyətləri ilə, canlı varlıqlar, yaxud cansız əşyalar şəklində, gerçəkliyin özüdür".[3]

Mifoloji fantaziya və mifoloji düşüncənin bu şəkildə anlaşılması onun təfəkkürə münasibətini də aydınlaşdırmağa kömək edir. "Bədii fantaziya əşyanın özü yox, onun yalnız inikası olduğu halda, mifoloji fantaziya... ideya və əşyanın, yaxud ideya və obrazın substansional eyniyyətinə əsaslanır. Mifoloji obrazlar, sözün hərfi mənasında, maddi olaraq dərk edilirlər, onlar metafora, yaxud alleqoriya deyil, halbuki bədii obrazlar həmişə yalnız məcazi olaraq anlaşılır".[4]

Mifoloji düşüncənin sinkretizmini və funksional-semantik planda çulğaşıq səciyyə daşımasını başqa müəlliflər də məhz bu baxımdan izah edirlər. S.A.Tokarev və Y.M.Meletinski mövcud fikirləri ümumiləşdirərək göstərirlər ki, "elmi təhlildə oxşarlıq kimi çıxış edən bir şey mifoloji izahda eyniyyət kimi anlaşılır".[5] Mifoloji düşüncədə subyekt və obyekt, əşya və işarə, əşya və onun əlamətləri, zaman və məkan münasibətləri arasında dəqiq sərhəd qoyulmur, hər yerdə eyniyyət, qovuşma gözə dəyir.[6]

Bu nəzəri müddəaları rəhbər tutaraq arxaik, klassik və müasir mədəni sistemlərin bir sıra qlobal problemlərini uğurla araşdırmaq, eləcə də mifologiyanın aşağıdakı konkret problemlərinin həllinə girişmək mümkündür: 1. Keçmiş və indiki mədəniyyətlərdəki mifoloji strukturların düzgün ayırd edilməsi; 2. Mifoloji strukturların yaranma və dəyişmə (fəaliyyət) mexanizminin öyrənilməsi; 3. Konkret mədəni sistemlərə xas olan mifoloji dünya modelinin aşkarlanması.

[1] Мифы народов мира. – Энциклопедия, т.I. М., 1980; т.II. М., 1982.

[2] Bax: *М.М.Бахтин.* Творчество Франсуа Рабле и народная культура средневековья и Ренессанса. – М., 1965; А.Я.Гуревич. Категории средневековой культуры. – М., 1972; П.Г.Богатырев. Вопросы теории народного искусства. – М., 1971 və b.

[3] *А.Ф.Лосев.* Мифология. – Философская энциклопедия, т.III. М., 1964, с.458.

[4] Yenə orada.

[5] Мифы народов мира. Энциклопедия, т.I. М., 1980, с.13.

[6] Yenə orada.

Birinci iki problemin öyrənilməsi sonuncunun həllinə xidmət edir (xüsusən, arxaik mədəniyyətlər sahəsində). Həmin istiqamətlərdə aparılan araşdırmalar mədəniyyətin müxtəlif sahələrini (dil, ədəbiyyat, incəsənət, adət-ənənələr, din, fəlsəfə və b.), müxtəlif mətn tiplərini əhatə edir. Buraya ayrı-ayrı mifoloji strukturların, mifoloji semantika və simvolikanın öyrənilməsi daxildir. Üçüncü istiqamət isə, konkret xalqlar üçün müəyyən dövrlərdə aktual olan mifoloji sistemlərin və universal modellərin bərpasını nəzərdə tutur. Tipoloji planda aparılan və mifoloji sistemlərin ümumi cizgilərini aşkarlamağa yönəldilmiş araşdırmalar da buraya aiddir.

Beləliklə, mifoloji araşdırmaların dəyəri və son məqsədi mifoloji bərpa işinin yerinə yetirilməsidir. Araşdırıcılar bərpa işində bir çox anlayış və terminlərdən istifadə edirlər: bərpa, təsvir, mətn, sistem, struktur, səviyyə (yarus), arxetip, model, sintaktika, paradiqmatika, semantika, funksiya, transformasiya, kosmos, xaos və b.

Bu anlayış və terminlər araşdırmaların müxtəlif mərhələ və aspektlərinə aiddir. Onların köməyi ilə qarşıya qoyulan vəzifə dəqiqləşdirilir, materialın sərhədləri və tipi müəyyənləşdirilir. Eyni zamanda bərpa edilən mifoloji sistemin daxili strukturu, bu strukturun ünsürləri arasındakı funksional və səviyyə münasibətləri aydınlaşdırılır. Beləliklə, hər bir konkret mifoloji sistemin ümumi mənzərəsinin, ayrı-ayrı qollarının (silsilələrinin) uyarlı (adekvat) təsviri yaradılır.

Demək olar ki, bütün xalqların mifologiyası tipoloji baxımdan eyni silsilələrin mövcudluğu ilə səciyyələnir:

1. Kosmoqonik (kosmoloji) miflər.
2. Etnoqonik (genealoji) miflər.
3. Təqvim mifləri.

Hər hansı bir mifoloji sistemə daxil olan bütün süjetlər, inanışlar, tapınışlar (kult), ayinlər, mərasimlər və b. bu üç silsilədən kənara çıxmır. Bir çox araşdırmalarda və mif məcmuələrində elmi təsnifatın daha çox (10-15) maddələrə xırdalanması yalnız şərti xarakter daşıyır: bir tərəfdən araşdırıcının, digər tərəfdən isə oxucuların işini asanlaşdırmaq məqsədini güdür.

Bütün bu metod, üsul və vasitələrlə aparılan elmi axtarışların nəticələrindən çıxış edərək bütövlükdə mifologiyanı və onun ayrı-ayrı qollarını necə səciyyələndirmək olar?

Mifologiya dünyanı özünəməxsus qanun və vasitələrlə biçimləyən və izah edən dinamik işarələr sistemidir. Hər bir sistem kimi mifoloji sistem də yalnız göstərilən əlamətlər və özünün tərkib hissələri (struktur elementlər) ilə deyil, daha çox bütün bunların qarşılıqlı münasibətləri, əlaqələri ilə səciyyələnir. Çünki "hər çoxluğun nizama salınması onun tərkibinə daxil olan vahid-

lərin necə düzülməsindən asılı olur"[1]. Deməli, dünyanın mifoloji modelini və mifoloji düşüncəni bərpa edərkən onun bütün ünsürlərinin (yer, göy, su, ağac, ruh, əcdad və b.) müəyyənləşdirilməsi işin yalnız bir tərəfidir. Başlıca məsələ, onların düzülmə ardıcıllığını və münasibətlərini bərpa etməkdir ki, bu zaman konkret ünsürlərin semantikası nə qədər dəyərli olsa da, araşdırıcı üçün ikinci dərəcəlidir. Çünki bərpa son nəticədə konkret semantik qatları yox, ümumi modelin aşkarlanmasını nəzərdə tutur. Başqa sözlə, həmin ünsürlərin vahid modeldə birləşmə, qarşılıqlı fəaliyyət və dəyişməsi qanunları ilə məşğul olur. Əgər dil və başqa işarə sistemləri (mifologiya özü də elə müəyyən işarə sistemidir!) ilə analogiya aparmış olsaq, deyə bilərik ki, bərpa burada mifoloji düşüncənin qrammatikasının, mifoloji sintaksisin bərpasıdır.

Konkret mifoloji sistemlərə xas olan dünya modelinin göstərilən prinsiplər əsasında bərpası düzgün sayılsa da, onun nisbətən aşağı səviyyələrini (ayrı-ayrı miflər, mifologemlər, ünsürlər və b.) öyrənərkən kifayət etmir. Burada sistemin ümumi qanunauyğunluqlarını (qrammatika) bilməkdən əlavə ifadə planında onun bütün tərkib hissələrinin müəyyənləşdirilməsi, məzmun planında isə semantika və simvolikanın aşkarlanması tələb edilir. Birincilərə mifoloji sistemi təşkil edən bütün ünsürlər (tanrılar, ruhlar, əcdadlar, kosmik obyekt və stixiyalar, ictimai və təbiət hadisələri, süjet tipləri və b.), ikincilərə isə həmin ünsürlərin nəyi işarə etməsi (bildirməsi), mifoloji ənənə daşıyıcıları tərəfindən necə mənalandırılması və qavranılması, ictimai təcrübədə tutduğu yer və b. daxildir. Bütün bunlar yuxarıda göstərilən üç mifoloji silsilə çərçivəsində qruplaşdırılır və bir-biri ilə əlaqələndirilir.

Həmin mifoloji silsilələri təşkil edən mətnlər hər bir qrup daxilində nə qədər xüsusi məzmun və səciyyə daşısalar da, çox vaxt başqa silsilədən olan mətnlərlə səsləşirlər. Belə ki, əksər hallarda konkret mətnin məzmunu kosmoqonik proseslərlə bağlı olsa da, orada genealoji və təbiət miflərinin izini görürük. Bəzən isə hər hansı mətnin konkret bir silsiləyə aid edilməsi böyük çətinliklə qarşılaşır. Bu zaman yeganə çıxış yolu funksional meyarların (həmin mətnin nə zaman, hansı ayinlərdə ifa edilməsi və nəyə xidmət etməsi) əsas götürülməsidir. Belə çətinliklərə baxmayaraq, bütün mifoloji mətnləri müəyyən dərəcədə konkret olaraq səciyyələndirmək mümkündür.

*Kosmoqonik miflər* hər bir mifoloji sistemin özəyini təşkil edir. Bu miflərin məzmunu "nizamlayıcı kosmik başlanğıcla dağıdıcı xaotik başlanğıcın

[1] *Nəsirəddin Tusi.* Əxlaqi-Nasiri. – Bakı: Elm, 1980, səh.145–146. Tusinin bu kitabdakı ideya və metodları ilə ümumi sistem nəzəriyyəsi, eləcə də struktur metodlar arasında heyrətamiz bir yaxınlıq gözə dəyməkdədir. Etika sahəsində ilk sistemli-struktur araşdırma olan "Əxlaqi-Nasiri" bu baxımdan xüsusi olaraq öyrənilməlidir. Burada, məsələn, struktur anlayışının müasir alimlərin çoxundan fərqli olaraq daha aydın və konkret izahı verilmişdir.

mübarizəsi”[1], dünyanın (kosmosun) yaranması, təbii obyektlərin formalaşması və b. hadisələrdən ibarətdir. Dünyanın və kainatın sonu barədə süjetləri əhatə edən esxatoloji mifləri də bu sıraya aid etmək gərəkdir. Çünki mifoloji düşüncədə kosmoqonik proses müəyyən zaman və məkan sərhədləri olan dövri hadisə kimi qavranılır. Əslində etnoqonik və təqvim mifləri də kosmoqonik miflərdən çıxır və müəyyən mənada (mifoloji ənənə daşıyıcıları üçün isə – bütünlüklə) onun tərkib hissəsi, yaxud başqa səviyyədə təkrarı kimi anlaşılır. Başqa sözlə, onlar kosmoqonik miflərin sosial (genealogiya) və təbiət-təqvim aspektində yozulmasıdır. Ən məqbul izah isə, bizcə, belə ifadə edilə bilər: bu mifoloji silsilələrin hər üçü vahid total mifin müxtəlif “dillərdə” ifadəsidir. Etnologiya terminləri ilə desək, arxetip sayıla biləcək müəyyən məlumat (informasiya) eyni vaxtda bir neçə kod ilə verilir: həmin məlumat kosmoqonik miflərdə – kosmos, genealoji miflərdə – cəmiyyət, təqvim miflərində – təbiət anlayışı və terminləri ilə ifadə edilir. Mifoloji silsilələr arasındakı münasibətin bu şəkildə anlanılması total, yaxud ana mifin başlıca parametrlərini müəyyənləşdirməyə imkan verir. Burada kosmosu məkan, təqvimi zaman, cəmiyyəti (genealogiya) isə insan ilə işarə etsək, belə bir sxem alırıq: zaman-məkan-insan (əslində bu sxem üçbucaq şəklində olmalıdır). Qədim mədəniyyət yadigarlarında bu modelin müxtəlif variantları qorunmuşdur. Ayrı-ayrı hallarda konkret etnik-mədəni sistemin xüsusiyyətlərindən asılı olaraq buraya başqa vahidlər də əlavə edilə bilər. Həmin üçlüyün qarşılıqlı münasibətləri və əlavə edilən vahidlərlə necə uzlaşması isə etnik-mədəni sistemin səciyyəsini müəyyənləşdirir. Beləliklə, hər hansı bir xalqın mifoloji sistemindən danışmaq, nəticə etibarilə, kosmoloji modeli təsvir etmək deməkdir.

*Etnoqonik* (*genealoji*) *miflər*, artıq deyildiyi kimi, kosmoqonik miflərlə qırılmaz əlaqədədir. Onların konkret məzmununu isə insanların yaranması[2], evlənmə və qohumluq qaydalarının, dövlətin, bayramların, yasaqların, ictimai birgəyaşayış normalarının və b. meydana çıxması təşkil edir. Məsələn, türk xalqları arasında geniş yayılmış olan bir sıra mifoloji süjetlər (“Oğuznamə”, “ana maral”, “boz qurd”, “qırx qız” və b.) bu qəbildəndir. Cəmiyyətin yaranması, qayda-qanunların, əmək alətlərinin və b. meydana çıxması genealoji miflərdə adətən müəyyən mifoloji surətlərin (ilkin əcdad, mədəni qəhrəman – demiurq) adı ilə bağlanır. Məsələn, türk xalqlarının ənənələrində Oğuz xan

[1] *В.Н.Топоров.* Первобытные представления о мире (общий взгляд). “Очерки истории естественно-научных знаний в древности”, М., “Наука”, 1982, с.9.

[2] Mifoloji ənənələrdə bir qayda olaraq, ümumiyyətlə, insanların yaranması konkret xalqın meydana çıxması ilə eyniləşdirilir. Yəni konkret etnos bütövlükdə bəşəriyyət kimi qavranılır ki, bunun da mifoloji düşüncənin qanunları ilə izah edilə bilən bir sıra səbəbləri var. Bir çox xalqların adları onların öz dilində sadəcə “insan” deməkdir.

dövlətin və hərbi quruluşun, Qorqud ata qopuzun, Elley (yakut miflərində) məişət əşya və mərasimlərinin yaradıcısı kimi təqdim edilir. Azərbaycan (və ümumiyyətlə, türk) folklorunun bəlli örnəkləri, eləcə də kitabdakı bəzi mətnlərə əsaslanaraq uyğun funksiyaları bir çox başqa surətlər üçün də bərpa etmək olar. Bu baxımdan Koroğlu, Ulu Türk ("Oğuznamə"), Boz qurd, Xıdır və b. da mədəni qəhrəman – ilkin əcdad tipinə aid edilə bilər.

Mədəni qəhrəmanların bütün fəaliyyəti kosmoqonik proseslə yanaşı, onun fonunda gedir, çox vaxt isə həmin prosesə təsir edir. Hər halda etnoqonik və kosmoqonik proseslər mifoloji ənənədə vahid hadisə kimi qavranılır. Bunun bəlkə də ən parlaq ifadəsi qədim türk yazılarında zəmanəmizə qədər qorunmuşdur. Kül-tigin yazılarından ("böyük yazı") belə başlanır: "Yuxarıda göy Tanrı, aşağıda boz yer yarananda ikisinin arasında insan oğlu yaranmış. İnsan oğulları üstündə mənim babalarım Bumın xaqan, İstemi xaqan (başçı) olmuşlar"[1]. Göründüyü kimi, öz-özlüyündə kosmosun formalaşması, insanların meydana çıxması, siyasi hakimiyyətin yaranması təxminən eyni vaxtlı və bir-birindən asılı olan aktlar kimi təqdim edilir.

*Təqvim mifləri* və ayinləri mifoloji sistemlərdə adətən daha geniş yer tutur. Çünki bu silsiləyə aid mətnlər cəmiyyətin həyatı ilə birbaşa bağlıdır. Yəni, artıq yaranmış olan Kosmosda konkret sosial birliyin yaşayışı həmin mətnlər vasitəsilə nizamlanır. Etnosun zaman kateqoriyasına münasibəti məhz bu mətnlərdə aşkara çıxır. Deməli, onun ətraf mühitlə əlaqəsi və sistem daxilindəki davranışı daha çox təqvim mifində ifadə olunur. Müəyyən etnosun istifadə etdiyi bütün təqvim tipləri uyğun mətnlərdə öz əksini tapır (bəzən qarışıq halda) və etnogenezin müxtəlif fazalarında müxtəlif kombinasiyalarda fəaliyyət göstərirlər.

Təqvim mifində (daha doğrusu zamanla bağlı mifoloji görüşlər kompleksində) üç məqam xüsusilə fərqlənməkdədir: 1) ümumiyyətlə Zaman anlayışına, onun yaranışına və aqibətinə münasibət; 2) ümumi Zaman stixiyasından ölçüdə bilən Vaxt anlayışının ayrılması və bunun izahı; 3) kainatdakı dövriliyin təqvimdə ifadəsi və bu yolla cəmiyyət həyatının tənzimlənməsi.

Bunlardan birinciyə aid örnəklərlə çox nadir hallarda qarşılaşırıq. Bu kitabda vaxtın, əgər belə demək mümkünsə, başlanğıcı, cəmiyyətdən qabaqkı dövrü haqqında söhbət gedir: "Əzəli yer üzündə heş nə yox idi. Elə vaxd öz-özünə gəlif keçirmiş"[2]. Yuxarıda göstərilən 2-ci və 3-cü məqamlarla da bağlı örnəklər kitabdakı mətnlərdə qorunmuşdur.

---

[1] *С.Е.Малов*. Памятники древнетюркской письменности. Тексты и исследования. – М.-Л., 1951, с.28.

[2] Altay inanışıyla müqayisə et: "Ранее всего было сотворено время". Bax: *В.В.Радлов*. Образцы народной литературы тюркских племен. Часть IX. – СПб.: 1907, с.658.

Hər üç mifoloji silsiləyə daxil olan mətnlərin araşdırılması göstərir ki, onların arasında kəskin sərhəd yoxdur və mifoloji dünya modelinin bərpası üçün hamısı eyni dərəcədə zəruridir. Əlbəttə, mifologiya və onun ayrı-ayrı silsilələri barədə burada deyilənlər problemi tam əhatə etməyərək onun başlıca cizgilərini göstərir. Unutmaq olmaz ki, mifoloji sistemlərin müxtəlif elmlər (folklor, ədəbiyyat və sənət araşdırmaları, tarix, etnoqrafiya, fəlsəfə, semiotika, sosiologiya və b.) baxımından öyrənilməsi və bərpası bir sıra başqa problemlərin də aydınlaşdırılmasını tələb edir: mifoloji düşüncənin daxili məntiqi, mifoloji zaman və məkan, mifoloji görüşlərdə kontaminasiya, surətlərin və ünsürlərin yerdəyişməsi, mif və dil, mif və tarix, mif və din. Bu siyahı qətiyyən tam deyil və onu bir qədər böyütmək də olar. Lakin onsuz da mövzu kifayət qədər mürəkkəbdir, az öyrənilmişdir və problemlərin nəinki izahı, hətta sadalanması belə artıq yer tutur. Buna görə də həmin məsələlərlə daha yaxın tanışlıq və müəyyən təsəvvür əldə etmək üçün burada ən əhatəli araşdırmaları göstərməklə kifayətlənirik[1].

Mifoloji araşdırmaların tarixi, mifoloji bərpa, mifoloji dünya modeli kimi məsələlərlə qısa tanışlıqdan sonra onların Azərbaycan folklorşünaslığındakı vəziyyəti, tutduqları mövqe və perspektivləri barədə danışmaq da zəruridir. Bu mövzuya toxunarkən ilk növbədə anlayışların məzmunu və sərhədləri dəqiqləşdirilməlidir. Terminoloji baxımdan "Azərbaycan xalqının mifoloji görüşləri", "Azərbaycan mifoloji görüşləri" və b. ifadələrin həm məzmunu, həm də sərhədləri aydındır, heç bir etiraz doğura bilməz. Burada söhbət müasir və tarixi (bugünkü "Azərbaycan" adlı xalqın mövcud olduğu müddət) azərbaycanlıların mədəniyyətində yer almış mifoloji strukturlardan gedir. Bəzən bu terminlərə sinonim olaraq "Azərbaycan mifologiyası" ifadəsi də işlənir. Lakin burada müəyyən dəqiqlik gözə dəymir. Belə ki, mifologiya konkret etnik-mədəni birliklərin arxaik dövrlərdə meydana çıxan universal sistemi olduğuna görə bu termin təzadlı səslənir. Bəlli olduğu kimi, hər bir xalq özünün tarixi mövcudiyyəti ərzində sabit və dolğun birlik halında qal-

---

[1] *Е.М.Мелетинский.* Поэтика мифа. – М., 1976; *М.И.Стеблин-Каменский.* Миф. – Л., 1976; *О.М.Фрейденберг.* Миф и литература древности. – М., 1976; *В.В.Иванов, В.Н.Топоров.* Исследования в области славянских древностей. – М.: 1974; *К.Леви-Стросс.* Структурная антропология. – М.: 1983; *В.Тернер.* Ритуал и символ. – М.: 1983. Bunlardan əlavə aşağıdakı dövri məcmuələrdə mifologiyaya dair dəyərli məqalələr nəşr edilmişdir:

"Труды по знаковым" (Тарту): "Балто-славянские исследования" (Москва); müxtəlif adlarla çıxan "Balkanşünaslıq" məcmuələri (Moskva), "Тюркологической сборник" (Москва) və b. Nəhayət, ən mükəmməl mənbə kimi ikicildlik mifoloji ensiklopediyanı göstərmək olar. Bu nəşrlərdə konkret problemlərdən əlavə biblioqrafik məlumatla da tanış olmaq mümkündür.

mayaraq, daim dəyişir. Başqa cür desək, etnik sistem durğunluqla (statika) deyil, dinamika ilə səciyyələnir[1]. Onun həyatında tarix boyu bir neçə parçalanma və birləşmə (konsolidasiya) dövrü, yaxud etnogenez prosesi müşahidə edilir. Bir etnosdan müəyyən qrup ayrılır və bəzən müstəqil olaraq, bəzən isə başqa qruplarla birləşərək yeni etnos yaradır (məsələn, Kiyev Rusunun dağılması və bugünkü rus, ukrayna, belorus etnoslarının yaranması). Digər halda isə bir neçə nisbətən kiçik etnos birləşərək daha böyük etnik birliyin meydana çıxmasına səbəb olur (məsələn, XII yüzillikdə monqol etnosunun formalaşması). Və hər bir yeni yaranan etnos öz sələfindən tam bir sıra cizgilərə görə fərqlənir. Hər bir mifoloji sistem onu yaradanların tarixi mövcudiyyətinin ilk çağlarında formalaşır. Həmin çağlarda isə bugünkü tək-tək dillərdən və etnoslardan söhbət gedə bilməz. Bugünkü ayrı-ayrı dillər və etnoslar çox-çox qədimlərdə mövcud olmuş müəyyən etnolinqvistik (yaxud etnik-mədəni) birliklərdən törəmişlər. Belə birliklər dövründə isə mifoloji düşüncə hakim idi və mifoloji sistem cəmiyyətin ideologiyası kimi fəaliyyət göstərirdi. Müəyyən coğrafi, bioloji və nəhayət, ictimai-iqtisadi amillərin təsiri ilə həmin birliklər təbii olaraq parçalanır (etnik və linqvistik diferensiasiya); ictimai-siyasi şüurun inkişafı mifoloji sistemin rolunun azalmasına səbəb olur. Yeni yaranmış hər bir etnik sistem isə mifoloji irsi tam yox, qismən mənimsəyib yaşada bilir. Hətta yeni etnosda bütöv mifoloji sistem müşahidə edilsə də, o, keçmiş sistemi qətiyyən təkrar etmir. Çünki etnik və linqvistik faktorların dəyişməsi, əslində elə düşüncə və davranış stereotiplərinin dəyişməsi deməkdir. Buna görə də qədim tarixi olan xalqların mədəniyyətini öyrənərkən ilkin mifoloji sistemin müasir dövrə yaxınlaşdıqca fasiləsiz olaraq dağıldığını və bəzən itirilmək dərəcəsinə gəldiyini görürük.

Azərbaycan mədəniyyəti, bəlli olduğu kimi, çox qədim dövrlərlə bağlıdır (burada şəhər mədəniyyətinin, deməli, sinifli cəmiyyətin 6 min ilə yaxın tarixi olduğunu arxeoloji qazıntılar göstərir). Buna görə də son bir neçə min il üçün "Azərbaycan mifologiyası" anlayışı özünü doğrultmur. Bir qədər qədimlərə getdikdə isə, artıq nəinki ayrıca Azərbaycan dilindən, ümumiyyətlə, heç bir müstəqil türk dilindən söhbət gedə bilməz. Eyni sözləri, fin-uqor, german, iran, sami və başqa dil qrupları haqqında da demək olar. Tarixin belə qədim dövründən danışarkən dilçilər əcdad dil (праязык) və kök dil (протоязык) terminlərindən istifadə etdikləri kimi, tarixçilər, etnoloqlar, kulturoloqlar da onlarla kifayətlənirlər. Mifoloji sistemlərin formalaşması və tam dəyərli fəaliyyəti isə bütün nəzəriyyəçilər tərəfindən "əcdad dil" dövrünə aid edilir. Beləliklə, müasir araşdırmalarda ingilis, alman deyil – german; rus, çex,

---

[1] *Л.Н.Гумилев*. Биосфера и импульсы сознания. – Природа, 1978, №12, с.97-98.

ukrayna deyil – slavyan; osetin, fars deyil – iran mifologiyalarından söhbət gedir. Təsadüfi deyil ki, mifoloji ensiklopediyada da mifoloji sistemlər bu adlar altında təqdim edilir.

Əlbəttə, bu cür adlandırma hər bir mifoloji sistemdə alınma elementlərin olmasını nəzərdən qaçırmır: İran mifoloji sistemində – sami, türk; slavyanlarda – german, türk, fin-uqor; türklərdə – İran, monqol ünsürlərinin olması bəllidir. Lakin hər bir sistem kimi milli mifologiya da alınma və ya ikinci dərəcəli keyfiyyətlərə görə yox, ilkin və dominant ünsürlərə görə müəyyənləşdirilir.

Bu baxımdan yanaşıqda, Azərbaycan mədəniyyəti abidələrində, müasir Azərbaycan xalqının məişətində və ictimai həyatında müşahidə edilən bütün mifoloji strukturlar qədim türk mifoloji sisteminin üzvi tərkib hissəsi kimi anlaşıla bilməz. Məhz bu səbəbə görə də yuxarıda xatırladılan ilk terminlər düzgündür. "Azərbaycan mifologiyası" isə tarixi baxımdan anaxronizm, metodiki baxımdan yarımçıqlıq yaradır. Eyni sözləri çox tez-tez işlədilən "özbək (həmçinin çuvaş, yakut və b.) mifologiyası" kimi terminlər haqqında da demək olar.[1] Bu terminləri böyük güzəştlə yalnız və yalnız şərti mənada (özbək, Azərbaycan, yaxud çuvaş xalqının mifoloji görüşləri anlamında) qəbul etmək mümkündür. Konkret bir türk xalqı arasında yayılmış olan mifoloji inamları, görüşləri toplayıb təsvir edərkən onların işlədilməsi araşdırıcıya mane olmur. Lakin sözün əsl mənasında mifoloji axtarışlar apararkən (mifoloji strukturların, bütövlükdə sistemin təsviri və bərpası) bu terminlər heç cür özünü doğrultmur. Buna görə də "german (yaxud slavyan, İran) mifologiyası" terminləri ilə analogiya üzrə "türk mifologiyası" termini daha məqbuldur və anlayışın mahiyyətini daha düzgün ifadə edir (rusca yazılan əsərlərdə bu termin işlədilir: "тюркская мифология", yaxud "мифология тюрков") və təbii ki, düzgün anlaşılır. Türk dillərində isə bu zaman kiçik bir çətinlik ortaya çıxır. Burada "türk" sözü həm, ümumiyyətlə, türk xalqlarını, həm də konkret bir türk etnosunu bildirir.

Lakin bu çətinliyin həlli mövcuddur. Etnoqrafiya və mifologiya sahəsində araşdırmalarda "Azərbaycan inanışları", "Azərbaycan (özbək, qazax və b.) görüşləri" deyildiyi kimi, "Anadolu inanışları", "Anadolu mifoloji görüşləri" kimi ifadələr də işlədilir. Digər tərəfdən dil ailəsinin adı ilə ona daxil olan konkret bir dilin və xalqın adının eyniliyi adi hadisədir. Misal olaraq monqol, roman, fin-uqor, kartvel və b. göstərmək olar. Uyğun mifoloji sistemlər həmişə düzgün olaraq bir tam kimi qəbul edilir və vahid ad ilə bildirilir: roman mifologiyası, kartvel mifologiyası və b.

[1] Bu baxımdan prof. M.Seyidovun mövqeyi bizə daha düzgün görünür. Onun mifologiyaya aid fundamental əsərinin ("Azərbaycan mifik təfəkkürünün qaynaqları". – Bakı: 1983) adı terminoloji baxımdan düzgün səslənir.

Beləliklə, türk xalqlarının mifoloji görüşləri ilə məşğul olan araşdırıcının məqsədi mifoloji bərpa olduğu kimi, işlədə biləcəyi yeganə düzgün termin də "türk mifologiyası" terminidir.[1]

Türk mifologiyası ayrı-ayrı türk xalqlarının mifoloji görüş və inanışlarını əhatə edir, eyni zamanda onların əsasında bərpa olunur. Buna görə də Azərbaycan inanışlarına dair araşdırmalarda faktiki olaraq türk mifoloji sisteminin problemləri öyrənildiyi kimi, sonuncuya aid əsərlərdə də konkret Azərbaycan materialı nəzərə alınır və araşdırılır.

Azərbaycan mifoloji görüşlərinin öyrənilməsi tarixindən və problemlərindən danışarkən bu cəhətin ümumi fon olaraq nəzərdə tutulması zəruridir. Yalnız bu halda Azərbaycan alimlərinin bir neçə nəslinin böyük zəhmət və fədakarlıqla yaratdıqları mifoloji araşdırmalar yüksək ümumtürkoloji (beləliklə də, ümumelmi) dəyər qazanır. Azərbaycan folklor və mifoloji mətnlərinin damcı-damcı toplanması, nəşri, tərcüməsi, tədqiqi sahəsində ömür qoyan, qüvvəsini əsirgəməyən F.Köçərli, Y.V.Çəmənzəminli, R.Əfəndiyev, N. və A.Qiyasbəyovlar, H.Mahmudbəyov, T.Bayraməliyev, S.Mümtaz, H.Zeynallı, Ə.Abid, Ə.Ələkbərov, M.H.Təhmasib, M.Seyidov və başqalarının əməyi belə geniş bir miqyasda və yüksək qiymətləndirilməyə layiqdir. Məhz onların fəaliyyətinin nəticəsidir ki, bu gün Azərbaycanda mifoloji araşdırmalar üçün müəyyən elmi baza mövcuddur.

Çox təəssüf ki, Azərbaycan elmi tarixi, o sıradan filoloji fikir tarixi demək olar ki, öyrənilməmiş qalır. Buna görə də Azərbaycanda folklor və mifologiyanın toplanma və öyrənilmə tarixi barədə tam təsəvvür əldə etmək çətindir.

Bütün bu səbəblər üzündən Azərbaycanda mifoloji görüşlərin öyrənilməsi tarixindən danışarkən hələlik yalnız son 150 ilə yaxın bir dövrü əhatə etmək mümkündür. Bu dövrün başlanğıcında diqqəti cəlb edən ilk iri əsər A.Bakıxanovun "Gülüstani-İrəm" əsəridir[2]. Təbii ki, başqa məqsədlərlə yazılmış bu əsər mifologiyaya aid araşdırma sayıla bilməz. Lakin onun mifoloji axtarışlar üçün müəyyən əhəmiyyəti var. A.Bakıxanov əsərdə tarixi mənbə-

[1] Bu mənada "Türkdilli xalqların mifologiyası" termini (bax: Мифы народов мира, II – M.: 1982, c.536) də düzgün sayıla bilməz. Belə çıxır ki, mənşəcə türk olmayan, lakin müəyyən bir türk dilində danışan xalq var və həmin xalq eyni zamanda türk mifoloji sisteminin, türk təfəkkürünün daşıyıcısıdır. Arxaik mədəniyyətlərin, estetik-mədəni birliklərin təbiəti, eləcə də mifoloji sistemlərin yaranma və fəaliyyət qanunauyğunluqları barədə yuxarıda deyilən fikirlər bunun qeyri-mümkün olduğunu göstərir. Bəzi araşdırmalarda işlədilən "qədim türk mifologiyası" termini də birtərəflidir. "Qədim türk dövrü" dilçi və tarixçilər tərəfindən V–X yüzillərə aid edildiyindən elə təsəvvür yarana bilər ki, türk mifoloji görüşləri həmin dövrdə formalaşmışdır. Halbuki türk mifologiyasının bir sistem olmaq üzrə xaqanlıqlar dövründən (V-X yüzillər) bir neçə min il qabaq mövcud olduğu bəllidir.

[2] *А.Бакиханов*. Гюлистани-Ирем. Баку, 1951.

lərlə yanaşı, bəzi abidələrdən və xalq arasında qorunmuş əfsanələrdən, rəvayətlərdən də istifadə etmişdir. Yeri gəldikcə onları xatırladır və təhlil edir. Onun təhlilləri tarixi aspektdə olduğuna görə materialın filoloji səciyyəsini açmır. Buna görə də mənbəşünaslıq baxımından qiymətlidir.

Həmin dövrdə meydana çıxmış ikinci əsər isə tamamilə başqa istiqamətdədir. Görkəmli şərqşünas M.Kazımbəyin qələmindən çıxmış bu əsər mifologiya sahəsində azərbaycanlı tərəfindən yaradılmış ilk elmi araşdırmadır[1]. Qətiyyətlə demək mümkündür ki, Azərbaycanda müqayisəli mifologiyanın tarixi bu əsərlə başlayır[2]. Dövrün qabaqcıl mütəxəssislərinin (Qrimm qardaşları, V.Şvarts, M.Müller və b.) ideyalarına əsaslanan, bəzən isə onlardan irəli gedən M.Kazımbəy məqalənin girişində bir sıra əhəmiyyətli ümumnəzəri fikirlər irəli sürür. Mifologiyanın müxtəlif inkişaf səviyyəsində olan xalqlar üçün əhəmiyyətini və mədəniyyət sistemində tutduğu yeri dəqiq müəyyənləşdirir. Onun çox yığcam şəkildə ifadə edilən fikirləri əhəmiyyətini itirməmişdir:

"Əfsanəsiz xalq, rəvayətsiz ölkə yoxdur; köçərilərdə onlar (əfsanə və rəvayətlər – *A.A.*) şifahi hekayələr şəklində nəsildən-nəslə keçir; yarımmədəni xalqların inanışlarının özülünü, yazılarının başlıca məzmununu, ədəbiyyat və tarixlərini təşkil edir; maariflənmiş xalqlarda xalqın müqəddəs irsi kimi təxəyyül üçün zəngin qida verir"[3].

Onun dərin və dövrümüz üçün əhəmiyyətli bir nəzəri mülahizəsi isə elmi fikrin ən yüksək nailiyyətləri ilə bir sırada dayanır: "Lakin bir xalqın əfsanələri başqası üçün müqəddəs ola bilməz".

M.Kazımbəy göstərir ki, mifoloji mətnlər "bütün xalqlarda və tayfalarda eynidir" və bütün fərqlər ayrı-ayrı xalqların əxlaqi anlayışları, insan düşüncəsinə təsir edən amillər ilə bağlıdır. Müəllif mifoloji mətnlərin ümumi poetik qanunlar əsasında yaradıldığını, fərqlərin isə hər bir etnosu səciyyələndirən başlıca spesifik xüsusiyyətlərdən (davranış stereotipi, kollektivin daxili strukturu və b.) irəli gəldiyini düzgün müəyyənləşdirmişdir.

Giriş hissəsində M.Kazımbəy nəzəri qeydlərdən əlavə, Şərq (o sıradan türk) mifologiyaları haqqında məlumat verir, onların öyrənilməsinə böyük ehtiyac olduğunu göstərir. Burada həm də türk xalqları arasında yaşamaqda olan bir sıra mifoloji obrazlar sadalanır, bəziləri yığcam şəkildə səciyyələndirilir.

Ən maraqlı cəhətlərdən biri də M.Kazımbəyin ədəbiyyatda mifologizm məsələsinə toxunmasıdır. Bu mənada Xaqani və Ənvəri yaradıcılığı xüsusi qeyd edilir, göstərilir ki, Xaqani "Divan"ını "xüsusi mifoloji lüğətsiz anlamaq

---

[1] *Мирза А.Казем-бек.* Мифология персов по Фирдоуси. – "Северное обозрение", т.III. СПб; 1848, гл. V, с.1-12.

[2] Məqalə müəllifinin Azərbaycandan qıraqda işləməsi və İran mifologiyasını ("Şahnamə"də verilən variantda) araşdırması məsələnin mahiyyətini dəyişmir.

[3] *Мирза А.Казем-бек.* Göstərilən əsəri, səh.1.

olmaz"[1]. Həmin məsələlərlə əlaqədar söylənən fikirlər, sözsüz ki, müasir Azərbaycan ədəbiyyatı tarixçiləri və folklorşünaslar üçün əhəmiyyətlidir.

M.Kazımbəyin mifologiya sahəsində digər əsəri ("Mifoloji lüğət") isə dünya elmində ilk təcrübələrdən biridir. Çox təəssüf ki, həmin mifoloji lüğət indiyəcən işıq üzü görməmişdir. Buna görə də lüğətin konkret məzmunu və strukturu barədə hələlik heç nə söyləmək mümkün deyil. Hər halda onun Şərq mifoloji materiallarını əhatə etməsi bəllidir. Lüğətin müasir araşdırmalar əsasında nəzəri və faktiki baxımdan şərh edilib mütəxəssislərə çatdırılması bir çox məsələlərin həllinə kömək edə bilər.

Mirzə Kazımbəydən sonra Azərbaycanda mifoloji araşdırmalar sahəsində müəyyən fasilə yaranır.

Bu dövrdə mərkəzi və Qafqaz mətbuatında tək-tək mətnlər dərc edilir və müəyyən inanışlar barədə məlumatlar verilir. Nə Azərbaycan, nə də başqa türk xalqlarının mifoloji inanışları ardıcıl olaraq öyrənilmir. Bu baxımdan yalnız böyük qazax maarifçi və etnoloqu Çokan Vəlixanovun müxtəlif türk xalqlarından toplanmış materiallara əsaslanan araşdırmaları istisna təşkil edir[2]. Həmin illərdə Azərbaycana səyahət edən, yaxud burada işləyən bir sıra rus və xarici alimin məqalə, memuar və yol qeydlərində də Azərbaycan inanışları barədə məlumat verilir, bəzi mətnlər nəşr edilir.

Bir qədər sonra (80-90-cı illər) isə bu sahədə müəyyən canlanma yaranır. Azərbaycanda maarifçilik hərəkatı genişlənir, ziyalıların yeni nəsli yetişir. Onlar xalq inanışlarının toplanması, təsviri, mətnlərin nəşri, tərcüməsi və öyrənilməsi ilə daha geniş miqyasda məşğul olmağa başlayırlar. Azərbaycan dilində mətbuatın yaranması və fəaliyyəti də bu işdə böyük rol oynayır. Həmin illərdə həm də başqa millətlərdən (rus, gürcü) olan ziyalılar azərbaycanlılarla çiyin-çiyinə fəaliyyət göstərirlər. Bu irəliləyişin səbəblərindən biri də artıq müəyyən bir dövri məcmuənin ("Сборник материалов для описания местностей и племен Кавказа") meydana çıxması idi. Qafqazın azərbaycanlılar yaşayan kənd, qəsəbə və şəhərlərində müəllimlərin topladığı materiallar, yazdıqları məqalələr əsasən bu məcmuədə dərc edilirdi. Onun müxtəlif buraxılışlarında A.Qiyasbəyov, H.Mahmudbəyov, S.Vəlibəyov, Ə.Əfəndiyev, O.Qayıbov, T.Bayraməlibəyov, S.Acalov, A.Aslanov, İ.Muradov və onlarca başqaları tərəfindən toplanmış folklor mətnləri cəmlənmişdir. Bu mətnlərin bir çoxu mifoloji araşdırmalar üçün zəngin material verir, bir hissəsi isə birbaşa mifologiyaya aiddir. Bundan əlavə, həmin müəlliflərin bəziləri müxtəlif inanış, bayram və mərasimləri ətraflı təsvir etmiş, mənşə-

[1] *Мирза А.Казем-бек.* Göstərilən əsəri, səh.12.

[2] Onun mifologiya, folklor, etnoqrafiya və bu sahələrə aid əsərləri sovet dövründə bütünlükdə nəşr edilmişdir. Bax: *Ч.Валиханов.* Собрание сочинений, в 5-и томах. – Алма-Ата: 1961–1972.

yini aydınlaşdırmağa çalışmışlar[1]. Onların göstərdiyi bu elmi və milli fədakarlığı daha aydın təsəvvür etmək üçün H.Zeynallının dediklərini xatırlamaq yerinə düşər: "...Lopatinskinin ətrafında çalışan Azərbaycan müəllimlərinin adını haman "Сборник материалов для описания местностей и племен Кавказа" məcmuələrində oxuduqca insanın heyrəti artır. O adamların nə qədər həvəsi, nə qədər qeyrəti varmış!.. Qəpik-quruş bir mükafata uzun-uzun hekayələri, mənzumələri türkcə... toplayıb tərcümələr ilə bərabər Tiflisə göndərərlərmiş. Əlbəttə ki, xalq ədəbiyyatı tarixi yaradılarkən böylə adamların adları qızıl su ilə ən görkəmli yerdə yazılmalıdır!"[2]

Həmin müəllimlərin gördüyü iş nəticəsində XX yüzilin başlanğıcında Azərbaycanda folklor və mifologiya araşdırmaları genişlənmiş, toplama işinə verilən tələblər və məqalələrin elmi-nəzəri səviyyəsi daha da yüksəlmişdir. Bu, birinci növbədə F.Köçərli, T.Bayraməlibəyov və Y.V.Çəmənzəminli kimi həm toplama, həm də araşdırma ilə məşğul olan alimlərə aiddir.[3]

Azərbaycanda 1920-ci illərdən başlayaraq mifologiya bir neçə problem çərçivəsində müxtəlif sahələrin mütəxəssislərini cəlb edir: qədim mifoloji görüşlər və islam, mif və dil, mif və adət-ənənə, mif və tarix və b.k. 1941-45-ci illər müharibəsinə qədərki dövrdə bir sıra yerli və dəvət olunmuş alimlər həmin problemlərlə və toplama işi ilə məşğul olmuşlar (onlardan Ə.Abid, Y.V.Çəmənzəminli, H.Zeynallı, B.Çobanzadə, İ.Hikmət, S.Mümtaz, H.Əlizadə, V.Xuluflu, Ə.Ələkbərov, İ.Meşşaninov, P.Juze və b.[4] göstərmək olar). Onların bir çoxu məqalə və monoqrafiyalarında Azərbaycan mifoloji görüşlərindən bəhs edirlər. [5]

---

[1] Bəzi buraxılışlarda folklor örnəklərinin tərcüməsi ilə yanaşı orijinal da verilmişdir. Burada çox yer tutacağını nəzərə alaraq Azərbaycan materiallarının adlarını və nömrələrini göstərmirik. Onları bir neçə nömrə istisna edilməklə yerdə qalanların hamısında tapmaq mümkündür. Bax: СМОМПК, вып. 1-44. – Тифлис: 1882-1915.

[2] *H.Zeynallı*. Seçilmiş əsərləri. – Bakı: 1983, səh.116-117.

[3] Həmin alimlərin işlədiyi və bir qədər sonrakı dövrlərdə Azərbaycanda inanışların öyrənilməsi barədə daha ətraflı məlumat üçün bax: *V.Vəliyev*. Azərbaycan şifahi xalq ədəbiyyatı. – Bakı: 1970. Burada kifayət qədər geniş bir tarixi oçerk verilmişdir.

[4] Bu illərdə Bakıda işləyən böyük rus şair və alimi V.İvanovun məşhur monoqrafiyası Azərbaycan materiallarına əsaslanmasa da Azərbaycanda mifoloji araşdırmalar tarixi baxımından maraq doğurur (bax: *В.Иванов*. Дионис и прадионисийство. – Баку, 1923). Onun araşdırmaları sovet mif nəzəriyyəsinin formalaşmasına, xüsusən A.F.Losevin mifoloji araşdırmalarına böyük təsir göstərmişdir (bax: *Е.М.Мелетинский*. Поэтика мифа. – М.: 1976, с.125, 131, 132).

[5] Həmin müəlliflərin bir çox əsərləri işıq üzü görmüşdür. Daha yaxın tanışlıq və əlavə məlumat üçün bax: *Ə.Abid*. Əşirət dövründəki Azərbaycan ədəbiyyatına dair vəsiqələr. – "Azərbaycanı öyrənmə yolu", sayı 3, Bakı, 1930; *Y.V.Çəmənzəminli*. Əsərləri. Üç cilddə, III cild. – Bakı: 1977; *А.Алекперов*. Исследования по археологии и этнографии Азербайджана. – Б., 1960.

Bu dövrdə Azərbaycan ədəbiyyatının qədim ənənəsi daha da inkişaf etdirilir. Yazıçı və şairlərimiz qədim folklor və mifologiya örnəklərinə daha tez-tez müraciət edirlər. Bu baxımdan C.Cabbarlı, H.Cavid, Y.V.Çəmənzəminli, S.Vurğun, H.K.Sanılı, Ə.Cavad və b. əsərləri diqqəti cəlb etməkdədir.

Göründüyü kimi, müharibəyə qədərki dövrdə Azərbaycanda mifoloji axtarışlar müəyyən dərəcədə ardıcıl aparılmış və bugünkü elmin özülü yaradılmışdır. Bir cəhət də aydın görünür ki, araşdırıcıların heç biri mifologiya ilə birbaşa və müntəzəm şəkildə məşğul olmamışdır.

Müharibədən sonrakı dövrdə vəziyyət bir qədər dəyişir. Görkəmli folklorşünas M.H.Təhmasib 40-cı illərdən başlayaraq Azərbaycan folklorunun mifoloji motivləri ilə ardıcıl məşğul olmağa başlayır. Onun "Azərbaycan xalq ədəbiyyatında div surəti", "Əfsanəvi quşlar" adlı məqalələri və həmin illərdə hazırladığı namizədlik dissertasiyası ("Mövsüm və mərasim nəğmələri") arxaik mədəniyyətin, eləcə də mifoloji sistemin öyrənilməsində irəliyə doğru ciddi addım idi[1]. Araşdırıcı sonralar da bu sahədən ayrılmamış, bir sıra dəyərli əsərlər yaratmışdır[2]. Azərbaycan xalq dastanlarına həsr edilmiş monoqrafiya isə, şübhəsiz ki, onun ən böyük nailiyyətidir[3]. Dastanların bir çox dolaşıq məsələlərini açmaq, qaynaqlarını müəyyənləşdirmək üçün müəllif türk mifoloji materiallarından geniş miqyasda və ustalıqla istifadə edir. Xıdır, Təpəgöz, Basat, Dədə Qorqud surətləri, buta, aşıq və b. anlayışlar barədə kitabda irəli sürülən fikirlər Azərbaycan folklorunun mifoloji məzmununu öyrənmək, eləcə də türk mifoloji sistemini bərpa etmək baxımından əhəmiyyətlidir.

M.H.Təhmasibin bu monoqrafiyası və "Azərbaycan ədəbiyyatı tarixi" üçün yazdığı geniş oçerk[4] onun yaradıcılığında xüsusi yer tutur.

---

[1] Bax: *M.H.Təhmasib*. Azərbaycan xalq ədəbiyyatında div surəti. – "Vətən uğrunda" jurnalı; yenə də onun. Əfsanəvi quşlar. – "Vətən uğrunda" jurnalı, 1945, №5; Yenə də onun. Azərbaycan xalqının kalendar nəğmələri. – Bakı: 1945.

[2] Bax: *M.H.Təhmasib.* Adət-ənənə, mərasim və bayram. – "Ədəbiyyat və incəsənət" qəzeti, 1966, 12 mart. Bu məqalədə müəllif mövcud fikirlərə qarşı çıxaraq Novruz bayramını zərdüştiliklə bağlamağın yanlış olduğunu göstərir, bu bayramın daha qədimlərdə meydana çıxdığını və dini yox, mifoloji (arxaik) səciyyə daşıdığını sübut edir. Novruz bayramının qədimliyini və İran mifologiyasına dəxli olmadığını sonrakı araşdırmalar bir daha təsdiq etmişdir. Bax: *M.Hatəmi.* Novruz bayramının mənşəyi haqqında. – Azərb. EA Xəbərləri. "Ədəbiyyat, dil və incəsənət" seriyası, 1970, № 3; *M.M.Yusifov*. "Bahar bayramı haqqında", – "Azərbaycan filologiyası məsələləri", – Bakı, 1983.

[3] *M.H.Təhmasib*. Azərbaycan xalq dastanları. – Bakı: 1972. Onun əvvəllər yazmış olduğu vacib bir məqalə ("Dədə Qorqud boyları haqqında" – "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər". Bakı, 1961, səh.1-51) bütünlüklə bu kitaba daxil edilmişdir.

[4] *M.H.Təhmasib*. VII əsrə qədər Azərbaycan şifahi xalq yaradıcılığı. – Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, I cild. Bakı, 1960.

Bir qədər sonra (50-ci illər) mifoloji araşdırmalar sahəsində prof. M.Seyidov fəaliyyətə başlayır. Zaman keçdikcə alimin elmi axtarışları dərinləşir və miqyasca genişlənir. Onun əsərləri mövzu zənginliyi, çoxplanlılıq və müqayisəli materialın geniş istifadə edilməsi (20-30-cu illərin ənənəsi) ilə səciyyələnir. İlk vaxtlar mifologiyanı başqa sahələrlə (ədəbiyyat tarixi, ədəbi əlaqələr) yanaşı öyrənən araşdırıcı sonralar yalnız onunla məşğul olur. Bu baxımdan M.Seyidovun mifoloji araşdırmalarını iki dövrə ayırmaq olar: 50-60-cı və 70-80-ci illər. Birinci dövr konkret məsələlərə həsr edilmiş məqalələrlə təmsil edilir. Burada müəllif öz axtarışlarını birbaşa mifoloji sistemin bütövlükdə təsviri və bərpasına yönəltmir, mifologiyaya ədəbiyyat tarixinin müxtəlif problemləri ilə əlaqədar müraciət edir. İkinci dövrə aid əsərlərdə isə mifologiya problemləri daha geniş kontekstdə sistemli olaraq araşdırılır. Onun "Azərbaycan mifik təfəkkürünün qaynaqları" (Bakı, 1983) monoqrafik araşdırması isə nəinki Azərbaycan elmi, ümumiyyətlə, türkologiya sahəsində hadisə kimi qiymətləndirilə bilər. Bir çox məqalələrində olduğu kimi, burada da M.Seyidov mifologiyanın sintetik təbiətindən çıxış edərək onu insan düşüncəsinin və mədəniyyətinin müxtəlif sahələri (dil, psixologiya, etnoqrafiya, tarix, incəsənət və b.) ilə əlaqədar öyrənir. Beləliklə də, mövzu daha yaxşı əhatə edilir, onun daxili əlaqələri bütün mürəkkəbliyi ilə əks etdirilir. Müxtəlif tipli materialların bu cür geniş şəkildə tədqiqata cəlb edilməsi, saysız faktların, simvolların, əgər belə demək mümkünsə, heç bir rəhm edilmədən oxucuya təqdimi ilk baxışda anlaşılmazlıq yaratsa da, əslində materialın öz təbiətindən irəli gəlir. Bəzi istisnalar nəzərə alınmasa, deyə bilərik ki, müəllif müxtəlif sahələr arasında tarazlığı qoruya bilir.

Lakin M.Seyidovun araşdırmalarının səthi mənimsənilməsi, onun metod və üsullarının mexaniki olaraq bütün mövzulara tətbiqi nisbətən gənc folklorşünasların bir çox səhvlərinə səbəb olmuşdur. Nəzərə alınmalıdır ki, hər bir mifoloji sistem, struktur, motiv və ad ümumi metodoloji özül üzərində araşdırılmaqla yanaşı konkret yanaşma, konkret metod, üsul tələb edir. M.Seyidovun əsərlərində bu cəhət unudulmur. Məsələn, Koroğlu, Qorqud surətləri bir, Öləng, Amran surətləri isə digər metodika əsasında öyrənilir. Bu prinsip həmişə gözlənilməlidir. Təəssüf ki, bu cəhət əksər araşdırmalarda nəzərə alınmır. Buna görə də bir çox qəzet və jurnal məqalələrində fakt çoxluğu məqsədi çevrilir, empirizm və "rəhmsizlik" mütləqləşir. Halbuki hər bir elmdə (xüsusilə ictimai elmlərdə) faktın müəyyən həddi var və hətta bütün faktların onlarla cilddə toplanması belə nə türk mifoloji sistemi, nə də Azərbaycan inanışları dairəsi barədə aydın təsəvvür yarada bilməz. Bunu təcrübə göstərir.

Mifoloji araşdırmalarda gözə dəyən digər ifrat meyl isə faktların az nəzərə alınması, yaxud Azərbaycan mədəniyyətindəki mifoloji strukturların izahında doğma türk mifologiyasının deyil, başqa mifologiyaların (yunan, İran və b.)

faktlarından və uyğun nəzəri mülahizələrdən çıxış edilməsidir. Bu sonuncu cəhət türk mifoloji sisteminin spesifikasını anlamaq, onu bərpa etmək, nəhayət, mədəniyyət abidələrimizdəki simvolları düzgün yozmaq işində böyük çətinliyə səbəb olur. Faktlardan cüzi şəkildə istifadə (bir, yaxud bir neçə mətndəki müəyyən faktların ümumi mifoloji kontekstdən təcrid edilməsi) isə nəzəri müddəaların qeyri-məqbul əsaslandırılmasına və son nəticədə həmin faktların özlərinin yanlış izahına gətirib çıxarır.

Bu kiçik etirazlara baxmayaraq, Azərbaycanda mifoloji araşdırmaların genişlənməsi və müəyyən elmi nailiyyətlərə əsaslanması göz qabağındadır. Hər bir yeni araşdırıcı, yeni məqalə ənənəyə nəsə əlavə edir, milli mədəniyyətin qaynaqları və sistemi barədə daha aydın təsəvvür yaradılmasına yardım göstərir. B.Abdulla, M.Hatəmi, N.Mehdi, R.Bədəlov, E.Əzizov və başqalarının (buraya mifologiya problemləri ilə məşğul olan tarixçi və etnoqrafları da əlavə etmək olar) araşdırmaları Azərbaycanda mifoloji axtarışların yeni (və mürəkkəb) bir inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Həmin əsərlər hələlik yalnız M.Kazımbəyin adına bağlaya bildiyimiz ənənənin uğurlu davamıdır. Azərbaycanda kifayət qədər dramatik tarixi olan mifoloji araşdırmalar onların simasında ləyaqətlə inkişaf etdirilir. Belə ki, burada adı çəkilən və çəkilməyən müəlliflərin çoxu az öyrənilmiş sahələri araşdırmağa, günün elmi tələbləri səviyyəsində izah etməyə çalışırlar. Milli mifologiyanın bərpası üçün zəruri olan iki istiqamət bu araşdırmalarda qabarıq şəkildə görünməkdədir. Birincisi, Azərbaycan materialların geniş elmi kontekstə daxil edilməsi, ikincisi, bugünkü elmə bəlli olan ideya və metodların intensiv tətbiqi.

Beləliklə, mövcud ənənənin ötəri də olsa gözdən keçirilməsi inandırır ki, türk mifoloji sisteminin bərpası və milli mif nəzəriyyəsinin yaradılması üçün etibarlı özül mövcuddur. Azərbaycanda olduğu kimi başqa türk xalqlarında da mifoloji görüşlərin geniş miqyasda ardıcıl öyrənilməsi bu fikri bir daha təsdiqləyir.

Mifoloji görüşlərlə bağlı mətnlərinsə nəşrində folklorşünaslığın ənənəvi bir problemi daha kəskin şəkildə qarşıya çıxır. Bu da mətnlərin variantlaşması məsələsidir. İstənilən folklor örnəklərini bir toplu halında çap edərkən birinci növbədə həmin məsələ həll edilməlidir.

Bu kitabın tərtibində gözlənilən prinsiplər, sözsüz ki, materialın spesifikası ilə bağlıdır. Əgər başqa folklor janrlarının nəşr üçün seçilməsində başlıca diqqət filoloji məqama – bədii sənətkarlığa verilirsə, bu nəşrdə belə bir prinsip həlledici rol oynamır. Burada mifoloji kod ilə oxunan mətnin informativliyi əsas götürülür. Buna görə də üzdən baxanda çox yaxın görünən, yalnız nüanslara görə fərqlənən variantların hər ikisi çap edilir. Çünki həmin nüanslar bir qayda olaraq daha çox informasiya daşıyır. Arxaik mifoloji strukturlar

sonrakı dövrlərdə unudulur və dəyişir, xırda detallar, adlar, assosiasiyalar isə yeni ideoloji strukturların fəaliyyətinə maneçilik törətmədiyinə görə mətnlərdə yaşamaqda davam edir. Buna görə də kitabın tərtibi zamanı araşdırıcılarda müəyyən maraq oyada biləcək variantların bir çoxu saxlanılmışdır. Ümumiyyətlə götürdükdə isə, variantla verilmiş mətnlər kitabda çox az yer tutmuşdur.

Folklor örnəklərinin nəşrində qarşıya çıxan ikinci məsələ dil və üslubla bağlıdır. Bu məsələdə iki meyl var: birincisi – danışıq sintaksisinin, leksik vahidlərin və ləhcə tələffüzünün olduğu kimi saxlanılması; ikincisi – mətnlərin işlənərək ədəbi dil normalarına uyğunlaşdırılması. Biz birinci meyli daha düzgün sayır və ona üstünlük veririk. Ona görə ki, materialın bu cür təqdimi onun koloritini, ovqat və kontekstini daha yaxşı anlamağa imkan verir. Təsadüfi deyil ki, dünya folklorşünaslığındakı bütün elmi nəşrlərdə məhz bu prinsip əsas götürülür.

Lakin bir cəhəti qeyd etmək gərəkdir ki, kitabdakı bütün mətnlərdə göstərilən prinsipə axıracan sadiq qalmaq mümkün olmamışdır. Bəllidir ki, hər bir xalqın folklorunda arxaik mifoloji səciyyə daşıyan müxtəlif tipli mətnlər var: arxaik cizgiləri aydın görünən mifoloji süjetlər (bunları şərti olaraq çox vaxt elə mif adlandırırlar), əfsanə, rəvayət, nağıl, dastan, ovsun, yasaq və b. Buna baxmayaraq, mif topluları nəşr edilərkən bir çox folklor örnəkləri (nağıllar, dastanlar, əfsanə və rəvayətlərin müəyyən qismi və b.) nə qədər arxaik olsalar da, oraya daxil edilmir. Çünki hər hansı mifoloji mətnlər toplusu heç də milli mifologiyanı tam nümayiş etdirmək məqsədini güdmür və bu, mümkün də deyil. Belə bir bütövlük yalnız folkloru yox, bütün mətn tiplərini əhatə edən araşdırma nəticəsində yaradıla (bərpa edilə) bilər. Sözsüz ki, hər hansı nağılda və ya dastanda elə məqamlar var ki, müəyyən mifoloji görüşlər kompleksini anlamaq və bərpa etmək işində yeganə etibarlı qaynaq kimi istifadə olunur. Lakin bu cəhət həmin mətnləri nağıl və dastan toplularına deyil, miflər toplusuna daxil etmək üçün heç bir əsas vermir. Çünki onların janr göstəriciləri başqa-başqadır. Bu məsələdə hələlik konkret bir aydınlıq yoxdur. Belə ki, nağıl, dastan, lətifə, müəyyən dərəcədə də əfsanə və rəvayətlər janr baxımdan kifayət dərəcədə öyrənildiyi halda, burada təqdim edilən mətn tipləri barədə elmdə sabit, ortaq bir konsepsiya mövcud deyil.

Buna görə də mövcud nəşrlərin, demək olar ki, hamısında təsnifat şərti xarakter daşıyır və araşdırıcının subyektiv mülahizələrində qəbul etdiyi, yaxud özünün müəyyənləşdirdiyi elmi prinsiplərdən asılıdır. Bu baxımdan yanaşdıqda mövcud təsnifatlar nə qədər fərqli olsalar da, əksərinin müəyyən daxili məntiqi və konseptual özülü var. Təqdim edilən mətnləri yuxarıda adı çəkilən bəlli folklor janrlarından ayırarkən birincilərin müəyyən mətn tipi olmaq üzrə bir sıra cizgilərə görə ortaqlıq təşkil etməsi və ikincilərdən seçilməsi bölgünün təbii özülü olaraq alınmışdır. Həmin cizgilər aşağıdakılardır:

1. Adətən mifoloji mətn adlandırılan mətnlər başqa janrlardan süjet məhdudluğuna, hadisələrin zaman və məkan xarakteristikasına görə seçilirlər. Bu ayrı-seçkilik mifoloji xronotop ilə folklor xronotopu arasındakı nisbətə uyğun gəlir;

2. Bədii söz ritualı, demək olar ki, yoxdur. Başqa cür desək, burada bədii söz sənətkarlığı mətnin funksional səciyyəsində çox az yer tutur. Burada dilin bədii funksiyası idraki, kommunikativ və nominativ funksiyalar yanında kölgədə qalır;

3. Mətn fərdi, ya kollektiv yaradıcılıq (yeninin – ikinci gerçəkliyin yaradılması) örnəyi (bədii uydurma) kimi deyil, məhz köhnə, nə vaxtsa həqiqətən baş vermiş presedent kimi qavranılır;

4. Bu tipli mətnlərin başlıca funksiyası etnos üçün davranış stereotipinin ifadəsi (daha dəqiq desək, metadil) olmasıdır. Onlar konkret sosial birliklərin həyatında proqramlaşdırma dili olub, bu funksiyada çıxış edirlər.

Sonuncu iki cəhət müəyyən dərəcədə qəhrəmanlıq eposu üçün də səciyyəvidir. Lakin elə bu nöqtədə də müəyyən ayrı-seçkilik gözə dəyməkdədir.

Göstərilən cizgilər daha çox mif (şərti mənada), əfsanə, rəvayət, ovsun, yasaq, sınama, inam kimi təqdim edilən mətnlərə aiddir. Onların öz aralarında fərqləndirilməsi isə o qədər də çətin deyil. Burada başlıca çətinlik mifoloji inamlar ilə sınamaları bir-birindən ayırmaq üçün düzgün bölgü prinsipini (diferensial əlamət) müəyyənləşdirməkdən ibarətdir. Hələlik əldə olan material ümumi qanunauyğunluğu aşkara çıxarmağa imkan vermir. Buna görə də onları ayırarkən yalnız funksional göstəricilərə (harada, nə zaman, nə şəkildə və hansı məqsədlə işlədilmə) və intuitiv faktora əsaslanılmışdır. Bu isə yanlışdan qorunmaq üçün etibarlı təminat deyil.

Kitabın son bölmələrinə daxil edilmiş mətnlərlə bağlı bir məsələni də nəzərdə tutmaq gərəkdir. Yasaqlardan bəzisində yarımçıqlıq gözə dəyir. Daha doğrusu, söyləyənlərin bilmədiklərinə, yaxud unutduqlarına görə başqalarından fərqli olaraq həmin yasaqlar əsaslandırılmır. Məsələn:

"Gecə qonşuya süd verməzdər, yoxsa evin bərəkəti qaçar"; "Mal gələn vaxdı tavlanı süpürməh olmaz, yoxsa malın damazdığı kəsilər".

Müqayisə etməli:

"Gecə vəxdi adama salam verməzdər"; "Ocağı suynan keçirməzdər".

Göründüyü kimi, birinci mətnlər ikincilərə nisbətən tamdır. Bu cür mətnlər toplananlar arasında çoxluq təşkil edir. Bir sıra mətnlər isə yazıya daha bütöv alınmışdır. Yasaqların bir növ kanonik tipi sayıla bilən həmin mətnlərdə yasağın məzmunu və səbəbi ilə yanaşı təsadüfən, ya çarəsizlikdən pozulduğu zaman mümkün çıxış yolu da göstərilir. Məsələn:

"Qavırı əlnən göstərməy olmaz. Onda ölü adamı çəkif yanına aparar. Gərəh göstərənnən sonra barmağını tişdiyif əyəğiyin altına qoyasan"; "Gecə

qonşudan ələh, xəlbir, tərəzi almazdar, yoxsa inəyin, qoyunun ölər. Gərəh alanda bir şey verəsən”.

Təbii ki, oxuculara təqdim edilən mətnlər mövcud mifoloji irsin cüzi bir hissəsidir.

Mətnlərin seçilməsi və düzülüşündə elmi tələblər nəzərə alınmışdır. Sırf mifoloji süjetlərlə yanaşı, onlardan bədii-poetik quruluşuna görə fərqlənən, lakin mifoloji düşüncənin məhsulu olan kiçik janrlar – ovsun, inam, yasaq və başqaları kitaba daxil edilərkən mövcud prinsiplər rəhbər tutulmuşdur. Tərtibat zamanı (mətnlərin qruplaşdırılması və düzülmə ardıcıllığı) mif nəzəriyyəsinin müəyyənləşdirdiyi təsnifat əsas götürülmüşdür. Burada milli mifoloji sistemin konkret xüsusiyyətləri, uyğun mətnlərin funksional səciyyəsi və yayılma dərəcəsi nəzərə alınaraq müəyyən təshihlər edilmişdir.

Mətnlərdə gözə dəyən bir çox ünsürlər və bəzi bütöv süjetlər barədə yeri gəldikcə müəyyən izahlar verilmiş, paralellər göstərilmişdir.

***Arif Acaloğlu***

## KOSMOQONİK MİFLƏR

Lap qabaxlar Allahdan başqa heş kim yoxuymuş. Yer üzü də başdan-ayağa suyumuş*. Allah bı suyu lil eliyir. Sonra bı lili qurudup torpax eliyir. Sora torpaxdan bitkiləri cücərdir. Onnan sora da torpaxdan palçıx qəyirip insannarı yaradır, onnara uruh verir.

Göyün yeddi qatı var. Birinci qat torpaxdı ki, qara camahat yaşıyır. Sorakı qatlarda huri-pərilər, qılmannar, peyğəmbərlər yaşıyır. Lap yeddinci qatda isə Allah öz taxtında oturup dünyanı idarə eliyir.**

Əzəli yer üzündə heş nə yox idi. Elə vaxd öz-özünə gəlif keçirmiş. Sonra heyvanlar, cücülər, otdar, ağaşdar yarandı. Lap axırda Allah adamları yaratdı. Bullar yer üzündə oqqədər artıb törədilər ki, dünyə bullara darrığ elədi, insannar başdadı bir-birinə pisdih, paxıllığ eləməyə. Bunu görəndə Göy ajıxlanıf yerdən aralandı. O vaxddan da bərəkət azalıf, çörəh daşdan çıxır.

Allah birinci dəryayı yaratdı, bahalı daşlar yaratdı bı dəryada. Sonra cinləri yaratdı ki, o daşları çıxartsın. Sonra göyü yaratdı. Dəryadakı daşlardan ay-ulduzları yapdı. Sonralar fəriştə-məleykələri yaratdı ki, göyü qaldırsınlar. Qaldıramadılar.

Allah dedi:

– Yasin oxuyun.

Oxuyandan sonra qaldırdılar, indi də göyün hər tərəfi fəriştə çiynində saxlanır.

Sonra Allah Adəmi yaratdı – çamurdan, fəriştələr boğazacan yoğurdular, yuxarını bacarmadılar. Yuxarını Allah yaratmış, ona görə də boğazdan yuxarıya söymək olmaz. Adamdan sonra şeytan gəldi, insanın ağzından girdi, dedi bunda can durmaz, savuq çamurdur, sonra yenə Yasin oxudular, can verdilər.

Həzrəti Adəm axsırdı, ayıldı. Kəmüyindən Həvvanı yaratdı. Sonra həzrəti Adəmdən altmış adam törədi, camahat törədi. Şeytan dedi ki, mən, məndən olanı alacam. Adəm qoymadı, lənət oldı şeytana. Onnan da şeytan itdi gözdən.

Xudavəndi-aləm Yeri-Göyü yaradır. Amma Yer-Göy taraz olmur – Yer yerdə, Göy göydə durmur. İlahidən səda gəlir:

– Ey Qələm, yaz: “Allah”!

Qələm yazır: “Allah”. Yer-Göy yenə taraz olmur. İlahidən səda gəlir:

– Ey Qələm, yaz: “Allah, Məhəmməd”!

(Məhəmməd hələ dünyaya gəlməmişdi). Qələm yazır: “Allah, Məhəmməd”. Yazan kimi Yer-Göy taraz olur – Yer yerdə durur, Göy göydə.

Allah-taala Adəmlə Həvvanı yaradır, deyir:

– Gedin Cənnətdə yaşayın.

Şeytan deyir:

– Xudavəndi-aləm, mən yetmiş ildi sənə itaət eləyirəm, məni Cənnətə qoymursan, amma bu gün torpaqdan yaratdıqlarını Cənnətə göndərirsən?

Allah deyir:

– Məlun, mənim işimə qarışma!

Şeytan deyir:

– Onda mənim muzdumu ver, çıxım gedim.

Allah deyir:

– De görüm, məndən nə istəyirsən?

Şeytan deyir:

– De ki, Allahlığıma and olsun, nə istəsən verəcəm...
Allah deyir:
– Allahlığıma and olsun, nə istəsən verəcəm.
Şeytan deyir:
– İnsanın yetmiş iki damarını mənə ver. Bir də mənə ölüm vermə.
Allahın əlacı kəsilir, deyir:
– Yaxşı, verdim, sənə ölüm yoxdu, get.
Şeytan gedir, bir dua oxuyub düşür Cənnətə. Adəmlə Həvvanı yoldan çıxardıb, onlara bir dilim qovun yedizdirir.
Allahın qəzəbi tutur, Adəmlə Həvvanı Cənnətdən çıxardır.

Allah-taala cənabi Cəbrayıla deyir ki, get torpaqdan iki adam yarat. Cənabi Cəbrayıl gedir torpaqdan iki adam yaradır – bir kişi, bir arvad. Onlara can verir, nəfəs verir. Kişinin adı olur Adəm, arvadın adı olur Həvva. Adəmlə Həvvanın qırx oğlu olur. Onlar bir-biriynən yola getmirlər. Adəm ata oğlanlarını qarğıyır, deyir, sizi görüm bir-birinizin dilini bilməyəsiniz!
O vaxtdan millətlər bir-birinin dilini bilmir.

Qabaqlar Göy Yerə yaxın idi. Adamlar bir-birini öldürüb qan tökürdülər, bərəkətin qədrini bilmirdilər. Bunu görəndə Tanrının qəzəbi tutdu, Göyü Yerdən uzaqlaşdırdı.*

Firon dünyanın padşahıydı. Adamların hamısı bir dildə danışırdı.
Firon bir qala tikdirirdi. Adamların hamısı bu qalaya daş daşıyırdı.
Bir hamilə qadın da daş aparırdı. Yolda sancısı tutdu, həmlini qoydu yerə. Əlini tutdu Göyə ki, ey Yerin-Göyün sahibi, sən bu zülmü götürmə!
O gündən hərə bir dildə danışmağa başladı, qala da yarımçıq qaldı.

Günnən Ay bacı-qardaş imiş. Bınnar çox şitəngi imişdər, elə hey savaşırmışdar. Günnərin bir günü genə savaşıllar. Anaları da xəmir yoğururmuş ki, əppəh yapsın. Birdən Gün əlini xəmirə batırıp çırpır Ayın üzünə. Anaları da hersdənib bınnara qarğış tökür. Deyir ki, sizi görüm, bir-birinizin üzünü heş görmüyəsiz.

Odur ki, Gün gündüz doğur, Ay da gecə. Gün ki xəmiri çırpmışdı Ayın üzünə, indi də gecə Aya baxanda görünür – üzündə ləkə kimin qalıpdı.*

Qara dəryadan Gün çıxır. İrəli gedir. İstəyir ki, balıq onu uda. Gülənbər onun qabağına qılınc tutur. Qoymur onu yeməyə. Dəryadan Ay çıxır qalxır göyə. Balıq istəyir ki, onu uda. Gülənbər qoymur ki, balıq onu yeyə. Ay və Gün onun nəfəsindən olur qırmızı. Əhli kişilər salavat çevirəndə, guya ki, Ayın qırmızısı tökülür, gedir girir anasının qoynuna. Buna görə də Gün qırmızı, Ay açıq rəngdə olur.**

Günnərin bir günü Ayın anası qonşu ilə çörək yapırmış. Təndir qızhaqızda odun qurtarır. Haman qonşu qadın üzünü tutur qızına, deyir ki, get çırpı gətir. Qız da başını sallayır, gedir çır-çırpı yığsın.

Qız çırpı yığa-yığa yerə yaxın olan göyə çıxır, orda da yolu azır. Arvadlar çox gözləyir, amma Günəş gəlif çıxmır. Ayın anası oğlunu danlayır kin, nəyçün Günəşi tək buraxdın. Sonra da acıxlanıf unlu əliylə Ayın üzünə vurur. Ay üzündə un ləkəsi gedir Günəşi axtarmağa. O da göyə çıxır. Ora Günəş, bura Günəş, Günəş nə gəzir. Ay da əliboş geri qayıtmır. Bu zaman göy guruldayır, ildırım çaxır, göy yerdən, yer göydən ayrılır. Ayla Günəş qalırlar göyün üzündə.

Elə o vaxtlardan Ay Günəşin dalınca düşüb axtarır kin, desin anası onu gözləyir, çırpını tez çatdırsın. Amma hələ də Ay Günəşi tapa bilməyif.

Deyirlər Ay Günəşin oğludur. O, uşaxlıxda çox dəcəl olub. Bir dəfə Günəş görür ki, təknədə çörək qurtarıb. Tez əl-ayağa düşür, başlayır un qatıb xəmir yoğurmağa. Ay gəlib anasının yanında dəcəllik eləyir. Günəş çox deyir ki, əl çək, qoy işimi görüm. Ay daha da qızışır. Axır-axırda Günəş bərk hirslənir. Xəmirli əli ilə Ayın üzünə bir şillə çəkir. Xəmir izi qalır Ayın üzündə. Ay nə qədər çalışır üzündəki ləkəni yusun, amma bu ləkə heç cür yuyulmur. Ay üzündəki ləkədən çox utanır. Ona görə də dünyaya gecələr çıxır ki, heç kim bu ləkəni onun üzündə görməsin.

Ay – oğlandı, Gün – qız. Ay Günü istəyirmiş. Hər gün onun dalıncax gəzirmiş. Gün nə qədər eliyir, bu əl çəkmir. Bir gün gənə Ay Günün dalıncax düşür. Gün qaçır, Ay da onun dalıncax. Gün baxır Ayın əlindən qurtarmıyajax, əyilir yerdən bir oyuc palçıx götürüf atır onun üzünə. Ay əylənir, Gün çıxır gedir. O vaxtdan da Ayın üzündə ləkələr qalıf.

Ay bir oğlan uşağıymış, şuluq, əlləməyəx. Heş kimin sözünə baxmırmış. Bir gün anası xəmir yoğuranda yanında oynuyub əlinə-əyağına dolaşırmış. Nə qədər deyir, burdan get, sözünə baxmır. Axırda ajıqlanır, əli xamırrı-xamırrı buna bir şillə vurur. O vaxtdan da üzü ləkəlidi.

Günəş çox gözəl bir qız imiş. Ay da aləmə nur saçan bir oğlan. Ay Günəşi sevirdi. Günəş Ayın onu sevdiyini bilirdi. Amma ona tərəf heç baxmırdı da. Ay da ki əl çəkmək bilmirdi.

Bir gün Günəş öz obasına gedirdi. Yolda Ay ona çatdı, Günəşi sevdiyini dedi. Günəş onu yaxın qoymadı. Ay Günəşin qolundan tutmaq istədi. İşi belə görən Günəş yerə tərəf əyildi. Yer ona bir ovuc çirkab uzatdı. Günəş çirkabı Ayın üzünə çırpdı. Ay gözlərini yumdu, ömürlük qaranlığa çəkildi.

O vaxtdan Ayın üzü ləkəlidi.

Bir kişi ova çıxır. Əlinə heç bir şey düşmür. Axır gəlib kiçik bir gölün kənarına çıxır. Görür, gölün o tərəfində gözəl bir qız oturub suya tamaşa eləyir. Qız o qədər gözəl imiş ki, şövqündən ovçu ona baxa bilmirmiş. Axır ovçu birtəhər ona yaxınlaşıb soruşur ki, sən kimsən?

Qız deyir ki, mənim adım Günəşdi. Ovçu ilə bir az söhbət edirlər, axşamın qaranlığı çökür. Ovçu Günəşi qonaq çağırır. Günəş razı olur. Onlar ovçunun evinə gəlirlər. Ovçu qonağı hörmətlə qarşılayır. Günəş ayrıca bir otaqda yatır. Sabah açılır, hamıdan qabaq qonaq durur. O, həyətə çıxan vaxt ətraf nura boyanır. Bu zaman ev yiyəsi də yuxudan oyanır. Günəşə baxanda gözləri qamaşır. Ovçu Günəşə yaxın gedə bilmir. Bu vaxt Günəş öz gözəlliyindən utanıb otağa qayıdır. Ovçu öz qonağının gözəlliyini qonşulara danışır. Deyir ki, ona yaxın düşmək çətindi.

Qonşuluqda olan bir kişi deyir ki, mən onu tuta bilərəm. Günəş yenə ovçugildə qalır. Səhər ovçuyla onun qonşusu Günəşi tutmaq üçün bayırda gözləyirmişlər. Günəş çölə çıxan kimi yenə aləm nura boyanır. Ovçunun qonşusu görür ki, doğrudan da ona yaxın düşmək mümkün deyil. Ondan süzülən işıq ox kimi adamın gözünə sancılır. Axır qonşu onu yay-oxu ilə vurur. Günəşi ox sinəsindən yaralayır. Günəş yaralı-yaralı qaçır. Günəş göyün üst qatına qalxır, donunu soyunub sərir. Donundakı qan izləri qurşaq olub göyün üzündə yağışdan sonra görünür.

Ovçu tutduğu işdən peşman olur, bir at minib onu axtarmağa gedir. Amma ona çata bilmir.

Deyirlər, həmin ovçu Ay imiş. Bəzən görürsən Ay sabaha qalır ki, Günəşlə görüşüb günahını boynuna alsın, üzr istəsin, ancaq bu, mümkün olmur. Günəş ondan qaçır.

Deyirlər, Ay ilə Günəş bacı-qardaş imiş. Bir gün onların anası yuxa bişirmək üçün hazırlıq görürmüş. Anası Ayı çağırır ki, get oxlovu gətir. Ay oxlovu gətirmir, deyir: – Günəş gətirsin.

Günəşlə Ay bir-biri ilə savaşırlar. Bu zaman ana sacı külləyirmiş. Nə qədər təpinir ki, savaşmanı qurtarsınlar, ancaq onlar eşit-

mirlər. Ana acıqlı-acıqlı durur və Ayın üzünə bir şillə vurur. Günəş qorxusundan əsim-əsim əsir. Ay tutduğu işdən utanır. Hər ikisi evdən qaçırlar. Deyirlər, Günəşin günahı olmadığı üçün o, gündüz, Ay isə utandığından gecə gəzməyə çıxır.

Bir dəfə Ayla Günəş arasında bərk dava düşür. Biri deyir ki, dünyaya gündüz mən çıxacağam, o biri deyir ki, mən. Ay üzünü Günəşə tutub deyir:

– Dünyaya gündüz mən çıxmalıyam. Çünki sən qızsan, bütün kişilər sənə baxar. Ayıfdı.

Günəş deyir:

– Yox. Mən çıxacağam. Ona görə ki, mənim iynələrim var. Heç kim mənə baxmağa cürət eləməz. Kim mənə baxsa gözünü deşərəm.

Ay söz tapa bilmir, Günəşlə razılaşır.

O vaxtdan da gündüz dünyaya Günəş çıxır.

Cinnər, əjdahalar Günün düşmənidirlər. Ona hücum edib boğmağa çalışırlar. O zaman Günəşlə cinnər, əjdahalar arasında bərk dava düşür, amma Günəş tək, cinnər, əjdahalar çox. Günəşin gücü bu davada tükənməyə başlayır. Onun qüvvəsi qurtardıqca cinnər, əjdahalar Günəşi daha da boğmağa çalışırlar.

Günəşin tək olduğunu, boğulduğunu görən adamlar ona kömək etməyə başlayırlar. Adamların yerdəki hücumunu görən cinnər, əjdahalar qorxub tez Günəşi buraxırlar. O saat da qaçıb dağılışırlar.

Davada Günəş çox boğulduğundan rənginə qızıl qan gəlir. Ona görə də Günəş tutulandan sonra rəngi qıpqırmızı olur.

Deyirlər, Günəş qız, Ay oğlandı. Onlar bir-birini sevirmiş. Günəş həm də öz işığı ilə dünyanı işıqlandırır, qızdırır, insanlara kömək edir. Günəşin insanlara xidmətini, Aya məhəbbətini istəməyənlər onlara paxıllıq eləyir. Günəşi oğurlamaq istəyirlər.

Bir gün Günəş yenə də göy üzünə çıxıb insanlara işıq paylayır. Sonra sevgilisi Ayla görüşə gedir. Divlər, cinnər bunu görüb onun yolunu kəsir, Günəşi oğurlamaq istəyirlər. Ay vaxtında xəbər tutub divlərə, cinnərə hücum çəkir, onları Günəşdən çox-çox uzaqlara qovur.

Deyirlər ki, divlər, cinnər Günəşin qabağını kəsib ona hücum edəndə dünyanı qaranlıq bürüyərmiş. İndi də Günəş tutulanda elə bilirlər ki, onların işidi, yenə də Günəşi oğurlamaq istəyirlər. Ona görə də adamlar göyə tüfəng atar, qabları döyəcləyib səs-küy salarlar ki, divlər, cinnər qorxub Günəşi rahat buraxsınlar.

Ay Günün əridi. Gün tutulanda deyirlər ki, ulduzların biriynən qaçıb. Aya xavar verməhdən ötrü tüfəng, tapança atırlar, qav-qacağı döyüf səs eliyillər. Ay da xavar tutur, gedif Günü geri gətirir.

Cinnər həmməşə istəyillər ki, adamnara pisdih eləsinlər. Bir də görürsən ki, cinnər göyə qalxıp ya Günü, ya da Ayı tutdular, qabağa örtüh çəkip qoymadılar ki, işığı yerə düşsün. Onda gərəh göyə güllə atasan, dəmir qabları döyəsən ki, möhkəm gurultu qopsun, cinnər də qorxup qaşsınlar.

Nəsir ulduzu Dan ulduzudu. Nəsir adında bir adama kömək eliyibbiş. Ona görə adına Nəsir ulduzu deyillər.

Dan ulduzu bir oğlandı. Sevgilisi bulağa gəlir. Bu da onu görməy üçün hər gün tezdən çıxır ki, səhər-səhər sevgilisini görsün. Deyillər ki, qızı körpə vaxtı kimsə göydən atıb. Bu da onu indi yerdə axtarır.

Dan ulduzuna Mütrüf ulduz da deyillər. O tez çıxır ki, camahatın nə yeyib-içdiyin görsün. Gec yatır ki, yığışanda nə etdiklərinə baxsın. Ona görə də deyillər Mütrüf ulduz. Nəfsəy oluf da, umsux oluf.

Ülkər ulduzu vaxtı ilə gözəl bir qız imiş. Bir dəfə qışın oğlan çağında onun atasının otu qurtarır. Qışın bu vaxtında otu hardan tapmaq olar. Əyər belə getsə mal, qoyun tamam acından öləcəkmiş.

Ülkərin atası gedib ağaya hal-qəziyyəni danışır. Bu qoca zalım ağa kişi ilə şərt kəsir ki, mən sənə istədiyin qədər ot verərəm, ancaq sən gərək öz qızını mənə verəsən. Kişi çox yalvarır, ağa az eşidir, dediyindən dönmür. Axır naəlac qalıb razılaşır, gəlib vəziyyəti qızına danışır. Qız bütün günü göz yaşı tökür, öz halını düşünüb ağlayır.

Ülkər gecə kədərli-kədərli göyə baxıb əhvalını danışır, kömək istəyir. Göydə Ayın lap nazik olduğunu görür, gəlib atasını yuxudan oyadıb deyir:

Ay göydə sallandı, ay dədə,
Daha yaza nə qaldı, ay dədə,
Vermə məni qənim əlinə.

Kişi tez eşiyə çıxır. Gözlərinə inanmır. Hər yan dizə qədər boy vermiş göy otla dolu idi. Bundan bərk sevinir. Ancaq evə girib qızını görmür. Çünki onun gözəl qızı ulduz olub göyə çıxmışdı. O vaxtdan deyirlər, göydəki ən parlaq ulduz Ülkər ulduzudu. Atası yuxudan durana qədər göylərdən çəkilməyib yaza nə qədər qaldığını atasına bildirir.*

Ulduzlara baxıb, vaxtı-vədəni bilmək olur. Dan ulduzu çıxanda bilirsən ki, səhər açılır.

Dan ulduzuna Ülkər, Sarı ulduz, Çoban ulduzu da deyirlər. Bu ulduz çıxanda çoban sürünü otarmağa aparır.

Tərəzi ulduzu çıxanda deyirlər: "Quyruq doğdu". Yaydan qırx beş gün keçəndə bu ulduz gündoğan tərəfindən çıxır. Quyruq doğanda dəvə yaylaqda yönü arana sarı yatır.

Dağla Bulud bir-birinə aşiq idilər. Bunlar bir gün də ayrı dolana bilmirdilər. Onda Dağ çox alçaq idi. Bulud gah ucalır, gah da sevgilisi Dağın yanına enirdi.

Ancaq Buludun ağası Göy bu məhəbbətdən narazı idi. O öz nökərini hara gəldi qovmağa öyrənmişdi. Amma indi Buludun Dağın ətrafında hərlənməsindən acığı gəlirdi. Buna görə də bir gün Buludu uzaq səfərə göndərir.

Günlər keçir, Dağ darıxır, boylanırdı. Bulud isə görünmürdü. Sevgilisini görmək həsrəti ilə Dağ gündən-günə yüksəlir, daha uzaqlara baxırdı. Bir gün Dağ Buludu uzaqda gördü. Yenə mahnı oxumağa başladı. Bu mahnıda əvvəlki kimi şadlıq yox idi. Dağ inildəyirdi. Bulud mahnını eşidən kimi tələsik sevgilisinin yanına uçdu. Onlar yenə qol-boyun oldular. Göygözlü Göy bunu görən kimi odlu qırmancını işə salaraq sevgililəri döyməyə başladı. Buna dözməyən Bulud göz yaşı tökdü. Ağlayıb, ağlayıb, çəkilib getməyə məcbur oldu.

O vaxtdan Dağ mahnı oxuyan kimi, Bulud harda olsa uçub onun yanına gəlir. Lakin Göy qırmancı işə salır. Bu zaman Bulud Dağın döyülməyinə tab gətirməyərək çıxıb gedir, ya da göz yaşları tökür.

Keçmişlərdə Ağrı dağı ilə Haça dağ yaxın qonşu olublar. Çox da istəkli imişlər. Həmişə bir-birini gözlər, mehriban dolanıb ömür sürərlərmiş. Bir gün bu dağların arasında bərk mübahisə düşür. İş o yerə çatır ki, onlar hirslənib düşmən kimi dalaşmağa başlayırlar. Haça dağ özünü haqlı bilib qəzəbindən bir dəli nərə çəkir. Əl atıb Ağrıya güclü zərbə vurur. O zaman Ağrı hamilə imiş. Zərbənin gücündən bala salır.

Ağrı qonşusunun bu hərəkətinə tab gətirə bilmir. Özünü toplayıb o da Haça dağa öz zərbini göstərir. Haça dağın fəryadı yeri-yurdu götürür. Ağrının zərbindən onun da başı aralanır. Deyirlər ki, o vaxt başı ayrıldığından adı da Haça dağ qalmışdır. Ağrının saldığı bala isə böyüyüb onun yanında göylərə baş çəkmişdir. Adına Bala Ağrı demişlər.*

Ələyizin başı dörd haçadı. Deyillər ki, Ağrıyınan Ələyiz vırışıp. Ağrı güjdü olup, vırıp Ələyizin başın parçalıyıp.

Tufan dağı Xınalığın yaxınlığında Qiblə dağı ilə yanaşı durur. Qiblə dağı ilə Tufan dağının arasından Qudyalçay axır. Tufan dağının təpəsi, ətəkləri ilin on iki ayında qar ilə örtülü olur. Orada qarın altında it kimi hürən heyvanlar var. Onlara qar heyvanı deyirlər.

Belə nağıl edirlər ki, "Qiyamət günü"ndə bütün dünyanı su basdığı vaxt təkcə Tufan dağını su örtə bilməmişdir. Nuh peyğəmbərin gəmisi Tufan dağına dəyib parçalanmışdır. Hal-hazırda orada bir balaca göl vardır. Göldə iki taxta parçası üzür. Deyilənlərə görə, bu taxta parçaları Nuhun gəmisinin parçalarıdı. Əgər bir adam onları tutmaq istəsə, üzüb adam olmayan tərəfə gedirlər.

Bir el ağsaqqalının ərsəyə çatmamış yeddi oğlu vardı. Özü də qocalmışdı, əli qılınc tutmurdu. Yağılar fürsəti bada vermir, tez-tez basqın edib eli talıyırmışlar. Günnərin bir günü genə yağılar gəlir. Yeddi qardaş qoşun yığıb onların qabağına çıxır. Ancax bılar uşax, yağılar neçə ilin qan tökənləri. Yeddi qardaşın qoşunu basılır. Qardaşlar görür ki, qoşun basıldı, yağılar genə eli çapıb-talıyacaxlar. Üzdərini göyə tutup Tanrıya* yalvarıllar ki, ya Tanrı, bizi keçilməz dağa döndər, qabağı kəsək, yağılar elimizə soxulmasınlar.

Tanrı eşidir onnarı, qardaşdarın yeddisi də dağa dönüb yan-yana düzülüllər. Yağılar keşməyə yol tapmır, qayıdıb biryolluq gedillər. O gündən camahat o dağlara "Yeddi qardaş dağı" deməyə başdıyır. Azərbaycannılar dədə-babadan bı dağları ocax sayıllar.

## ETNOQONİK MİFLƏR

Çox əzazil, özündən deyən bir padşah varıymış. Bütün adamnar bının əlindən zağ-zağ əsirmişdər. Bir adamın hünəri nəyimiş ki, bınnan icazəsiz cınqırını çıxartsın. Ta işi o yerə çıxartmışdı ki, özünü Allah elan eləmişdi. Hamı da qorxudan onu Allah sayırdı.

Amma bının uşağı olmurmuş. Bı da fikir eliyirmiş ki, bə ölən-nən sora taxt-taca kim sahib olacax?

Bir gün bının yanına bir nurani qoca gəlir. Bına bir alma verip deyir ki, ala bını arvadınnan ye, bir oğlun olacax, amma gərəh oğlan nə desə, ona əməl eliyəsən.

Padşah razılaşır, almanı götürüp arvadıynan birgə yeyir. Bəli, vədə yetişir, padşahın bir kürəyipütün oğlu olur. Tez qurban kəsil-lər, sora camahata əhfalatı deyillər.

Uşağın qırxı çıxannan sora yığışıllar ki, ona ad qoysunnar. Elə bı vaxt uşax dil açıp deyir ki, bə mənim adım Uğuzdu. Hamı məhət-dəl qalır. İsdəyillər uşağı danışdırsınlar, amma uşax daha danışmır. Bının adını Uğuz* qoyullar.

Bir xeyləh vaxt keçir, Uğuz on beş yaşına çatır. Bir iyid olur ki, tayı-bərabəri tapılmır. Günnərin bir günü Uğuz camahatı başına yığıp deyir ki, bə mənim atam Allah dəyil, Allah göydədi, özü də heş kimin gözünə görsəmməz.

Padşah bını eşidir. Gəlir ki, oğlunu öldürsün. Bınnar müharibə eliyillər. Uğuz atasını öldürür, özü keçir atasının yerinə. Deyir ki, hamı gərəh göydəki Allahı tanısın. Bınnan sora insannar həqiqi Allahı tanıyıllar.

Allahdan vəhy gəlir. Nuh peyğəmbər də bını insannara deyir, söylüyür ki, bə tufan olacax, dünyanın üzünü su alacax. Heş kim bına inanmır. Nuh peyğəmbər bir gəmi qəyirir, bütün cannılardan bir cüt qoyur gəmiyə. Bının yeddi oğlu varmış. Oğlanlarınnan altısı gəmiyə minir, biri minmir. Deyir ki, su gələndə çıxaram dağın başına, mənə heş zad olmaz.

Çox keçmir ki, dünyanın üzünü su alır. İnsannar boğulup ölür. Nuh peyğəmbər baxır ki, dağa çıxan oğlu da boğulhaboğuldadı.

İstiyir ki, gəmini ona sarı sürsün. Allahdan səda gəlir ki, ya Nuh, çıx get, bı oğlan sizlərdən deyil.

Nuh gəmini sürüp gedir. Çox getmir ki, tufan dayanır, su yatır. Nuh peyğəmbər oğlannarına deyir ki, istədiyiviz cannılardan götürüp düşün quruya, yaşıyıp, nəslivizi artırın.

Oğlannardan birinin adı Türk idi. Bı Türk qoyununan qoçu götürüp torpağa düşdü. Gəmi çıxıp getdi. Sən demə Türkün düşdüyü torpax cəzirəymiş. Hər tərəfi su olduğuna görə bı cəzirədən çıxmaq olmazımış.

Türk dörd yüz əlli il bı cəzirədə yaşıyır. Onun heyvannarı o qədər çoxalır ki, bütün cəzirəni tutur. Ta cəzirədə ot-ələf, kol-kolavat qalmır, heyvannar hammısın yeyip qurtarır. Elə gün gəlip çatır ki, heyvannar yeməyə heş nə tapbıyıb başdayıllar qırılmağa. Nuh oğlu Türk baxır ki, belə getsə, heyvannar da öləcək, bının özü də. Hey fikirləşir, bir nicat yolu tapa bilmir. Qalır məhəttəl, bilmir nə etsin.

Günnərin bir günü Türk görür ki, bir heyvanı nəsə parçalayıp yeyiplər. Öz-özünə deyir ki, axı bı cəzirədə qoyunnan başqa heş bir heyvan yoxdu. Bə bını nə yeyib?

Türk çox təəccüblənir. Gecəni yatmıyıp güdür. Bir də baxır ki, uzaxdan – suyun içiynən bir qaraltı gəlir. Bı qaraltı gəlip cəzirəyə çatanda bı boz irəhli qurtdu. Boz qurt cəzirəyə çıxan kimi cumur bir heyvanın üstünə. Bı üzdən də Türk çıxır. Boz qurt Türkü görüp gəldiyi yolla dala qayıdır. Türk də düşür bının dalınca. Xeylah gedirlər. Türk baxır ki, qurtun getdiyi yerlərdə su heç topuğa çıxmır. Bir az gedənnən sonra quruya çıxıllar. Bınnan da Türk xilas olur. Qayıdıp heyvannarı da həmin yolunan gətirir quruya. Sora Türk fikirrəşir ki, bə məni bı Boz qurt xilas elədi. Gərək mən də Boz qurdun şiklini çəkəm öz bayrağıma.

Belə də eliyir. Soralar Türkün nəsli çoxalanda hammısına deyir ki, Boz qurt bizim xilaskarımızdı, əgər o, yol göstərməsəydi, nə mən olardım, nə də siz olardız. Ona görə də gərəh həmmişə Boz qurda inanasız. Boz qurdun şiklini bayrağıvıza çəkip həmmişə bı bayrağın dalınca gedəsiz. Çətinniyə düşsəz, Boz qurdu köməyə çağırasız.

Türkün övladları bu nəsihətə həmmişə əməl eliyillər.*

Bir tayfa varımış. Bı tayfanın başçısı sonsuzmuş. Çox qurbannan, nəzir-niyazdan sora bının bir oğlu olur. Uşax dörd-beş yaşına çatır, amma yeriyə bilmir, heş ayax üstə də dura bilmir. Dədəsi başdıyır ağlamağa ki, bə mən ölənnən sora bı şikəst oğlumun axırı nə olacax?

Elə bu vaxtı düşmənnər basqın eləyillər, bı tayfanı qırıp-çatırlar. Bütün kişiləri öldürüp, arvad-uşağı qul eləyillər. Bı uşağı da şikəst olduğuna görə aparmıllar, atıllar bir daşın dibinə ki, qurt-quş yesin.

Düşmənnər tutduxları əsirləri götürüp gedənnən sora buraya bir canavar gəlir. Uşağı əmizdirir, sonra götürüp aparır öz yuvasına, başdıyır bını saxlayıb bəsdəməyə. Neçə illər keçir, uşağın ayaxları açılır. Özü də bir pəhlivan olur ki, gəl görəsən, əl atmağıynan yüzillih çinarı kökünnən çıxarmağı bir olur. Nərəsi gələndə şir, pələng girməyə deşik axdarır. Oğlanın adı hər yana yayılır. Düşmənnər də bının sorağını eşidip gəlillər onu öldürməyə. Ancax bir yannan oğlan, bir yannan da canavar bınnarın əhədin kəsir, bir nəfərin belə sağ bıraxmayıp hammısın öldürür. Sora həmin pəhləvan gedir tayfasının sağ qalanlarını da qurtarır, gəlillər öz topraxlarına, oğlanı başçı seçip başdıyıllar yaşamağa.

O vaxtdan bı tayfıya qurtdar tayfası deyillər. Naxçıvanın Qurtdar məhləsi də onnardan qalmadı.*

Qavaxlar Uzuxlar oluflar. Çox hündür iymişlər. Hər biri bir çinar kimi. Ona görə də indinin özündə də bir uca boylu adam görəndə deyərlər ki, uzuxdu. El arasında timsaldı də. Uzuxlar bizim əjdadlarımız oluflar. Özü də çox yaşarmışlar, yüz il, iki yüz il, üç yüz il.**

Belə eşitmişəm ki, günnərin bir günündə uzuxlardan biri meşəyə odun qırmağa gedifmiş. Orada gözünə qəribə bir şey dəyir. Bapbalaca. Oyucuna alıf evə gətirir. Bütün uzuxlar onun başına toflaşırlar. Başlayırlar bu əcayib şeyə baxmağa. Birdən onnarın bir ağsaqqalı qavağa gəlif deyir:

– Bu əcayif şey deyil, insandı. Vaxt gələjək, bunnar yer üzünü götürəjəy, bizi əvəz edəjəylər.

İnsanı tutuf gətirən uzux bərkdən gülür. Deyir:

– Bu özü nə şeydi ki, bizi də əvəz edə bilsin. Boyu heş mənim bir qarışım qədər də döyül. Elə oycumu yumsam, əlimdəcə canı çıxar.

Qoja uzux deyir:

– Yox, elə döyül. Bunnar bizdən çox-çox ağıllıdırlar. Özü də vaxt gələjəy, bizi əvəz edəjəylər.

İnsanı gətirən uzux deyir:

– Yaxşı, indi ki belə oldu, mən onu imtahan edərəm. Əgər sözümü yerinə yetirsə, inanaram, özünü də buraxaram gedər. Yox əgər yerinə yetirməsə, onda cüj-müjdür. Ovcumu yumaram, əzilib ölər.

Qoja uzux deyir:

– Yaxşı, onu necə imtahan etmək istəyirsən?

İnsanı gətirən uzux deyir:

– Özüm bilərəm, indi görərsən.

Uzuxun bir atı varmış, dam boyda. Elə hündürüymüş ki, adam baxanda papağı düşərmiş. Oğuz töyləyə gedif atı çəkə-çəkə gətirir insanın yanına. Sora da bir tovbaya bir az arpa töküf deyir:

– Ey insan, bax bu torvada arpa var, keçir atın başına qoy yesin.

İnsanın boyu atamı çata bilərdi. Heç ayağının yarısı boyda da deyildi. Amma o, torvanı baş tərəfindən başlayıb arpaya çatınca qatdıyır. Sonra da torvadakı arpanı ata göstərib yırğalayır, başlayır muşqurmağa. At səs eşidib aşağı baxır. Arpanı görən kimi başını torvaya salıb arpanı yeməyə girişir. İnsan tez torbanı atın başına keçirir.

Bunu belə görən Uzux əlini əlinə vurub bərkdən gülür. Deyir:

– Bir buna bax, bunun boyuna bax, gör torbanı atın boynuna necə keçirdi. Bir qarış boyu ilə torvanı dam boyda atın başına keçirdisə, deməli, bizi də əvəz eliyəcəh.

Doğrudan da vaxt keçdi, vədə gəldi, insannar bütün dünyaya yayıldılar. Uzuxlardan yalnız üç-dörd metrəlik qəvirlər qalıb.

İnsan get-gedə cırlaşır. Vaxt gələcək, insan o qədər balacalaşacaq ki, tüfəngini yovşan kolundan asıb deyəcək: bu nə uca ağacdı?!

Qaflankufdan bu yanı Azərbaycandı, o yanı Erandı. Qaflankufnan Arazın arasında bir kişi şah imiş, Azər adında. Arazınan Dərbəndin arasında da bir qadın şah imiş, Baniyə adında. Bunlar İsa ruhullahdan 800 il qabax yaşamışdılar. Bınnar əvlənillər, torpaxlarını da qatırlar bir-birinə. Sonra bunların torpağına Azərbaniyə deyillər. Bı Azərbaniyə indi Azərbaycan adlanır.

## KOSMİK QƏZA. TUFAN

İlan dağının, Kəmçinin, Ağrının adını Nuh qoymuşdur.

Nuhun gəmisi hər yerdə sulardan sakit keçir. Təkcə bir dağdan keçəndə gəmi bir az ilişir. Nuh deyir:

– İnan kı dağdı.

Ona görə də bu dağın adı İlan dağı qalır.

Nuhun gəmisi xeyli aralıda yenə də çətinliyə düşür. Nuh deyir:

– Bu dağ o dağdan kəm deyil.

Bu sözə görə o dağın adı Kəmçi olur.

Üçüncü dəfə Nuhun gəmisi daha bərk çətinliyə düşür. Nuh deyir:

– Bu dağ daha ağır dağdı, gəmi burdan keçə bilməyəcək.

Bu dağın da adı Ağrı dağı qalır.

Nuh böyük bir gəmi düzəltdirir, bütün canlılardan ora götürür.

Tufan başlanır. Yer üzünü su basır. Yer üzərindəki bütün canlılar tələf olur. Xeyli vaxt keçir, gəminin bir yerindən deşik açılır, gəmiyə su dolmağa başlayır. Deşiyi qapaya bilmirlər. Nuh deyir ki, kim deşiyi qapaya bilsə, onun arzusunu yerinə yetirəcək. Bu zaman gəmidə olan böyük bir ilan qıvrılıb deşiyi qapayır, gəmiyə daha su dolmur. Bir qədər sonra tufan sakitləşir, su çəkilir. Nuh gəmidəki canlıları Yer üzərinə buraxır.

Bu hadisədən bir müddət keçir. Bir gün ilanın yadına Nuh peyğəmbərin dediyi söz düşür. O, Nuhun yanına gəlib verdiyi sözü yadına salır. Nuh ondan nə istədiyini soruşur. İlan deyir:

– Mən istəyirəm ki, mənim nəslimə dünyadakı ən şirin şeyi yeməyə izin verəsən.

Nuh razı olur. Qaranquşla arını dünyada ən şirin şeyi axtarmağa göndərir.

Qaranquşla arı uzun müddət gəzir, hər şeyn şirinliyini yoxlayırlar. Axırda arı deyir ki, ən şirin şey insan ətidi.

Onlar geri qayıdanda qaranquş insanları xilas eləməkdən ötrü aldadıb arının dilini dimdikləyib qoparır. Arı danışa bilmir, vızıldaya-vızıldaya birtəhər qaranquşdan soruşur:

– Sən məni niyə bu günə saldın?

Qaranquş arının sözünü cavabsız qoymur:

– Niyə sən təkcə insan ətinin şirinliyini gördün? O bizə ev tikir, isti yuva qurur, bizi qoruyur. Sən bunları niyə görmədin?

Arı nə qədər vızıldayırsa cavab verə bilmir, dili tutulur.

Onlar Nuhun yanına gedirlər. Arı özünü qabağa verir. Çox çalışır, çox vızıldayır, ancaq bir şey qandıra bilmir. Qaranquş deyir:

– Ən şirin şey torpaqdı.

Nuh ilana yemək üçün torpağı verir. İşin içində kələk olduğunu başa düşən ilan qaranquşu tutub məhv etmək istəyir. Lakin qaranquş uçub onun əlindən çıxır. İlan yalnız onun quyruğunu dişləyə bilir. Elə o gündən arı vızıldayır, qaranquşun da quyruğu haça qalır.

Dünyanı su basanda Nuh peyğəmbər gəmiyə minib gedirmiş. Birdən gəmi deşilir, gəmiyə su dolur. İlan gəlib girir gəminin deşiyinə, qoymur gəmiyə su dolsun.

Mazannənə adlı bir qarı sacda çörək bişirirmiş. Nəvəsi də yanındaymış. Birdən dünyanın üzünü su alır. Qarı qalır suyun altında. Nəvəsi qaçıb çıxır bir dağın başına. Nuhun gəmisi gəlir, uşağı dağın başından sağ-salamat götürüb gedir. O vaxtdan o dağa Diridağ deyiblər. Mazannənənin çörək bişirdiyi yer ocaqdır.

Nuh xəbər tutur ki, dünyanı su alacaq. Əl-ayağa düşür, gəmi hazırlayır, heyvanların hərəsindən bir cütünü də gəmiyə qoyur ki, onların nəsli kəsilməsin.

İşdən halı olan, dünyagörmüş, ömür sürmüş ağbirçək bir qarı Nuha yaxınlaşıb deyir:

– Məni də özünlə apar.

Nuh söz verir, amma səfər zamanı verdiyi söz huşundan çıxır, qarı qalır yer üzündə.

Vaxt gəlir. Bir yağış yağır, bir yağış yağır, tut ucundan çıx göyə. Çaylar şahə qalxır, sel dağları qopartmaq istəyir. Hər yan suya qarışır, dünya görünməz olur.

Vaxt keçir, vədə yetişir, gün çıxır. Günəşin zərbindən su ərşə çəkilir. Nuh qayıdanda qarı düşür yadına. Gedir ki, onun öldüsündən-qaldısından bir xəbər tutsun.

Qarının evinə yaxınlaşanda qulağına səs düşür, dinləyib görür ki, cəhrə səsidi, qarı salamatdı, özü də ip əyirir.

Soruşur:

– Qarı, dünyanı su aldı, sən bunu görmədinmi, bilmədinmi?

– Yer üzünü su almağını ondan bildim ki, piltələrim bir az nəm kimi oldu.

Nuh barmağını dişləyir, başa düşür ki, qarı qoca dünyanın özü imiş. Sən demə, dünya-aləm batanda bunun ancaq piltəsi nəmlənərmiş.

Dünyanı su basanda Nuh gəmisi ilə bərabər qalıbmış su üzündə. Gün keçir, vaxt dolanır, vədə tamam olanda su yavaş-yavaş çəkilməyə başlayır. Su çəkildikcə gəmi aşağı enir. Bir vaxt görürlər ki, gəmi nəsə ağır bir şeyə toxundu. Nuh deyir:

– Bu nə ağır şeydi!

Su batanda baxırlar ki, bu ağır şey böyük bir dağdı. Nuh bu dağın adını Ağır dağ qoyur.

Günün istisindən su yenə çəkilir. Az keçmir ki, gəmi lap bərk silkələnir. Nuh deyir:

– İnan ki, bu da dağdı.

Buna görə də Ağır dağa Ağrı dağ, gəminin ikinci dəfə toxunduğu dağa İlanlı dağı deyirlər.

Dünyanın üzünü su alanda Allahdan səda gəlir ki, ey Nuh, bu gəmini sənə verdim, özünü xilas elə.

Nuh peyğəmbər gəmiyə minir. Ağrı dağına pənahlanır. Allahdan səda gəlir ki, ey Nuh, Yer üzündə səndən başqa heç kim qalmayıb. Sənə bir qadın göndərirəm, Yer üzündə insan nəslini artır.

Bütün adamlar Nuh peyğəmbərlə o qadından əmələ gəlib.

Rəvayətə görə, Nuhun gəmisi Gəmiqayada quruya oturmuşdu. Oğlanları bir gün gördülər ki, uca dağlar od tutub yanır. Gəmi oturan dağ da tüstüsüz alova bürünüb. Özləri də od-alovun içindədilər. Qorxudan bilmədilər neyləsinlər. Haray-həşir salıb bağırdılar.

– Aman Tanrı! Günahımız nədi ki, indiyədək tufanda qaldıq, indi də od-alova düşmüşük.

Amma bu qorxu çox çəkmədi, gördülər ki, od-alov onları yandırmır. Yaşıl çəmənə, gülə, çiçəyə də toxunmur.

– Bu nə sirdir? – dedilər. – Dağ da yanar?

Onlar atalarının yanına gedib bu sirri soruşdular.

Nuh Nəbi dedi:

– Gördüyünüz elə belə od deyil. Sirli, möcüzəli oddur. Bu torpağın mayası oddan yoğrulub. Burda hər şey öz qidasını oddan-yalovdan alır. Yanan dağların biri Gəmiqaya, biri İlandağ, biri Ağrı dağıdı. Bu arada yurd salın. Dediyim üç dağ sizə qüvvət, bərəkət verəcək. Bərkdə şərdən, yağıdan qoruyacaq.

Nuh Nəbi sözün qurtardı. Dayandığı yerdən bir addım irəli atdı, ayağı torpağa gələndə pəncəsi yox, dabanı yerə dəydi. Oğulları həmin yerdə yurd saldılar, adına da "Nuhdaban" dedilər.

Ağbavanan adı belə oluf. Ağbava, Sarıbava, bir də Hacxalıl bava – üç qardaşıymış. Bunlar gəlir bu dağlarda məskən tutullar. Hərəsi

bir tərəfdə. İndi Ağbava deyilən də lap yuxarılara çıxıb burda məskən qurur. Yay vaxtıymış. Vaxt keçir qış gəlir. Dağların qar-boranı, tüpüsü başdıyır. Oğlu çox deyir, yalvarır, gəl gedəh, bu razı olmur. Oğlu azarrıyır, hey deyir "Ax, bava", "Ax, bava", sonra ölür. Kişi onu bastırır, özü qalıf burda yaşıyır. Ondan da bu yerlərin adı qalır Ağbava.

## İNSAN ÖMRÜ. DİRİLİK SUYU

Allah insanları yaradannan sonra peyğəmbərin biri gedir dirilik suyunu* doldurur bardağa ki, gətirsin insannara. Qayıdanbaş yolda yatır ki, dincini alsın, bardax aşıb tökülür. İki qarğa bardağın suyunnan içir. Ona görə də qarğalar 300 il yaşayıllar.

Qabaxlar insannar çox yekəymişlər. Təhcə dizdən aşağı əyaxlarının uzunluğu iki metrə yarım imiş. Gör onda bədənləri nə qədər olar?!

Onnar min ildən çox yaşayırmışlar. Günlərin bir günü allahlıx sövdasına düşüllər. Allah da hirsdənib bınnarın ömrünü azaldır, özdərin də xırdaladıp bizim günümüzə salır.

Köhnə vaxtlar insan çox yekə olub. Abazar adlı bir kişi varmış – ayağının birini bu taya, birini o taya qoyub, Araz boyda çayı adlayıb keçirmiş.

Bir kənddə çox ölü ölürmüş. Bir nəfəri öyrədirlər ki, get dur qəbiristanlıqda. Biz gələk səndən soruşaq ki, yer var ölü basdırmağa? Sən də de ki, yox, yer yoxdu. Bəlkə onda ölü az ölə.

Bu kişi razılaşıb gedir qəbiristanlığa. Camahat gəlib bundan soruşurlar ki, yer var ölü basdırmağa?

Kişi bir yerə baxır, bir göyə baxır, deyir ki, niyə yoxdu, Tanrı böyük, altı gen. Nə qədər istəsəniz yer var.

Bu söz Allahın xoşuna gəlir. Daha başlayır o kənddə ölü az ölməyə.

Qabaqlar insana ölüm yoxuymuş, ölüm dağa-daşa gəlirmiş. Dağ-daş bu dərdə dözməyib ağlayırmış.

Qocaları aparıb səbətdə dağın başına qoyurmuşlar, qurd-quş yeyirmiş. Bir gün bir oğlan atasını aparıb səbətdə dağın başına qoyur. Qayıtmaq istəyəndə atası gülür, deyir:

– Oğul, səbəti apar, lazım olacaq, sənin də oğlun səni gətirəcək bura.

Oğlan atasını götürüb gətirir evə. O vaxtdan insanlara ölüm verilir.

Qabaqlar ölüm yoxuymuş. Bir gün bir adam ölür. Bilmirlər onu neynəsinlər. Allah-taala qarğaya əmr eləyir ki, iki çöpü aparıb qoysun yerə, üstünü torpaqlasın, adamlar baxsın, öyrənsin. Qarğa elə də eləyir. Adamlar qarğaya baxıb bilirlər ki, ölünü torpağa basdırmaq lazımdır.

Dəryaynan bir gəmi gedirdi. Tufan qopdu, gəmi dağıldı. Gəmidəkilərin hamısı öldü, amma bir hamilə qadın sağ-salamat qaldı. Qadın iki dənizin ortasında bir quru yerə çıxdı.

Burda bir oğlu oldu. Allah Əzrayıla dedi ki, o arvadın vaxtı tamamdı, get onun canını al.

Əzrayıl gedib arvadın canını aldı.

Bir aslanın balası ölmüşdü. Allah o aslana əmr elədi, aslan gedib iki dənizin arasından uşağı götürdü, çıxartdı qırağa. Uşaq aslanın südünü əmib böyüdü.

Bir çoban vardı, oğul-uşağı olmurdu. Qoyun otardığı yerdə bu oğlanı gördü, onu oğulluğa götürdü. Adını da Məhəmməd qoydu.

Bir gün Əzrayıl boz atın üstündə gedirdi bir adamın canını almağa. Əzrayıl Məhəmmədi görən kimi tanıdı. Bildi ki, bu oğlan iki dənizin ortasında doğulan oğlandı. Əzrayıl atı verdi Məhəmmədə, dedi:

– Bu atı tut saxla, amma minmə.

Əzrayıl gedəndən sonra oğlan sıçrayıb atın belinə mindi. Gördü dünya bir xəlbir kimi görsənir. Oğlan başa düşdü ki, bu atın yiyəsi Əzrayıldı.

Əzrayıl qayıdıb gəldi. Gördü ki, oğlan atın üstündədir. Oğlana dedi:

– Atdan düş, qardaş olaq.

Məhəmməd atdan düşdü, dedi:

– Qardaş olaq, amma bir şərtim var: mən kəlmeyi-şəhadətimi axıra qədər deməmiş canımı almayassan.

Əzrayıl razılaşdı.

Vaxt keçdi, dövran dolandı, bir gün Əzrayıl gəldi ki, bəs Məhəmməd, kəlmeyi-şəhadətini de.

Məhəmməd kəlmeyi-şəhadətin yarısını dedi. Üzünü Əzrayıla tutdu ki, bəs, qalanını da yüz ildən sonra deyəcəm.

Əzrayıl Məhəmmədin canını ala bilmədi.

Axırı Əzrayıl yekə bir qəbir qazdı. Məhəmmədə dedi:

– Gəl gir bu çalaya, gör bura yerləşirsənmi?

Məhəmməd qəbrin içinə girəndə Əzrayıl onun canını aldı.

İsgəndər axtara-axtara gəlib dirilik suyunu Şirvan torpağında tapır. O, qızıl piyaləsini bulaqdan doldurub içmək istəyəndə bir quş qanad çalıb suyu tökür. İsgəndər qəzəblənir. Yay-oxunu çıxarıb quşu vurmaq istəyir. Bu zaman İsgəndər qeybdən bir səs eşidir:

– Ey İsgəndər, o quşu öldürmə, o sənin xilaskarındı. Onu mən göndərdim sənə yazığım gəldi.

Bu səs sərt bir qayanın arasından gəlirdi. İsgəndər ona tərəf yeridi, səsə yaxından qulaq asmağa başladı:

– Ey İsgəndər, bir vaxt mən də dirilik çeşməsindən içib ölməzlik qazandım. Adım oldu: “Diri baba”.

Dünya durduqca mən durdum. Qərinələr keçdi. Yar-yoldaşım, övladlarım, nəvəm, nəticəm, kötücəm, mənicəm, iticəm, yadım, elim-günüm dünyadan köçdü. Tək qaldım. Vaxt vardı mən də insan kimi yaşayırdım. Ağlım işləyir, əllərim tikirdi. Düşünürdüm ki, ya-

şamaq gözəldi. İndi nə gözüm görür, nə beynim düşünür, nə də əllərim birinin əlindən yapışır. Özün de, belə dirilik kimə lazımdı?

İsgəndər sudan içməyib kor-peşman geri qayıtdı.

Bir oğlan dirilik suyu axtarırdı. Getdi bir bulaq tapdı. Gördü bu bulağın başında bir qoca oturub.

Dedi:

– Qoca, bu nə sudu belə?

Qoca dedi:

– Bu, dirilik suyudu.

Oğlan istədi əyilə dirilik suyundan içə, qoca qoymadı, dedi:

– Bala, içmə. Mən içib dadını görmüşəm; yaşım keçib, bütün bədənim çürüyüb əldən gedib, ancaq ölə bilmirəm. Ölüm də bir gözəl şeymiş, bala. Bu sudan içib mənim günümə düşmə.

Oğlan qocanın dediyinə qulaq asdı, dirilik suyundan içmədi.

## İLKİN ƏCDADLAR. MƏDƏNİ QƏHRƏMANLAR

Koroğlu hər yeri gəzif. Onun bir xəsyəti varıydı, harıya getsə, orda bir iz qoyardı. Deyilənlərə görə, bu tərəflərdə də oluf. Çovannar danışer. Deyir, bir dəfə gəlif çıxıbbış bizim bu Sarf dərəyə. Yaman da yağışdı, çisəkli günüymüş. Elə indiki kimi, bir az da artıq. Bular yığıler, ocax qalamağ isdeylər. Amma nə qalayasan. Ağac yox, kol yox, oralarda tozağacınnan başqa heç bir şey bitməzmiş. O vaxtatan bizimkilər bilmeylərmiş tozağacının yandığını höyüş olanda. Koroğlu adamlarına əmr eliyif bu tozağacını yığdırer, bir yekə ocax qalıyer. Elə onnan sora bizim çobannar da biler ki, tozağacı höyüş olanda da yaner.

Burdan keçer Gürcüstana. Yuxarı tərəflərə getməy istiyermiş. Nə isə bular gəler çater Kürə. Adamlarınnan bərabər bunun qırağında duruf baxer. Deyir, girim bir çimim. Əyər mən bunu üzüf keçdim, onda hamımız keçif gedərik, yox keçəmmədim – qayıdacayıq. O vaxt da çayın suyu çox idi. Üç-dörd bu yekəlikdə olardı.

Burda çimir. Amma nə qədər elyer üzüf keçəmmer. Çıxer qırağa deyir ki, sən kür, mən kür, biz bir yerdə yola gedəmmərih. O vaxtdan çayın adı qaler Kür.*

Deyirlər ki, Qırat elə-belə atlardan deyildi. Bir gün Koroğlu eşidir ki, bir göldə su ayğırları yaşayır. Koroğlunun Qıratını dünyaya gətirən at da bir vaxt bu gölün qırağında otlayırmış. Göldən bir su ayğırı çıxıb həmin madyanla cütləşmişdi. Vədə tamam olanda o madyandan Koroğlunun Qıratı dünyaya gəlib.

Bunu eşidən Koroğlu Qıratın xatirinə həmin gölün adını Ayğır gölü qoyub.

Koroğlu hara gedir getsin, Çənlibeldən özü ilə bir daş apararmış. Yatanda başının altına qoyarmış. Bu daş Koroğlunun həyanı, yoldaşı olarmış.

Koroğlu dəliləri bir yerə göndərəndə özü gizlənərmiş, amma harada olduğunu bu daşla bildirərmiş. Dəlilər üstündə nişan olan bu daşı yaxşı tanıyarmışlar.

Bir dəfə Koroğlu öz dəliləri ilə Zəngəzur dağlarına ova çıxır. Hərə bir tərəfə dağılır, hamı bir-birindən aralı düşür. Koroğlu dəliləri bir yerə yığmaq üçün Çənlibel daşını Zəngəzur dağının arasından keçən yola qoyur. Bunu görən dəlilər bir yerə toplaşırlar.

Koroğlu daşı yerindən tərpətmir. Deyir: qoy bu daş bizdən yadigar qalsın.

O vaxtdan bu daşa "Koroğlu daşı" deyirlər.

Laçın rayonunda, Cağazur kəndi yaxınlığında dərin bir dərə var. Nal daşı dərənin o tayındadı.

Deyilənə görə, Koroğlu düşmənlə təkbətək vuruşur. Sonra da aradan çıxmaq istəyir. Nərə çəkib Qıratı çapır, at quş kimi uçub dərənin o tayına düşür. Qıratın ayağının biri sal daşın üstə bərk dəyir, daşa nalın dərin izi düşür.

Həmin daşa "Koroğlunun nal daşı" deyirlər.

Dağın başında üst-üstə qoyulmuş beş böyük daş vardı. Deyilənə görə, bu daşları dağın başına Koroğlu çıxarıb. Koroğlu hər səhər dağın başına çıxıb, bu daşlarla oynayarmış.

İndi bu daşın birini yüz adam yerindən tərpədə bilməz. Tovuz rayonundakı Ağdam kəndinə çatmamış, kəndin üst yanındakı dağın başında Koroğludan yadigar qalan bu daşlar qala kimi görünür.

Deyirlər, Koroğlu böyük bir çayın qırağında yurd salır.

Koroğluya gecə yuxuda deyirlər:

– Çay qırağı sel yoludu, düzəngahlar el yoludu. Koroğlu, igidin arxası dağlardı. Oyan yuxudan, qulaq as. Qırat hansı dağda kişnəsə, həmin dağda daşdan qala tik!

Koroğlu yuxudan oyanır, Qırat kişnəyir. Həmin uca dağa çıxır.

Koroğlu baxır ki, Qırat ayağı-dırnağı ilə qala üçün böyük him açıb. Atın polad nalı daşa dəydikcə qığılcım çıxırdı. At qan tərin içindəydi. Koroğlu Qıratın belinə çul salır. Onun alnından, gözlərindən öpür.

Səhər dəlilər görürlər ki, Koroğlu yatağında yoxdu. Onu axtarmağa başlayırlar. Bir də görürlər ki, Koroğluynan Qırat bir dağın başındadı. Koroğlu deyir:

– Bu qalanın himini bir gecədə Qırat dırnağı ilə qazıb.

Sonra Koroğlu dəlilərə öz yuxusunu danışır. Hər dəli dağın başına çaylaxdan yetmiş yeddi daş qaldırır. Yetmiş yeddi günə burda böyük bir qala tikilir. Qalaya yol, bulaq çəkilir. İndi onun adına "Koroğlunun daş qalası" deyilir.

Koroğlu görüb bəzirganlar qəflə-qatırnan gəlir. Qəflə-qatırın yükünü boşaltdırıb camaatı çağırıb ki, gəlin sizə ipək verim aparın.

Ölçü tapammayıb. İki təpənin arasını əliynən ölçüb, arşın eləyib. Bu arşınnan ipəyi ölçüb paylayıb camaata.

O vaxtdan o iki təpənin arasına "Koroğlu arşını" deyiblər.

## HAMİ RUHLAR

Gözümüznən nə görürüxsə, hammısının əyəsi* var. Bu əyələr bizə görsənməz. Bizdən yeylər də görünmür. Əncax əyələrinən bizdən yeylərin arasında fərq var. Bizdən yeylər heş bir şeyin sabahı dəyil. Əncax əyələr nəyin əyəsidisə, onun da sabahıdı, özü də onda yaşıyır. Məsələtün, bəğ əyəsi bəğin sabahıdı, bəğdə də yaşıyır. Daha suda, yaxud, dağda bəğ əyəsi olmaz. Onnarın da öz əyələri var. Ancax bizdən yeylər hər yerdə yaşıyıllar. İllah da bu qarannıx yerrərdə, xaraba yerrərdə, ağaş altında, su başında yaşıyıllar.

Bizdən yeylər həmişə insanın malını oğurruyur, qazanın, paltarın, düyüsün, yağın aparır, pilov bişirip yeyir, paltarın geyip oynuyur. Ta bir söznən, bizdən yeylər həmmişə insana zərəl verir.

Ancax əyələr çox xeyirxahdı. Əyər onnarın yanına gələndə səlam versən, gedəndə "salamat qal" desən, bir şeylərin götürəndə icazə istəsən, səndən xoşu gələcəh, həmmişə sənə köməh eliyəcəx, məsələtün, dedihlərimi eləsən, əv yiyəsi evini abad eliyəcək, həmmişə evində şadlıx olacax. Yol əyəsi yoluvu uğurlu eliyəcək. Bəğ əyəsi məhsuluvu bol eliyəcəx, səni varrandıracax. Qalanları da bınnar kimi.

Əvin, həyətin, bəğin, suyun, yolun, dəğin – hər şeyin əyəsi var. Gərəh bınnara səlam verəsən. Timsalı, gəlmisən bağa. Gərəh deyəsən: "Səlam, a bəğ əyəsi, gəlmişəm bəğivi suvaram, ağaşdarıvın dibin belliyəm".

Gedəndə də deyirsən ki, salamat qal, a bəğ əyəsi, mən gedirəm, genə gələciyəm.

Elə ki məhsul yetişdi, gəldin meyvə yığmağa, onda, gərəh bəğ əyəsinnən icazə isdiyib sonra bəğin meyvəsini dərəsən. Əyər belə dedixlərimi eləsən, bəğin mədaxılı çox olacax. Bınnarı ucadan da deyə bilərsən, ürəyində də deyə bilərsən. Bəğ əyəsi hammısını eşidəcax.

Bı əyələrin içində hammısınnan üsdünü su əyəsidi. Səhər-səhər ki, tezdən gedirsən suyun üsdünə, gərəh su əyəsinə səlam verəsən. Heş vaxdı suya tüpürməx, suya çirkab atmax olmaz. Yoxsa su əyəsin küsdürərsən, sənə zəfər toxuyar.

Su əyəsi suda yaşıyır. Suyun qırağında da bizdən yeylər yaşıyır. Gəlip su əyəsinə səlam verirsən, əyilirsən sudan işməyə. Bizdən yeylərin acığına gəlir ki, niyə bu su əyəsinə salam verdi, ancax bizə vermədi. Ona görə də sən əyiləndə səni daldan vırıllar, ağzın əyilir, gözün çer olur, dəli olursan.

Gərəh əyiləndə "bismillaxi-rəhmanir-rəhim" deyəsən, onda bizdən yeylər qaçacax.

Çay nənəsi qoca arvat cildində olur, özü də həmməşə çayda yaşıyır. Körpüdən, addamaşdan keçəndə ki, çaya çox baxırsan, onda, çay nənəsinin acığına gəlir. Başıvı gicəlləndirir, gözün axır, yıxılırsan çaya. Çünkü çay nənəsini hersləndirmisən, o da səni boğmağ isdiyir.

Bir gəlin gedir Arazdan su doldurmağa. Elə vedrələri çaya basmışdı ki, sudan bir cavan oğlan başı çıxır, başdıyır bına baxmağa. Bir gün belə, beş gün belə, gəlin qorxusunnan nə bir adama deyir, nə də oğlan bınnan əl çəkir. Görüllər ki, bı gəlin get-gedə saralıp-solur. Baldızı bının qılığına girir, əhfalatı öyrənib qardaşına deyir.

Kişi tüfəngi götürüp arvadını güdür. Görür ki, arvadı çaya çatan kimi doğrudan da sudan bir oğlan başı çıxır. Kişi tüfənginən bını vırır. Bir də görür ki, pütün Araz qana boyandı. Qurşaxdan yuxarı adam, qurşaxdan aşağı balıx olan bir ölü göyə qalxıp suya düşdü, yox oldu.

Kişi o sahat titrətmə-qızdırmaya tutulur. Bir-iki gün yaşıyannan sora ölür.

Dünyada nə ki yel, küləh var, hammısının ixtiyarı Yel babanın əlindədi. Xırman savıranda camahat Yel babanı köməyə çağırıp deyər: Yel baba, Yel baba, gəl, atıva saman apar.

Yel baba da gəlip xırmanı savırar. Dən qalar adamnara, samanı da Yel baba aparar öz atına.

Heş nə özbaşına olmur. Yel yeldi, onu da əsdirən var. Adına Yel babası deyillər. O isdiyəndə yel əsir, isdəmiyəndə yox. Yel dağı* da ziyaratdı. Kimin diləyi var gəlir, nəzir gətirir, qurvan kəsir. Bizdən savayı da gələn var. Hər dindən olur...

Çən, çisək, qara duman hamısı Çən qarısınındı. Onun torvası var. Buların hamısını torvasına yığıf saxlayır. Ajığı tutanda torvuyu açıf çən-dumanı buraxır. Çən çox qalanda Yel babasının xoşna gəlmir. Əsif hamsını dağıdır.

Dağda bir uşax-zad itəndə deyəllər ki, Çən qarısı torvasına salıf apardı.

Qara Çuxa – baxtdır, taledir. Qara Çuxa, adamın arxasınca gəzib-dolanır, adama kömək eləyir. Qara Çuxa adamnan gəzib dolanmırsa, demək, o adamın baxtı yatıb. Belə olanda deyərlər ki, filankəsin Qara Çuxası yatıb. Yox, əgər adamın Qara Çuxası yatmayıbsa, onda deyərlər, filankəsin Qara Çuxası dik durub.

Qara Çuxa övliyadır. Qara Çuxa evin astanasında durar, amma gözə görünməz. Evin astanasına çatdın, gərək Qara Çuxaya salam verəsən.

Babam Salahın at ilxısı varmış. İl uzunu ilxını çölə ötürərmiş, qar yağanda gedib toparlayıb gətirərmiş. Bir gün Salah babam ilxını gətirməyə gedibmiş. Birdən ilxıya canavar düşüb. Kişi görüb ki, o tərəfdən bir adam çıxdı, canavarların qabağını kəsdi, ilxıya yaxın düşməyə qoymadı. Salah babam başa düşüb ki, bu onun Qara Çuxasıdı. Salah babam gedib həmən yerdə yurd saldırıb. İndi ora Salah kahası deyirlər.

Bayramuşağı kəndində bir kişi varmış – Alı kişi. O qədər əkin-biçinlə məşğuluymuş ki, çarığını çıxartmağa macal tapmazmış

– çarığında buğda bitərmiş. Bir gün bir nəfər görür ki, Alı kişinin atı qayanın başında doğdu, qulunu az qaldı qayadan düşə. Görür ki, Alı kişi peyda oldu, qulunu qayadan düşməyə qoymadı. Kişi qayıdıb gəlir kəndə. Görür Alı kişi kənddədir – məəttəl qalır. Deyir ki, Alı əmi, axı mən səni qayanın başında gördüm, qulun qayadan düşürdü, sən qoymadın düşə.

Alı kişi deyir:

– A bala, o mənim Qara Çuxamıymış. O qulunu sənə bağışlayıram. Allah sənin də Qara Çuxanı uca eləsin.

Bir afçı var imiş. Bı afçı bir çətən külfətini avınan dolandırırmış. Günnərin bir günü baxır ki, əvdə heç nə yoxdu, arvad-uşax acınnan batır. Durup ava çıxır. Ancax nə qədər gəzirsə, əlinə bir şey keşmir. Deyir ki, ay Allah, mən heç, barı uşaxlarıma yazığın gəlsin, bir qismət yetir, aparım, acınnan ölməsinnər.

Bı kişi görür ki, yorulub, daha gedəmmir, uzanır bir ardışın kölgəsində, isdiyir yatsın. Elə gözdərini təzəcə yummuşdu ki, bir zənən səsi bına deyir ki, dur ayağa.

Afçı durur ki, qabağında göygöz bir arvat dayanıp. Arvat deyir: “Niyə yatırsan?”. Kişi qayıdır ki, bə neyləyim, av tapa bilmirəm ki, aparım balalarım yesin.

Arvat deyir ki, odurana, yanın doludur avla.

Kişi baxır ki, ardışın dalında çoxlu av var. Tez birin vurur. Sora çönür ki, arvat-zad yoxdu.

Bir ovçu çöldə ceyranla rastlaşır. Onu vurmaq istəyəndə görür ki, ceyran bir arvada çevrildi, acıqlı-acıqlı baxdı buna, sonra yox oldu.

Ovçu qorxur, qayıdıb gəlir evinə, bir də ovçuluq eləmir.

Bir ovçu var imiş. Əlli il ovçuluq eləyib həmişə də ov vurarmış. Bir yol gedib dağa. Birdən görür ki, qabağında bir təkə var. Elə tü-

fəngi qaldırır ki, vursun, bir də baxır ki, təkə oldu ağ saqqallı nurani bir qoca.

Qoca buna deyir ki, əlli il qırmısan, bəs deyil? Bu yazıq heyvanları sən yaratmısan?

Kişi qorxub qayıdır evinə. Neçə gün yorğan-döşəkdə xəstə yatır. Sonra durur tüfəngini qırır, bir də ova getmir.

Ajdıx düşüpmüş. Camahat yeməyə heş dad tapammırmış. Bir arvat min bir zulumnan bir tikə qatıx aşı bişirir. Davar gələndə qabı aşınan doldurup çıxır küçə qapısında yesin. Birdən yadına düşür ki, əvin qapısın bağlamıyıb. Qabı qoyur divarın üsdünə, qayıdır qapını bağlamağa. Qapını bağlayıb gəlir ki, aş yoxdu. Aşın yerində balaca bir kişi oturup. Kişi deyir ki, mən bı yerrərin sahabıyam. Hər gün bıra gəlirəm. Evin işığını sönmüş görəndə sənə acığım tutur. Qayıt içəri, işığı yandır.

Arvat qayıdıp evin işığın yandırır. Görür ki, qatıx aşı əvdədi. Çıxır eşiyə ki, kişi-zad yoxdu.

Bizim kənddə bir Süsənbər arvad varıydı. Süsənbər arvadın üzünün bir tərəfi qapqaraydı, gözünün də biri koruydu.

Bir dəfə gözümə gilas qabığı düşmüşdü, gözümü döyürdü. Süsənbər xala başımı qoydu dizinin üstünə, dilin ucuynan qabığı gözümdən çıxartdı. (Süsənbər xala gözə düşən qar-qabığı, çör-çöpü diliynən də çıxardırdı). Süsənbər xaladan soruşdum ki, sənin üz-gözünə nə olub belə?

Dedi, ay bala, bilməsən yaxşıdı.

Müharibə vaxtı qəbiristanlığın yanında taxıl döyürdük. Bu Süsənbər arvad gedib uzanırdı tayanın dibində. Birdən qışqırıb uzandığı yerdən qalxırdı. Deyirdim, ay Süsənbər xala, niyə elə eləyirsən?

Deyirdi, bala, yuxuya gedən kimi altımdan qışqırırlar, söyürlər, deyirlər, niyə yatırsan üstümüzdə?

Deyirdim, ay Süsənbər xala, kim qışqırır? Niyə başqaları yatanda qışqırmırlar, elə sən yatanda qışqırırlar?

Deyirdi, ay bala, neynirsən soruşub? Bir dəfə açıb ərimə demişəm, üzüm-gözüm bu günə düşüb.

Yazıq arvadın yaxasından əl çəkmədim. Axırda naəlac qaldı, dedi, bala, cavan vaxtımıydı – Kamıla təzəcə getmişdim – çardaqda yatırdıq. Gecə ağatlı, üzünurlu bir adam gəlib çardağın yanında dururdu, məni çağırırdı. Durub çardaqdan düşürdüm. Mən yerə düşməmiş quş kimi məni alıb qoyurdu tərkinə, aparırdı qəbiristanlıqları gəzdirirdi, bütün ölən qohum-əqrabamı mənə görsədirdi. Deyirdi, bu sirri heç kimə açma, sənə elə çörək verəcəyəm ki, ölənətən kasıblıq nə olduğunu bilməyəsən.

Sonra gətirib məni qoyurdu çardağın yanında, yox olurdu.

Kamıl məni döyürdü, öldürürdü, deyirdi, de görüm bu gecə vaxtı hardan gəlirsən?

Kamıl elə bilirdi pis yola gedirəm. Əlacsız qaldım, dedim, Kamıl, bu sirri sənə deyirəm, ancaq bil ki, bunnan da çörəyimiz kəsildi.

Nə görmüşdüm, hamısını açıb Kamıla danışdım. Təzəcə yatmışdım ki, üzümə bir şillə dəydi. Üzümün bir yanı oldu qapqara, gözümün bir tayı oldu kor. Dedim, Kamıl, di get indi qazan, saxla məni, görüm necə saxlayassan?

Ondan sonra o ağatlı ta heç vaxt gəlmədi.

Yuxuda gördüm ki, göy atlı, göy əmmaməli, üzü nurlu bir kişi, böyründə qılınc göynən gedir. Atının quyruğu duman kimidi, yalmanı bulud kimi. Baxdım, baxdım, gördüm ki, bu kişi Zarısdının bu yanında, Kırs dağının Altıntaxtında görünməz oldu. Ayıldım. Durdum yuxumu anama danışdım. Anam dedi:

– Allah xeyir eləsin, bala. Yuxuda gördüyün o kişi Cənabi Əmirdi. Cənabi Əmir həmişə bizim yerlərin üstüycə gəzərdi, dara düşənlərin dadına çatardı. Buralar qavırıstanlığa dönəndən o kişi də bizdən üz döndərib, çıxıb gedib. Cənabi Əmirin getməyi sənin yuxuna giribmiş.

## TƏQVİM MİFLƏRİ

Qabaxlar insannar bilmirlərmiş ki, illəri necə adlandırsınnar. Navrız bayramında bilicilər yığışıp çıxıllar gəzişə. Deyillər ki, qabağımıza hansı heyvan çıxsa, o heyvanın adını verəciyih bir ilə.

Bılların qabağına on iki adda heyvan çıxır. O heyvandarın addarı ilə on iki ilə ad verillər. Özü də il hansı heyvanın üstündə təhvil olsa, insannar o heyvanın xəsiyyətində olullar.

Birincisi, donquzunan tuşdaşmışdılar. Donquz ilində insannar salamat olallar.

İkincisi, siçan ilidi. İnsannar siçan kimi olallar, hər şeyi gəmirip dağıdallar.

Üçüncüsü, öküz ilidi. İnsannar işlək olallar.

Dördüncüsü, pələh ilidi. İnsannar pələh kimin yırtıcı olallar.

Beşincisi, dovşan ilidi. İnsannar dovşan kimin qorxaq olallar.

Altıncısı, balıx ilidi. İnsannar suda çox hərəkət eləllər bı ildə.

Yeddincisi, ilan ilidi. Bı ildə də insannar bir-birinin zəhərrər.

Səkkizincisi, at ilidi ki, bu ildə insanlar dözümlü olullar.

Doqquzuncusu, qoyun ilidi, bında insannar həlim, mehriban olallar.

Onuncusu, meymun ilidi. Bında insannar meymun kimin oyunbaz olallar.

On birincisi, quş ilidi. İnsannar bı ildə havada uçallar.

On ikincisi, it ilidi ki, bında da insannar it kimin boğuşallar, maharəbə-zad olar.

Bir padşah görür ki, bunun ölkəsindəki adamlar tez-tez illəri qatışdırırlar bir-birinə. Çünki illərin adı yox imiş. Padşah fikirləşir ki, gərək illərə ad qoyam. Durur çıxır səfərə. Uçardan, qaçardan, sürünərdən qabağına hansı çıxırsa onun adını verir bir ilə. Bunun qabağına on iki canlı çıxdığı üçün on iki də il adı düzəldir. Həmin canlılar bunlardı: donuz, siçan, pələng, dovşan, öküz, at, qoyun, meymun, it, quş, ilan, balıq. İllər də bunların adı ilə adlanır.

Lap qədim zamannarda aylar yoxuymuş. Bir vaxdı insannar görür ki, ilin günnərin qatışdırıllar. Durup illərin günnərin aylara bölüllər. Hər aya otuz iki gün verillər, boz aya on dörd gün qalır. Görürlər ki, boz ay inciyip, durub qalan ayların hərəsinnən bir gün alıp verillər boz aya. Onnar olur otuz bir gün, boz ay olur iyirmi beş gün. Görüllər ki, boz ay genə irazılaşmır. Qayıdıp aylardan genə bir gün istəyillər. Ayların yarısı deyir ki, ta otuz bir günümüz var, verə bilmərik.

O biri yarısı isə bir gün verir, hələ biri iki-üç gün verir. Boz ay olur otuz bir gün. Qalannarının da bəzisi otuz bir gün, bəzisi otuz gün, bəzisi isə iyirmi doqquz-iyirmi səkkiz gün olur.

Boz ay günnərin çoxunu o biri aylardan aldığı üçün qatışıxdı, bir cür deyil. Çünkü boz ay soyux günnəri qış aylarınnan alıp, isti günnəri yaydan alıp, yağışdı günnəri yaznan payızdan alıp.

İli bölüplər aylara. Mart ayına gün çatmayıb. Götürüb bütün ayların hərəsindən bir neçə gün kəsib, veriblər həmin aya. Ona görə də mart ayı sabit deyil.

Qışda hər şey yatıp donur. Yaz gəlip dörd dəfəmə bınnarı ayıldır. Bınnarın ayılması Novruz bayramında* olur. Ona görə də Novruz bayramı dörd həftədi.

Novruzun birinci həftəsi yer, torpax ayılır. Otlar cücərip yerdən qalxır, ağaşdar yaşıllanır, camahat yer belliyir, əkin əkirlər.

İkinci həftə yel ayılır, küləh əsir, ağaşdar çifdənir, havanın ağırrığı sınır.

Üçüncü həftə su ayılır, camahat suyun üsdünnən tullanıp aydınnığa çıxıllar.

Dördüncü həftə od ayılır. Camahat qışdan qalan xəstəliyi, ağırlığı odun üstünə tökürlər, oddan tullanıb yüngülləşirlər. Odun da istisi azalır. Bundan sonra yeni gün başlanır.

Qış bir qoca qarıdı. Üç oğlu var: Böyük Çillə, Kiçik Çillə, Boz ay. Anaları birinci Böyük Çilləyi yollayır ki, get. Bu gedib gəlir. Anası deyir, nə etdin?

Deyir:

– Ocağın qırağına düzdüm gəldim.

Sonra Kiçik Çillə gedir. Gələndə anası deyir, sən nə etdin?

Deyir:

– Ocağın içinə doldurdum gəldim.

Axırda Boz ay gedir. Bu gələndə anası yenə soruşur ki, bəs sən nə etdin? Bu cavab verir ki, ocaqdan çıxartdım gəldim.

Qışda ilin üzü dönür.

Deyirlər, qış – qartımış bir qarıdır. Bu qarının üç oğlu var. Biri Böyük Çilədir, biri Kiçik Çillədir, biri də Boz Aydır. Qarı qabaqca Böyük Çilləni göndərir. Böyük Çillə gəlir.

Qayıdanda qarı soruşur ki, neylədin?

Böyük Çillə deyir:

– Getdim sildim-süpürdüm, künc-bucaxları boşaltdım gəldim.

Qarı Kiçik Çilləni yollayır. Kiçik Çillə gəlir. Qayıdanda anası soruşur ki, neylədin?

Deyir:

– Arvadları təndirdən soxdum, küflədən çıxartdım, əhdlərini kəsdim gəldim.

Qarı Boz Ayı göndərir. Boz Ay gəlir. Qayıdanda anası soruşur ki, sən neynədin?

Boz Ay deyir:

– Getdim otu göyərtdim, gül-çiçəki açdım gəldim...

Üç çillə var: Böyük Çillə, Kiçik Çillə, bir də Boz Çillə.

Böyük Çillə deyir ki, dolu qazanlar üstünə gəlmişəm, qarıları sağlam görmüşəm.

Qırx gün yaşayandan sonra bu gedir. Yolda Kiçik Çillə ilə rastlaşır. Kiçik Çillə soruşur ki, getdin neylədin, nə gördün?

Böyük Çillə elədiyini, gördüyünü deyir. Kiçik Çillə deyir ki, eh, sən heç nə eləməmisən. Mən gedib qazanları ağzı üstə çevirəcəyəm, qarıları təndirdən basıb küflədən çıxardacağam.

Boz Çillə də bu yandan çıxıb deyir ki, sənin acığına mən də gedib əkinləri cücərdəcəyəm.

Böyüh Çilləynən Kiçih Çillə yolda rasdaşıllar. Kiçih Çillə Böyühdən soruşur:

– Getdin nə qayırdın?

Böyüh Çillə deyir:

– Təndirrəri yandırdım, kürsüləri qurdurdum, küplərin, xarallaların ağzını aşdırdım.

Kiçih Çillə deyir:

– Qoy mən gedim, gör neyniyəcəyəm? Qarıları təndirə basıp küflədən çıxaracıyam, küpləri, xaralları boşaldacıyam, üzüquylu qoyup gələciyəm.

Böyüh Çillə də deyir:

– Başarmazsan...
Qabağı yazdır,
Ömrün azdır.

Böyük Çillə ilə Kiçik Çillə bacıdılar. Kiçik Çillə Böyük Çillədən soruşur ki, getdin neynədin?

Böyük Çillə də deyir ki, getdim camaatın dənlərin üyütdüm, qovurmaların elədim, qalaqların vırdım, çörəklərin yapdım, gəldim.

Kiçik Çillə deyir ki, kül başına. Mən gedəcəm qocaları təndirə basıb küflədən çıxaracam, uşaqları da əllərində çillələyəcəyəm. Amma hayıf ki, ömrüm azdı. Kaş sənin ömrün məndə olaydı.

Üç Çillə var: Böyük Çillə, Kiçik Çillə, bir də Boz Çillə. Bunlar bir-birilə rastlaşırlar. Böyük Çillədən soruşurlar ki, getdin nə etdin? Deyir ki, getdim silib süpürdüm, küpələri, xumları boşaltdım.

Kiçik Çillədən soruşurlar ki, bəs sən nə etdin? Deyir ki, qarıları təndirdən soxub küflədən çıxartdım, əhətlərini kəsib gəldim.

Boz Çilləyə Ağlar-gülər ay da deyirlər. Bundan soruşdular ki, bəs sən nə etdin? Dedi ki, mən getdim Bayramı apardım, gül-çiçəyi açdırdım, əkini cücərtdim. Məni görən pişik çıxdı yükün üstünə. Bığın burdu, əlin-üzün yuyub dedi:

Kürsü altı aranım,
Yük üstü yaylağım.

Kiçik Çillədən on gün sonra Xıdır Nəbi bayramı keçirirlər. Qovut çəkirlər, xəşil bişirirlər. Bir qovut götürüb qoyurlar eşiyə. Qovutu ələklə yaxşı sığallayıb hamarlayırlar ki, Xıdır Nəbinin çəliyinin izi düşsün. Xıdır Nəbi çəliyini qovuta bassa, ev-eşiyə bərəkət gələr.

Xıdır Nəbidə bir qab qovutu aparıb zəmiyə səpərlər ki, taxıl bol olsun.

Qarının borcu* avrılda olur. Deyir, bir qarının xeyli oğlağı var imiş. Qışın axırı olur. Bunun otu-ələfi qurtarır. Nəsə bir təhərnən, ölüm-zülüm martı keçirir. Çöldə ot-zad göyərir, oğlaxlar yeyib oynaşır. Qarı bunu görüb marta acıx verir ki:

Mart, gözünə barmağım,
Oynaşır oğlaxlarım.

Bunun sözünə martın acığı tutur. Gəlir avrılın yanına ki, mənə on gün borc ver, işim var. O da verir. Bu on gündə mart bir çoyğun, bir tufan eliyir ki, gəl görəsən. Qarının bircə oğlağı da qalmır, hamısı qırılıb ölür. Qarının borcu da o vaxtdan qalıb. Ona görə deyirlər ki, “mart çıxdı – dərt çıxdı”.

Böyük Çillə qırx gün çəkir – dekabrın 22-dən yanvarın axırına kimi.

Kiçik Çillə iyirmi gün çəkir – fevralın 1-dən 20-ə kimi.

Boz ay fevralın 21-dən martın 21-ə qədər olur. Boz aya – ala-çalpov da deyirlər.

Bir qarının bir neçə çəpişi varıymış. Mart girəndə qarı deyir ki, çəpişləri martdan salamat çıxardım, bu ala çəpişi qurban deyirəm.

İl yaxşı gəlir, martın axırında hər yan gül-çiçək olur. Qarı marta acıq verir, deyir:

Mart, gözünə barmağım,
Oynaşır oğlağlarım.

Mart acıqlanır, apreldən üç gün borc alıb, qar yağdırır. Qarının çəpişləri qırılır.

Novruz bayramına açılacaq gecə, gündüzlə gecə tən yarı olur. Həmin dəqiqədə çay bir an dayanır, yenidən axır. Kim həmin vaxt nə arzu eləsə, dilində hansı sözü desə o iş hasil olur.

Araz qırağındakı kəndlərdən birində bir təzə gəlin yaşayırmış. Bu gəlin ilin axır gecəsi, Dan ulduzu doğan zaman qalxıb çayın qırağında gözləyir. Birdən görür ki, coşqun Araz çayı dayandı. Gəlin tələsik deyir: İndi gedəm ki, ərim qızıl olub.

Sonra gəlin qayıdıb evə gəlir, yatağına uzanır. Bir qədərdən sabah açılır, hava işıqlaşır. Gəlin yerindən qalxır, ocaq qalayır, bayram süfrəsi bəzəyir, bayram aşı bişirir. Amma görür ki, əri oyanmır. O, ərini çağırır, silkələyir, ancaq əri yuxudan oyanmır ki, oyanmır. Üzündən yorğanı götürəndə görür ki, əri qızıl olub. Gəlin ağlaya-ağlaya onu götürüb farmaşa qavlayıb yükə qoyur. Qohum-qonşulara da deyir ki, ərim bayram aşını yemədi, gecə ikən çıxıb ayrı məmləkətə işləməyə getdi.

Sahibsiz qalan gəlin gecə-gündüz ağlayır, peşmançılıq çəkirdi. Bir müddətdən sonra gəlinin yeməyi-içməyi tükənir. Gəlin bilmir dərdini kimə desin. Axırda naəlac qalır. Gecənin birində qalxıb far-

maşı açır, ərinin çeçələ barmağını kəsir, səhərisi aparıb zərgərə verir, əvəzində pul alıb gətirir, xərclik edir və birtəhər dolanır. Nəhayət, ilin axır gecəsi gəlib çıxır. Gəlin lap axşamdan oturur Arazın qırağında, gözünü dikir çaya. Dan ulduzu doğan zaman birdən Araz yenə dayanır. Gəlin deyir: "Ay su, gedim görüm ki, ərim yenə çevrilib adam olub!" Sonra gəlin qalxıb evə gəlir, görür ki, farmaş tərpənir. Tez farmaşın ağzını açır, ərini ordan çıxarır. Başına gələn əhvalatı ona danışır. Bundan sonra əkin-biçin eləyib firavan dolanırlar. Amma yazıq gəlin öz ərinin kəsik barmağını görəndə hər dəfə xəcalət çəkirdi.

Bir arvad çərşənbə gecəsi səhərə çox qalmış səhəngi götürüb çaya su dalınca gedir. Səhəngi nə qədər suya basır, səhəng suya batmır. Sən demə, su yatıbmış. Arvad qayıdıb evə gəlir. Sonra bir də gedir. Görür, su şırhaşırla axır. Səhəngi doldurub qayıdır.

Bir çərşənbə gecəsi bir arvadla bir kişi yatmışdılar. Gecənin bir vaxtında arvad ayılıb ərinə deyir:

– Ay kişi, yadımdan çıxıb buzovu bağlamamışam.

Arvad yuxulu-yuxulu çölə çıxıb görür ki, həyətdə böyrü üstə bir ağac yıxılıb. Buzovu gətirib həmin ağaca bağlayır, qayıdıb yerinə girib yatır.

Kişi səhər yuxudan duranda görür ki, buzov ağacın başından sallanır. Tez arvadını çağırır. Arvad gəlib bu vəziyyəti görəndə gecə baş vermiş hadisəni ona danışır. Adamlar yığışıb fikirləşirlər ki, bu necə olan işdi?! Sonra qocalardan biri deyir ki, çərşənbə axşamı hər şey yatır, yəqin ağac da yatıbmış Arvad buzovu gətirib ona bağlayıb, ağac oyananda buzovu da özü ilə qaldırıb.

İlin axır çərşənbəsində Qədir gecəsi olur. Bu elə gecədi ki, yalnız yaxşı adamların gözünə görünür. Həmin gecədə hər şey təpəsi üstə dayanar. Özü də o, yaxşı adamların gözünə görünəndə onların nə diləyi olarsa, o saat yerinə yetir.

Belə deyirlər ki, həmin adamlardan biri Qədir gecəsini görür. Tez ürəyində nə varsa, başlayır istəməyə. Əvvəlcə deyir ki:

Qadir mövlam, budu səndən diləyim,
Sağına gələydi qırx min inəyim.

Kişi baxıb görür ki, düz-dünyanı bunun inəkləri tutub. Sayı-hesabı yoxdu. Sevincək tez dalını deyir:

Qızıldan evlərim, gümüş dirəyim.

Baxıb görür ki, gümüş diləkli evlər hazır oldu. Baxanda adamın gözünü qamaşdırır. Bir gözəlliyi var ki, dillə demək olmaz. Tamahı güc gəlib dalını deyir:

İçində də nazlı yarım olaydı.

Belə deyəndə bu dilək Qədir gecəsinin xoşuna gəlmir. Nə yerinə yetiribsə, hamısını qaytarır. Kişi baxıb görür ki, nə qırx min inəyi var, nə də gümüş dirəkli qızıl evi. Bir dizinə vurur, bir də başına.

Bir kasıb oğlan axır çərşənbənin səhərisi sübhdən durub görür ki, həyətdəki söyüd başını əyib, başı yerə dəyir. Özünü itirib deyir:

– Gedib görüm, anam qızıl olub.

Evə girib görür ki, anası dönüb qızıl olub. Başına-gözünə döyə-döyə başlayır ağlamağa. Oğlan anasının qızıla dönmüş heykəlini bir il evdə saxlayır. Yenə axır çərşənbə gəlir. Oğlan sübh çağını gözləyir. Görür həyətdəki söyüd yenə başını əydi. Tez deyir:

– Anam dönüb adam olsun.

Oğlan qayıdır evə, görür anasının qızıl heykəli dönüb adam olub.

İl təhfil olanda ağaşdar başdarın əyip yerə dəyir. Bı vaxdı nə niyyət eləsən, yerinə yetəcəh. Bir gəlin bını görür, tez isdiyir desin ki, dirəyim qızıl olsun, karıxıp deyir ki, ərim qızıl olsun.

Sora qayıdır evə ki, əri çönüp olub qızıl heykəl. Ağlıyır, baş-gözünə döyür, ancax əli hara yetişəcəh ki?! Arvat birtəhər bir il dolanır, amma kasıbçılıx ucundan ərinin çeçələ barmağın qırıb xərşdiyir.

O biri il axır çərşənbədə arvat yenə görür ki, ağaşdar başdarın yerə vırdı. Tez deyir ki, ərim adam olsun.

Sonra qayıdır evə ki, əri adam olub, ancax çeçələ barmağı yoxdu.

Deyirlər, köhnə ildən təzə ilə keçəndə su dayanır, at kişnəyir, ağaclar səcdəyə gəlir. Söyüd deyir: "Mən də, mən də". Bu vaxt kim nə niyyət eləsə, niyyəti qəbul olur.

Bir arvad bayram gecəsi su gətirməyə gedir. Görür ağaclar səcdəyə gəldi. Niyyət eləyir ki, əlimdəki səhəng qızıl olsun. Səhəng qızıl olur. Arvad özünü itirir, deyir ki, boynum sınaydı, bə mən evə susuz necə gedəcəyəm. Arvadın boynu sınır.

Bir dəfə ilin-ayın axır gejəsi bir qızın nişannısı onun yanına gəlir. Elə olur bir azdan oğlan yatır. Gejənin bir vaxtı qız görür ki, at göyşədi. Təntiyir, deyəsidi ki, "kürək qızıl olsun", deyir: "Allah, bu oğlan qızıl olsun". Oğlan qızıl olur. Deyillər ki, bu qaldı bir də gələn Noyruza. Bir gün qıza qızıl lazım olur. Sınağ üçün oğlanın çeçələ barmağını götürür. Vaxt gəlir, genə ilin-ayın axır gejəsi olur. At göyşüyəndə qız diləh diliyir. Oğlan genə dönüp adam olur. Deyir, mən nə qədər yatmışam. Bir də deyir ki, mənim barmağım niyə belədi, yerində niyə yoxdu? Təzədən qohum-qardaş başa salır ki, belə-belə...

İlaxır günü bir arvad bızovu aparır ki, çərşənbə suyu içsin. Bızov su içəndə arvat görür ki, yanında yekə bir ağaş qırılıp düşüp yerə. Bızovu bağlayır ağaca, başdıyır özü də əl-üzünü yumağa. Sora çönür ki, bızov yoxdu. Deyir yəqin açılıp gedip. Amma görür heş zad yoxdu. Nə bızov var, nə də ağaş.

Səs gəlir. Arvat yuxarı baxır ki, bızov ağacın kəlləsinnən sallanır. Sən demə, ilaxır olduğunnan ağaş yerə uzanıbbış. Arvad da bilmiyip, bızovu bağlıyıp ona. Özü də heş bir niyyət eləmiyibpiş.

Yazın ilk gecəsi imiş. Bir arvad durur ki, aparıb inəyini sulasın. İnəyi sulayır, görür ki, çayın qırağında bir söyüd ağacı var. Söyüd ağacı yerə əyilib. Belə ağlına gəlir ki, inəyi buradaca söyüdə bağlasın, söyüdün göy budaqlarından inək yesin. İnəyi bağlayıb evinə gedir. Sabah açılır. Qadın gəlir ki, inəyi aparsın, baxıb görür ki, söyüd başını yuxarı qaldırıb, inək də ağacın başında boğulub ölüb.

Axır çərşənbə günü bir kişi deyir ki, nə bayram? Mən bayram-zad tanımıram.

Gecə yarısı bı kişini eşiyə çağırıllar. Kişi çıxır eşiyə. Arvad-uşağı ha gözdüyür, kişi qayıtmır. Durub başdıyıllar axdarmağa, ancax səhərə kimin hara gedillərsə, "gördüm" deyən olmur.

Bir-iki günnən sonra arvad-uşax evdə ağladığı yerdə eşikdən genə bınnarı çağırıllar. Bınnar çıxır kin, eşikdə heş kim yoxdu. Bir də baxıllar kin, kişinin papağı göydən düşdü. Demiyəsən bı kişi bayramı bəyənmədiyi üçün onu çəkiplər göyə. Papağı da göydən düşüp kin, camahata bildirsin kin, kim bayramı bəyəmməsə, axırı belə olacax.

## HEYVANLARIN VƏ BİTKİLƏRİN MƏNŞƏYİ

Başkeçidin Duluç kəndində bir kişi, bir arvad yaşayırdı. Bunlar ər-arvad idi. Kişi ovçuydu. O, hər gün meşəyə gedirmiş, oradan quş, heyvan vururmuş. Bir dəfə kişi arvadını meşəyə aparır. Ovçu arvadı ilə meşədə bir qədər gəzdikdən sonra bir bulağın başına gəlirlər. Elə bu zaman onlar bulağın başında bir Ana Maral görürlər. Ovçu istəyir ki, Maralı vursun. Arvadı onun əlini tutub saxlayır, qoymur Maralı vurmağa.

Bundan sonra onlar hər gün meşəyə gedirlər. Ana Maral da onların qabağına çıxır. Bir gün ovçu bərk xəstələnir. Daha meşəyə gedə bilmir. Ana Maral təşvişə düşür, nigarançılıq keçirir. Ana Maral bir neçə gün də onları gözləyib ovçunun evinə gedir. Gəlib görür ki, ovçu xəstələnib evdə yatır. Maral geri qayıdır. Səhəri gün arvad durub görür ki, qapının ağzında bir qabda süd var. Onlar bu işə çox təəccüblənirlər. Sonra bilirlər ki, bu, Maralın işidir. Arvad hər gün südü kişiyə verir. Bir neçə gün belə keçir. Ovçu tamam sağalır.

Bir neçə ildən sonra da arvad xəstələnir. Ana Maral kişiyə necə süd verirdisə, indi də arvada hər gün süd qoyub gedir. Nəhayət, arvad da yaxşılaşıb ayağa durur.

Sonra onlar qocalıb ölürlər. Onları aparıb bir dağın başında basdırırlar. Hər gün Ana Maral öz sürüsü ilə bu dağın başına çıxar, məzarların başına dolanıb gedərmiş. Ona görə də bu dağa "Maral dağı" deyirlər.

Qədim zamanlar Borçalı çökəyində çaylaqda bitən sulqun ağaclardan başqa arada uzanan ərazidəki Babakər dağları tamam qalın meşəlik imiş.

Burada hər cür heyvan yaşayırmış. Bu yerlərdə gözəl, gur bulaqlar da varmış.

Mal, heyvan saxlamaq üçün Babakər dağının döşündə kəndlilərin çoxlu yataqları da var imiş.

Kəndlilər qışın sərt gəlməsindən qorxaraq yataqların yanına ot tayaları da yığarlarmış. Vaxt o vaxt olur ki, möhkəm qar yağır, hər yan qalın ağ pambığa qərq olur.

Çöldəki heyvanlar qalın qarda bir yana çıxa bilməyib, batıb qalırlar.

Vəhşi heyvanlar üçün ovu tutmaq asanlaşır. Xırda ov heyvanları qurtardıqdan sonra, irilərin üstünə düşürlər.

Ancaq qoyun, dana, buzov otaran çobanlar həmişə "Maral qayası" deyilən yerdə bir iri buynuzlu Maralın durub ətrafa boylandığını görürlərmiş. Bir gecə qalın qarda ayaq tappıltısına, it hürüşməsinə çobanlar eşiyə çıxırlar.

Görürlər, buynuzları ağaca bənzəyən, iri gövdəli bir Maralı yalquzaq qovub haldan salıb, axırda Maral qoyun yataqlarına sığınacaq gətirib.

Çobanların səsi çıxan kimi yalquzaq əldən çıxır, itlər sakitləşir.

Maral qış ehtiyatı üçün yığılmış ot tayasına yaxınlaşır, yeməyə başlayır. Köpəklər Maralın da keşiyini çəkirlər. Maral üç ay qışı burada yaşayır.

Yaz gəlir, qarlar əriyir. Babakər dağları yaşıla boyanır.

Maral öz örüşünü dəyişir, Maral qayasının qoynunda məskən salır. İstilər düşəndə çobanlar başqa yaylağa yollanır.

Maral Babakər dağının yamyaşıl otunu otlayıb, sərin bulaqlarının suyunu içib hərdənbir Maral qayasında görünərmiş.

Bu hadisəni Babakər dağının ətəklərində dana-buzov otaranlar görüb, el-obaya xəbər verirlər ki, Babakər dağının zirvəsindəki qayanın başında bir maral var.

Cavanlardan bir neçəsi kəhərlərini minib maral ovuna hazırlaşdılar. Pusquda durdular. Xam olduqlarına görə bir əncam edə bilmədilər.

Bir neçə təcrübəli adam da bu cavanlara qoşulub həmin qayanı mühasirəyə aldılar. Maral qayanın başından elə atıldı ki, quş kimi uçub əldən çıxdı. Elə o vaxtdan Babakər dağının zirvəsindəki qayaya "Maral qayası" deyirlər.

Çox qədim zamanlarda Gəncə çayındakı düzənlik cəzirədə qarasaqqallı cavan bir oğlan yaşayırmış. Onun qamışdan hörülmüş bir koması var imiş. Bu oğlanın yaşadığı yer ceyran, cüyür, maralla dolu imiş. Hər axşam-səhər marallar komaya yaxınlaşar, qarasaqqallı cavan onları sağarmış.

Günlərin birində bu cəzirəyə ceyran qova-qova iki ovçu gəlir. Onlar ac imiş. Cavan oğlandan yemək istəyirlər. Oğlan bir neçə maralı sağıb, kiçik tavada yayma bişirir. Ovçular təəccüblə soruşurlar:

– Bu yemək bizə çatarmı?

– Çatar, çatar, səbr eləyin.

Doğrudan da onlar yaymadan doyunca yeyir və tavada yenə yayma qaldığını görürlər.

Ovçulardan biri qarasaqqallı oğlandan çox razı qalıb bacısını ona vermək fikrinə düşür. Öz fikrini qarasaqqal oğlana söyləyir. Oğlan razı olur. Toy günü gəlini atla oğlanın komasına gətirirlər. Komaya yaxınlaşar-yaxınlaşmaz qızın yengəsi qarasaqqallı oğlanı görüb ona tənə edərək deyir:

– Ay qız, bu kifirin, adama oxşamazın nəyinə gəlirsən, ay bədbəxt?

Elə bu vaxt qızın başı ilə gələn atlılar oğlanın ölü namazı qıldığını görürlər. Onlar soruşurlar:

– Axı toydur, sən niyə ölü namazı qılırsan?

– Düzdür, toydu, ancaq indicə bura ölü düşəcək.

Doğrudan da yengə atdan düşən kimi canını tapşırır. Hamı heyrətə gəlir. Elə o cəzirədə ilk qəbir yengənin olur. Qarasaqqal oğlanın yaşadığı yer kənd olur. Bu kəndin adı oğlanın adı ilə Qarasaqqal çağrılır.

Göydağın yaylarında marallar otlar, Göybulağın suyundan içib Mahpeykər adlı halal bir qadının qapısına sağına gələrmiş. Maral sağına gec gələndə Mahpeykər onları oxuya-oxuya nəğmə ilə çağırarmış:

Maral çeşdə tökülsün,
Südü teştə tökülsün.

Marallar bu mahnını çox sevərmiş. Mahnını eşidən kimi Göydağdan sağına enərlərmiş. Həmin mahnı el arasında çox məşhurdur.

Qara Nər dediyimiz ocaxdı. Orda ocax yeri varıymış. Bir dəfə də ocax yanında içinnən bir yekə nər çıxır. Ora ziyarət olur. Adına da Qara Nər deyirlər.

Sonra buraya da marallar dadanır. Hər gün gəlirmişlər. Həmən Ocaxıllıda bir arvad olur. Bu gedib maralları sağırmış, südünü də öyə gətirirmiş. Gejə hamı yatannan sonra gedib dan üzü tezdən qayı-

darmış. Bir dəfə arvat qayıdanda kişi bilir. Deyir, paltarın höyüşdü, hardaydın? Arvad deyir ki, belə-belə. Kişi bir vaxt buna inanmır, deyir gərək gözümnən görəm. Genə bir gejə arvad gedəndə kişi də durub bunun dalıncax gedir. Görür ki, arvad gəlif maralları sağır. Savax soruşur, arvad, bu süd hardandı? Deyir, öz malımızdan. Kişi heş nə demir. O biri gün yenə arvadın dalıncax gedir. Gəlif görür ki, arvad genə maralları sağır. Arvad kişinin gəldiyini bilir, əyəğə durur. Deyir, a kişi, ay öyün yıxılsın, niyə gəldin? Deməmişdimmi marala görühmə?

Kişi dedi, nədi ki? Arvad dedi, bir o yana bax. Kişi geri çöyrüldü ki, nə arvad – bir marala dönüf getdi.

Kəpənəkçi kəndində Qaranər deyilən bir ziyarət var. Qaranər ləqəbli həmin kəndin nüfuzlu bir ağsaqqalı olmuş, öləndən sonra həmin yerdə dəfn eləmişlər. Onun qəbri üstündə günbəz vardır. Daha doğrusu, qəbir ev kimi bir dam içərisindədir. Deyirlər, həmin kişi əslini tanımadığı bir qızla evlənir. Bunların uşaqları olmur.

Bir vaxt Qaranər baxır ki, arvadı gecələr evdən çıxıb səhərə yaxın qayıdır. Səbəbini soruşanda arvadı "heç bunu xəbər alma" deyir. Gecənin birində kişi görür ki, arvadı evdən çıxıb getdi. O da qalxıb dalınca gedir. Baxır ki, təpəlikdə bir sürü maral durur. Arvadı da onları sağır. Arvad kişini görən kimi maral olur. Marallara qoşulub gedir. Kişi rəhmətə gedəndə onu bir günbəzdə dəfn eləyirlər. O vaxtdan bəri kənd camaatı bir maralın həmin günbəzin yanına gəldiyini söyləyirlər.

Bu maral bir dəfə görünübdü. Əhvalat belə olub. Kənd camaatı görüb ki, maral bir neçə dəfə günbəzin yanında görünür. Bir dəfə itlər kəndin yaxınlığından onu qovurlar. Bir gün gedirlər ki, maral Qaranərin qəbri yanında uzanıb ağlayır. Özü də heç kəsdən qaçmır. Camaatın üzünə baxır. Marala baxmaq üçün hər tərəfdən adamlar gəlir. Maralda heç bir yara yox imiş. Həmin yerə bir xalça salırlar. Maral qalxıb həmin xalçanın üzərində uzanır. Heç kəs ona toxunmağa cürət eləmir. Üç gün elə qalır. Sonra maral ölür. Kənd camaa-

tı, Qaranərin qohumları maralı el adəti ilə həmin yerdə dəfn edirlər. Belə deyirlər ki, bu maral həmin arvadın özüdü. Ölümünü bilən vaxt gəlib öz istəklisinin yanında canını tapşırıb.

Niqoy dağının ətəyində səfalı bir bulaq var. Vəli kişinin nənə-babası özünün dörd qardaşı ilə bir yerdə buraya binə düşürlər. Vəli babanın babası kasıb bir şəxs olduğundan mal-qara saxlayarmış. Kişi həmişə mal-qaranı çölə aparar, axşamüstü isə evə qayıdarmış. Arvadı da eltiləri ilə birlikdə Niqoy dağının ətəyindəki bulağa su gətirməyə gedərmiş. Dörd eltinin dördü də cüt gedər, ancaq geri üçü qayıdar, biri orada qalarmış. Həmin bu qarı Vəli babanın hərəmi imiş. Bir ay belə bunlar suya gedər, eltinin üçü qayıdar, biri sonra gələrmiş. Bu zaman onun gözünə qeybdən maral sürüləri, çoxlu mal-qara, qoyun-quzu, adam görünərmiş. Arvad bunlara qoşulub kömək elərmiş. Bunu bir ay belə görən eltiləri şübhələnirlər. Əhvalatı onun ərinə xəbər verirlər ki, biz dördümüz bir yerdə suya gedirik, ancaq üçümüz geri qayıdırıq. Sənin arvadın bizi irəli göndərir, özü xeyli sonra gəlir. Uşağı körpə olduğundan dözmür, ana südü istəyir, həmişə ağlayır.

Bunu belə eşidən qoca arvadını izləməyə başlayır. Günlərin bir günü eltilər yenə suya gedəndə kişi bunların dalınca gedib bir ağacın arxasında gizlənir. Bir də görür ki, üç elti üçü də suyu doldurub getdilər, ancaq bu arvad orada qaldı.

Arvadın qeybdən gözünə görünən şeylər kişinin də gözünə görünür, kişi görür ki, maral sürüləri, mal-qara gəldi. Arvadı adamlarla birlikdə yuxa yaymağa, halva çalmağa başladı. Bu vaxt qəfildən arvadı görür ki, əri ağacın dibində onu pusur. Arvad geri dönüb ərinə belə deyir: “Evin yıxılsın, evimi niyə yıxdın?! Məni niyə pusursan, məni nə qədər günaha batırdın”. Kişi bu işlərə məəttəl qalaraq arvadının üzünə baxır, arvad əlində çaldığı halvadan bir çay qaşığı ərinə verib deyir ki, bunu apar qırx gün o körpə uşağa yedizdir. Yanan ocağın külündən də bir ovuc verir ki, bu külü apar saxla. Bu, ocaq olacaq, səni dolandıracaq. Bu sözləri deyib arvad qeybə çəkilir. Kişi qeybdən mal-qaranın, buzovların, maralların, qoyun-quzunun

mələşməsini eşidir. Bir azdan sonra kişi özünə gəlir. Görür ki, arvad maral sürüsünə qoşulub gedib, qeybə çəkilib. Xeyli peşmançılıqdan sonra əhvalatı hamıya xəbər verir. Sonra arvadın verdiyi halvanı qırx gün uşağa yedizdirir. Bir ovuc külü də gətirib dəyənin yanına tökür.

Bu zaman görür ki, kül özbaşına yanmağa başladı. Bunu eşidən kənd camaatı qocaya deyir ki, sən bu külü gətir evinin yanında bir yerə tök. Qoca külü gətirir evin yanına. Ocağın adına Qaranər deyirlər. Çünki, Vəli babaya yuxuda deyirlər ki, ocağın adını Qaranər qoy. Deyilənə görə, qeybə çəkilmiş qadın maral sürüləri ilə birlikdə gəlib oranı ziyarət eləyir, yenə də qeybə çəkilirmiş.

Bir zamanlar bizim meşələr marallar, ceyranlar oylağı imiş. Uzaq-uzaq ellərdən də bura ova gələrlərmiş. Bir gün bura bir mahir ovçu gəlir. O, gündə neçə günahsız qana bais olurmuş. İsti günlərdən biri imiş. Ovçu çoxdan bəri axtardığı bir ana maralın izinə düşür. Deyilənə görə, elə gözəl heyvan yox imiş. Ovçu onu bulağa su içməyə enəndə vurur. Köksündən yaralanmış maral çırpına-çırpına həsrətlə gah suya, gah da meşəyə baxır. Onun başını kəsmək istəyən ovçu maralın gözlərindən axan yaşı görüb sarsılır. Maralın baxdığı səmtə çevriləndə anasına doğru boylanan bir cüt bala görür. Əməlindən peşman olub, bir də ovçuluq etməyəcəyinə and içir. Maralı həmin yerdə basdırır. Üstünə nişanə üçün bir ağac sancır. Səhərə yaxın kəndin əhalisi bulağın başında bitmiş qollu-budaqlı çinarı görüb heyran qalır. Hamı bu möcüzənin tamaşasına çıxır. Baxırlar ki, köhnə çinar quruyub, ondan azacıq aralı kiçik təpəciyin yanında isə bir cüt bulaq əmələ gəlib. Ucalan çinar da hər iki bulağın ortasında bitib. Ovçu əhvalatı söyləyir. Bunu hərə bir yerə yozur. Elə o vaxtdan da bulağın adı "Maral bulağı" adlanır.

Deyilənlərə görə, indi də hər günorta Maral bulağına bir cüt maral enib su içir. Heç kəs də onlara dəyib dolaşmır.

Qəbələnin Xırxatala kəndində Hüsnü adlı bir arvad olub. Onun bir oğlu, bir gəlini olub. Hər gün oğlu işə gedəndən sonra bu arvad

nəvəsini, gəlinini evdə qoyub harayasa gedir, süd gətirib gəlir. Bir neçə gün belə təkrar olunur. Bir gün gəlin deyir ki, bu arvadın arxasınca gedib baxacağam, görüm o neyləyir. Gəlin gedib görür ki, qaynanası bağda bir cüt ana ceyranı sağır. Bu dəm qaynana çevrilib dala baxır. Elə orada da quş olub ceyranlarla bərabər çıxıb gedir.

Həmin yer indi ziyarətgahdır.

Qabaxlarda yer göyə yaxın imiş. Kimin nə sözü, nə dərdi var imiş, elə yerdəncə Allaha deyərmiş.

Allah ağır işləri görməkdə insanlara kömək etmək istəyir. Ona görə də başlayır heyvanları, öküzləri, inəkləri yaratmağa. Özü də onlar danışa bilirmişlər. İnsanlar başlayır bu heyvanları işlətməyə, harda ağır iş olsa, onlara gördürməyə. Axırda heyvanlar insanların əlindən təngə gəlirlər. Yığışıb gedirlər Allaha şikayətə. Deyirlər ki, bəs yorulduq, daha dözə bilmirik. İnsanlar bizi çox işlədirlər.

Allah onların şikayətini dinləyir. Görür ki, heyvanların nə qədər ki, dili var, hey danışıb insanlardan şikayət eləyəcəklər. Ona görə də heyvanların dilini alır, onlar danışa bilmirlər.

Dilsiz heyvanlar böyürə-böyürə bir də insanlardan şikayətə gedəndə görürlər ki, göy yerdən aralanıb, nə səs yetir, nə də ün. O vaxtdan heyvanlar səslərini çıxarmadan insanların sözünə baxır, daha şikayət eləmək fikrinə düşmürlər.

Quşdar yarananda hamısı uçurmuş. Bir dəfə quşlardan biri deyip ki, Allah qoysa sabah uçacıyıx. Toyux deyip ki, Allah qoysa da, qoymasa da uçacıyıx.

Quşdardan bir qismi bunın dediyin təsdiqləyir.

Səhərisi bütün quşlar uçur. Ancax toyuxnan onun sözdərin təsdiqliyən quşdar nəqqədər eliyirsə də, uça bilmillər. Onlar indi də uçammırlar.

Bir gün insan oğlu fikirləşir ki, hər şeyin padşahı, böyügü var. Quşların da gərək padşahı olsun.

Bütün quşdarı yığıb deyir ki, hansınız daha yuxarı qalxsanız onu padşah qoyacağam. Quşdar razı olur. Uçullar, ancax qartal hamısınnan hündürə uçur. Bı dəmdə insan oğlu görür ki, qartalın tükləri arasınnan cırt-cırt quşu çıxdı, lap yuxarı uşdu. Bını quşdar da gördü, pərt oldular ki, bınnan bizə padşah çıxmaz.

İnsan oğlu cırt-cırt quşuna deyir ki, sən lap yuxarı uşdun, ancax kələyinən. Ona görə gərək sənə bir iş də tapşıram. Onu da eləsən, səni padşah qoyacıyam. Get mənə elə bir çöp gətir ki, nə əyri olsun, nə də düz.

Deyillər ki, cırt-cırt quşu o vaxtdan həmişə kolluqda gəzir, həmin çöpü axtarır, ancax tapa bilmir. Qartal isə quşların padşahı olur.

Bir avradın Yusif adında bir oğlu var imiş. Bir gün avrad bı Yusifi çimizdirir. Çimənnən sora oğlan su isdiyir. Anası vermir. Uşax ağlıyır, özün öldürür, ancax anası su vermir ki, çimmisən, naxoşdarsan. Axırda avrat görür ki, uşax dözə bilmir, gedir su gətirməyə. Ancax avrad gələnə kimi uşaq ölür.

Avrad bını gəlip görəndə özünü didip-tökür. Allaha yalvarır ki, Allah, məni quş elə.

Allah onu quş eliyir. Bu quş başdıyır oxuyur. Həmmişə də oxuyanda deyir: "Yusif, dur su iç!"

Hibop bir arvadıymış. İki oğlu varıymış: Usufnan Nəsif. Bular buzoy otarmağa gedillərmiş. Bir axşam buzoyları gətirəndə görüllər ki, bir qarının buzoyu qalıf çöldə. Anaları buları döyür ki, tez gedin tapın gətirin. Bular gedillər. Bir azdan arvadın ürəyi yumşalır, deyir, durum süd pişirim, gələndə uşaxlar yesin. Ana nə qədər gözdüyür, uşaxlar gəlmir. Savah olur, baxır ki, genə qayıtmadılar. Bilir ki, buzoyu tapbıyıplar. Diləy eləyir, olur hibop. Başdıyır balalarını gəzməyə. Hibop oxuyanda deyir:

Usuf, Nəsif, gəl süd iç...
Gəl süd iç...

Deyirlər ki, hop-hop əvvəllər bir gəlin imiş. Həmin gəlin bir dəfə başını yuyan zaman qayınatası gəlib onu görür. Gəlin utandığından üzünü göyə tutub deyir:

– İlahi, sən məni bir quş elə, uçum gedim çöllərə. Bir də qayınatamın gözünə görünməyim.

O saat gəlin quş olur. Uçub qalxır göylərə. Gəlinin iki uşağı var imiş. Biri oğlan, biri qız. Oğlunun adı Hop-hop, qızının adı Gültop imiş. O vaxtdan bəri gəlin övlad həsrəti çəkir, həmişə onları çağırır:

– Hop-hop, Gültop...

Qədimlərdə çox gözəl, ağıllı, namuslu bir qız varmış. Bu qız öz əmisi oğluna adaxlı imiş.

Qızın toy günü olur. Onun əl-ayağına xına qoyurlar.

Hamının başı həyət-bacada toy işlərinə qarışır. Qız təkcə yengə ilə evdə oturubmuş. Bu vaxt çoxdan bəri qızı izləyən, onu ələ gətirməyə çalışan başqa bir oğlan başının dəstəsi ilə içəri girir. Yengənin əl-ayağını, ağzını bağlayıb yerə yıxırlar. Qızı da götürüb dağlara qaçırlar.

Qız nə qədər dartınır, qışqırır, yalvarır, ona qulaq asan olmur. Hər yerdən əlacı kəsilən, əli üzülən qız üzünü göyə tutub deyir:

Tanrı, məni quş elə,
Qanadı gümüş elə.
Eldə rüsvay eləmə,
Dağda günüm xoş elə,
Daşlara yoldaş elə.

Qız bu deyən kimi dönüb kəklik olur, pırıltı ilə uçub çəmənliyə düşür.

Qızın əl-ayağı xınalı olduğu üçün, kəkliyin də ayağı xınalı olur.

Bir gün qulluqçu qız xanımın darağını alıb başını darayır. Darağı boğçaya, paltarın arasına bağlayıb, taxçaya qoyur.

Aradan xeyli keçir. Xanım başını yuyurmuş, darağı istəyir. Qulluqçu qız darağın yerini unudubmuş. Nə qədər çalışır, darağın yerini yadına sala bilmir.

– Xanım, vallah darağın yerini unutmuşam.

Xanım qulluqçu qızdan şübhələnir.

– Darağı oğurlamısan! – deyir.

Qız xəcalətindən tər tökür, and-aman eləyir:

– Xanım, mənim əlim əyri deyil, daraq buralarda olacaq.

Amma nə qədər axtarırlar, daraq tapılmır. Qız utandığından Allaha yalvarır ki, məni quş elə. Sonra birdən yadına düşür ki, daraq taxçadakı boxçanın içindədi. Amma daha hara keçər. Elə o vaxtdan turac quşu oxuyur:

– Xanım, taxçada-buxçada. Xanım, taxçada-buxçada.

Şanapipik gözəl bir gəlin imiş. Bir gün o, saçını yuyub darayırmış. Birdən qayınatası gəlib onu görür. Gəlin utandığından Allaha yalvarır ki, bını quş eləsin.

Başındakı darağıynan birlihdə Allah bını quş eləyir. Gəlinin bir oğlu da var imiş. Ona görə də həmişə bı "bup-bup" eliyip oğlunu axdarır.

Qoca bir kişinin gözəl, həyalı bir gəlini var imiş. Bir neçə vaxt keçir, gəlin hamilə olur. Qayınata evdə olmayanda gəlin su gətirib uzun qara saçlarını yumağa başlayır. Saçını daradığı vaxt qayınatası evə gəlir. Gəlin darağı saçına taxır, əllərini göyə qaldırıb deyir:

– İlahi, məni ya daş, ya da quş elə.

Söz gəlinin ağzından çıxar-çıxmaz quş olub göyə uçur. O həmin quşdur ki, indi də darağını başında gəzdirir. Ona Şanapipik, Daraqçin deyirlər.

Bir nəfər cavan oğlan gölün kənarında ot yığdığı zaman yanına bir göyərçin düşür. Göyərçin dönüb gözəl bir qız olur. Bu əhvalat bir neçə gün təkrar olunur. Axırda bunlar sevişirlər. Hər gün bu gö-

yərçinlə oğlan günün qızmar vaxtı göldə çimərlərmiş. Oğlan hər gün səhər tezdən durub gölün sahilinə gedərmiş. Həmin göyərçin də gəlib gölün yanında qız olub oğlanla söhbət edərmiş. Oğlanın ailəsi onun hər gün tezdən gedib axşam gəlməyindən narahat olur. Bir gün atası onu izləməyə başlayır. Bunların hər ikisi suda çimdiyi vaxt oğlanın atası bunların üstünə çıxır.

Oğlanla qız ikisi də çox çığırırlar ki, yaxın gəlməsin, ancaq kişi buna fikir verməyib bunların paltarının yanında dayanır. Bunlar kişidən utanıb qırağa çıxa bilmirlər. İkisi də göyərçin olub havaya qalxırlar.

Qaranquşu öldürməh günahdı. Kim onu öldürsə başına bir iş gələr. Qaranquş deyir ki:

Qaranquşam, qaranquş,
Qanadlarım ayrıc-ayrıc.
Məni vuran bəy oğlu,
Qan qussun oyuc-oyuc.

Keçmiş əyyamlarda bir qız varmış. Bir bəy oğlu da qıza bənd olubmuş. Amma Alabaxtanın onu görməyə gözü yoxmuş.

Bəy oğlu bilir kin, bu söyda baş tutan deyil. İstəyir bir aralığı xəlvətə salsın, qızı götürüb qaşsın. Bəy oğlu Alabaxtanı çox izləyir, çox fürsət gözləyir. Axır günlərin bir günündə Alabaxtanı təklikdə tutur. Cumur onun üstünə kin, atın tərkinə alsın, aradan çıxarsın. Nə qədər çalışırsa, qızı atın tərkinə qaldıra bilmir. Bəy oğlu görür kin, bu xəbər hər yana yayılacaq, biyabır olacaq kin, bir qız nədi, qaçırda bilmədi. Ona görə də Alabaxtanı elə oradaca öldürür. Ancaq bəy oğlu Alabaxtanın ölüsünü görə bilmir. Qız quş olub uçur. Alabaxta adlı quş bəy oğlunun öldürdüyü həmin qız imiş. İndi bu quş koldan-kola uça-uça hal-qəziyyəsini car çəkib oxuyur, bəy oğluna nifrin yağdırır:

Alabaxtayam, Alabaxta,
Sinəm olub taxta-taxta.

Məni vuran bəy oğlu,
Qan qussun laxta-laxta.

Alabaxtanı vurmaq, ona daş atmaq olmaz. Yoxsa qarğıyar. Alabaxtanın qarğışı da tez keçən olur.

İki oğlan cüt sürürmüş, biri İsa adında, biri də Musa adında. Bunlar yorulub bir az yatıllar ki, dinşdərini alsınlar. Öküzdər açılıp qaçıllar.

İsaynan Musa oyanır ki, öküzdər yoxdu. Nə qədər axdarıllarsa tapammırlar. Ağaları da çox əzazil adam olur. Bı uşaxlar qorxularından əvə qayıdammırlar. Allaha yalvarıllar ki, bizi quşa döndər. Allah bınları quşa döndərir. Bınlar başdıyıllar öküzdəri axdarmağa. Həmmişə də bir-birinnən soruşullar ki, tapdın?

Bir gəlin xəmir yoğururmuş. Əlini vurur natəmiz yerə, sonra da xəmir ləyənindən yapışır. Ləyən çevrilib keçir bunun başına. Gəlinin özü də quşa dönür. İndi o quşa kası deyillər.

İlan, qaranquş, bir də mığmığa dost olurlar. Bir gün ilan qaranquşla mığmığaya deyir ki, gedin görün hansı canlının qanı daha şirindi?

Mığmığa bütün canlıları sancır. Görür ki, insanın qanı çox şirindi. Qayıdır ilanın yanına, istəyir desin ki, insanın qanı. Elə "i" demişdi ki, tez qaranquş onun dilini qoparır. O vaxtdan mığmığa dızıldaya-dızıldaya qalır.

İlan qaranquşa deyir ki, niyə belə elədin. Qaranquş kələk işlədib deyir ki, bəs görmədin, istəyirdi "ilan" desin. Belə dostluq olar, o gedib sənin balanı sancıb, ona görə də ilan qanını şirin sayır.

Deməyəsən, qaranquş dünyada ən yaxın dostu olan insanı qurtarmağa çalışırmış.

Keçmiş zamanlarda ilan ilə qaranquş bərk dost imişlər. Aralarından su da keçməzmiş. Həmişə bir yerdə gəzər, tapdıqları yemi bir yerdə bölüb yeyərmişlər.

Bir dəfə ilanla qaranquş nə barədəsə sözləşirlər. İş o yerə çatır ki, əlbəyaxa olub dalaşırlar. Qaranquş uçub göyün bir qatına qalxır. Oradan şığıyıb ilana hücum çəkir. Onun dilini dimdikdən keçirib yaralayır. İlan da fürsəti əldən vermir, yaralı-yaralı qaranquşa tərəf cumur. Nə fayda, gecikir. Yalnız quyruğunu qopara bilir.

Deyirlər elə o vaxtlardan ilanla qaranquşun bir-birini görməyə gözləri yoxdu. İlanın dilinin haçalığı, qaranquşun haçalı quyruğu elə həmin davadan qalma şeydi.

Qırğı ilə gürzə bərk dost imişlər. Bir gün gürzə qırğının süzdüyü göylərə həsrətlə baxıb deyir:

– Qardaş, sən istədiyin vaxt göyə qalxırsan, istədiyin vaxt yerə enirsən, mənimlə gəzirsən. Mən yazıq isə həmişə yerdə sürünürəm. Heç göyə çıxa bilmirəm ki, görüm oralar necə yerdi. Nə olar, məni də bircə dəfə göyə qaldır.

Qırğı dostunun sözünü yerə salmır. Onu caynağına götürüb göylərə qaldırır. Əvvəl çayların, dənizlərin üstündən keçirlər. Gürzə bərk qorxur ki, birdən qırğıdı də, buraxar caynaqlarından, o da düşər suya ölüb gedər. Elə ki dəniz qurtardı, quru yerlərin üstündən keçməyə başladılar, o saat gürzənin ağlına pis fikirlər gəldi. İstədi dostluğa xəyanət eləsin. Qırğını çalıb öldürsün, yerə düşəndə yesin.

Qırğı gürzənin ürəyindən keçənləri duydu. Tez caynaqlarını onun boğazına ilişdirib tərpənməyə qoymadı. Elə sıxdı ki, gürzənin gözləri yerindən oynadı, az qaldı çıxıb düşsün. Qırğı süzüb yerə endi. Gürzəni yarımcan halda torpağa düz uzadıb dedi:

– Bax, mən istəyirdim ki, sən dostluqda beləcə düz olasan. Ancaq görürəm ki, yolunu əyirsən. Səndən mənə dost olmaz.

Deyirlər ki, o gündən qırğı ilə gürzənin dostluğu pozulub. Qırğı harada gürzə görsə düz onun üstünə şığıyar, caynaqlarına alıb didib parçalayar, şirin-şirin də yeyər.

Keçmişdə Şahişonqar bütün quşların padşahı imiş. Onun vəziri tərlan, vəkili qırqovul, məsləhətçisi isə qartal idi. Bir gün Şahişonqar quş bərk acıqlanır, vəzir-vəkilini, məsləhətçisini qovur. Alaqarğanı özünə vəzir, qaraqarğanı vəkil, quzğunu məsləhətçi götürür.

Bir gün Şahişonqar quş Bağdada səfər edir. Bu vaxt Bağdad padşahı xəstələnir. Şahişonqar quşun qanını ona dərman buyururlar. Quşu tutmaq üçün hökmdarın əmri ilə yola bir neçə şaqqa ət, bir çəllək çaxır qoyurlar ki, quş gələndə əti yesin, çaxırı da içib özünü itirsin.

Şahişonqar quşu vəzir-vəkili, məsləhətçisi ilə yoldan keçəndə əti görürlər. Vəzir-vəkil, məsləhətçi yerə enməyi təklif eləyirlər. Şahişonqar quşu razı olmur ki, burada nə isə başqa fikir var. Nəhayət, onlar yerə enir, yeyib-içəndən sonra huşlarını itirib hərəsi bir yerə yıxılır. Bağdad hökmdarının adamları quşu tutub şahın hüzuruna gətirirlər. Şah əmr edir ki, tutuquşunu gətirsinlər. Tutuquşu Şahişonqardan xəbər alır ki, necə oldu, bu iş sənin başına gəldi?

Şahişonqar quş deyir ki, sən mənim ayağımdan qan alıb onun yarasına sürtsən hökmdar sağalar. Padşah deyilənə əməl edir. Şahişonqar quş tutuquşuna deyir ki, mən göydən baxanda yerdəki buğda dənəsini də gözüm seçir. Kül o şahın başına ki, öz vəzir-vəkilinə inana. Mənim əvvəlki vəzirim tərlan, vəkilim qırqovul, məsləhətçim qartal idi. Onları çıxarıb yerinə alaqarğanı, qaraqarğanı, quzğunu qoydum. İndi mən uduzmuşam. Bir şahın ki, vəziri alaqarğa, vəkili qaraqarğa, məsləhətçisi quzğun ola, o şahın axırı yoxdu. İndi, tutuquşu, sən padşahına de ki, neçə ki, həyatda var, heç vaxt vəzir-vəkilinin sözünə qulaq asmasın. Əgər sənin padşahın onların sözünə qulaq assa, mənim tək uduzar. Bu sözdən sonra padşah onu azad eləyir.

Bundan sonra, Şahişonqar quş bir də heç nəyə yaxınlaşmır. O evlənmir, nəsli törəmir. Ona görə də indi nəsli kəsilib.

Həzrət Süleyman* Sara adlı gözəl bir qızla evlənmək istəyir. Lakin qız şərt kəsir ki, su üzərində quş qanadından bir ev tikdirsin, sonra gələrəm. Həzrət Süleyman bütün canlının hökmdarı oldu-

ğundan əmr edir ki, bütün quşlar yığılsın. Cəmi quşlar az keçmir ki, Həzrət Süleymanın yanına toplaşırlar. Həzrət Süleyman bir də baxır ki, cəmi quşların arasında bayquş gözə dəymir. Soruşur ki, bəs bayquş hanı? Deyirlər ki: "Deyir, gəlmirəm". Həzrət Süleyman qəzəblənib qırğını bayquşun dalınca göndərir. Qırğı isə bayquşla dost olub. Deyirlər bu dostluq indi də davam edir. Bayquş qırğının sözünü yerə salmayıb Həzrət Süleymanın qulluğuna gəlir. Həzrət Süleyman bayquşa deyir:

– Sən mənim əmrimi yerinə yetirmədiyin üçün sənə ağır cəza verəcəyəm. Ancaq sənə üç sualım var, əgər tapa bilsən, azad edəcəyəm, yox əgər tapa bilməsən özündən küs.

Bayquş deyir:

– Buyur.

Həzrət Süleyman soruşur:

– De görüm abad yer çoxdu, ya xaraba?

Bayquş cavab verir:

– Xaraba. Çünki xaraba xarabadı, abad yer də vaxt gələcək xarabalığa çevriləcək.

– Bu cavabın düz. İndi de görüm, ölü çoxdu, yoxsa diri?

– Əlbəttə, ölü. Ölü ölüdü, dirilərin də vaxtı çatıb öləcək.

– Bu da yaxşı. Bəs, arvad çoxdu, kişi?

– Arvad.

– Nə üçün?

– Çünki arvad arvaddı, sənin kimi arvad sözünə baxan kişilər də arvadların bir tayıdı.

Söz Süleyman peyğəmbərin çox xoşuna gəlir. Bundan sonra o, bütün quşları azad etdirir. Onu isə quşlara hökmdar təyin edir, özünə də bəylik verir. Həm də nahar yeməyi üçün hər gün bir sərçə ayırır.

Bu əmri Həzrət Süleyman verdiyindən bayquş heç bir əziyyət çəkmir, sərçələr özləri bayquşa yem olmağa gəlir, həmişə düz onun qarşısına çıxırlar. Bayquş da gündə onlardan yalnız birini tutub yeyir.

Süleyman peyğəmbər Tovuz adlı bir qıza aşiq olmuşdu. Nə qədər eləyirdi, Tovuz ona getmirdi. Axırda Süleyman Tovuzu zorla almaq fikrinə düşdü. Tovuz bunu bilib dedi:

– Quş dimdiyindən bir ev tikərsən, ayağı dəryadan nəm çəkər, başı buluddan. Sənə gələrəm. Məni toy eləyib evə apararsan.

Süleyman peyğəmbər bu şərtə razı oldu. Bu fikrə gəldi ki, dünyada olan quşların hamısını toplasın, qırdırsın, dimdiklərindən imarət tikdirsin. İxtiyarı var idi, çünki hamısının padşahı idi. Bəli, quşların hamısını topladılar. Süleyman peyğəmbər baxıb gördü ki, təkcə yapalaq yoxdur. Vəzir, vəkili göndərdi ki, onu da gətirsinlər. Yapalaq vəzir, vəkilə dedi:

– Mən axmaq padşahın çağırışına getmirəm. Özüm də bəy quşam.

Qayıdıb Süleymana xəbər verdilər:

– Deyir, mən axmaq padşahın çağırışına getmirəm, özüm də bəy quşam.

Süleyman qəzəblənib özü getdi. Yapalaq ona dedi:

– Bir saatlığa padşahlığını mənə tapşır, gəlim, yoxsa gəlməyəcəyəm. Özümü də quşların bəyi elə.

Süleyman razı oldu. Bayquş onunla gəldi. Süleyman bir saatlığa padşahlığı ona tapşırdı. Özünü də quşlara bəy elədi.

Bayquş taxta çıxıb dedi:

– Ay şah, bir qızdan ötrü bütün quşları qırıb nəslini kəsmək olarmı? Mən quş dimdiyindən sənə Tovuz dediyi imarəti tikərəm.

Bayquş əmr elədi, hər quş dimdiyinin ucundan bir az kəsib bir yerə topladı. Böyük dağ əmələ gəldi. Süleyman peyğəmbər Tovuz dediyi binadan da gözəl ev tikdirdi. Bayquşa da dedi:

– Sən elə bəyə layiq quşsan, sənin adını bayquş qoyuram, özümə vəzir qəbul edirəm.

Bu zamandan onun adı bayquş qaldı.

Bəli, Süleyman peyğəmbər qırx gün, qırx gecə toy elədi, Tovuz tikdirdiyi evə gətirdi. Hər gün Tovuz bəzənirdi, düzənirdi, öz gözəlliyi ilə fəxr eləyirdi.

– Xudaya, görəsən dünyada mənim kimi də gözəl varmı? – deyirdi. Qanrılıb ayağına baxanda xəcalət çəkirdi. Çünki ayaqları çirkin idi. O, həmişə ayaqlarını Süleyman peyğəmbərdən gizlərdi. Günlərin bir günü Süleyman peyğəmbər ona dedi:

– Bilmirəm, nə üçün ayaqlarını həmişə məndən gizlədirsən...

Tovuz söz tapa bilmədi, dedi:

– Düz deyirsən.

Tovuz o biri otağa getdi, bəzəndi, düzəndi.

– İlahi, görəsən mənim kimi dünyada gözəl varmı? – dedi.

Ayaqlarına bir də baxanda, xəcalət çəkdi, bu ayaqla Süleyman peyğəmbərin yanına getmək istəmədi. Üzünü göyə tutdu, yalvardı:

– Allah, məni quş elə.

Allah onun yalvarışını eşitdi, quş elədi.

Tovuz uçub qapıdan çıxdı. Süleyman peyğəmbər dediyi sözə peşman oldu. İndi də Tovuz quşu qanad çalır, pərvazlanır, öz gözəlliyi ilə fəxr edir, amma ayağına baxanda xəcalət çəkir.

Deyirlər ki, Pərvanə qızmış, Od da oğlan. Pərvanə şah qızıymış, Od da əkinçi oğlu. Şah qızını əkinçi oğluna vermədiyinə görə, gözünə döndüyüm qızla oğlan günlərin bir günündə ələ-ələ verib qaçırlar.

Padşah da padşah imiş. Əmr verir: ha burda, ha orda, qıznan oğlanı yaxalayırlar. Padşah qızını öz oğluna almaq istəyən vəzir bir oysun oxuyur, oğlanı eləyir od. Bundan sonra qız göz yaşı tökür, üzünü göyə tutup yalvarır ki, Allah ona ölüm versin. Allah onu pərvanə eləyir. Pərvanə həmin şah qızıdı ki, gecə-gündüz dolanır oğlanın başına. Dolanır, dolanır, sonra da özünü vurur oda yandırır.

Tısbağa gözəl bir gəlin imiş. Bir gün yuyunmaq üçün su qızdırıfmış. Paltarını soyunuf girir tasa, başlayır çimməyə.

Birdən qaynatası içəri girir. Görür ki, gəlin tamam çılçılpaqdı. Gəlin də bilmir ki, neyləsin, harda gizlənsin. Üzünü göyə tutuf yalvarır ki, nə ola bir şey ola, bədənim örtülə.

Gəlinin ağzından söz qurtarmamış dönür tısbağaya. Deyirlər həmin tasdır ki, dönüf olub tısbağanın çanağı. Həmişə bu çanağı belində gəzdirir ki, çılpaq bədənini örtsün.

Deyillər ki, qurd da adamnan olub. Bu adamın dörd oğlu var imiş, balacası qurduymuş. Bir gün üç böyük qardaş olub-qalan yeməyi üç

yerə bölüb yeyillər. Qurda heç nə saxlamırlar. Qurd bunnan acıxlanıb deyir: "Bu günnən qabağıma adamların nə ki malı çıxsa, hamısını yeyəcəyəm".

Bir gün itnən qurt rastlaşır. İt qurda deyir ki, gəl iy bilməyini mana ver, mən də güjümü sana verim. Qurd irazı olur. İndi it iy bilir, qurd da güjdüdü. Deyəllər ki, qurdun öz güjünnən xavarı yoxdu.

Allah əvvəlcə iy bilməyi veripmiş canavara, qüvvəni itə. Sora görür ki, canavar yaşıyammır, iyliyip ovunu tapsa da, itin qorxusunnan ovuna yaxın düşəmmir, aj qalır. Ona görə də itdən qüvvəti alıp verir canavara, iy bilməni isə itə verir.

Ötənlərdə əldən-ayaqdan iraq yerdə bir kişi vardı. Ata-baba günündə bu kişi qəbir üstünə gedərdi. Bir gün yenə qəbiristanlığa gələndə bir səs eşitdi:

– Ay kişi, tez qayıt kəndə, gir filan evə, arvadıma de, bəs durmasın gəlsin, burada onu gözləyirəm.

Kişi o yan-bu yana baxıb heç kimi görmədi, təzədən düzəldi yola. Səs bir də gəldi:

– Sənə demədimmi qayıt kəndə, mənim arvadıma de gəlsin, onu gözləyirəm!!

Kişi yenə o yan-bu yana baxıb bir kimsəni görmədi. Fikirləşdi, bəs bu nə olan işdi, bura qəbiristanlıqdı, məndən başqa bir kəs yoxdu, xortduyub qəbirdən çıxan da yoxdu ki, deyim bəlkə onun səsidi. Birdən ağlına gəldi ki, bu, yəqin ölənlərdən birinin ruhudu, məni çağırır. Özü də eşitmişdi ki, dədə-baba günü ölənlərin ruhu ev-eşiyi gəzir. Həmin günlərdə adamlar onların adına qazan asır, bişmiş bişirirlər. Odur ki, kişi qorxmayıb dilləndi:

– Tutaq ki, mən getdim sizə, tapşırığını də dedim arvadına. Arvadın buna inanarmı!

Onda səs kişiyə bir ot uzatdı. Kişi otu əlinə alan kimi gördü ki, hər tərəf ruhnan doludu. O, daha dayanmayıb birbaş səs dediyi evə

gəldi. Gördü ki, arvad ölüb, ruhu da evdə dolanır. Kişi arvadın ruhuna dedi ki, bəs ərin səni qəbiristanlıqda gözləyir. Mənə tapşırdı, sənə deyim, tez onun yanına gedəsən.

Arvadın ruhu duruxdu. Kişi ona dedi ki, niyə dayanıbsan, tez ol get, ərin səni gözləyir. Arvadın ruhu kişidən soruşdu ki, sən məni necə görürsən! Kişi əlindəki otu ona göstərib dedi ki, bəs otu ərin mənə səni görmək üçün verib.

Arvadın ruhu tez kişinin üstünə atıldı ki, otu ondan alsın. Onlar əlbəyaxa oldular. Kişi qışqırıb camaatı köməyə çağırdı. Qonum-qonşu tökülüb gəldi. Gördülər ki, kişi kiminləsə əlbəyaxadadır. Ancaq yanında özündən savayı bir kimsə yoxdu. Bu işə mat qaldılar.

Bu vaxt arvadın ruhu özünü kişiyə elə toxudu ki, kişinin ovcunda tutduğu ot əlinnən yerə düşdü. Arvadın ruhu tez əyilib otu götürmək istəyəndə bir it özünü yetirib otu uddu.

O vaxtdan da itlər ruhu görəndə ulayır.

Deyilənə görə, vaxtıynan ayı insan imiş, dəyirmanda işləyirmiş. Bir gün çörək yeyəndə yaxasından çörəyin üstünə bir bit düşür. Tənbəlliyindən biti elə çörəyin üstündə öldürür, sonra da çörəyi yeyir. Onun bu hərəkəti Tanrıya xoş gəlmir, dəyirmançını ayıya döndərir. Ona görə də ayı ən pinti heyvandı.

Lalə vaxtı ilə gözəl-göyçək bir qız imiş. El-oba həmişə onun gözəlliyindən danışırmış. Bu qızın sorağı uzaq ellərə gedib çıxır. Hər yandan ona elçilər gəlir. Lalə onların heç birini bəyənmir. Çünki obalarında sevdiyi oğlan varmış.

Lalə də, onun sevgilisi də öz istəklərini gizli saxlayar, açıb ağartmazmışlar. Oğlan ona elçi göndərməmişdi. O da, qız da yaxşı bilirdi ki, elçi göndərməyin xeyri yoxdu. Qızın atası onu kasıb oğluna verməyəcək.

Lalə sevgilisinin həsrətinə dözə bilmir. Allahdan arzu eləyir ki, canını bu dərddən qurtarsın. Onun arzusu yerinə yetir. Qız dönüb çiçək olur.

Keçmiş zamanlarda Qızılgüllə Bülbül bir-birini ürəkdən sevirmişlər. Onların bu sevgisi hər yana yayılır, axırda gəlib qızın atasının qulağına çatır. Ata bərk qəzəblənir, qızını çağırıb deyir ki, bu sevdadan əl çək. Qız çox yalvarır, amma ata heç cürə razı olmur.

Qız sevgilisi ilə qovuşmayacağını başa düşüb başqasına getməkdənsə ölüm istəyir. Allaha yalvarır ki, bu arzusunu yerinə yetirsin. Qızılgül ölmür, ancaq bir gülə çevrilir.

Bülbül sevgilisinin başına gələn əhvalatdan xəbərdar olub göz yaşı tökür. Onun ahı göylərə gedib çatır. Bir gün adamlar durub görürlər ki, Bülbül yoxdu. Onun yerində qızılgülün başına dolanıb qəmli-qəmli oxuyan bülbül var. Bülbül gülün başına dolandıqca özünü zərb ilə onun tikanlarına çırpır. Tikanlar bülbülün sinəsini dağıdıb qana qəltan eləyirlər. Bu qan gül koluna səpələnib onun rəngini qızardır.

Deyirlər, o vaxtdan həmin gülün adı Qızılgül qalıb. Bülbülü gülə yaxın qoymayıb onun sinəsini qana qəltan edən tikanlar da qızın atasıdı.

Bir qız istədiyi oğlanla söyüdün altında oturub söhbət eləyirmiş. Birdən görür ki, atası gəlir. Qız söyüdə yalvarır ki, bəs məni gizlət, atam görməsin.

Söyüd budaqlarını əyib yerə vurur, qızla oğlan görünməz olur. O vaxtdan salxım söyüdün budaqları göyə qalxmır, yerə sarı uzanır.

Bir bəy oğlunun gözü düşür bir qıza. Deməyəsən bu qız da ayrı bir oğlanı istəyirmiş. Bir gün qız öz istədiyi oğlanla dağda gəzəndə sel gəlir, daşqın olur. Bunlar yenib kəndə gələ bilmirlər. Bəy oğlu görüb istəyir ki, qızı qaçırtsın. Düşür onların dalına. Qızın istəklisini oxla vurub öldürür. Qız görür ki, işi şuluxdu. Allaha yalvarır ki, məni ağac elə.

Allah onu ağaca çevirir. İndi həmin ağaca Yalqız ağac deyirlər. Yalqız ağac müqəddəsdi, onu kəsmək olmaz. Bir kişi bilməyib, onun bir budağını kəsir. Kişinin heyvanları qırılır, uşağı da ölür, özü də çox yaşamayır.

Yalqız ağacın budağını qıranda, qabığını qoparanda həmin yerdən qan tökülür.

Bir Banı arvad vardı. Bı arvadın bir oğlu da vardı. Bu oğlan gedərdi hər gün odun yığmağa. O vaxt adamlar dağdan-daşdan gəvən kolu yığıb gətirərdi, təndirdə yandırardılar. Bunların da nə atı, nə eşşəyi vardı ki, gəvən yığıb gətirə. Ona görə də oğlan uzağa gedə bilmirdi. Elə yaxınlardan quru ağac budaqları, çör-çöp yığıb gətirərdi. Bir yol da Qızılboğaza getdi, bir şələ söyüt butağı gətirdi. Bını qoydu evə. Gecə yatmışdı, bir də ayıldı ki, odunnar od tutub yanır, amma nə isdisi gəlir, nə də tüstüsü. Elə işıx verir. Qorxudan tez durub bınnarı atdı eşiyə.

Səhərisi əhvalatı camahata danışdı. Dedilər ki, bə odunnar ocax söyütdən yığılıb. Gərək tez aparıb onnarı qoyasan ocax söyüdün yanına qoyasan, yoxsa bəlıya düşərsən.

Hamı başdadı oğlanı dannamağa ki, bə bilirsən ki, o söyüt ocax söyütdü, sən niyə onun butağını qırmısan?

Oğlan apardı butaxları qoydu söyüdün yanına.

Narbənt ağacını kəsməh günahdı. Bir oğlan deyip ki, əşşi, ağaşdı də, kəsəndə nolar ki?

Gedip kəsip. Kəsilən yerdən qan axıp. Elə həmin gün oğlan dəli olup.

Ardış ağacını kəsməzdər. Kim onu kəssə, günaha batar. Bir arvat ardışın bir putağın kəsip təndirə atır. Axşama yaxın arvadın uşağı dığırranıp təndirə düşür, yanır.

Ardıcı yandırmaq günahdı – ardıca peyğəmbər nəfəsi dəyib.

Bir gün İbrahimxəlil peyğəmbər atasına deyir:

– Ata, məni də məscidə apar.

Atası onu da məscidə aparır. Gedib görür ağacdan qırx dənə heykəl düzəldib qoyublar yuxarı başa. İçəri girən bu heykəlləri bir-bir öpür, keçib oturur bir qıraqda.

Axşam qayıdırlar evə. Atası yatandan sonra İbrahimxəlil peyğəmbər baltanı götürüb gedir məscidə, otuz doqquz heykəli şaqqalayıb tökür yerə, baltanı qoyur qırxıncının çiyninə, qayıdır gəlir.

Səhər padşaha xəbər çatır ki, evin tikilsin, allahları qırıblar. Padşah vilayətdə nə qədər baxıcı-filan var, hamısını yığır, allahları qıranı tapa bilmir. İbrahimxəlil peyğəmbər gedir padşahın yanına, deyir:

– Padşah sağ olsun, allahlar nə iş görübsə, böyük Allahın acığı tutub, onları qırıb.

Padşah deyir:

– Sən nə danışırsan? Ağac ağacı qıra bilər?

İbrahimxəlil peyğəmbər deyir:

– Ağac ağacı qıra bilməzsə, bəs ağacdan da Allah olar?

Padşahın qəzəbi tutur, əmr eləyir ki, böyük bir düzdə tonqal qalayın, bu oğlanı atın odun içinə.

Böyük bir düzdə tonqal qalayırlar, İbrahimxəlil peyğəmbəri atırlar odun içinə. İbrahimxəlil peyğəmbər görür ki, bir qatıra quru ardıc yükləyiblər, ardıc yüngüldü deyən qatır oynaya-oynaya gəlir. Deyir:

– Ardıc, göyün getməsin!

O vaxtdan ardıc ağacı il uzunu gömgöy olur.

Böyük bir ardıc ağacını hasara alıblar. Ora Məşədi Atakişinin piri deyirlər. Aparıb o ardıca parça bağlayırlar, o pirdə qurban kəsirlər.

Deyir, bir gün peyğəmbəri qovurmuşlar. Peyğəmbər gəlib ardıc ağacının dalında gizlənib. Peyğəmbər alqış eləyib, deyib: "Ardıc, görüm səni il on iki ay göy qalasan!"

O dünyada bir ağaş var. Onun hər bir yarpağı bu dünyadakı bir adamındı. O yarpax saralıp yerə düşəndə adam ölür. Yarpax düşən-

də başqa yarpaxlara dəyip onları tərpədirsə, bı dünyadakı yarpax sahablarının qulağı cingildiyir.

Hər adamın bir yarpağı var. Vaxt ki gəldi, o yarpax düşər.

## OVÇULUQ MİFLƏRİ

Bir dəfə Ovçu Pirim* yol ilə gedəndə görür ki, bir ayrı ovçu bir maralı tutub bağlayıb. Maralın gözündən yaş, döşündən süd damcılayır. Maralın halı ovçunun heç vecinə də deyil. Ovçu Pirim başa düşür ki, maral körpəlidi, balasını əmizdirmək vaxtıdı. Ona görə də döşündən süd giləlәnir. Ovçu Pirim yad ovçuya minnət eləyir ki, maralı açıb buraxsın, balası acdı, gedib körpəsini əmizdirsin, sonra qayıdar, yenə tutarsan. Yad ovçu Ovçu Pirimin sözünə qulaq asmır:

– Sən nə danışırsan? Min əziyyətlə tutduğum maralı buraxım ki, nədi-nədi balası acdı? Gedib balasını əmizdirəcək, sonra mənim adamlığımı qanıb, bir də geri gələcək! Heç elə şey olar?

Ovçu Pirim onun fikrindən dönmədiyini görüb pul, mal təklif eləyir. Xeyri olmur. Əlacsız qalan Ovçu Pirim deyir:

– Yaxşı, maralı burax, o gəlincə mən sənin əsirinəm.

Yad ovçu soruşur:

– Mən sən Ovçu Pirimin sözünə inanmıram. Sən hansı ağılla heyvana inanırsan.

Ovçu Pirim deyir:

– İnamı olmayan min ilin ölüsündən betərdir.

Yad ovçu razılaşır. Maralı açıb buraxır. Maral gəlib öz yuvasına çatanda görür ki, bir canavar onun balasının keşiyini çəkir. Maral fikirləşir ki, indi canavar onu tutub yeyəcək, bundan sonra da Ovçu Pirim yad ovçunun əlində əsir qalacaq. Ancaq maralın gəldiyini görən canavar yavaş-yavaş aralanıb gedir. Maral balasını əmizdirir.

Vaxt uzandıqca yad ovçu sevinir ki, maral gəlib çıxmasa Ovçu Pirim həmişəlik onun əsiridir. Onun hesabına bütün istəklərinə çata biləcək. Amma çox çəkmir, bir də görürlər ki, maral birbaşa onlara

tərəf gəlir. Ana maral yetişdikdən sonra Ovçu Pirimin əllərini yalayır. Yad ovçu inadına görə çox peşman olur. Maralı azad edir.

Keçmiş zamanlarda bir ovçu var idi. Bir gün ovçu ova çıxır. Ov zamanı görür ki, iki ilan bir-birilə dalaşır. Ovçu tüfəngin çaxmağını çəkir ki, qara ilanı öldürsün. Lakin güllə ağ ilanı yaralayır. Həmin bu ağ ilan da ilanlar padşahının qızı imiş. Padşah əmr edir ki, həmin ovçunu mənim hüzuruma gətirin. Ovçu yol ilə gedərkən ilanlar yolunu kəsir, onu padşahın hüzuruna, mağaraya aparırlar. Bu mağaraya girəndə görür ki, yaraladığı ağ ilan həmin mağaranın ağzındadı. Ağ ilan deyir: "Atam sənə nə versə alma! De ki, ağzıma tüpür". İlanlar şahı ovçuya deyir ki, mənim qızımı yaralayan ilanı sən tanıyırsanmı? Ovçu cavab verib, deyir: – Bəli!

Şah əmr edir, bütün ilanlar ovçunun gözü qarşısından bir-bir keçirlər. Görür ki, həmin qara ilan axırda sürünə-sürünə gəlib çıxır. Ovçu deyir, həmin ilan budu. Şah əmr edir, ilanı öldürürlər. Şah deyir ki, səni dünya malına qane edərəm, de görüm, məndən nə istəyirsən?

Ovçu cavab verir ki, mən heç bir şey istəmirəm. Ancaq mənim ağzıma tüpür.

Şah oğlana deyir ki, sən bu sirri saxlaya bilməzsən!

Ovçu əl çəkmir. Deyir:

– Mən bu sirri saxlaya bilərəm.

Şah cavab verir:

– İndi ki belə oldu, sirri heç bir yerdə açma. Açsan evində aç ki, öz evində öləsən.

Şah ovçunun ağzına tüpürür. Ovçu görür ki, yer üzündə olan hər bir canlının dilini bilir.

Bir gün ovçunun arvadı deyir ki, məni atam evinə apar. Qadın atı minir. Həm at, həm də qadın hamilə olur. Qadın tərkinə bir uşaq da alır. Atın arxasında bir qulunu olur. Qulun ağlayaraq öz dillərində deyir ki, getmə, məni də gözlə. At cavab verir, görmürsən, biri mənim qarnımda, biri onun qarnında, biri də tərkimdə! Mən bir belə canlını aparıb gedirəm, sən bir canını gətirib çıxara bilmirsən. Bu zaman ovçu gülür, arvadı soruşur:

– A kişi, de görüm, sən nəyə gülürsən?

Ovçu arvadına deyir ki, nəyinə lazımdır mən nəyə gülürəm. Arvad deyir ki, deməsən, qayıdanda səndən boşanacağam.

Kişi cavab verir ki, gedək, evimizdə nəyə güldüyümü deyərəm. Bu zaman ovçu görür ki, bir toğlu çayın o tərəfinə tullanır. Yoldaşına deyir ki, sən də tullan.

Yoldaşı cavab verir, mənim quyruğum ağırdı, qorxuram suya düşəm. Sən toğlu olmasın, başqa toğlu olsun. Mən ovçu kimi ağılsız deyiləm.

Ovçu barmağını dişləyir. İlanlar şahının dediyi söz yadına düşür. Evə qayıdanda arvadı deyir ki, a kişi, de görüm, nəyə gülürdün?

Ovçu cavab verir ki, sən olma, əmin qızı olsun. Gedirsən, get!

Bir gün Oyçu Pirim oya qalxır. Bir də görür ki, bir dağın yamacında bir ağ ilanla bir qara ilan bərk-bərk sarmaşıblar. Buna Oyçu Pirimin acığı tutur. Tez oxu çilləyə qoyub nişan alır, atır. Ox qara ilana yox, ağ ilana dəyir. Ağ ilan o saat yıxılıb ölür. Qara ilan da qaçır.

Oyçu Pirim bir də görür ki, düzü dünyanı o qədər ilan bürüdü ki, ayaq basmağa da yer qalmadı. Soruşur:

– Bu nə əhvalatdı?

İlanların biri qavağa gəlir, adam dilində deyir:

– Sən bizim padşahımızın qızını öldürmüsən. İndi gedək padşaha cavab ver.

Oyçu Pirim and-aman edir kin, mən qara ilanı vurmaq istəyirdim, ox onunla sarmaşan ağ ilana dəydi. Mən dedim kin, qara ilanı öldürüb ağ ilanın canını onun əlindən qurtararam.

Onda ilan dedi:

– Oyçu Pirim, görürəm sən düz danışansan, həm də yaxşı adama oxşayırsan. Əhvalatı, qorxma, olduğu kimi padşaha danış. Sənin bu hərəkətin onun xoşuna gələcək. Sonra deyəcək ki, məndən nə istəyirsən. Sən də çəkinmə, de ki, ağzıma tüpür. Padşah elə ki, sənin ağzına tüpürdü, cəmi heyvanların dilini biləcəysən.

İlanlar Oyçu Pirimi qavaxlarına qatıb aparırlar padşahlarının yanına. Padşah Oyçu Pirimi görən kimi bərk qəzəblənir. Deyir:

– Oyçu Pirim, sən nə cürətlə mənim qızımı öldürmüsən?

Oyçu Pirim deyir:

– Padşah sağ olsun, hal-qəziyyə elə olmuyub. Oya çıxmışdım. Gördüm bir ağ ilanla bir qara ilan bərk-bərk sarmaşır. Bu işə bərk acıq elədim. Dedim: ayə, bu qara ilan nə karədi ki, ağ ilana sarmaşır. Ona görə də oxu çilləyə qoyub atdım ki, qara ilana dəysin, onu öldürsün. Qəziyyədən mən çaşdım, oxum ağ ilana dəyib onu öldürdü. Qara ilan da qaçdı. İndi fərman sənindi, istəyirsən inan, məni də bağışla, istəyirsən öldür, canım qurtarsın.

Oyçu Pirimin bu sözləri ilanlar padşahının çox xoşuna gəldi. Bir xeyli fikrə gedib dedi:

– Oyçu Pirim! Görürəm düz adamsan, sözlərin də xoşuma gəldi. İndi de görüm məndən nə istəyirsən?

Oyçu Pirim dedi:

– Heç nə.

İlanlar padşahı dedi:

– Yox, Oyçu Pirim, belə olmaz. Mən sənə nəsə verməliyəm. İndi de görüm istəyin nədi?

İş belə olanda Oyçu Pirim dedi:

– Padşah sağ olsun, eləysə onda ağzıma tüpür.

İlanlar padşahı bir xeyli fikirləşəndən sonra Oyçu Pirimin ağzına tüpürdü.

Bundan sonra Oyçu Pirim baxıb gördü ki, bütün heyvanların dilini bilir.

Keçmiş əyyamlarda bir Oyçu Pirim var imiş. Həmişə sal qayalarda gəzib ov edərmiş. Özü də ədalətli imiş. Heyvanları qırıb tərk etməzmiş. Bütün heyvanların da dilini bilirmiş. Ona görə də heyvanlar ondan qorxub çəkinməzmiş.

Oyçu Pirim gəzib-gəzib, dünyanı dolanıb axırda İlisu dağlarını özünə məskən tutub. Hündür bir qayanın başında özünə sığınacaq qurubmuş. Çıxanda da qayanın üzü ilə düz yuxarı çıxarmış. Deyirlər ki, həmin mağarada yüz il yaşayandan sonra ölüb. İndi də orada silahlarının izi qalıb.

Orada dağ döşündə bir yer var. Adına Hamam deyirlər. Oraya tökülən su yerdən çıxır, özü də istidi. Deyirlər həmin suyu tapan da,

hamamı tikən də Oyçu Pirim özü olub. Günlərin bir günündə ovçu Pirim ova çıxıbmış. Gəzə-gəzə gəlib yetişir bir dərəyə. Altdan yuxarı baxıb görür ki, qayanın döşü ilə bir maral gedir. Tez nişan alıb atır. Güllə marala dəyir, maral qaçır. Oyçu Pirim də onun dalınca düşür. Bu qovhaqovla gəlib bir yerə çatırlar. Oyçu Pirim maralın belə qaçmağından bərk qəzəblənibmiş.

Oyçu Pirim görür ki, maralın dayandığı yerdən su çıxır. Yaralı maral özünü ora yetirən kimi yaralı yerini su çıxan yerə vurur. Təzədən başlayır qaçmağa. Oyçu Pirim baxır ki, bu qaçmaq heç bayaqkı yaralı maralın qaçışı deyil. Başa düşür ki, burada bir sirr var. Özü də nə sirr varsa bu sudadı. Bilir ki, bu su şəfa suyudu. Yaralı yerə dəyən kimi sağaldır. Maral da bu sirri bildiyindən qaçıb özünü həmin suya çatdırmağa tələsirmiş.

Oyçu Pirim tez həmin yerdə hamam düzəldir. Gəlib adamlara deyir ki, filan yerdə şəfa suyu var.

Afçı Pirim bir gün getmişdi ava. Bir av atır, sora gedir bu avın başın kəsməyə. Av da yaralıymış, ölməyibmiş. Avçı Pirim yaxınlaşanda av deyir ki, bə mənim balam var, məni niyə vırdın?

Afçı Pirimin qolu quruyur. Ha isdiyir əlini tərpətsin, tərpədə bilmir. Yalvarır ki, xudavəndi-aləm, məni bağışla, günah eləmişəm.

Av deyir ki, bu dəfə səni bağışdadım. Bir də belənçi günah işdəmə.

Afçı Pirimin qolu sağalır. Ta o vəxtdan heş kim balalı heyvanı vırmır.

Məhərrəm adında bir ovçu var imiş. Bu çox məharətli ovçu imiş. Bir gün Məhərrəm meşəyə ova gedir. Bir az getdikdən sonra qabağına bir ayı çıxır. İstəyir ayını vursun, amma əl saxlayır. Ayı ovçuya yaxınlaşır və başlayır onun əlini, ayağını yalamağa. Ayı ovçunu öz mağarasının qabağına gətirir və əlinin hərəkətləri ilə başa salır ki, ağacı kəssin.

Səhəri gün ovçu həmin yerə gəlir. Ayının dediyi yerdən ağacı kəsir. Kəsilmiş yerdən çoxlu bal çıxır. Kəndin camaatı bir müddət həmin ağacdan bal daşıyır.

Bu işdən bir qədər keçir. Bu kişi yenə ova çıxır. Gözəl bir çəmənliyə gəlir. Görür ki, bir sürü ceyran keçir. Dəstənin başında olan ceyranı nişan alır. Bu zaman kişi görür ki, ceyranın yanında bir qarı oturub onu sağır. Beləliklə, kişi hər dəfə ceyranı nişan alanda gözünə bu mənzərə görünür. Axırda gözlərini yumub atəş açır, dəstənin başında gedən ceyranı vurur. Bu zaman onun qulağına bir səs gəlir: "Əllərin qurusun, Məhərrəm!"

Ovçu çox bikef evə gəlir. Bir neçə gündən sonra həqiqətən ovçunun əllərinin ikisi də quruyur. Məhərrəm bir də əlinə silah almağa həsrət qalır, əzab-əziyyətlə ölür.

## MÜQƏDDƏS DAŞLAR.
## DAŞA DÖNƏNLƏR

Bir arvad olur. Bir gün bu arvad yenir zirzəmiyə. Görür ki, burda bir qara daş var. İstəyir götürsün, daşın xofu onu basır, qayıdır tez gedir mollanın yanına.

Molla deyir ki, zirzəmini təmiz saxla, əgər natəmiz olsa, o sizə ziyanlıq gətirəcək.

Bir gün arvadın nəvəsi xəstələnir. Sən demə, bu uşaq gedib həmin daşı murdarlayıbmış. Arvad gəlir zirzəmiyə ki, daşın bir parçası sınıb, üstündə də bir-iki damcı su var. Arvad anlayır ki, nəvəsinin xəstəliyi buna görədi. Tez qırılan parçanı götürüb yenə qaçır mollanın yanına. Molla deyir ki, bunun üstünə natəmiz şey tökülüb, ona görə də bu sənin nəvənə zərər toxundurub. Get daşı gətir məscidə.

Arvad evə qayıdır ki, daha iş işdən keçib, nəvəsi ölüb. Ağlaşma-zad qurulur, uşağın qırxı çıxandan sonra arvad daşı gətirir məscidə. Amma səhər görür ki, daş yenə zirzəmidədi. Ondan sonra neçə dəfə daşı gətirir məscidə. Amma səhər durur ki, daş yenə zirzəmidədi.

Bir gəlin vaxt gəlir, vədə çatır, yükünü yerə qoyur. Gəlin uşağa baxanda az qalır ki, dəli olsun. Uşaq anadan ölü doğulubmuş. Gəlin ərinin qorxusundan tez uşağı gizlədib onun yerinə beşiyə daş qoyur və başlayır yırğalamağa.

Əri evə qayıdanda arvadının bar-yükünü yerə qoyduğuna çox sevinir. Beşiyə tərəf gedir ki, övladına baxsın. Gəlin tez yerindən qalxır. Dili tutar-tutmaz deyir ki, təzəcə yuxuya gedib, oyadarsan. Kişi day getmir, bir az gözləyir, gözləyir, amma səbri çatmır. Arvadının sözünə baxmır, özünü salır beşiyə. Görür ki, beşikdə gözəl bir uşax var. Amma hər ikisini heyrət bürüyür. Arvad görür ki, beşiyə qoyduğu daş uşağ olub. Kişi də çaşır ki, bir günlük uşaq "nə atam var, nə anam, yaranmışam daşdan mən" – deyə mahnı oxuyur.

Qızılca kəndinin yaxınlığında bir təpə var. Adına Daban təpəsi deyirlər. Orada olan daşlar ocaxdı. Onlar göydən düşüblər, keçmişi də bilirlər, gələcəyi də. Adamların dərdini də bilirlər, dərmanını da. Orada olan daşlardan biri qalanlarından daha böyükdü. El arasında həmin daş o birilərinin anası hesab olunur. Balaca daşlar da onun balalarıdı. Ana daş həmişə balalayır. Onu öz yerindən götürüb başqa yerə aparanda o, gecə ikən qayıdıb gəlir, balalarının içində olur.

Ocaxtəpənin pirində yekə bir qara daş var. Asafkəfdə də ona oxşayan, ondan bir az xırda qara daş var. Bunlar bacıdırlar. Həmişə cümə axşamı Asəfkəfdəki qara daş gəlir Ocaxtəpədəki böyük bacısını görüb qayıdır.

Culfanın Yaycı kəndindəki pirdə qara daş var, üstündə nal izi. Xıdır peyğəmbər* burdan keçəndə atı ayağını qoyub bu daşın üstünə.

Qədim əyyamlarda bir əjdaha var imiş. Gəlib yol kənarını özünə məskən edibmiş. Bir adamı qoymazmış bu yoldan ötüb keçə bilsin. Bu xəbər axırda gedib Xıdır İlyaza yetişir.

Günlərin bir günü Xıdır İlyaz yolunu əjdahanın uzandığı yerdən salır. Əjdahanın yanından keçəndə Xıdır İlyazın atı şahə qalxır, əjdahaya bərk bir təpik vurur. Əjdaha yerindən bir də qalxmır, daş olur qalır.

Başşabalıd və Başköynük kəndlərini birləşdirən yolun qırağındakı daş həmin əjdahadı. Daşın üstündəki izlər də Xıdır İlyazın atının nalından, bir də arabasının təkərindən qalan izlərdi.

Köhnə Rəfi kəndində bir bülöv daşı var. Camaat aparıb o daşda baltasını, bıçağını itiləyir.

Deyirlər, o daş göydən gəlib.

Deyirlər bizim Qara daş göydən gəlib. Səhər açılan kimi üstünə gün düşür, axşama kimi çəkilmir. Günortanı, axşamı bu daşdan bilirlər.

Naxçıvan yaxınlığında Asəfkəf dağına vaxtilə ziyarətə gedərmişlər. Ziyarətə gedənlər ürəklərində dilək tutandan sonra dağa kiçik daş atarmışlar. Daş dağa yapışarmışsa, deməli, dilək yerinə yetəcəyimiş, yox daş yerə düşərmişsə, istək yerinə yetməyəcəyimiş.

Bir çoban öz sürüsünü yaylağa yayıb durexcelurmuş. Gün hər tərəfə od ələyirdi. Çoban da, sürüsü də bərk susayır. Heç yerdə su tapmayan çoban naəlac qalır, üzünü yuxarı tutub yalvarır:

– Ay Allah, burda bir bulaq yarat, doyunca su içək, sənə bir qurban kəsəcəyəm.

Söz çobanın ağzından qurtarmamış, bir bulaq fəvvarə vurur. Sürü bulaqdan doyunca içir. Çoban sudan doyandan sonra sözünə əməl eləmir. Əl atıb qoltuğunun altından bir bit tutub, "bu da sənin qurbanın" – deyib, biti öldürür.

Az keçmir ki, çoban qara daşa dönür. Qoyunlar da qara daş olub dörd yanına səpələnir.

Bir çoban Ağrı dağının ətəyində heyvan otarırmış. Günorta baxır ki, həm özü, həm də sürü susuzluqdan ölür. Heç yanda da su yoxdu. Allaha yalvarır ki, burda bir çeşmə yarat, yeddi qoyun qurban kəsim.

Bir də görür ki, qabağında bir çeşmə yarandı, özü də içir, sürü də içir. Sonra fikirləşir ki, bir sudan yana yeddi heyvanı niyə kəsim, dəli deyiləm ki?!

Qoltuğundan yeddi bit tapır, öldürüb deyir ki, bu da Allahın yeddi qurbanı.

Elə bu dəmdə çoban sürüsü ilə birlikdə daşa çevrilir. Ağrı dağının ətəyindəki daşlar o vaxtdan qalmadı.

Borçalı çökəyində qoyun sürülərinin çoxluğu, gümrahlığı ilə tanınan bir çoban var imiş. Yayda yaylaq vaxtı çoban öz sürüsü ilə Başkeçiddəki Qır dağına yollanır.

Bir gün çoban sürünün arxasınca gedir. Sonra bulağın olduğu yeri unudur, başlayır axtarmağa. Ancaq nə qədər axtarırsa bulağı tapa bilmir.

Həm çoban bərk susuzlayır, həm də sürü. Çoban yalvarır ki, ey Qır dağı, sən buradan bir bulaq çıxar, mən bir ağ, bir də qara qoyun qurban kəsəcəyəm.

Çoban bu sözləri deyəndən sonra baxır görür ki, həmin yerdən bulaq çıxdı. Özü də necə bulaq, gözyaşı kimi dumduru, buz kimi soyuq. Çoban ilə sürüsü bulağın suyundan içirlər. Amma çoban nə ağ qoyunu, nə qara qoyunu kəsmir. Elə həmin saat çoban da, sürü də daşa dönür.

Bir çovan olur. Sürüsünnən qalır bu dağlarda ac-susuz, çox gəzir heç yerdə su tapammır. Özü də, sürüsü də suzunnan az qalır yana. Çovan baxır öləjəh, üzünü tutur Allaha yalvarır ki, burdan bir bulax çıxsın, qara qoynu qurvan kəsəjəm. Sözünü qurtarmamış baxır ki, budu, bir qayanın divinnən bulax poqquldadı. Özü də içir, sürüsünü də suluyur, çıxıf gedir. Qurvan kəsmir. Allahın da buna acığı tutur, hamısını daşa döndərir. İndi o hündür daş çovandı, yanındakı balacalar da qoyunnarı.

Lerikin Çayrud kəndi yaxınlığında "Çoban daşadönən" adlanan bir yer var. Çoban sürüsünü otarırmış. Onu bir bulağın başında yuxu tutur. Ayılıb görür ki, sürü yoxdu. Əhd eləyir ki, sürünü tapsam, bir qoçu qurban kəsəcəyəm. Çoban sürünü tapır, lakin əhdinə əməl eləmir. Ona görə də sürüsü ilə bərabər daşa dönür.

Bir çoban Nağara yaylağında qoyun otarırmış. Su çox uzaqda imiş. Bir gün özü də, qoyunu da susuzluq çəkən çoban üzünü göyə tutub deyir:

– İlahi, buradan bir bulaq peyda olsun. Başında bir ağ qoç, bir qara qoç qurban kəsəcəyəm.

Yerdən bir bulaq göz verir. Çoban sudan doyunca içir, sürüsünü də sulayır. Çoban əhdinə vəfa qalıb bir cüt qurban kəsir.

Günlərin bir günündə bir gəlin çiynində səhəng həmin bulağa suya gəlir. Çoban çomağı ilə bulağın gözünü bulandırır. Bu iş Tanrıya xoş getmir. Çobanı da, sürüsünü də daşa döndərir.

Bir sarvan mal aparırmış. Suları qurtarıpmış, heç yerdə də su tapa bilmirlərmiş, susuzunnan az qalırmışdar ölsünnər. Bir dağdan keçəndə sarvan əhd eləyir ki, bırda su tapsax, dəvələrdən birin qurban kəsəcəyəm.

Bir də görüblər ki, qaya yarıldı, başdadı bulax axmağa. Hammı doyunca sudan içir, tuluxları da doldurullar. Bınnan sora sarvan fikir-

ləşir ki, dəvəni kəssə ziyana düşər. Yaxşısı bıdı ki, başqa bir şeyi qurban kəssin. Əlini atır qoynunnan bir bit çıxarıp öldürür, deyir ki, ay su, bu da sənin qurbanın.

Elə bını decəy su yoxa çıxır. Sarvan da, dəvələri də daşa dönüp qalıllar orda.

Bir arvat xəmir eliyirmiş. Baxır ki, xırda uşax ağlıyır. Demiyəsən uşax özün batırıp. Arvat ayağa durmağa ərinir. Əli xəmirli uşağın zibilin silir.

Elə bı vaxtı arvat da, uşax da daşa dönüllər.

Keçmiş əyyamlarda bir gəlin varmış. O, həmişə namusunu gözlər, qaynatasının yanında abır-ismətlə dolanarmış. Ona görə də qaynatası onun xətrini həmişə əziz tutarmış.

Bir gün gəlin başını yumaq istəyir. Tez su qızdırıb körpəsini dalına şəlləyir. Bir əli ilə su töküb, bir əli ilə də başlayır başını yumağa. Bu zaman gözlənilmədən qaynata içəri girib gəlini başı açıq, saçları dağılmış görür. İşdən hali olan gəlin qıpqırmızı olur. Özünü itirir, gizlənməyə yer də tapmır. Üzünü göyə tutub yalvarır ki, mən qaynatamın üzünə çıxa bilmərəm, məni ya quş elə, ya da daş.

Gəlinin yalvarışı onu daşa çevirir. Arxasındakı körpə ilə bərabər böyük qayaya dönür.

Adamlar arzu-diləyini "Gəlin qaya"ya danışar, dilək diləyərlər. Diləklərinin yerinə yetəcəyini bilmək üçün xırda daş götürüb qayanın başına atarlar. Əgər daş orada qalarsa, dilək yerinə yetəcək, yox, diyirlənib düşərsə, murad da hasil olmayacaq.

Qədimlərdə bir kənddə gözəl bir qadın yaşayırmış. Onun gözünün ağı-qarası bircə balası varmış.

Bir gün gəlin baxıb görür ki, təknədə çörək qurtarıb, tez əl-ayağa düşür. Un ələyir, xəmir yoğurur, ocaq qalayıb sacayağını qızdırır. Körpəni də ocağın kənarında qoyub başlayır yuxa salmağa.

Başı işə elə qızışır ki, körpənin ağlamaq səsini güclə eşidir. Yerindən hövlnak qalxıb körpənin bələyini açır, onu pis vəziyyətdə görüb təmizləmək istəyir. Amma tənbəllik edir. Evdən əsgi gətirib təmizləmək əvəzinə, yuxaya əl atır. Birdən səs eşidir, başını qaldıranda göydən yellənə-yellənə bir yaylıq düşdüyünü görür. Yaylıq o qədər gözəl imiş ki, onunla uşağı təmizləməyə əli gəlmir. Yenə də yuxaya əl atır. İkinci dəvə bayaqkından da bərk səs eşidilir. Gəlin göydən ikinci bir yaylığın yellənə-yellənə düşdüyünü görür. Bu yaylıq bayaqkından da gözəl idi. Yaylığın çirklənəcəyinə heyfi gəlib yenə də yuxaya əl atır. Birdən göy guruldayır, şimşək çaxır, ətrafı haray-həşir bürüyür. Gəlin göz qırpımında qayaya dönür.

Deyirlər, o vaxtı göy yerə lap yaxın imiş. Gəlin qayaya çevriləndən sonra göy də yerdən tamam uzaqlaşır.

Bir gəlin saçını darıyırmış. Birdən qaynı gəlip bunu başıaçıx görür. Gəlin utandığınnan Allaha yalvarır ki, Allah, məni quş elə, Allah məni daş elə.

Allah da onu daşa çevirir. İndi həmən daşa "Gəlin qayası" deyillər.

Məngələn ata tilsimli bir kişi olmuş, min il yaşamışdır. Məngələn atanın bircə qızı var imiş. Günlərin bir günü Məngələn ata bərk susayır, qızına deyir:

– Qızım, get bulaqdan mənə su gətir. Özün də tez gəl.

Qız bulağa gedir. Bulağın üstündə yoldaşları ilə söhbətə başlayır, atasının tapşırığı yadından çıxır.

Məngələn ata ha gözləyir, ha gözləyir, qızı gəlmir. Susuzluqdan davam gətirməyib bulağa yüyürür. Qızını qızlarla söhbət eləyən görüb deyir:

– Səni daş olasan, qızım, niyə gəlmirsən, bəs bilmirsən mən susuzam?

Qız o saat çiynində cürdək daş olur.

Arpaçayın qırağında iki tayfa yaşayırmış. Həmişə bunlar torpaq üstündə savaşırlarmış. Hərəsindən nə qədər adam ölmüşdü, daha bunlar qanlı olmuşdular.

Bunlardan biri tayfa başçısının igid bir oğlu, oyankı tayfa başçısının bir gözəl qızı var idi. Bir gün oğlan yenir çayın qırağına. O biri tayda qızı görür, bir könüldən min könülə qıza aşiq olur. Qız da oğlana vurulur. Oğlan üzüb gəlir qızın yanına. Razılaşırlar ki, hər gecə görüşsünlər. Görüşdən qabaq oğlan Qaratəpə dağında tonqal qalamalıydı, qız da bu tayda bir ocaq yandırmalıydı ki, səni gözləyirəm. Sonra razılaşırlar ki, hər kəs öz əhdinə vəfasız çıxsa özünü oda atıb yandırsın.

Bu minvalla onlar bir müddət görüşürlər. Ancaq bir gün oğlan tonqal qalayır, ha gözləyir o tayda ocaq yanmır. İkinci gecə də o tayda işıq görsənmir. Üçüncü gün oğlan o taydan şənlik səsi eşidir. Anlayır ki, qızın toyudu. Fikirləşir ki, daha mən onsuz niyə yaşayıram.

Tonqalı daha da iti eləyir, özünü atır odun içinə. Ancaq bu vəfasız çıxmamışdı ki? Qız çıxmışdı da. Ona görə oğlan odda yanmadı. Ağ daşa çevrilib qaldı burda. O vaxtdan da oğlanın yaşadığı yerə Oğlanqala, qızın yaşadığı yerə isə Qız qalası dedilər. Oğlanqalada indi də ağ daş durur. Həmişə Novruz bayramında bu ağ daşa qurban kəsir, onun yanında od qalayırlar.

## BƏRƏKƏT VƏ PAKLIQ

Bir qarı var imiş. Bir gün bir yolçu bu qarıya qonaq gəlir. Axşam Allah verəndən, azdan-çoxdan yeyirlər. Qarı yer salır ki, qonaq yatsın. Özü də başlayır qabları yumağa.

Qonaq deyir ki, ay nənə, axşamın xeyrindən sabahın şəri yaxşıdı. Yıxıl yat, qabları səhər yuyarsan.

Qarı deyir ki, yox, gərək indi yuyam. Allah ruziləri gecə paylayır. Əgər mənim qabım kirli olsa, Allah mənə ruzi verməz.

Əvvəllər buğda yox imiş. Hər gün göydən un yağırmış, adamlar da bu unu yığıb çörək yapırlarmış.

Bir uşaq özünü batırır. Anası su-zad gətirib əlinin ununu yumağa ərinir. Uşağı əli unlu təmizləyir. Bu Allahın xoşuna gəlmir. Unu ta yağdırmır. Adamlar başlayır aclıq çəkməyə.

İt ağzını göyə tutub başlayır ulamağa, Allahdan ruzi istəyir. Allahın ona yazığı gəlir, göydən yerə buğda salır. Deyir ki, qoy indi insanlar özləri zəhmət çəkib buğdanı cücərtsinlər, məhsulunu yığıb, döyüb üyütsünlər. Onda bəlkə unun qədrini bilələr.

Qədimlərdə buğdanın sünbülü yerdən başacan dən imiş. Çörək o qədər bol imiş ki, insanlar başlayırlar qudurmağa. Çörəyi zibilliyə atırlar, qədrini bilmirlər. Allahın da insanlara qəzəbi tutur, çörək çəkilir göyə. İnsanlar yeməyə heç nə tapmayıb az qala acından ölürlər.

İt üzünü göyə tutub ulayır, deyir ki, ay Allah, sahibimiz elə eləyib, bəs bizim günahımız nədir?

Allahın itə yazığı gəlir, çörəyi qaytarır yerə. İtə də deyir ki, bu ruzini sənə verirəm, insanlar da sənin hesabına yesinlər.

Ancaq Allah buğdanın başını çıqqılı sünbül eləyir ki, insanlar yenə qudurmasın.

Bir arvadın uşağı özünü batırır. Arvad onu təmizdəməyə heç nə tapammır, çörəyinən təmizdəməy istəyir. Allah qəzəblənir, çörəyi insannardan alır. Adamnar yeməyə heş nə tapammırlar. Başdıyırlar ölməyə.

İt üzünü göyə tutub uluyır, Allaha deyir ki, insannar günah işdiyib, bə mənim günahım nədi ki, aj qalmışam? Allah itə görə insannarı da bağışdıyır. Çörəyi qaytarır. Ona görə deyillər ki, çörəh itindi.

Yeddi qardaş var imiş, bir bacı. Bu qardaşlar hər gün gedirlərmiş işləməyə. Bacıları da evdə qalıb xörək bişirirmiş, axşam hamı şam yeməyinə oturub yeyirmişlər.

Bir gün qız bişirməyə evdə heç nə tapa bilmir. Gedir çöldən pencər yığıb gətirir, bişirir. Axşam qardaşları gəlir, elə pencərdən yeyən kimi hamısı çönüb olur qoyun. Qız başlayır başına-gözünə döyüb ağlamağa. Səhəri də ağlaya-ağlaya bu qoyunları aparır otarmağa.

Bir də görür ki, boz atlı bir kişi peyda oldu. Kişi soruşur ki, qızım, niyə ağlayırsan?

Qız əhvalatı deyir. Sən demə, bu kişi Xıdır peyğəmbər imiş. Ağam qıza deyir ki, sən səsini çıxarma, mən onları adam eləyəcəm. Ancaq qışqırsan, ta heç bir əlac olmayacaq.

Xıdır peyğəmbər ağam başlayır qoyunları çomağı ilə vurmağa. Altı qoyun çönüb olur adam. Ancaq bir qoyunu vuranda qız dözməyib qışqırır. Deməyəsən bu, xırda qardaşı imiş. Xırda qardaşın yarısı insan olur, yarısı heyvan. Ta hara yetəcək, bu xırda qardaş altı ay qalıb ölür.

## QEYRİ-ADİ VARLIQLAR

Su pərisi gözəl bir qızımış. Bir gün bı qız çayda çiməndə sel gəlir, az qalır ki, boğulsun. Allahın bına yazığı gəlir.

Bı dəmdə dalğa vırır, qızın qurşaxdan yuxarı hissəsi eşiyə çıxır. Eşiyə çıxan hissəsi qalır, ancaq suda olan hissəsi balığa çevrilir. Ona görə də su pərisinin qurşaxdan yuxarısı qızdı, qurşaxdan aşağısı balıxdı.

İranla bizim aramızdan Araz çayı axır. Əzəl bizlər gedib-gələrdik o taya. Bir dəfə cahıllar gedirlər o taya gəzməyə. Arazı keçəndə baxırlar ki, çayın ortasında qayanın üstündə üç dənə qız oturub. Qızlar çılpaqdı, ancaq uzun saçları varıdı, tökmüşdülər, bədənlərini örtmüşdü.

Cavanlar yaxınlaşanda bunlar özlərini atırlar Araza. Cahıllar baxır ki, bunlar qurşaqdan aşağı balıqdılar. Sən demə, bu qızlar su pərisiymişlər.

Bir arvad çölə pencər yığmağa getmişdi. Uşağı yaxındakı təpəyə qoymuşdu. Qayıdıb gələndə görür ki, uşaq yoxdu. Ağlaya-ağlaya evə dönür. Başına gələnləri ərinə danışır.

Gecə yatanda yuxuda deyillər ki, get uşağı qoyduğun yerdə yat. Yanına da bir piltə qoy. Arvad elə də edir.

Yuxuda görür ki, at atlı, ağ geyimli nurani bir qoca iki gözəl alma gətirib arvadın yanına qoydu. Arvad ayılanda görür ki, yanında iki alma var. Almaları götürüb evə gəlir. Əri deyir ki, neyləyək?

Arvad deyir:

– Gəl saxlayaq.

Kişi deyir:

– Yeyək.

Arvad deyir:

– Yox.

Üç gün keçir. Kişi dözə bilməyib almanı yeyir. Səhər durub kişiyə baxıb arvad da yeyir. Görürlər ki, uşaq yanlarındadı.

Boyu bir qarış, saqqalı yeddi qarış* insana oxşuyur, ancax gözə görünmür. Onun saqqalındakı tühlərin hərəsi bir oxdu. O hərəkət eliyəndə saqqalıynan hərəkət eliyir.

Kəlləgöz** də adamdı, ancax adamnan çox yekədi. Özü də təhcə alnında bir gözü var. İnsannara düşməndi, harda tutsa bişirib yeyir.

Kəlləgözün çoxlu sürüsü olur, o da bı sürünün içində yaşıyır. Səhərdən-axşama kimin heyvannarın otarırmış, axşam da öz qalaçasına qayıdarmış.

Bir nəfər gizlincə qalaçaya girir, ocax yandırır, şişi qızdırıp Kəlləgözün gözünü dağlıyır. Kor Kəlləgöz qapını qapıyıb bını tutmax istiyir. Bı adam da heyvan öldürüp girir dərisinə. Kəlləgöz əlin sürtür dəriyə, elə bilir ki, qoyundu. Adam da qurtulup gedir, canını qurtarır. Kəlləgöz addım səsinə düşür bının dalısınca. Ancax yolu görmədiyinnən qayadan uçup ölür.

Atam tacir idi. Danışır ki, mal satmaqdan gəlirdik. Dəryada gəmimiz qərq oldu. Mən iki yoldaşımla bir taxta üzərində qaldıq. Bir ay biz həmin taxdanın üzərində üzdük, sonra gəlib bir adaya çıxdıq. Sonra adadan köçdük.

Dağı aşıb gördük ki, burada çoxlu mal-qara var. Bu mal-qara bizi görən kimi mələşdi. Sən demə, bura Təpəgöz Ləzginin yeridi, bu mal-qara da onundu. Bir də baxdıq ki, bir adam gəlir. Təpəsində bir gözü var, bu da Təpəgöz Ləzgidi. Gəlib üçümüzü də tutub apardı. Bir mağaraya saldı, ağzına yekə bir dəyirman daşı qoydu. Sabah bu Təpəgöz Ləzgi gəlib bir ocaq qaladı, əvvəl bir yoldaşımızı şişə taxıb möhkəm qızartdı, yedi. Sabah gəlib o birini yedi, o biri gün növbə mənə gəldi. Mən tez bir şiş qızdırdım, ondan əvvəl onun təpədəki gözünə soxdum. Təpəgöz Ləzgi öldü. Tez burdan çıxdım. Gəlib şəhərə çatdım. Şəhərdə heç kəs yox idi. Bir az gəzdim, gördüm ki, ağacın dalında bir kişi gizlənib, onu çağırdım. Kişi gəldi. Dedim, a kişi, niyə gizlənibsiniz, bu şəhərin camahatı hanı, hara gediblər. Kişi dedi ki, hamı Təpəgöz Ləzginin əlindən gizlənib. Dedim ki, a kişi, Təpəgöz Ləzgini öldürdüm.

Kişi bunu eşidən kimi çox sevindi, padşaha xəbər apardı. Hamı sevinib bayram elədi. Şah öz qızını mənə verib qırx gün toy etdi.

Bu tərəflərdə köhnə zamanlarda bir ər-arvad yaşayırdı. Bunların gözünün ağı-qarası bircə oğulları var idi. Onun da düz qaşqasının ortasında bircə gözü var idi. Bir gün bunların kəndində bir şir peyda oldu. Camahata çox əziyyət eləyirdi, hamı başını götürüb qaçdı. Amma bu uşaq yaddan çıxıb qaldı. Onu qaçırda bilmədilər. Bu vaxtlar uşaq üç yaşındaydı, amma böyük adamlardan çox ağırıydı. Elə oldu ki, onu şir tapdı, aparıb yuvasında saxladı. Bir gün bir ovçu şiri vurub öldürdü. Bundan sonra oğlan başladı tək yaşamağa. Camahat onun adına Təpəgöz deyərdi. Bir gün Təpəgöz öz sürüsünü otarırdı. Bunu bir oğlan gördü. İndi sizə bu oğlandan deyim. Bu uşaq elə balacalığından at sürməyi, qılınc çalmağı yaxşı bilirdi.

Pəhlivanlığın hər üzünə bələdliyi varıydı. Üç yaşında olanda yekə pəhlivanlarla güləşərdi. Altı yaşı olanda altı pudluq daşı ovcunda kül edərdi. Atı çiynində gəzdirərdi. Bu oğlan yaxın məmləkətdə yaşayan Əhmədin oğluydu. Özünün də adı Səfər.

Səfər bilirdi ki, Təpəgöz çox ziyankarlıq eləyir. Uşaqları oğurlayıb yeyir. Camahatın mal-qoyununu çöldən aparır. Səfər on altı yaşına çatanda atasından, anasından izn aldı ki, gedib Təpəgözü öldürsün. Hamı da bilirdi ki, Səfər qoçaq adamdı. Oydu ki, buraxdılar. Durub ordan yola düşdü.

Əvvəlcə Səfər bir fikir elədi ki, Təpəgözün gücünü sınasın. Gəlib bununla qarşılaşdı. Ancaq ki, Təpəgözə nə ox, nə qılınc batmırdı. Səfər burdan durub evinə gəldi. Çox fikrə getdi, bu fikirlə də gecəni sabah elədi.

Sabah açıldı. Səfər yaraqsız-yasaqsız durub yola düşdü. Gəlib çatdı Təpəgözün məskəninə. Bir qoyun tapıb dərisini soydu, əyninə keçirdi. Ordan durub Təpəgözün sürüsünə qarışdı. Təpəgöz sürüyə qoyun gəldiyini bildi, çox sevindi. Bəli, axşam Təpəgöz qoyunları mağaraya yığdı, od qalayıb yıxılıb yatdı. Səfər qoyun dərisini əynindən çıxartdı, kirimişcə bunun yanına gəldi. Ocaqdan bir yekə kösöv götürüb Təpəgözün gözünə basdı, onu kor elədi. Səfər tez qoyun dərisini geyindi. Təpəgöz nə qədər axtardı, onu tapammadı. Sabah mağaranın qapısını qaldırıb qoyunları çölə ötürdü. Səfər ordan evə gəldi, atını, yarağını götürüb yenə mağaraya qayıtdı. Amma atası ona demişdi ki, Təpəgözün ölümü ayağındadı. Səfər gəlib bunun ayaqlarını xəncərlə doğradı. Təpəgöz ölüb cəhənnəmlik oldu, məmləkətin canı qurtardı.

Bir ər-arvad vardı. Onların uşaqları olmurdu. Kişi nə qədər arvadı ilə nəzir-niyaz verirdisə də, bir şey çıxmırdı.

Axır bir ili bunların bir uşağı olur ki, bunlar sevinmək əvəzinə kədərlənirlər. Səbəbi də o idi ki, uşağın bir gözü var idi, o da təpəsinin ortasında. Ata-ana naəlac qalıb uşağı saxladılar. Sonrakı il onların bir qızı da oldu. Amma qız çox qəşəng idi. Təpəgöz elə tez böyüyürdü ki, heç uşağa bənzəmirdi. Ata-ana uşağı doyuzdura bil-

mirdilər. Təpəgözə hər nə qədər yemək verirdilərsə, o yenə qışqırırdı ki, acam, acam.

Bir gün kənddən bir adam yoxa çıxır. Hər nə qədər gəzirlərsə, nə ölüsünü, nə dirisini tapa bilmirlər. Bir neçə gün keçir, kəndin adamlarından biri də yoxa çıxır. Bunu da nə qədər axtarırlarsa tapa bilmirlər. Bu yolla hər gün bir adam yoxa çıxır. Camahat təəccüblənir ki, görəsən bunlar necə olur. Kimin ki, əli-ayağı tutur, bu kənddən çıxıb gedir. Gedə bilməyənlərdən hər gecə birisi yoxa çıxır.

Təpəgözün ata-anası qocalmışdı. Daha başqa yerə getməyə taqətləri qalmamışdı. Odur ki, oturub özlərinin də bir gün yoxa çıxacaqlarını gözləyirdilər. Balalarını yanlarına çağırıb dedilər:

– Balalarım, çıxın buradan gedin, biz günümüzü görüb, dövranımızı da sürmüşük. Barı siz bir gün görün.

Qız getmək istəyir, amma Təpəgöz qoymur. Başlayır yalandan dil tökməyə ki:

– Nə danışırsınız, biz heç sizi qoyub bir yerə gedə bilmərik? Qoy elə nə olacaqsa hamımıza olsun.

Demə, yoxa çıxan adamların hamısını Təpəgöz yeyirmiş. Bir gün kənddə qalan adamların axırıncısı da yoxa çıxdı. Təpəgöz bir gün dözdü. Necə olsa ata-ana idi. Axırda bir gecə dözməyib bunları da yedi. Sən demə, bunları qız görürmüş. Yazıq qız başladı ehtiyatlı olmağa.

Qız Təpəgözə dedi:

– Qardaş, gəl burdan gedək, indi də növbə bizimdi.

Qız bunu deyirdi ki, görsün Təpəgöz nə deyəcək.

Təpəgöz dedi:

– Bacı, mən ölməmişəm ki, sənə toxunsunlar. Heç yerə getmək lazım deyil.

Qız gördü ki, yox bunun fikri ayrıdı. Gecə ikən evdən çıxdı. Qızın bir iti də var idi. Bunların ikisi də getməkdə olsun, görək Təpəgöz nə elədi. Təpəgöz qalxıb gördü ki, qız yoxdu. Bildi ki, qaçıb. Bu da başladı qızın dalınca getməyə. Qız gördü ki, budur, Təpəgöz çathaçatdı. Yazıq ora baxdı, bura baxdı, bilmədi nə eləsin. Gördü bir yekə qoz ağacı var. Tez bu ağaca çıxdı. Təpəgöz gördü ki, qız ağaca çıxıb, başladı yalandan qızı dilə tutmağa ki:

– Bacı, düş gəl, evimizə gedək.

Qız dedi:

– Yox, qardaş, elə bura yaxşıdı.

Axırda gördü ki, qız düşməyəcək. Başladı ağacı kəsməyə, çünki ağaca çıxa bilmirdi. Azca qalmışdı ki, ağac qırılıb düşsün yerə, it bayaqdan tullandı Təpəgözün üstünə. Pəncələri ilə elə vurdu ki, Təpəgözün bircə gözü də çıxdı. Başladı özünü ora-bura vurub qışqırmağa. Bir xeyli çabalayıb öldü.

Qız sevinə-sevinə ağacdan düşdü. İtin boynunu tumarladı. İtini də götürüb başqa kəndə yaşamağa getdi.

Ucubılıx* adında bir adam varımış. Bı Ucubılıx o qədər uzunmuş ki, başı buludlara dəyirmiş. Əlin atıp dəryadan balıx tutar, qaldırıp günəşdə pişirip yeyərmiş.

Ucubılıx camahatdan borc alıb özünə bir tuman, bir də köynəy tihdirmişdi. Ancax neçə illər keşsə də, camahatın borcunu qaytara bilmirmiş. Camahat görür ki, Ucubılıx bunnarın borcunu qaytarmıyacax, yığışıb istəyillər ki, onu döysünnər. Ağaşdan uzun-uzun zopalar düzəldip cumullar Ucubılığın üsdünə, ancax bı zopalar heç onun topuğuna da çatmır. Ayax barmaxlarını döyəşdəməh isdiyəndə Ucubılıx bir addım günbatana atır. Camahat neçə gün yol gedip günbatana çatanda Ucubılıx addımın gündoğana qoyur. Ona görə də Ucubılığa heş kim yaxın düşəmmir.

Bu iş Allaha xoş getmir. Əzrayıla deyir ki, get Ucubılığın canını al. Əzrayıl gəlir Ucubılığın yanına, ancax görür ki, əyər onu yerə yıxmasa, heş dad eliyəmmiyəcəh. Onu yerə yıxmax heç yüz Əzrayılın işi deyildi.

Əzrayıl bilmir neynəsin. Bir tərəfdən Allahın əmrinnən çıxammaz, o biri tərəfdən də Ucubılığı yerə yıxmağa gücü çatmaz. Fikirrəşip bir hiylə işlədir. Bir kötüyün ucunu yonub miz eliyir, qoyur Ucubılığın yolunun üsdünə. Ucubılıx keçəndə bı kötüh batır onun qıçına. Ucubılıx ha əlləşir, çıxarammır. Görür ki, olmıyacax, camahata deyir ki, qıçımdan bı tikanı çıxarın, sizin borcunuzu verim.

Camahat deyir ki, irazıyıx. Sən uzan yerə, biz də kötüyə ip bağlıyıp dartax, bəlkə çıxara bildih.

Ucubılıx yerə uzanır. Camahat kötüyü bının qıçınnan çıxarmax isdiyəndə Əzrayıl tez çökür onun sinəsinə, canını alır.

Adəm atanın vaxtında Ucubılıx adında yekəpər bir adam varmış. Elə yekəymiş ki, bir sümüyündən bir körpü salmaq olarmış. Bir gün Ucubılıx Adəm atayla savaşır. Adəm ata əlindəki ağacı Ucubılığın başına yendirmək istəyir, ancaq əli çatmır, ağac Ucubılığın topuğuna dəyir.

Əzrayıl Ucubılığın canına ala bilmirmiş. Bir gün Ucubılığın ayağına çöp batır. Bacısını çağırır ki, gəl çöpü çıxart.

Bacısı çayın o tayındaymış. Ucubılıx ayağını körpü kimi çayın bu tayından o tayına uzadır. Bacısı gəlib çöpü çıxaranda Əzrayıl özünü yetirir, Ucubılığın canını alır.

Naxçıvan ərazisi bir vaxt böyük dərya imiş. Əlincəçaydakı İlannı, Genni dağları da ada. Bu adada kələntər, azman adamlar yaşayırdılar. Adlarına da Ucubılıx deyirdilər. Odları, ocaqları da yox idi. Bunlar unu suda yoğurub xəmiri günə tutub bişirirdilər. Kələntərlər ayaqlarının birini İlannıya, birini də Genni dağına qoyarmış. Əyilib dəryadan balıq tutub, günün qabağında oyıza-bıyıza döndərib bişirərmişlər. Ucubılıxlar çox yeyib, çox işləyərmiş. Yeməyin çatdırmaq olmazmış. Deyirlər vaxt gəlir, çox isti olur, dərya çəkilir.

Bir qoca əkin əkirdi. Ucubılıxdan birinin yanına getdi dedi:

– Gedək mənə yer şumla.

Ucubılıx dedi:

– Əvvəl yeyib, sonra şum elərəm. Günün sonunda da səndən muzdumu alaram.

Qoca dedi:

– Yaxşı, ancaq gərək yeməmişdən üç dəfə yerə, üç dəfə göyə and içəsən.

Ucubılıx dedi:

– Yox, qoca, biz and içmərik.

Qoca dedi:

– Olmaz, günah eləmə. Gərək and içib yeyəsən.

Ucubılıx nə qədər inad elədisə, qoca əl çəkmədi. Axırda and içdi. Qoca dedi:

– Hə, indi olar, çörəyini ye.

Ucubılıx gündə yediyindən çox az yedi. Doyub çəkildi. Özü də bu işə mat qalıb qocadan soruşdu:

– Qoca, neynədin doydum?

Qoca dedi:

– Çörək yerin-göyün bərəkətidi. Gərək ona itaət edəsən.

Deyirlər ki, bunnan sonra Ucubılıxlıların nəsli cılızlaşıb adi adamlar kimi oldu. Yerə-göyə and içdilər, amma əvvəlki kimi işləyə bilmədilər...

Ucubılıx çox nəhəng adam olup. Üç yüz il yaşayıp. Pütün ömrü boyu əlləşip ki, özünə bir ev tiksin. Əmə, vır-tut bir kalafa tikip ki, bı da onun topuğuna ancaq çatıp. Ölənə yaxın da deyip ki, bilsəydim dünyanın vəfası bıdı, heç bı kalafanı da tikməzdim.

Bir gün Ucubılıx bir kəntdən keçirmiş. Kəndin camahatının bına yazığı gəlir. Yığışıp deyillər ki, gəlin bına bir köynək tikək. İrazı olurlar. Bir il əlləşip parça toxuyurlar, sora da bir il əlləşib Ucubılığa köynək tikillər. Əmə Ucubılıx bınlara heç bir yaxşılıq eliyəmmir. Hər bı kənddən keçəndə xəcalət çəkirmiş ki, mən bunlara borclu qaldım.

Bir gün Musa peyğəmbərin Ucubılıxnan sözü olur. Musa peyğəmbər isdiyir ki, onu ağacla vırsın. Əmə nə qədər happılırsa ağac Ucubılıxın topuğuna ancaq çatır.

Bir gün Əzrayıl gəlir ki, Ucubılığın canın alsın. Ucubılıx onu görəndə bir-iki addım o tərəfə çəkilir. Bının da addımı o qədər yekəymiş ki, Əzrayıl nə qədər yol gedənnən sonra ona çata bilirmiş. Elə ki Əzrayıl gəlip çatır, Ucubılıx təzədən əvvəlki yerinə qəyidir. Əzrayıl ha-hu eliyib geri dönüncə Ucubılıx bir də o yana çəkilir. Ta belə-belə, axırı Əzrayıl görür ki, Ucubılıxa çatammayacax, götürüp bir ağacın ucunu yonur, dikinə yola qoyur. Ucubılıx gəlip keçəndə ağac batır qıçına.

Ucubılıxın bir bacısı da varıymış. Nil dəryasından o yanda yaşayırmış. Ucubılıx qıçını uzadır ki, bacı, qıçıma tikan batıp, çıxart. Bacısı bı dirək boyda tikanı çıxarınca, Əzrayıl onun canını alır. Ucubılıx ölənnən sora heç kimin gücü çatmır ki, bının ayağını Nil dəryasının üstündən götürsün. Bir az keçənnən sonra Ucubılığın əti çürüyüb tökülür, sümüyü isə dəryanın bu başınnan o başına uzanan körpü olur. Deyilənə görə, onun lülə sümüyünün içindən araba keçirmiş.

Sədərək kəndi yaxınlığında Şərur adında bir şəhər olup. Bı şəhərin qırağında bir nəhəng yaşayırmış, adı da Ucuqulu imiş. Ucuqulu o qədər yekəymiş ki, adi adamlar onun topuğundan ancaq olarmış.

Ucuqulu ətraf dağların, bir də Qaraağac meşəsinin ixtiyarını almışdı öz əlinə. Heç kəsin gücü çatmazmış ki, meşədən bir tikə odun qırsın. Lazım olanda Ucuqulunun özü odun yığıp gətirərmiş şəhərə, paylayarmış camahata. Əvəzində də Şərur əhli Ucuqulunu, anasını, bir də onun atını dolandırarmış. Əmə Ucuqulu hər dəfə şəhərə odun gətirəndə bir xata törədərmiş. Ya adamlar onun ayağı altda qalıp əzilərmiş, ya da Ucuqulu çiynindəki odun şələsini yerə qoyanda ev-zad uçarmış.

Axırı camahat zinhara gəlir. Yığışıp danışıllar, Ucuqulunun yanına bir neçə ağsaqqal göndərillər. Ağsaqqallar gəlip Ucuquluya deyillər ki, bə sən odun yığıp şəhərə gətirəndə əziyyət çəkirsən. Biz bına irazı olmarıx. İcazə ver, bı əziyyəti biz özümüz çəkək, amma səni də, ananı da, atanı da hər gün doyuzdurax.

Ucuqulu irazı olur. Camahat Ucuquluynan anasına gündə neçə mal-davar, nə qədər əppək verillər, onları yedizdirirlər. Əmə Ucuqulunun atı çox yeyimcilmiş, onun ot-aləfini çatdıra bilmirmişlər. Camahat görür ki, belə getsə ətrafdakı pütün ot-ələf qurtaracax, bınların öz heyvanlarına bir şey qalmıyacax. Gənə yığışıb danışıllar, ağsaqqallar deyir ki, innən belə Ucuqulunun atına yem aparanda o yemi mındarlamaq lazımdı.

Belə də eliyillər. Otun xeyli hissəsini mundarlayırlar, üstünə də bir az təmiz ot qoyup aparıllar Ucuqulunun atına. At təmiz otu yeyip, mındarlanmış ota çatanda durur, ta yemir. Ucuqulu bını görəndə duruxur. Çağırıb anasından soruşur ki, ay ana, bu cırtdanlar (yanı adamlar) nə biclik eliyirlər ki, mənim atım yem yemir? Anası da deyir ki, a bala, bı cırtdanlarnan işin olmasın. Bınlar dünyanın bicidirlər. Elə bicliklərindən də belə cırtdan oluplar...

Ucuqulunun ayağına batan tikan üç-dörd arşınlıq tir olarmış. Ucuqulu özü əyilip bı tikanı çıxardammazmış. Ona görə də oturarmış yerə, ayağını da Arazın üstünnən uzadarmış o taya. Bının o tayda yaşayan bir bacısı varmış, özü kimi nəhəngmiş. Bacısı Ucuqulunun ayağındakı tikanı iki barmağıynan çəkip çıxararmış.

Ucuqulu o qədər yekə, o qədər güclüymüş ki, Əzrayılın da gücü çatmırmış onu öldürsün. Ona görə də Əzrayıl həmişə fürsət axdarırmış ki, Ucuqulu uzansın, bı da onun sinəsinə çöküp canını alsın.

Günlərin bir günü Ucuqulunun ayağına yekə tikan batır. Ucuqulu ayağını uzadır o taya ki, bacısı tikanı çıxartsın. Amma bu dəfə Ucuqulu oturmur, uzanır. Elə o saat Əzrayıl çökür onun sinəsinə, canını alır. Bacısı görür ki, tikanı çıxarıp, əmə Ucuquluya nə olup ki, tərpənmir. Anası baxan kimi deyir ki, bə qardaşıvı öldürüplər. Bacısı tez gəlir. Ana-bala belə biliplər ki, Ucuqulunu adamlar öldürüp. Ona görə Şərur şəhərini dağıdıllar, ölən ölür, qaçan da soralar burda Sədərək kəndini salır.

Deyilənə görə, yüz min malın dərisinnən Ucuquluya paltar çıxarmış. Bu paltarı da neçə yüz adam neçə aya tikərmiş.

Ucuqulu su içmək istəyəndə bir əlini Ağrı dağına, bir əlini də Haça dağa qoyup əyilərmiş Arazdan su içərmiş.

Ucuqulu öləndən sonra onun üstünü yavaş-yavaş toz-torpaq basır, sonra bı toz-torpaq bərkiyip dağ-daşa çevrilir. Ucuqulunun ayağı ki, Arazın o tayına uzanılı qalmışdı, sonralar körpüyə dönür. Camahat bı körpüynən o tay-bu taya gedip-gəlirmişlər. Çox xatalar elədiyinə görə camahat Ucuqulunun adını dəyişip Buculux qoyur. Ucuqulunun ayağından düzələn körpüyə də Buculux körpüsü deyillər.

Qarağaclı günbəzində Uzunbulux adlı bir adam yaşayırmış. O qədər uzunuymuş ki, günbəzdən əlini uzadıb, çaydan su götürüb içərmiş.

Bir gün Uzunbulux harasa gedibmiş. Bir kişi gəlib onun günbəzini uçurdur. Uzunbulux qayıdanda görüb günbəzi uçurdublar, qarğış töküb. Deyib: "Kim ki mənim evimi uçurdub, erkəyi yarımasın, dişisi qarımasan".

Günbəzi uçurdan adamı Uzunbuluğun qarğışı tutub: oğlanları yarımayıb, qızları gəlib ölüb.

Bir Gümulux pəhləvan varmış. Yekə bir adammış – boyu üç-dörd metr olarmış. Gümulux, bacısıynan Qarağaclı günbəzində yaşayırmış. Yeddi gün yatırmış, yeddi gün oyaq qalırmış. Yatanda bir yekə daşı günbəzin ağzına yıxırmış ki, gəlib bacısını qaçırtmasınlar.

Bir gün bir oğlan öz yoldaşlarını da götürür, Gümuluxun bacısını qaçırtmağa gəlir. Günbəzin ağzına çatanda, qız daşın deşiyindən işarə eləyir ki, Gümuluxun oyanmaq vaxtıdı, gedin yeddi gündən sonra gəlin.

Qayıdıb gedirlər. Yeddi gündən sonra oğlan yenə yeddi qoçaq oğlan götürüb, gəlir qızı qaçırtmağa. Qızı istəyən oğlan özüylə bir ling götürübmüş. Lingi salır, daşı itələyib, içəri keçməyə yer açır. Qızı günbəzdən çıxardıb qaçırdırlar.

Gümulux ayılır, görür günbəzin qapısı açıqdır, bacısı da yoxdur. Günbəzdən çıxıb çayaşağı yüyürür. Yolda dabanına ağac qələmi batır, qanı axa-axa gəlib Mollunun qabağına çıxır. Ürəyinə damır

ki, bacısını qaçırdan adam bu kənddəndir. Haylayır, camaat tökülür çayın qırağına. Gümulux deyir:

– Bacımı qaçırdan kimdisə, çıxsın baxım. O adam məndən güclü olmalıdı ki, bacımı qaçırda bilsin.

Qızı qaçırdan oğlan çıxır qabağa. Gümulux baxır ki, bapbalaca bir oğlandır. Deyir:

– Sən ki bu boy-buxunla mənim bacımı qaçırda bilibsən, demək, sən məndən güclüsən.

Gümulux bunu deyib, canını tapşırır. Gümuluxu gətirib Qara-ğaclı günbəzində basdırırlar.

Quleybanı həmməşə arvat cildində olur. Özü də uşaxları çox sevir. Bir əvdə gecə yarısı uşax ağlayırmış. Kişi oyanır, arvadın da durğuzur ki, get uşağı sakitləşdir. Arvat durmax istiyəndə görür ki, uşax səsin kəsdi. Ərinir ta getməyə, deyir ki, yatdı uşax.

Bir az keçənnən sora görüllər ki, uşax elə gülür, elə gülür ki, az qalır qəşş eləsin. Kişiynən arvat tez durup keçillər uşağın yanına ki, görsünnər nolup? Baxıllar ki, quleybanı min oyunnan çıxıp uşağı güldürür. Quleybanı bınnarı görəndə tez çıxıp gedir.

Bir kətdə quleybanı peyda olur. Bı quleybanı heş kimə zərəl verməsə də, camahat qorxuya düşür. Cavannardan bir-iki ürəklisi tüfək götürüp başdıyırlar quleybanını güdməyə. Gecənin bir vədəsində görüllər ki, bıdırana, quleybanı gəlir. Tez tüfəklərin tuşduyup atıllar. Əmbə nəqqədər çaxmağı çəkillər, tüfək açılmır ki, açılmır.

Quleybanı saymazyana gəlip bınnarın yanınnan keçip gedir. O, gedənnən sora cavannardan biri çaxmağı çəkir, tüfək açılır. Baxıllar ki, o biri tüfəklər də sazdı.

Bir kişi əkin suvarmaxdan qəyidirmiş. Birdən qabağına bir quleybanı çıxır. Kişi qorxusunnan isdiyir ki, əlindəki beli qaldırıp

onu vursun. Elə beli qaldıranda quleybanı dil açıp deyir ki ay kişi, mənim sənə nə pisdiyim keçib? Məni niyə vurursan?

Bayax ha kişinin ürəyi keçir, bayılıp yıxılır yerə. Quleybanı da çıxıp gedir, bir də o yerrərdə görünmür.

## HAL ANASI – AL ARVAD

Hal nənəsi* su dibində, şır dibində olur. O, avrattan əmələ gəlip. Əvvəl öz uşağın yeyip. Sora yeddi gün yeddi uşax yeyip. Sora da düşüp zahıların üsdünə. Gündüz avrat olur, gecə hal nənəsi.

Hal anası dedikləri cin kimi bir şeydi. Hamilə qadınlarla yaman öjdü. Qadın doğan kimi xəlvətcə hamilə qadınlara yanaşar, ciyərini çıxarıb apararmış, balaları ilə yeyərmiş.

Günlərin bir günündə qonşuluxda bir qadın doğurmuş. Hal anası da elə onun pusqusundaymış. Hal anası gəlməsin deyə gəlinin sahibi əlinə bir dəmir şiş alıb başlıyır divarı cızmağa. Divar da başdan-ayağa gərəy elə cızıla ki, hal anası ordan keçə bilməsin. Deyirlər dəmirlə cızılan yerdən hal anası keçə bilməzmiş, zahı da sağ qalarmış.

Ancax elə ki görürlər zahının halı hal deyil, dil ağzından çıxır, nəfəs kəsilir, bilirlər ki, hal anası nə təhər olubsa cızıxdan keçə bilib, zahıya yaxınlaşıb. Elə ciyərini də çıxarthaçıxartdı.

Adamların bir neçəsi tez kəndin aralığından axan çaya qaçırlar. Əllərindəki xəncərlə başlayırlar çayın suyunu doğramağa. Deyirlər, hal anası ciyəri çıxardan kimi çaya apararmış, elə oradaca balaları ilə yeyərmiş. Adamlar da suyu xəncərlə doğramaqla hal anasını qorxuzub ciyəri yerinə qaytarmaq istəyirlər. Amma nə qədər əlləşirlərsə, ciyəri hal anasından ala bilmirlər. Zahı da canını tapşırır.

Zahı tək qalmamalıdı. Onun yanına şiş, qayçı, bıçaq qoyurlar ki, hal anası onu aparmasın. Zahı yatan otağın divarlarına cızıq çəkirlər. Cızığı arvad çəkər, biri də ondan soruşar ki, xala, neynirsən? O da deyər ki, zahıya çəpər çəkirəm.

Hal anası başını bacadan uzadıb deyər ki, ay arvad, ver uşağını əmizdirim.

Hal anasının uzun əmcəkləri var, dizinə dəydiyindən dalına atar. Əgər zahı uşağı hal anasına əmizdirməyə versə, uşaq halın südündən əmsə, o saat öləcək, ya da dəli-cinli olacaq.

Zahı uşağı verməyəndə hal anası onun ciyərini çıxarıb aparır çayda suya çəkir, zahı ölür. Onda deyirlər ki, zahını hal apardı. Bu vaxt gərək tez gedib suyu qılınclayalar, göyə güllə atalar, evdəki suları boşaldalar ki, zahının ciyərini hal suya çəkəmməsin. Belə eləsələr, zahı ayılar.

Bir adam yer suvarırmış. Görür ki, iki arvad danışa-danışa gedir. Biri o birinə deyir ki, filankəsin gəlini yatıp, uşağı olup. Ciyərini çıxarmışam, budur. Ancaq tilişkəsi qalıb, hələ sağdı. İndi bını aparıp salacayam suya, öləcəh.

Su suvaran düşür bınnarın dalına. Arvaddar özlərini suya vurub keçirlər oyüzə, yox olullar. Sonra suçu gəlir kəndə ki, həmin gəlin ölüb.

Bir zahı evdə təkimiş. Bir də görür ki, bacadan bir arvad başı sallandı, boynunda da mıncıxları. Zahı tez qarmaxlı şişnən bı mıncıxları qırıp tökür, çünkü bının hal olduğunu bilmişdi.

Bı mıncıxların içində biri başqa bir halın dabanı imiş. Halın canı dabanında olar. Ona görə də hal dabanını çıxarıb verər başqa hal saxlasın.

Elə ki zahı mıncıxları qırdı, halın dabanını götürdü, o biri hal öldü. Sonra bu mıncıxları payladı camahata. Kimin ki xırda uşağı var, bı mıncıxlardan birini bağlıyır uşağın üsdünə. Onnan sora bizdən yeylərin heş biri uşağa yaxın düşəmmir.

İynə-sancaq görüb ağlayan hal – hal arvadı, hal anasıdır, cindir.

Halın saçı dağınıq, başı yekə, burnu yekə, boyu uca, paltarı ağ olur, döşləri yerlə sürünür, boynundan muncuq sallanır.

Hal hər şeyi tərsinə eləyir, "get" deyəndə gəlir, "gəl" deyəndə gedir. Tərsinə iş görən qadına deyərlər, hal cinsisən, aaz?

Hal ən çox qoz ağacının dibində, suyun qırağında olur.

Zahı qadının qırxı çıxana qədər qoymazlar suya gedib paltar yusun. Zahı su qırağında olanda hal onu tez aparır. Hal, zahının ciyərini xoşlayır. Ciyəri suya çəkib yeyir.

Qırxı çıxana kimi zahını tək qoymazlar. Yoxsa hal nənəsi zahının ciyarın çıxarıp aparar.

Bir zahı evdə təkimiş. Hal nənəsi bının ciyarını çıxarıp aparır. Yolda onu tutuplar. Soruşuplar ki, niyə belə elədin? Deyip ki, kim mənə dedi ki, bını belə eləmə, mən də eləmiyim. Gəldim, gördüm təhdi, ciyarın çıxartdım.

Bir gün babam ata minip suyun qırağıynan gedirmiş. Görüf ki, əmcəyi uzun, saçı pırtdaşıx, boynu muncuxlu bir avrat əlində ciyar yendi suya. Babam o sahat bilif ki, bı hal nənəsidi. Çığırıp ki, ay kafir, neynirsən?

Hal nənəsi o dəyqə ciyarı qoyup qaçıp. Babam qayıdıp evə ki, qonşunun qızı yatıf təzəcə, özü də ölüf. Bının üzünə bir-iki şillə vırır, qız dirilir.

Əyər hal nənəsi babamın səsin eşidif qaşmasaydı, ciyəri yuyuf yesəydi, qız öləcəymiş.

Bir kişi çıxır səfərə. Bunun da arvadı hamiləymiş. Kişi gedəndən sonra arvad yükünü qoyur yerə. Evdə heş kim olmadığından hal nənəsi gəlir bu arvadın ciyərını çıxarıb aparır, arvad ölür.

Kişinin bir dostu varımış. Bu dostu gəlirmiş kişigilə. Yolda görür ki, hal nənəsi əlində ciyər budu gedir. Tez xəncərini çəkib tutur hal nənəsinin yaxasından ki, bə bı ciyər kimindi, apar qaytar.

Hal nənəsi deyir ki, filankəsindi, ancaq bunu suya salmışam, yumuşam, qaytarsam da xeyri yoxdu.

Oğlan deyir ki, onda, tez ol, dərmanını de, yoxsa səni doğruyaram.

Hal nənəsi qorxur. Deyir ki, mən avradın ciyərini çıxaranda bir-iki damcı qan düşdü astanaya. Get onu qaşı götür, suya salıb qatışdır, ver avrad içsin. Onda, dirilər.

Oğlan onu buraxıb gəlir dostugilə. Görür ki, camahat yığışıb, ağlaşmadı. Avradın meyidi də ortada. Astanaya baxır ki, doğrudan da qan düşüb bura. Qaşıyıb suya salır, avradın ağzını aralayıb tökür boğazına. Avrad dirilir.

Bir kişi gəlirmiş. Görür ki, bir uzunəmcəhli arvat çayda ciyar yuyur. Bilir ki, bu hal anasıdı. Tez iynə sancır bunın kürəyinə. Hal anası qaça bilmır. Kişi deyir ki, apar ciyarı ver sahibinə.

Hal anası deyir ki, axı balalarım ajdı, bını aparıram verəm onlar yesin.

Kişi deyir ki, yox, apar bını ver sahibinə. Sora gedəh bir inəyim var, kəsim ciyarın verim sənə.

Hal anası razılaşır. Ciyarı sahabına qaytarır. Sora gəlillər kişi inəyi kəsir, ciyarını hala verir, iynəni də çıxarır deyir ki, çıx get.

Hal soruşur ki, nəyivizə bərəkət deyim. Kişi deyir ki, ocağımıza. Hal anası bı kişinin ocağına bərəkət deyip uçur, gedir.

Onnan sora kişinin dövləti başınnan aşır.

Bir kişi meşəynən gedirmiş. Birdən qabağına hal anası çıxır. Kişi tez onun yaxasına sancax taxır, sora gətirir evinə, onunnan evlənir. Bir müddət hal qalır burada, sora onun iki uşağı olur.

Hal həmişə bir iş dalınca gedəndə tapşırırmış ki, uşaxlar yüyrükdə olan vaxdı yüyrüyün altına süpürgə çəkmiyin.

Bir gün hal gedir meşəyə odun dalınca. Kişi deyir ki, durun yüyrüyün altını süpürün, görək nə olur?

Evdəkilər yüyrüyün altını süpürür. Elə o dəyqə yüyrükdəki uşaqlar donmuş qan parçasına dönür. O sahat da hal gəlip çıxır. Yüyrüyə baxıp başdıyır ağlamağa, üz-gözünü cırır. Sora kişiyə yalvarır ki, daha mən bu əvdə qala bilmərəm, burax, çıxım gedim.

Kişi sancağı açıp onu buraxır. Hal gedəndə deyir ki, mənə bir ovuş un, ya da başqa bir şey ver aparım. Kişi fikirləşir ki, yəqin burda bir hikmət var. Götürür həyətin zibilindən bir ovuş verir hala. Hal çıxıp gedir. O günnən kişinin həyətində heş vaxdı zibil olmur. Demiyəsən, hal həyətin zibilinin bərəkətini özüynən aparıpmış.

Bir zahı evdə uşağı ilə tək imiş. Uzun təndir şişini yanına qoyub oturmuşdu. Bir də baxır ki, bunu çağırırlar, amma tanış səs deyil. Qorxur, soruşur ki, kimdi?

Bir də görür ki, bacadan bir arvad başı sallandı, boynunda uzun bir muncuq var. Bilir ki, bu hal anasıdı. Tez şişin qarmağın ilişdirir muncuğa, dartır qırır. Muncuq səpələnir evə. Zahı arvad bu muncuqları yığır bir əsgiyə, qoyur uşağın başı altına.

Hal anası başlayır arvadı qorxuzmağa ki, tez ol, muncuğu ver, yoxsa səni də, uşağı da öldürrəm.

Arvad deyir ki, heç nə eləyə bilməzsən, muncuğun bizdədi. Hal anası hədələyir, yalvarır, amma arvad muncuğu vermir. Şiş ilə hal anasını qovur. Sonra muncuqlardan paylayır camahata. Deyirlər ki, o muncuqdan kimdə varsa, daha hal anası ona yaxın düşə bilməzmiş.

Kalba Səkinə nənəm gəlin vaxtı bir oğlan doğur, göbəyini kəsib bağlayır. Hal bacadan düşür. İstəyir Kalba Səkinə nənəmin ciyərini çıxartsın. Kalba Səkinə nənəm iynəni taxır halın üstünə, halı saxlayır evdə.

Halın Narlı dərədə iki uşağı varmış. Gedib onları əmizdirib qayıdarmış. Bir gün Kalba Səkinə nənəmin qardaşı çöldən qara süpürgə qırıb gətirir. Hal qara süpürgəni görəndə başlayır ağlamağa ki, balaları öldü (qara süpürgədə tilsim var, hal onun üstünə çıxanda uşaqları ölür).

Hal, Kalba Səkinə nənəmgildə kündə salırmış. Salmaqla qurtarmırmış. Soruşmuşlar ki, kündə niyə qurtarmır? Deyirmiş ki, onda gərək kündənin birini itə atam, ya da gərək teştin altına vuram.

Elə eləyəndə, doğrudan da, kündə qurtarırmış.

Hal yalvarır ki, uşaqlarım öldü, məni buraxın gedim. Dabanını dağlayıb, halı buraxırlar. Hal and içir ki, yeddi arxa dönəninizə qədər sizə yaxın düşməyəcəyəm.

Cicimli kəndində Xanlar adlı bir kişi inək gəzirmiş. Görür bir arvad balalarına deyir ki, filan zahı arvadın için-içalatın çıxardıb gətirəcəm yeyin.

Xanlar kişi başa düşür ki, bu arvad haldı. Gəlir həmən zahı arvada deyir ki, quymaq yeyəndə, birinci tikəsini mənə ver. Arvad quymağın birinci tikəsini ona verir. Tikənin içində tük varıymış. Bu tük halın tüküymüş. Xanlar kişi tükü salır çuvala, ağzını bağlayır, tük dönüb olur hal. Xanlar kişi onu döyüb öldürür.

Bizim kənddə bir Salman kişi vardı. Bir gün bu Salman kişi çaylaqdakı yoncalıqda ot biçirdi. Salman kişi gəldi oturdu qarağacın kölgəsində. Qağam dedi ki, Salman dayı, bir keçmişdən söhbət elə, qulaq asaq. Halı nə təhər tutmuşdun, onu danış.

Salman kişi dedi ki, Məhəmməd, bir gün axşam çöldən gəldim evə. Yorğun-arğınıydım. Sona su qoydu, suya düşdüm. Dedi: "Ay Salman, qaranlıq düşdü, camışlar örüşdən gəlmədi axı".

Naəlac qalıb durdum ayağa ki, gedim-görüm camışlar harda qaldı? Araba yoxuşunnan yenirdim, şeytan girdi qəlbimə, canıyanmış Cahan düşdü yadıma. O vaxt Cahanın əri burda yoxuydu. Dedim, yolumu salım Cahangildən, gözümün qurdunu öldürüm. Bu fikirnən araba yoxuşunu yenirdim, bir də gördüm ağ paltarlı yekə bir arvad, dalında sənək üzüyuxarı çıxır. Birdən ağlıma gəldi ki, bu, hal olacaq (hal pak adamın gözünə görsənər. Mən də suya düşmüşdüm axı). Budu gördüm çatır mənə. Üstümdə sancaq da vardı, iynə də. Ancaq karıxdım. Tutdum bu arvadın qolundan, bıçağı dirədim böyrünə. Bıçağı böyrünə dirəyən kimi başladı yalvarmağa, dedi ki, burax gedim. Zırzoğallıda iki uşağımı qoyub gəlmişəm. Buraxmadım. Dedi ki, səni and verirəm yeddi arxa dönənə, burax gedim, gəlmişəm su aparmağa, uşaqlarım gözləyir, ərim də taxıl döyür. Nə

illah elədi, buraxmadım. Sancağı keçirtdim boynuna, iynəni də sancdım kürəyinə, gətirdim evə. Evə çatan kimi qara aftafanı qoydu ocağın üstünə, süpürgəni götürdü evi süpürdü. Üç il saxladım, ancaq nə illəh elədim, xəlvətə düşəndə mənə "əl vermədi". Hər gün gedib təzək yığıb gətirirdi. Evi silib-süpürürdü, çörək salırdı. Yoğurduğu xamır qurtarmaq bilmirdi. Toyda heç kim onun kimi oynayammazdı. Üç ildən sonra kimsə sancağını açdı, iynəsini çıxartdı. Hal baş götürüb qaçdı.

Kənddə danışırdılar ki, o vaxt hal, Salman kişini qarğıyıb deyib: "Sən ki mənim balalarımı yiyəsiz qoydun, xeyir tapmayassan, yurdun kor qalacaq".

Elə də olub. Salman kişi öləndə yurdunda heç kim qalmayıb.

Bizim kəndə Minkənddən bir arvad gəlmişdi, bir oğlu da vardı – adı Poladıydı. Arvad danışırdı ki, bəs, qara damda olurduq. Ərim harasa getmişdi.

Mən də ağırayağıydım. Sancım tutdu, adam çağırmağa utandım. Uşaq oldu. Yudum, bələdim. Bu vaxt bacadan bir səs gəldi:

– Sərəndaz, Sərəndaz, təksən? Gəlim?

Qorxudan dinmədim. Gördüm bədheybət bir arvaddı, bir boyunbağısı var, bacadan sallanıb az qalır yerə dəysin. Yox oldu. Sonra yenə gəldi, dedi:

– Sərəndaz, Sərəndaz, gəlim?

Qapını azca araladım, qaynımı çağırdım, gəldi, dedi:

– Üstünə daş yağmasın, bəs niyə deməyibsən, arvad-uşaqdan çağıraq?

Əhvalatı qaynıma danışdım. Dedim:

– Qağa, bir arvad bacadan baxır – bir boyunbağısı var – sallanır, az qalır yerə dəysin. Deyir: "Sərəndaz, Sərəndaz, təksən, gəlim?" Mən də qorxudan dinmərəm, çəkilib gedir.

Qaynım çölə çıxan kimi həmən arvad yenə bacadan dedi:

– Sərəndaz, Sərəndaz, gəlim?

Dedim:

– Gəl.

Dedi:

– Hardan gəlim? Bacadan, yoxsa qapıdan?

Dedim:

– Qapıdan gəl.

Qapıdan gələndə qaynım iynəni taxdı bunun yaxasına. Üç ay saxladılar, işlətdilər. Qonum-qonşuya tapşırmışdılar ki, heç kim iynəni onun üstündən çəkməsin, çəksələr, yox olacaq.

Bu Polad onda bir xırda uşağıydı. Bir gün hal bunu aldadır, bu da iynəni onun üstündən çəkir. Onnan da hal yox olub gedir.

Bir kişi səhərrər dururmuş ki, atı tərridi. Bir gün belə, beş gün belə, daha kişi dözmür. Gətirir atın belin qırrıyır, özü də mısır. Gecə yarısı bir də görür ki, hal nənəsi gəldi, atı mindi. Kişi tez mısdığı yerdən çıxır. Hal nənəsi qıra yapışdığınnan qaça bilmir. Kişi onun yaxasına iynə sancır. Hal nənəsi olur bir qız. Kişi onu evinə gətirip saxlıyır, hər işi buyurur.

Bir gün qızdar gedirmiş oduna. Bı da qoşulur onnara. Yolda bir qızın barmağına tikan batır. Soruşur ki, iynə kimdə var?

Hal nənəsi deyir ki, məndə var.

Deyir: – Ver bu tikanı çıxarım.

Deyir: – Mən çıxardammaram, özün götür.

Qız bının yaxasınnan iynəni çıxardan kimin hal nənəsi yox olur. Gəlir həmin kişinin əvinə. Bacadan deyir ki, a kişi çörəyivi halal elə, mən getdim.

Bir kişi dəyirmanda işdiyirmiş. Birdən görür ki, bacadan bir arvad başı sallandı, boynunda da muncuğu. Bilir ki, bı, hal anasıdı.

Hal anası bına deyir ki, ay kişi, qoy bir az oturum dəyirmanda dincəlim. Kişi deyir ki, get gəl. Hal anası bunın yanına gələn kimi kişi iynəni taxır onun üsdünə.

Hal başdıyır yalvarmağa ki, mənim üç uşağım var, burax məni çıxım gedim, yoxsa onnar acınnan ölər. Kişi deyir ki, yox, buraxmmaram, gərəh mənə arvat olasan.

Hal anası nə qədər eliyirsə də, kişi bını buraxmır, üç gün saxlıyır yanında. Sora dəyirmana başqa adamnar gəlir. Hal bınnarın birinə deyir ki, bı iynəni üsdümnən çıxar. O da bilmiyip çıxarır, o sahat hal yox olur.

Axşamı dəyirmançı görür ki, hal genə gəldi. Deyir ki, bəs niyə qayıtdın? Hal deyir ki, sənə dedim burax, buraxmadın. Gedib gördüm ki, uşaxlarım ölüp. İndi gəlmişəm səni öldürüm.

Kişi əlini iyniyə atmax istəyəndə hal anası bını boğup öldürür, sora çıxıp gedir.

Bacımın qayınanasının dədəsi Hacının töyləsi varmış. Bunın bı töyləsində bir də bir atı varmış. Görüllər ki, ağ geyimli bir arvad gəlir atı minir gedir. Bir dəfə belə, iki dəfə belə, bir də gələndə Hacı qıyığı sancır onun yaxasına, gətirir evə. O da yalvarıp-yaxarır. Hacı əvvəlcə ona tobalatma elətdirir ki, yeddi arxadönəninizə dəymərəm. Sora da ona odun-ocaq gətirdirərmişdər, su daşıtdırarmışdar.

Axır bir gün evdəkilər hayandaymışdarsa, alladıb yaxasındakı qıyığı evdəki balaca uşağa çıxartdırır. Sora da gəlip durur Hacının arvadının qabağında, deyib:

Heş demədin, axça gəti, boxça gəti.
Elə dedin, odun gəti, su gəti.

Bunu deyip sonra da yox olur. Bı, həqiqətən olubdu. Bayramın nənəsi danışırdı. Özü də deyirdi ki, alyabanı, qulyabanı olardandı, elə alarvadıdı. Beş-altı cürə döyül ki...

Bir gün Məmməçcafarın babası (Məmmədcafar bı Farrıxgillərin dadəsidi) Barxuzar gedeymiş Qərçinixdan yuxuşə. Bu kişi qabəğinnan yeyan dəyimiş; çux karrı kişiymiş, heş nədən də qurxmeymiş. Özi də tək imiş. Birdən qüləğinə bir səs gəley. Gedey görey ki, ücağın üsdində bir təş var; təşdin içində su qırt-qırt qəyney. Üç üşağ da utırıb ücağın qırağində. İndi bu üşaxların üçi də

bir ağızdan səs-səsə verip deylər: "Nənəm gedip cizeyniyə, dədəm gedip papeyniyə". Barxuzarın başində tüxlar biz-biz durey, əyaxları yerə yapişey. Birdən dönip baxıp görey ki, dal tərəfində bir avrat xəylağı var. Bu bir daat avrat xəyləğidi. Bu avrat əmcexlərin atıp çiyninə, başı pırtdəşıx, heş bizim adamlarə uxşəmey.

Barxuzar halın yaxəsinə iynə taxey, təşdəki suyi də tökey üşaxların üsdinə yandırey. Sora təşdi qavzey halın dalinə, düz gətirey Nüyədiyə. Gətirey verey İbrayim bəyə. İbrayim bəy (Nüfdəli bəygilların, Rıza bəygilların babəsidi) bu hali qulluxçi kimin işladey. Səixləri aparey dəhnədən duldırey gətirey, əv süpirey, ücax qaley – nökər-qarabaş kimin hər iş görey.

Bir gün hal suva gedandə dərədə yaxəsin əyey əşəğa, bir uşağa dey: "Başaa dönim, bu iynəni burdan çığart ver maa; əyağıma tikan batıp çığardım". Böyüxlar bileymiş çığartmeymiş, hamma üşax bilmey çığardey iynəni. Bisarım, hal iynə çıxannan sora vurey Qarqa daşinnən yuxşə. U çağırey İbrayim bəyə dey: "Ay İbrayim bəy, çöreyi halal elə, dəy mən gedeyrəm. Sənin yeddi arxadönana dəymecəm".

Halın təşdi də axırımcı punda kimin kətdə qaleydi. Qərçiniyin dirsex üsdə bir ücax var. Ücağın içinda da bir ardış göyarıp. Bax u, hal ücəğidi. Hali mən görməmişam, Kəlbeli babam nağıl eleydi ki, babam görip. Halın ahvaləti belə oley.

## CİNLƏR

Cinnərə bizdən yeylər* deyərix. Bizdən yeylər hər yerdə var, ancax insannara görsənməzdər. Təhcə mal-davar onnarı görür. Ona görə qoyun-keçi olan yerdə bizdən yeylər olmaz, yoxsa əyax altında qalıb qırılallar.

Cinlər adamnan düşmandı. Adam donuna düşüp gələllər, birini yuxudan durğuzub deyəllər ki, səni filan yerdə çağırıllar, ya da deyər ki, gedək filan yerə, səninən işim var.

Bı adam da bilməz ki, onu çağıran cindi. Düşər cinin dalınca gedər. Cin bını xarabalığa, köhnə dəyirmana, ya da çöllü-biyabana aparar. Orda toy-düyün olar. Toyda bı adamın qabağına xörəh qoyup deyəllər: yediyivi ye, bildiyivi demə.

Əyər bı adam işi başa düşüp "pismillah" desə cinnər yox olar, bı da sağ-salamat qayıdar gələr evinə. Əyər başa düşmüyip xörəhdən yesə, onda dəli-cinni olar, ağlı qaçar, gic olup düşər çöllərə.

Bir kişi cin tutur. Yaxasına iynə sancıp dörd il əvində saxlıyır, işlədir. Axırda cin yalvarır ki, məni burax, çıxım gedim balalarımın yanına. Mənnən sizə heç bir pisdih gəlməz.

Yazıxları gəlir, bını buraxıllar. Cin gedəndə deyir ki, çörəyivizi halal eliyin, məni bu qədər saxlamısız, ancax heç birivizin ağlına gəlmədi ki, mənnən ölümün əlacını soruşasız. İndi salamat qalın, mən getdim.

İsdiyillər bını genə tutsunnar, cin yox olur.

Bir kişi gəlirmiş, görür ki, dərədə toydu, oynamaxdı. Yaxınnaşır baxır ki, bizdən yeylərdi. Bir cin qızının qolunnan tutup bisimillax deyir. Cinnər yox olur, bı qız qalır. Kişi bını gətirir, sora bir gün bı cin qız uşaxlarını aldadıp iynəni yaxasınnan çıxartdırır, çıxıp gedir.

Bir avrad bir cin tutub yaxasına iynə vurur, gətirir evində işlədir, suya göndərir, zibil atdırır, yer bellətdirir.

Bir gün uşaqlar oduna gedəndə bu cin də qoşulur onlara. Yolda uşaqlara yalvarır ki, mənim yaxamdakı bu cicini çıxarın.

Uşaqlar iynəni çıxarır. Cin də o dəyqə yox olur.

Bir kənddə arvadların paltarları oğurlanırmış, amma heç kim oğrunu tapa bilmirmiş. Babacıq adında bir kişi dərənin yanından

keçirmiş. Görür ki, dərədə toy var, çoxlu adam yığışıb. İki arvad gəlir Babacığı da aparırlar ora. Babacıq görür ki, burdakı adamların heç birini tanımır. Amma paltarları kənddən oğurlanan paltarlara oxşayır. Bir arvad da bunun gəlininin paltarını geyinib.

Xörək yeyəndə Babacıq əlini yağa batırıb vurur bu paltara, sonra pismillah deyir. Bir də baxır ki, dərədə heç kim yoxdu, bu da tək oturub daşın üsdündə. Qayıdır gəlir evinə.

Səhərisi gün Babacıq atı tövlədən çıxaranda baxır ki, at qan tər içindədi. Bilir ki, dünənki cinlər eləyib. O birisi gün qır əridib tökür atın yəhərinə. Obaşdan gəlir ki, bir gəlin oturub atın üstündə, əynində də o gün əlini yağlı-yağlı vurduğu paltar. Tez bunun yaxasına iynə-sancaq taxıb gətirir evə, başlayır onu işlətməyə. Amma bu cinə nə deyirmişlərsə, tərsinə eləyərmiş. "Tez gəl" deyəndə gec gələrmiş, "gec gəl" deyəndə tez gələrmiş.

Bir neçə vaxt keçir. Bir gün cin yağlı əppək pişirib çıxır eşiyə. Uşaqları çağırıb deyir ki, yaxamdan iynə-sancağı açın, sizə yağlı əppək verim.

Uşaqlar iynə-sancağı çıxaran kimi cin uçub qonur Babacıqgilin damına. Babacığı çağırıb deyir ki, nə vaxtdı burdayam, məni ya zibilə göndərdin, ya suya. Amma məndən üç dərdin – boğazağrısının, vırmanın,* bir də qəfil ölümün dərmanını soruşmadın. İndi mən gedirəm. Görüm sənin həyətindən zibil əskik olmasın, səhəngində su tapılmasın.

Babacıq deyir ki, ay cin, səni and verirəm, mənim yeddi göbəkdən olanıma xətər toxundurma.

Cin deyir ki, arxayın ol, mən sənin çörəyini yemişəm, sizdən heç kimə dəymərəm.

Cin uçub gedir. O vaxtdan Babacığın həyətində həmişə zibil təl dururmuş. Bunların suyunu da ki çatdırmaq olmurmuş.

Bizim ulu babamızın adı Ataymış, sonra ona Cindil Ata deyiblər.

Ata, İşıxlıdan bir qıza nişanlıymış. Hər gecə gedirmiş, Şıx qəbiristanlığından keçib nişanlısıyla görüşürmüş. Bir dəfə də gedəndə qəbiristanlıqda qulağına toy səsi gəlir. Görür ki, kəndlərindəki

arvadların sir-sifətində adamlardır, durub bunun qabağında oynayırlar. Ata bunlara fikir vermir, atı kənardan sürüb keçir. Gəlir nişanlısıgilə, qaynanası deyir ki, ay bala, sir-sifətin niyə bu gündədi?

Ata deyir ki, bəs hal-qəziyə belə – cin yığnağına düşmüşdüm.

Arvad çıxardıb ona bir iynə verir, deyir ki, bu dəfə də qabağına çıxsalar, sənə nə desələr, əməl elə, fürsət tap, iynəni keçir birinin paltarına.

Ata gəlir, həmən yerdə yenə yığnağa düşür. Toy-qavaldan sonra cinlər bunun qabağına bir qab yemək qoyurlar. Ata fürsət tapıb, iynəni taxır cinlərin birinin paltarına. Cinlər çığırışıb qaçırlar, iynə taxılan cin qalır. Ata, qabağındakı yeməyə baxır, görür ki, yemək nə gəzir. Ata, iynə taxdığı cini götürüb gəlir evə. Bir müddət bunu evdə saxlayıb işlədir.

Atanın bir bacısı varmış. Hər gün Ata evdən çıxandan sonra cin, Atanın bacısını damın bacasından asırmış.

Deyirmiş ki, di get, Ata, sən mənə əziyyət verirsən, mən də sənin bacına əziyyət verirəm.

Ata evə gələndə cin onun bacısını açıb buraxırmış. Bir gün belə, beş gün belə, axırda Ata bilir ki, cin onun bacısına əziyyət verir. Amma bilmir, neyləsin. Ona məsləhət görürlər ki, cini aç burax, getsin. Ata, iynəni cinin yaxasından çəkib, onu buraxır.

Elə o vaxtdan Ataya Cindil Ata deyiblər.

Bir kişi həmmişə səhər dururmuş ki, atı qan-tər içindədi. Bir gün kişi atın yəhərin qırrıyır. Səhər gedir tavlıya ki, atın üstündə bir cin oturub. Tez yaxasına iynə sancıp bını əvə gətirir, başdıyır işdətməyə.

Bir müddət sora kişi cinə deyir ki, bilirəm, onsuz da sən bırda axıracan qalmıyassan. Yaxşısı bıdı ki, əvimin dört bir tərəfinə daşdan hasar çək, səni buraxım gedəsən.

Cin irazılaşır. Çox keşmir ki, hasar çəkilip qurtarır. Kişi hasarın üsdünə dəmir düzdürür, sora cini buraxır.

Onnan sora bir də kişigilə cin gəlmir.

Adam oğlunun bir atı varmış. Tövlədə bəsləyirmiş ki, uzaq səfərə çıxsın. Amma hər gün sübh tezdən ata baş çəkəndə görürmüş ki, at tərləyib töyşüyür. Üç gecə atın keşiyini çəkir. Amma nə qədər çalışırsa, ayıq qala bilmir, gecənin bir yarısı yuxuya gedir. Məcbur olub atın belini qırlayır. Səhər gəlib görür ki, atın üstündə bir cin var. Adam oğlu cinin yaxasına sancaq taxıb evə gətirir. O gündən evin işlərini cinə gördürür.

Bir gün cin küçəyə çıxıb bir uşağa yaxınlaşır. Deyir ki, bu sancağı aç, sənə alma verim. Uşaq almanı alıb sancağı açır. Cin qaçıb çıxır evin bacasına. Deyir:

– Daha sizinlə mənimki qurtardı. İndi gedirəm.

Adam oğlu deyir:

– Gedirsənsə, bir söz de.

Cin deyir:

– Məni çox işlətdiniz. Allah evinizin zibilini bol eləsin.

O vaxtdan Adam oğlunun evi həmişə zibilli olur.

Bir arvadın əkiz uşaqları varmış. Bir gün uşaqların ikisini də tövlədəki dirəyin dibində çimizdirir, sonra bunları qurulayıb yatızdırır, gedir mal-qaraya baxsın.

Neçə saat keçir, arvad baxır ki, uşaxları oyanmadı. Gəlir ki, bunları durğuzsun, görür uşaqları ölüb. Haray-qışqırıq salır, ancaq nə faydası.

Uşaqları basıdırırlar, qırxların da savırırlar. Ancaq arvad bir dəqiqə də ağlamağa ara vermir. Deyir ki, ay Allah, axı uşaqlarımın heç biri xəstə deyildi. Bircə biləydim ki, bunlar nə dərddən öldülər.

Bir gün arvad yatıb yuxuda görür ki, qabağında üzü niqablı bir adam durub. Döşənir bunun ayaqlarına ki, sənə qurban olum, de görüm, mənim balalarım nə dərddən öldülər?

Niqablı adam deyir ki, sən uşaqları çimizdirməmişdən bir az qabaq həmin dirəyin altında bir cin doğmuşdu. Sən tası qoydun cinin balasının üstünə, onu öldürdün, cin də hirslənib sənin balalarını öldürdü. Gərək dirək dibində uşaq çimizdirməyəydin.

Arvad hövlnak yuxudan ayılır. Bilir ki, niqablı adam qurban olduqlarımızdan biriymiş, bunun yuxusuna girib ki, uşaqların nə dərddən öldüyünü buna desin.

Bir kasıp kişi varmış. Bir gün bı kişi uçux dəyirmanın yanınnan keçəndə görür ki, içəridə vur-çatdasındı, oxuyan kim, oynuyan kim. Qazannar da ocağın üstündə dəmdədi. Kişi ağıllı kişiymiş, bilir ki, bu cin-şayətin yığınağıdı.

Cinnər kişini görən kimi doluşullar başına, aparıllar öz işdərinə. Kişi görür ki, ortada bir göyçəh gəlin oynuyur, amma gəlinin oyması bunun arvadının oymasıdı. Kişi qalır məhətdəl ki, bu necə işdi?

Kişi fürsət tapıp əlin yağa batırır, vırır bı oymuya, sonra "pismillah rəhman rəhim" deyir. O saat bütün cinnər yox olur, kişi də sevinə-sevinə hər şeyi yır-yığış eliyib gətirir əvinə.

Arvadı soruşur ki, a kişi, bunnarı hardan almısan? Kişi gördühlərini deyir. Sonra arvadınnan soruşur ki, hanı oyman?

Arvad oymanı gətirir. Görürlər ki, üsdündə yağ ləkəsi var.

Aralıq Cicimli kəndindən Yunus kişi danışırdı ki, Cinnicə dərəsiylə gedirdim. Gecəydi. Gördüm gəlinimiz ordadı. Bir məcməyi aşı tutub mənim qabağıma ki, ye. Əlimi palçığa batırıb, vurdum gəlinin kürəyinə. "Bismillah" dedim. Gördüm gəlin yoxa çıxdı. Evə gəldim, gördüm gəlinin kürəyində, paltarında ləkə var.

Bir kişi hər səhər dururmuş ki, atı qan-tərin içindədi. Bilir ki, atını cinlər minir. Gətirib yəhəri qırlayır.

Səhərisi gəlir tövləyə ki, atın üstündə gözəl bir qız oturub. Kişi bunun üstünə sancaq taxıb gətirir evə. Başlayır bunu işlətməyə. Ancaq bu qıza nə deyirmişlərsə tərsinə eləyirmiş. Deyəndə "tez gəl" gec gəlirmiş. Deyirmişlərsə "gec gəl", tez gəlirmiş. Görürlər ki, bu qız heç bir işi yarıtmır. Buna deyirlər ki, sən ancaq həyətbacanın zibilini təmizlə.

Bir gün qız küçədə bir uşağı aldadır, uşaq bunun sancağını çıxarır. Qız uçub qonur kişinin damına. Çağırıb kişiyə deyir ki, mən bütün dərdlərin dərmanını bilirəm, amma siz məndən heç nə soruşmadınız. Elə hey göndərdiz zibil təmizləməyə. Görüm həmişə zibiliniz bol olsun.

Qız bınları deyib yox olur. O gündən kişigilin nə işləri iş olur, nə də əlləri boş olur. Həyətlərinin zibili də həmişə dizə çıxır.

Bir kişi gedirmiş su suvarmağa. Görür ki, toy səsi gəlir. Yaxınlaşır baxır ki, bizdən yeylər toy eləyir.

Cinlər bu kişiyə deyir ki, gəl otur, bişirdiyimizdən ye, ancaq bildiyini demə.

Kişi tez əlini qoyur qazanın üstünə, "pismillah" deyir. Bu vaxtı cinlər bunun başından bir qapaz vurub yox olurlar.

Camaat gəlib görür ki, bu kişi əli qazanın üstündə özündən gedib. Onu ayıldırlar, qazanı da götürüb gəlirlər kəndə. İndi həmin qazan yuxarı Əndəmiçdə qalır. Camaat xeyir-şərdə işlədir.

Bir dəyirmançı gəlir öz dəyirmanına. Görür ki, dəyirmanda vur-çatlasındı. Hovla qazanları, pılov qazanları yanbayan düzülüb. Adamlar da qol-qola tutub yallı gedirlər.

Dəyirmançını görən kimi bu adamlar deyir ki, dilindəkini demə, keç yuxarı başa.

Dəyirmançı anlayır ki, bunlar bizdən yeylərdi. Tez cibindən çaxmaq daşını çıxarıb atır qazanlardan birinin içinə, sonra "pismillah" deyir. Cinlər yox olurlar. Həmin qazan isə qalır. Camaat o qazanı indi də işlədir.

Bir kişi heyvan otarırmış. Yorulduğunnan bir az huşdanır. Sora ayılır ki, sürünün yarısı yoxdu. Nə qədər axtarır, ancax tapammır. Ta umudun üzüp qəyidirmiş ki, görür yolun ortasında bir cin durup. Tez iynəni taxır bının yaxasına, tutur.

Cin başdıyır yalvarmağa ki, bırax gedim, balalarım ajdı, məni gözdüyüllər.

Kişi buraxmır. Çox çək-çevirdən sora kişi deyir ki, yaxşı, sən mənim heyvannarımı tap, mən də səni buraxım.

Cin o dəyqə gedip bir dərədən heyvannarı tapır. Kişi də iynəni çıxardıp onu buraxır.

Bir kişi evdə oturubmuş. Görür ki, güllükdə it bir qızı didir. Kişi tez cumur qızı itdən alır. Ondan soruşur ki, sən kimsən, buralarda neynirsən?

Qız deyir ki, mən cinlər padşahının qızıyam. Biz gözəgörünməz oluruq, təkcə it bizi görür.* Burdan keçirdim, bu it məni tutdu. Baxdım ki, məni parçalayacaq, ona görə sənin gözünə göründüm. Atam sənə nə versə alma, de ki, ağzına tüpürsün. Ondan sonra sən hər şeyin dilini biləcəksən. Ancaq gərək bundan öz xeyrinə istifadə edib heç bir canlını ac qoymayasan.

Kişi razılaşır. Bunlar düşürlər yola. Çaya rast gələndə, çay ikiyə ayrılır. Bunlar keçəndən sonra birləşir. Dağa rast gələndə dağ aralanır, bunlara yol verir. Xülasə, axır ki, gəlib çatırlar cinlər diyarına. Cinlər padşahı kişini görən kimi gəlib alnından öpür. Buna çoxlu qızıl-gümüş verir. Kişi almır, deyir ki, tüpür ağzıma.

Cinlər padşahı bunun ağzına tüpürür, sonra cinlər kişini qaytarıb qoyurlar öz evinə. Kişi görür ki, dünyada nə varsa hamısının dilini bilir. Başlayır şad-xürrəm yaşamağa.

Bizim Tağı adlı bir əmimizi cin aparıb.

Dədəm danışırdı ki, Tağının on iki-on üç yaşı vardı. Bir gün obaşdan onu götürüb Qanlı ağac tərəfə ot biçməyə getdim. Gördüm uşaq yorulub (Tağıya babamızın adını qoymuşduq, eləcə "baba" deyirdik). Dedim:

– Baba, yorulmusan, gəl min dalıma.

Dedi:

– Yox, dədə, onsuz da çatmışıq.

Gəldik Qanlı ağaca çatdıq. Birdən Tağı yoxa çıxdı. Ora – Tağı, bura – Tağı, uşaq tapılmadı. Sobunun başında Qala daşı deyilən bir yer var – ordan Tağının köynəyini tapdıq.

Üstündən on-on iki il keçmişdi. Bir gün xəbər gəldi ki, bir ovçu çöldən bir adam tutub gətirib – bədəni tükün içindədi. Dedim:

– Mənim oğlumun oturacaq yerində, halqa yanıq yeri var. Uşaq vaxtı qızmar sacın üstündə oturub yanıb. O adamda bu nişanə varsa, mənim oğlumdu.

Getdilər o adamı gətirdilər. Nəmindən-nişanından bildik ki, Tağıdı. Dili tutulmuşdu, danışa bilmirdi. Mollaya baxdırdıq, dedi:

– Bunu cin aparıbmış. Aparıb dəyişib, adamlıqdan çıxardıb.

Bir gün bir kişi çörək yeyirmiş. Pişiyi evdəymiş, iti eşikdə. Qapı da açıq imiş. Kişi eşidir ki, it pişiyə deyir:

– Sən orda yeyirsən, mən burda acam.

Pişik deyir:

– Mənim yediyim xırdaca bir tikədi. Onu sənə versəm, özüm ac qalaram. Sabah ağamın nəri öləcək. Onda doyunca yeyərsən.

Kişi tez aparıb nəri satır. Axşamı it yenə pişiyə deyir:

– Bə məni niyə aldatdın?

Pişik deyir:

– Onda, sabah ağamın kəhər atı öləcək, ondan yeyərsən.

Kişi aparıb atı da satır. Axşam it pişiyə deyir:

– Məni yenə aldatdın. Axı neçə gündü acam, nə yeyim bəs?

Pişik deyir:

– Onda sabah ağamızın özü öləcək, ehsan verəcəklər, doyunca yeyərsən.

Kişi qorxuya düşür, amma əli hara yetəcək. Səhərisi gün Əzrayıl gəlib onun canını alır.

Bir kişi meşəyə gedibmiş. Həmin meşədə də qədim bir hamam var imiş. Yuxarısından da isti su tökülərmiş. Qış vaxtı imiş. Yaxınlaşanda görür ki, bir qadın çıl-çılpaq qışın bu oğlan çağında suyun

altında durub çimir. Kişi zəndlə baxıb görür ki, əşi bu qadının döşləri lap yekədi – hər döşü bir çiynindən aşırıb, dalına atıb. Kişi başa düşür ki, bu, ərdovadır.* Onların da qənimi iynədi. Tez gizli bir yerdə gizlənir. Cin çimib çölə çıxanda kişi tez onu tutub iynəni qoluna keçirir. Ərdova da belədi ki, nə qədər iynə onun qolundadı, heç yerə qaça bilməz. Nə desən, o saat yerinə yetirəcək.

Kişi ərdovanı evinə gətirir. Sonra başlayır işlətməyə. Meşədən o qədər odun daşıdır ki, qalaq-qalaq dağ kimi.

O kişinin balaca bir qızı varmış. Evdəkilər günlərin bir günü qonaq gedəndə ərdova qıza yaxınlaşıb deyir:

– Ay qız, böyrək istəyirsən?

Qız deyir:

– Hə, istəyirəm.

Ərdova deyir:

– Onda gəl bu iynəni qolumdan çıxart, sənə böyrək verim ye.

Qız da balaca, heç bir şey bilməzmiş. İynəni tez ərdovanın qolundan çıxarır. Ərdova o saat qızın hər iki yanağından tutub qoparır. Sonra da qanlı-qanlı qıza verib deyir:

– Al, bu da sənin üçün böyrək. Doyunca ye.

Bunu deyib gözdən itir.

Bir kişi olur, bunun da ağ bir atı olur. Cinlər gecə həmin atı minib yalını hörürlərmiş. Axı cinlər ağ atın hərisi olurlar. Kişi bunu bilir. Qır əridib atın belinə tökür. Cin atı minəndə yapışıb qalır. Kişi iynə sancıb cini tutur. Bir müddət keçir. Cin çox yalvarır, axırda anasının südünə and içir. Kişi iynəni çıxarıb cini buraxır.

Deyirlər, əgər cinlər ana südünə and içsələr, daha o nəslə xətər yetirməzlər.

Hüseyn adlı bir kişi danışırdı ki, atım itmişdi. Getdim atı axtarmağa. Gördüm bir dərədə şənlikdi. Gördüm bir arvad gəlir – anamın arxalığı əynində, əlində də bizim sini, sinidə mənə aş gətirir. Əlimi palçığa bulaşdırıb arvadın kürəyinə vurdum. Əlimi sinniyə atıb

“bismillah” dedim. Arvad yoxa çıxdı, sini qaldı əlimdə. Gəldim evə. Anama dedim: “Arxalığını gətir bura”. Gətirdi, baxdım ki, beş barmağımın izi arxalığın üstündədi. Anama dedim: “Sinini gətir bura”. Anam ha axtardı, sinini tapa bilmədi. Sinini çıxartdım göstərdim, dedim: “Sini məndədi, filan dərədən gətirmişəm”.

Bir çoban heyvan otarırmış. Birdən eşidir ki, dərədən səs gəlir. Yenir dəriyə ki, bir qızı saçınnan ağaşdan asıplar. Tez bını yerə qoyur, soruşur ki, səni kim asıp?

Qız demir. Çoban bını öz əvinə gətirir, onnan evlənir. Bınnarın iki uşağı olur. Ancax çoban qızdan əl çəhmir, deyir ki, gərək səni kimin asdığın mənə deyəsən.

Qız çox yalvarır, deyir ki, gəl bı sirri mənnən soruşma, yoxsa nə mənim, nə balalarıyın üzünü bir də görmüyəssən. Çoban deyir ki, yox, gərəh deyəsən. Axırda qız məcbur olub deyir ki, məleykəyəm. Biz üç bacıyıdıx. Atam bacılarımın ikisin ərə verdi. Mən onun sözünə baxıp ərə getmədim. Atam ajıxlanıp məni bir əjdahıya verdi, dedi ki, apar bını bir yerdə saçınnan as. Bını kim aşsa, ona da ərə getsin. Qalanın da özün bilirsən. İndi bı sirr gərəh açılmayaydı, sən ki məni məjbur elədin, sirri aşdım, ta biz bir yerdə olammanıx.

Bını deyip məleykə balaların da götürdü, uçup getdi. Çoban baş-gözünə döyə-döyə qaldı.

Məşhur bir mamaça olur. Bir gün cinlərdən birinin arvadı yatmalıymış, amma cinlərdə mamaça yoxuymuş ki, cin arvadı yatızdıra bilsin. Cinlər bir yerə yığışıb məsləhətləşirlər ki, bəs filan mamaçanı gətirmək lazımdı.

Çox götür-qoydan sonra bir cin kişisi gedir bir at oğurlayır, minib gəlir bu mamaçanın yanına. Mamaçanın evin tapıb, mamaçaya deyir ki, a bacı, mən filan kəndənəm, yoldaşım uşax gətirir, ancax yata bilmir, gəlmişəm səni aparım.

Mamaça minir atın tərkinə, düşürlər yola. Gəlib bir xarabalığa çatırlar. Cin kişisi deyir ki, düş, çatdıq.

Mamaça deyir ki, axı bura kənd deyil. Cin deyir ki, elə buradı, düş.

Mamaça qorxusundan başlayır titrəməyə. Cinlər yığışır bunun başına, ürək-dirək verir, gətirirlər doğan cinin yanına. Mamaça bu cin arvadı yatızdırır, uşağı tutur.

Cinlər bundan razı qalırlar. Gətirir mamaçaya bir şəbə, bir göz muncuğu, bir kisə də qızıl verirlər. Deyillər ki, bu göz muncuğu hansı uşağın üstündə olsa, biz ona yaxın düşmərik. Bu şəbə neçə heykəldən güclüdü. Gərək uşağı gətirəsən bunun üstünə, bunu uşağın üstünə aparsan, uşaq ölər. Şəbəni uşağın üstünə tiksən, biz ona zərər toxundurmarıq.

Sonra yenə cin kişisi mamaçanı ata mindirib gətirir evinə.

Deyilənə görə, üç arvad ot biçiminə gedirlər. Axşamüstü qayıdanda bir qalaya rast gəlirlər. Qalanın ətrafında gəzinirlər, içəri girməyə yol olmur. Görürlər, bir cin gəlir, arvadlar gizlənib cini tuturlar. Ətinə sancaq batırırlar. Deyirlər ki, bu qala nə qaladı? Biz belə qala görməmişik. Cin deyir ki, bu, sirli qaladı. Arvadlar soruşur ki, buranın içərisində nə var? Cin deyir ki, burda bir qız, bir oğlan var. Oğlan heykəldir, qız da tilsimlidir. Əgər qız yatanda əlindəki çomağı alsanız, nə desəniz o da olar. Arvadlar tələsiyə düşüb cini buraxırlar. Sevincək qalaya girirlər. Onlar cinin sözünü unudurlar. İçəri girəndə qız bunları görüb üçünü də yaylıx eliyir. Arvadların oğlanları anaların axtarırlar, tapa bilmirlər. Axırda gedirlər küp qarısının yanına. Küp qarısı fallayıb deyir ki, onları necə azad edə bilərik. Qarı deyir, onun çarası məndə. Oğlanlar qarıya qızıl verib çarəsini öyrənirlər.

Oğlanlar qalaya girirlər. Qalanın başına çıxıb oradan bir deşik açırlar. İçəri qarmaq salıb yaylıqları çıxarırlar. Qarı gəlib bir lövh oxuyur, arvadlar tilsimdən qurtarır.

Bir cinin arvadı doğurmuş. Cin adam donuna düşüp gəlir kətdən bir mamaça götürür, aparır arvadının yanına. Yolda cin mamaçaya deyir ki, əyər oğlum olsa, sənə özün ağırlığında qızıl verəcəyəm, yox, qızım olsa, səni öldürəciyəm.

Mamaça qorxusunnan bilmir neynəsin. Başa düşür ki, bı – adam yox, bizdən yeylərdəndi. Ölümünü alır gözünün altına. Tərslihdən vırır cinin arvadı da qız doğur. Mamaça lap qorxur. Bı dəmdə ağlına bir fikir gəlir: götürüp mumnan uşax şeyi düzəldir, qoyur qızın paçasının arasına. Sonra cini çağırır ki, gəl, oğlun olub.

Cin uşağı görür, çox sevinir. Mamaça da tez uşağı bələyib deyir ta mən getdim. Cin bını gətirip ötürür əvinə. Yoldan bir təlis torpax doldurup verir mamaçaya ki, evdə açarsan ağzını. Özü çıxıp gedir.

Mamaça əvdə təlisin ağzın açır ki, içi torpax yox, qızıldı. Çox sevinir, ancax ehtiyatı da əldən vermir. Evdə nə ki dəmir-dümür qismi varıdı, düzür əvin dörd bir tərəfinə.

Səhərisi bir də görür ki, budırana, cin gəlir. Ancax cin dəmirdən keçəmmədiyinə görə uzaxda durur, mamaçaya deyir ki, əridi mumu, açıldı sirri. Sən mənə kələh gəlmisən, indi dəmirrər qoymur ki, gəlip səni öldürəm. Ancax təlisə bir də baxarsan.

Cin bını deyip gedir. Arvat da təlisi açır ki, içi soğan qabığıynan doludu.

Bir ər-arvad var imiş. Bunlar çox mehriban yaşayırmışlar. Kişinin anası da onlarda qalırmış. Bir gün görürlər ki, kişinin anası can verir, qonum-qonşu yığışır. Arvad tez yerə palaz-paltar döşüyür ki, camaat əyləşsin, sonra da özü çıxıb oturur taxçada.

Bir azdan kişinin anası ölür. Bunu yuyurlar, kəfənləyib aparırlar basdırırlar. Amma arvad taxçadan düşmür, axıracan oturub qalır orda. Meyidi götürəndən sonra düşüb qaynanasının yorğan-döşəyini bağda yandırır, qayıdıb onun yatdığı yeri belnən qaşıyıb atır. Sonra yenə çıxıb oturur taxçada.

Axşam camaat dağılışandan sonra kişi arvada deyir ki, bu nə hoqqadı çıxartdın, məni biabır elədin?

Arvad yalvarır ki, gəl bu sirri məndən soruşma. Əgər desəm, bir də məni görmüyəssən.

Kişi əl çəkmir. Axırda arvad məcbur qalıb deyir:

– Mən məleykəyəm. Əzrayıl ananın canın alanda mən görürdüm. Ona görə də oturmuşdum taxçada.

Kişi soruşur ki, bə Əzrayıl anamın canın necə aldı?

Arvad deyir ki, başını xırthaxırt kəsdi. Qanı töküldü yorğan-döşəyə, yerə. Ona görə də yorğan-döşəyi aparıb yandırdım, yeri qaşıyıb atdım.

Arvad bunu deyib qurtarandan sonra ərinə deyir ki, ora bax. Kişi o tərəfə baxıb heç nə görmür, dönür ki, arvadı qeyb olub.

Deyilənə görə, bir oğlan olur. Bu oğlan bir gün yol gedirmiş. Bir də görür ki, bir dəstə göyərçin gəlib, bir çarhovuzun kənarına qondu. Oğlan görür ki, bunlar dönüb hərəsi bir mələykə oldu. Həmin mələykələr paltarlarını çıxardıb hərəsi bir tərəfdə çimməyə başladılar. Oğlan gəlib bunlardan birinin paltarını götürüb əlində saxlayır. Mələykələr çimib çıxdıqdan sonra hərəsi öz paltarını geyib, tezcə də göyərçin olub, uçurlar. Paltarı gedən mələykə çarhovuzda qalır. Oğlana yalvarır ki, paltarını versin. Oğlan vermir. Deyir ki, əgər mənə gəlsən paltarlarını verərəm. Bu təklifə mələykə deyir:

– Mən razı olaram bu şərtlə ki, nə eləsəm sən gərək səbəbini soruşmayasan. Əgər soruşsan, mən səninlə yaşaya bilməyəcəyəm.

Oğlan razı olur. Bunlar evlənirlər. Bir gün olur ki, oğlanın anası ölür. Arvadın canı çıxan zaman mələykə çıxıb yükün üstündə oturur. Bir də cənazə götürülən zaman mələykə cənazəyə baxıb gülür. Hamı dağıldıqdan sonra oğlan arvadından anası ölən zaman niyə yükə çıxdığını, cənazənin arxasınca niyə güldüyünü soruşur. Mələykə demək istəmir. Amma oğlan əl çəkmir, deyir:

– Mən səndən ayrılmağa razıyam. Təki bu iki hərəkətinin sirrini biləm.

Əlacsız qalan qız deyir:

– Mən ona görə anan ölən zaman yükün üstünə çıxdım ki, Əzrayıl ananın başını kəsən zaman ev qanla dolmuşdu. Bir də ona görə güldüm ki, anan bu qədər ömür sürüb kiməsə bir cırıq çarıq, bir də süpürgə verib. Bu iki şey onun cənazəsindən asılmışdı. Bu dünyada anan bu iki şeydən başqa heç kəsə bir yaxşılıq eləməyib.

Mələykə bu sözləri deyib oğlandan ayrılır.

Bir kişi su kənarında bir qıza rast gəliyer də, əvinə gətirib kəndinə arvad eliyer. Sükutluxla dolaniyerlər.

Kişi bir dəfə çölə gedəndə qaynanası göriyer ki, arvad uşağı yanar təndirə atıb çıxıb getdi. Oğlı qayıdanda ona diyer. Oğlı əvə giriyer, görür ki, arvad əvdə uşağı əmizdirer. Təndiri soranda arvad güliyer.

İkinci kərə gəlin uşağı quyiya, sonra dərəyə atiyer. Həmən cür əhvalat təzədən oliyer. Axırda qaynanası buna dözmeyib öliyer. Dəfndə ölüni aparan vaxt hami ağliyer, əmədəni (qəfil) gəlin güliyer. Əvdə qocası arvadın üstə gəliyer, diyer ki, çocuğı təndirə atdın, quyiyə atdın, dərəyə atdın, sonra da güldin. Bən dözdüm. Şimdi anam öldi, onda da hamı ağladi, sən güldin. Nədən güldin, səbəbin de! Arvad xamur yoğiriyerdi. Dedi ki, qoy səbəbin deməyim. Qocasi diyer ki, deməsən, sənlə yaşamam. Qarisi çox yalvarer, kişisi razileşmer. Axırda arvad sirrini açiyer. Demə, arvad eyilərdənmiş, pəriymiş. Hər ölinin dalınca dəfndə ömrü boyi etdiyi eyiliklər gedər. Qaynananın dalınca bircə süpürgə gedirmiş. Nə vaxtsa kiməsə süpürgə veribmiş. Eyilərdən olan gəlin bunu görmüş və buna gülmüş.

Bu sirrini açandan sonra eyilərdən olan qız yox oliyer. Gəlinin yoğurduği xəmir daşiyer, qurtarmiyer, nə qədər üstdən götiriyerlərsə də, qurtarmiyer. Kişi daşdığını diyer. Eyilərdən olan gəlin diyer ki, qara tavuğun dırnağına batır, xəmir daşmaz.

Belə də eliyerlər, xəmir dayaniyer, amma bir də daha eyilərdən olan bu gəlini heç kim görmiyer.

## DÖNƏRGƏLƏR*

Pişih bizdən yeylərin cinsindəndi. Bir arvat çox korrux çəkirmiş. Var-dövlət adına da bircə pişiyi varımış. Bir gün bı pişik bir buxça gətirip qoyur arvadın qucağına. Arvat açır ki, pal-paltardı, qır-qızıldı. Səhərisi günü genə gətirir. Bir gün belə, beş gün belə, arvat şübhələnip bını güdür. Görür ki, pişih getdi bir dağın dalına. Bı da ora gedir. Baxır ki, bıra doludu pişihlərnən. Demiyəsən, bın-

nar bizdən yeylərdi, pişih donunda adamnarın yanında yaşıyıllar. Elə ki pişihlər arvadı görüllər, bının öz pişiyi yaxın gəlip deyir ki, çıx get bırdan.

Arvat evlərinə qayıdır, amma bir də pişiyi görmür.

Bir kişi görür ki, bunın pişiyi həmməşə şər qarışanda çıxıp gedir, bir də səhərisi qayıdır. Kişinin adı Fərəculla imiş. Fərəculla başdıyır pişiyi güdür. Bir gün də pişih evdən çıxanda Fərəculla da düşür onun dalına. Gəlhagəl, gəlhagəl, gəlib çıxıllar bir sahapsız bağa. Kişi görür ki, bağ doludu pişihlərnən. Bir tərəfdə gizlənip işin axırın gözdüyür.

Pişihlər qol-qola tutub başdıyıllar yallı getməyə. Bir neçəsi də zurna-balaban çalır. Fərəcullanın pişiyi də durup baxır. Sora pişihlər bının yanına gəlip deyillər ki, usta Fərəculla, buyur sən də oyna.

Kişinin pişiyi qoşulur o biri pişihlərə, başdıyır, oynamağa. Kişi bını görüp qayıdır evə. Səhərisi gün pişih də qayıdır.

Axşam üstü şam eliyillər. Sora kişi üzün pişiyə tutup deyir ki, usta Fərəculla, buyur bir oyna, biz də baxax.

Pişih bını eşidən kimi tullanır kişinin üsdünə, başdıyır onu dişdiyib cırmaxlamağa. Kişini birtəhər bının əlinnən alıllar. Pişih o gedən qaçıp gedir, bir də bıra qayıtmır. Demiyəsən, bı pişih donun dəyişmiş cin imiş.

Bir gəlin gecə başıaçıq, tək-tənha çıxır eşiyə. Göydən bının başına kirpi dərisi kimi tikannı bir qurt donu salıllar. Bı olur adamcıl, başdıyır adamları yeməyə. Əri bilir bının donun yandırır, gəlin də ölür.

Bir kişi olur. Bunun da bir oğlu, bir arvadı. Oğlan evlənmək istəyir. Atasına deyir ki, icazə ver, gedim bir qız tapım. Atası izin verir, oğlan durub düşür yola. Gəlib bir meşəyə çıxır. Görür ki, meşənin axırında bir mağara var. Mağaranın içində cinlər çalıb-oxuyurlar. Oğlan cinin birini tutur, yaxasına iynə keçirib deyir:

– Mənə gözəl bir qız tap, səni buraxım.

Cin razı olur. Cin gedib, bir padşahın qızını qaçırıb gətirir. Oğlan gecəni burda qalır. Səhər dururlar ki, padşahın qoşunu meşəni mühasirəyə alıb. Cinlər deyir ki, sən burda qal, biz qoşunu qıraq. Cinlər padşahın qoşununu qırırlar. Padşah görür ki, qoşun qırılır, oğlana deyir:

– Qızımı sənə verməyə razıyam. Ancaq üç şərtim var.

Oğlan razı olur. Padşah deyir:

– Birinci şərtim: Ağrı dağından qoyun südü gətirməlisən. İkinci şərtim: həmin çobanın çomağını gətirməlisən. Üçüncü şərtim: o dağdan göy su gətirməlisən.

Oğlan durub düşür yola, gəlib çatır Ağrı dağına. Görür çoban yatır. Girir sürünün içinə süd sağsın, hər yandan səs-küy qalxır. Çoban oyanıb, oğlanı daşa çevirir.

Cinlər ha gözləyir, oğlan gəlib çıxmır. Durub Ağrı dağına gəlirlər. Görürlər ki, çoban yatıb bir daşın üstündə. Cinlər daşın altından bir şüşə götürürlər. Çoban oyanıb cinlərə yalvarır. Cinlər deyir:

– De görək, oğlanı neyləmisən?

Çoban deyir ki, oğlan altımdakı daşdır.

Cinlər deyir:

– Tez ol oğlanı dirilt. Yoxsa, şüşənin suyunu yerə töküb, səni öldürəcəyik.

Çoban bir lövh oxuyub daşa püflədi. Daş dönüb oğlan oldu. Onlar südü sağdılar, çobanın çomağını da alıb geri döndülər. Oğlan südnən çomağı gətirib verdi padşaha.

Oğlan yenidən düşür yola, gedir göy su gətirməyə. Gəlib çatır bir qalaya. Kəmənd atıb çıxır qalaçanın başına. Görür qalanın içində bir hovuz var, onun da ortasında bir ağac. Ağacın başında yatmış bir gözəl qız. Oğlan bir şüşənin boğazına bir ip bağlayıb atır suya. Su ləpələnəndə qız oyanır. Görür bir oğlandı. Soruşur ki, nə əcəb gəlibsən? Oğlan deyir ki, göy su aparmağa. Qız deyir:

– Sən əgər mənə cinlər padşahının oğlunu gətirsən, sənə göy su verərəm.

Sən demə, bu qız cinlər padşahının oğluna aşiq imiş. Oğlan razı olur. Gəlib bunu cinlər padşahına deyir. Cinlər padşahı oğlunu verir. Oğlan onu aparıb qıza verir. Qız çox sevinir. Oğlan qayıdıb, padşahın qızını götürür, üstünə iynə sancdığı cini də azad edib, evlərinə gəlir. Atası onlara yeddi gün, yeddi gecə toy edir. Şad-xürrəm yaşayırlar.

Bir arvat başıaçıq eşiyə çıxır. Göydən bının başına don düşür. Bı da çevrilir qurda. Adam yeyir, heyvan yeyir. Bir gün bir ulağı yeyəndə ağrı dəyir onun belindəki yarıya. Dihsinir, adam olur.

Bir arvadın uşağı iki aylığında diş çıxardır. Pütün camahat məhətdəl qalır, başdıyıllar bı uşaxdan qorxmağa. Əvdə tək olanda doğmaca anası da bınnan qorxurmuş. Uşağı döşdən kəsillər, inəh, keçi südüynən bəsliyillər. Ta uşağın südünü yetirmək olmurmuş.

Bir gün uşax dil açıp çörəh isdiyir. Qorxudan anasının ürəyi partdıyıb ölür. Uşax anasının da gücünü oğurruyup çıxır kəndə. Başdıyır adamnarı tutub yeməyə. Bir neçəsin yeyir, sora qəzəbdən özünün də ürəyi partdıyır.

Zalxa adında bir qız gecə lümlüt, başıaçıx çıxır eşiyə. Qurd xırxasını atır bının üsdünə. Zalxa doqquz il qurddarınan gəzir, nəqqədər adam yeyir. Sora bir gün itdər tökülüp bının xırxasına yırtıllar, bı da çevrilir, adam olur.

Bir kişi dostugilə gəlir. Çörəh yeyillər, axşam olur. Kişi durur getsin, dostu deyir ki, əkşi, getmə, gecədi, bir şey olar.

Kişi deyir ki, yox, gedəcəm, at altımda, tüfəng belimdə, nədən qorxacam?

Dostunun arvadı bını eşidir. Demiyəsən, bı arvad bizdən yeylərdənmiş. Arvad durur çıxır eşiyə, donun dəyişip qurt donuna düşür. Durur kişinin yolu üsdündə. Kişi gələndə cumur üsdünə. Bınnar tutaşır. Kişi görür ki, yox, bacarmıyacax, birtəhər pıçaxnan bu adamcılın döşünnən yaralayır, adamcıl aradan çıxır. Kişi də gedəmmiyip, qəyidir dostugilə, başına gələni danışır.

Bu dəmdə arvad gəlir. Kişi baxır ki, arvadın döşü yaralanıp. Məsələni annıyır. Qəyidir dostuna deyir ki, bə o adamcıl sənin arvadındı, mən onu yaralamışam.

Dostu heç zad demir. Durur evi-eşiyi axdarır. Kərmə qalağında arvadın donunu tapır, yandırır. Arvad qışqırır, özünnən gedir. Əncax ta əli hara yetəcək. Donu yanannan sora arvad adamcıllıxdan çıxır, adam olur.

Bir oğlan gəzirmiş, görür ki, qayanın üstündə çılpax bir qız var. Qız onnan paltar isdiyir. Oğlan qızı geyindirib gətirir əvə. İsdiyir onnan evlənsin. Bir dərviş gəlir, oğlana deyir ki, bı, qız cildinə düşmüş ilandı. Əvlənsən səni öldürəcək.

Oğlan inanmır, deyir ki, bı qız gələnnən mənim ruzim artıb, hara getmişəm, işim düzəlib, sən yalan deyirsən.

Dərviş deyir ki, inanmırsansa, ona duzlu yemək ver, əvə də su qoyma, qapını bağlıyıb gizlən, bax gör nolur?

Oğlan elə də eliyir. Görür ki, qız əvdə su tapammadı. Qapı bağlı olduğunnan eşiyə çıxammadı. Birdən nazik bir ilana çevrilib deşikdən çıxdı eşiyə. Su içib qəyitdi içəri, genə də düşdü qız cildinə.

Oğlan görür ki, dərviş düz deyirmiş. Soruşur ki, bə neyniyim? Dərviş deyir ki, qıza denən çörək yapsın. Çörək yapanda sal təndirə yandır.

Oğlan gəlib qıza deyir ki, dur, çörək yap. Qız durub çörək yapanda oğlan onu itələyib salır təndirə. Təndirin də ağzını örtür. Bı vaxtı dərviş gəlir, oğlana deyir ki, get mənə su gətir.

Oğlan gedib su doldurur, tez gətirir ki, versin dərvişə. Görür ki, dərviş qızı təndirdən çıxarıb. Ancaq qız yanmayıb, başdan-ayağa qızıla çevrilib. Dərviş qızıla dönmüş qızı götürüb qaçır. Oğlan düşür dalına, tutammır. Kor-peşman qəyidir əvə. O günnən oğlanın heş bir işi düz gətirmir. Hara gedirsə, əliboş qəyidir. Yeməyə quru çörəyi də olmur.

Bir gözəl oğlan varımış. Bı oğlan hər gün gecə adamcıl olurmuş. Hələ qarannıx tüşməmiş arvadını çıxardırmış damın üsdünə ki, yat. Heylə eyliyirmiş ki, arvadı bilməsin bının adamcıl olduğunu.

Bir gün arvadı yalannan özünü yuxuluğa vırır, bını pusur. Görür ki, əri yavaçca durdu, getdi kərmə qalağının arasınnan bir dəri

çıxartdı, geyindi oldu adamcıl, çıxıp getti. Arvat da qarabaqara bını izdiyir. Görür ki, əri yolda bir adamı tutub başladı yeməyə.

Arvad tez qəyidip gedir ağsaqqalın yanına, əhfalatı deyir. Ağsaqqal deyir ki, təndir sal, dərini də at təndirə yansın.

Səhərisi obaşdan oğlan qəyidip gəlir. Dərini çıxarıb qalağa qoyur, genə həmən gözəl oğlan olur. Arvat bına deyir ki, çörəyimiz qurtarıp, gərəh yapam.

Durur təndiri salır, oğlan oyıza gedəndə tez qalağın arasınnan dərini götürüp atır təndirə. Oğlan o sahat özünü yetirir, başdıyır dəli kimi təndirin başında fırım-fırım fırranır. Dəri yandıxca bının nərəsi asmana dayanır. Əli hara yetişəcəh, dəri yanıp qutarır. Oğlan bir neçə gün xəstə olur, heş nə yemir, dinip-danışmır. Sora isə sağalır, ta adamcıl olmur.

Bir arvat gecə vaxdı başını yuyur. Sora elə başıaçıq çıxır eşiyə. Göydən bının başına qurd donu düşür. Bı çevrilir olur qurd, başdıyır uşax yeməyə. Hər gecə bir uşax yox olur. Heş kim də bilmir ki, uşaqlar necə olur?

Qonşuların bir neçəsi bı arvatdan şübhələnir. Ərinə deyirlər, ancaq o inanmır. Başlayır arvadın güdməyə. Görür ki, gecənin bir yarısı arvadı durub getdi, bir də səhər üzü gəldi. Sabahısı gecə arvat eşiyə çıxan kimi kişi də durdu onun dalınca. Arvat girdi təndirəsərə, orda donun geyip çıxdı eşiyə.

Kişi mısdığı yerdən bını görür. Səhərisi gün arvada deyir ki, dur əppəh yap. Arvad durub təndiri yandırır, gedir xəmir gətirməyə. Kişi tez girir təndirəsərə, odunnarın arasını axtarır, donu tapıb atır təndirə.

Dəri yanan kimi arvad çığırıb yıxılır. Bının üzünə su səpib ayıldıllar. Ancax arvat çox yaşamır, on gündən sora ölür.

Keçmiş zamanlarda Zöhrə adlı bir arvad varmış. Bu arvat bir gün ev işlərini görüb, gecənin qaranlıq vaxtı çimmək istəyir, özü də çöldə. Çimib qurtarandan sonra paltarını geyinmək istəyəndə göy-

dən başına canavar dərisi düşür. Bu vaxt Zöhrə canavar sifətində çöllərə üz qoyur. Səhər açılanda evinə qayıdır, öz paltarını geyinir, canavar paltarını gizdədir. Bir belə, beş belə, hər axşam canavar paltarını Zöhrə geyinib, kəndlərə gedir, adam, qoyun, keçi, əlinə nə düşsə yeyir. Bir dəfə bir ağ atı yoldaşları ilə parçalayarkən Zöhrəyə atın yaralı yeri düşür. Zöhrə yemək istəmir, küsür. Bunu görən yoldaşları onu boğurlar, üst dodağına diş batırırlar. Səhər yenicə evə gəlib paltarını dəyişən Zöhrəyə əri göz qoyur, onun yarasını görür, ancaq bildirmir. Sonra arvadını izləyir görür ki, arvadı gecə canavar, gündüz adam olur. Bir gün Zöhrə çörək bişirmək üçün ertədən un ələyir, balatı eləyir, sora ərini yuxuya verib yenə canavar olur. Əri görür ki, gələndə paltarını soyunub nehrənin içində gizlətdi. Zöhrə təndiri qızdıran vaxt əri həmin canavar paltarını təndirə tullayır. Bu vaxt Zöhrə bərk qışqırır. Sora bu işin üstünü ərinə açır. O gündən Zöhrəni qurd Zöhrə çağırırlar.

Keçmiş zamanda bir kişinin yeddi qızı, bir oğlu varmış. Qızların hamısı ərə gedir. Axırıncı qız isə əjdaha olur. Əjdaha qız nə qədər adam, heyvan görürsə hamısını yeməyə başlayır.

Axırı əlacları kəsilir, qızın qardaşı ilə qonşularından bir nəfər kişi qızı arabaya qoyub uzaq bir yerə atırlar. Əjdaha qız dağlarda, düzlərdə yaşamağa başlayır.

Sonra bir kəndə gəlir, bir kişinin evində böyüyür. Sonra qız evdəki uşaqları, arvadı, kişini də yeyir. Qız evdə tək qalır. Bir gün qardaşı anasına deyir:

– Ana, mən bacılarımın hamısının evini tanıyıram, ancaq kiçik bacım necə oldu bilmədik.

Bu vaxt oğlan bir at minib bacısını axtarmağa gedir. Çox gəzdikdən sonra bir kəndə çatır, kəndin kənarında ancaq bir ev görür. Oğlan evə girir, divardan bir xəlbir asıldığını görür. Bundan başqa, evdə heç bir şey yox idi. Əjdaha qız oğlana baxanda qardaşını tanıyır. Oğlan evə keçir. Qız eşiyə çıxır, qardaşının atının bir qıçını yeyir, yenidən evə girib oğlana deyir:

– Bacın ölsün, qardaş, üç qıçlı atla necə gəlmisən?

Qız yenə eşiyə çıxıb atın bir qıçını da yeyir.

Oğlan işi başa düşüb heç nə demir, sonra qız atın o biri qıçını, həm də quyruğunu yeyir, əvə girib qardaşına deyir:

– Qurban olum, sən birayaqlı atla necə gəlmisən?

Qardaşı deyir:

– Bacı, birtəhər gəlmişəm.

Qız dördüncü dəfə atı bütün yeyir, ancaq yəhər qalır. Oğlan bilir ki, bunu da yeyəcək. Bacısı yenə deyir ki, qardaş, bu qədər yolu piyada necə gəlmisən?

Oğlan deyir:

– Piyada gəldiyim üçün susuzluqdan ürəyim yanır, mənə su gətir.

Qız deyir:

– Ax, bizdə su gətirmək üçün qab yoxdu.

Deyir:

– Odu bax, xəlbirdə gəti.

Qız xəlbiri götürüb gedir, nə qədər eləyirsə xəlbir dolmur. Qayıdıb gəlir. Qardaşı deyir ki, xəlbiri bir az palçıqla, günün qabağına qoy qurusun, sonra içində su durar. Bacısı gedən kimi qardaşı qaçır, gəlib əhvalatı anasına söyləyir. Qız suyu gətirib görür ki, heç kim yoxdu.

Biri var idi, biri yox idi. Bir kişinin dörd oğlu vardı. Bu kişinin arvadı da, özü də qızları olmağını arzu edirdilər.

Bir gün bunların qapısına bir dərviş gəlir. Dərviş arvada bir alma verir. Gün çıxır, ay dolanır, arvadın bir qızı olur. Qız anadan olandan anasının döşlərini gəmirir. Qız çox tez böyüyür. Sən demə, dərviş verdiyi alma əjdahaların bağından dərilmiş alma imiş. Qız böyüyən kimi ata-anasını yeyir. Qardaşlarının üçünü yeyir, axırda bir ev qalır, bir də əjdaha qız. Uzaq səfərə işləməyə getmiş qardaşı qayıdıb görür ki, lələ köçüb, yurdu qalıb. Əjdaha qız qardaşının qabağına yüyürüb deyir:

– Can qardaş, gəldin?

Atını çəkib tövləyə aparır. Gəlib qardaşına deyir ki, bacın qurban, ay qardaş, atın bir qıçlı gəlmişdi?

Bir az keçmiş deyir:

– Ay qardaş, qoy gedim atın otunu verim gəlim.

Qayıdıb gələndə deyir ki, ay qardaş, atın qıçsız gəlmişdi?

Bu zaman qardaşı bunun əjdaha olduğunu başa düşür. Əjdaha qız bir də tövləyə girib çıxandan sonra gəlib deyir:

– Ay qardaş, piyadamı gəlmişdin?

– Hə, bacı, piyada gəlmişdim.

Əjdaha qız qardaşının dalını qaşımaq bəhanəsilə kürəyinin ətini qoparıb yeyir. İşi belə görən oğlan çarə axtarır. Deyir ki, ay bacı, yaman susamışam. Su gətirmək üçün bacısına xəlbir verir. Suya gedən əjdaha qız nə qədər çalışırsa, xəlbir dolmur. Oğlan bu vaxt qaçıb bir çinar ağacına çıxır. Oğlanın bir cüt də tulası varmış.

Əjdaha qız gəlib oğlanı evdə tapmır. Çinar ağacının başında görür. Deyir:

– Ay qardaş, düş, sənə qayğanaq bişirim.

Qardaşı çağırıb tulaları əjdaha qızın üstünə buraxır. Tulalar əjdaha qızı təmiz yeyirlər. Oğlan arxayın olub ağacdan düşür ki, getsin, birdən qulağına arxadan bir səs gəlir:

– Can qardaş, məni də apar.

Geri qayıdıb baxanda görür ki, çinar yarpağının üstündəki qan damcısı danışır. Yarpağı götürüb cibinə qoyur. Yarpaq cibini yeyir. Qoltuğuna qoyur, qoltuğunu yeyir. Axırda qız özü yarpaqdan dilə gəlib deyir ki, məni itin dilinin altına qoy. Oğlan yarpağı itin dilinin altına qoyur. Bir də baxanda görür ki, it yarpağı udub.

Deyilənə görə, keçmişdə Xorna adlı bir kənd vardı. Bu kənddə cavan bir ovçu vardı. Bu oğlan hər gün meşəyə gedirdi. Ox-kamannan ov ovlayıb evə qayıdırdı. Bir gün meşədə oğlanın qabağına bir ceyran çıxır. İstəyir ki, ceyranı vursun, bu vaxt ceyran dönüb gözəl bir qız olur. Oğlan qızı götürüb kəndlərinə aparır. Bu qız öz donunu da oğlangilə gətirir. Oğlan qızla evlənməyi qərara alıb toy edir. Toy zamanı oğlan qızın donunu oda atır. Elə bu zaman göydə ildırım çaxır, külək əsir, küləyin içindən bir sehirli kişi əlini uzadıb qızı götürür.

Oğlan donu yandırmağına peşman olur. Ox-kamanını götürüb qızı axtarmağa gedir. Meşədə bir adamın zarıdığını eşidir. Bir az irəli gedib ağacda zəncirlənmiş bir qoca görür. Tez ox atıb zənciri qırır, qocanın canını qurtarır. Qoca oğlana dua edib hara getdiyini soruşur.

Demə, bu, dünya yorub yola salmış bir qocaymış. Bütün sirlərin yolunu bilirmiş. O, oğlanın dərdini bilib ona bir əmud verir. Sehrli kişinin harada qaldığını da deyir. Oğlan razılıq eləyib yola düşür. Gedib bir qalanın qapısına çatır. Qabağına bir doqquzbaşlı əjdaha çıxır. Bu əjdaha həmin sehirli kişi imiş. Oğlan əmud ilə əjdahanı vurur, əjdaha böyük bir filə dönür. Oğlan əmud ilə fili də öldürür. Bu vaxt yer-göy titrəyir, qala dağılır, qalanın ortasından kiçik bir qala çıxır. Oğlan əmud ilə vurub qalanın qapısını sındırır, qız onun içindən çıxır. Oğlan qızı götürüb öz yerlərinə dönür. Yenidən toy çaldırıb qızla evlənir, xoşbəxt güzəran keçirirlər.

Bir kişi varıymış. Bı kişi ömründə çörəyi təh yeməzmiş. Həmməşə yoldan bir adam götürüp gələrmiş əvə, birlihdə çörəh yeyərmişdər.

Bir gün ha baxır bir qərip adam görmür ki, gətirsin çörəh yesinnər. Oyız, bıyız, axırda görür ki, bir adam yolunan gedir. Yaxınnaşıp soruşur ki, a qardaş, sən kimsən, nəçisən? Gedəh mənnən çörəh yeyəh.

Yolçu deyir ki, mən Allaham. Kişi deyir ki, ta yox, bizimki tutmadı. Mən Allahınan kürə olmanam. Çünki ikiüzdüsən, birini dövlətli eliyirsən, birini kasıp eliyirsən, ayrı-seçkilih qoyursan.

Allahın xoşuna gəlir, gedip Əzrayıla deyir ki, get onnan çörəh ye. Əzrayıl gəlir kişinin yanına. Kişi bınnan da kimliyin soruşur. Eşidəndə ki, Əzrayıldı, deyir ki, hə, bax, sənnən çörəh də yeyərəm, kürə də ollam. Onnan ötrü ki, sən ayrı-seçkilih qoymursan, hammının canını alırsan.

Kişiynən Əzrayıl kürə olullar, çörəh kəsillər. İllər keçir, gün olur ki, kişinin vaxdı tamam olur, Əzrayıl gəlir bının canın almağa. Kişi deyir ki, səni and verirəm yediyimiz duz-çörəyə, canımı alma.

Əzrayıl çıxıp gedir. Bir müddətdən sonra gənə gəlir, deyir ki, kürə, yat yerə canın alım, kəlmeyi-şəhadətini de.

Kişi kəlmeyi-şəhadətinin yarısını deyir, yarısın da saxlıyır ki, yüz ildən sonra deyəcəm.

Əzrayıl çıxıp gedir uşaq donuna düşür, durur kişinin yolu üstündə. Kişi gələndə başdıyır ağlamağa. Kişi gəlir, bınnan soruşur ki, a bala, niyə ağlayırsan?

Uşaq deyir ki, maa deyillər ki, kəlmeyi-şəhadətin de, mən də başarmıram. Kişi kəlmeyi-şəhadəti axıracan deyir, isdəyir ki, uşağa da öyrətsin. Uşaq tez çönüp olur Əzrayıl. Deyir ki, kürə, yat canını alım.

Kişi görür ki, ta özgə əlacı yoxdu, yatır yerə, Əzrayıl da bının canın alır.*

Deyilənə görə Nuh Nəbi bilirmiş ki, tufan baş verəcək dünyanın üzünü su alacaq. Odur ki, böyük bir gəmi düzəltmək qərarına gəldi. Günbatanda bir meşə var idi. Gün arxasına keçəndə kölgəsi günçıxanı tuturdu. Ağacların gövdəsinə qırx arşın ip-kəndir çatmazdı.

Meşədə Ac adlı bir pəhləvan yaşayırdı. Biləyində öküz zoru var idi. İş-peşəsi el-obanın ilxısına, naxırına zərər vurmağıydı. Hər öynədə bir öküz yeyir, üstündən üç tuluq su içib doymurdu.

Nuh Nəbi pəhləvanı yanına çağırdı.

– Sənə doyunca yemək verərəm, – dedi. – Günbatandakı meşədən bir xeyli ağac kəs.

– Kişi, sən məni necə doyduracaqsan? Bilirsən ki, mən nə qədər yesəm də, elə acam.

Nuh Nəbi dedi:

– Səbir edib, mən deyənə əməl etsən, mən deyən də olar.

Ac razılaşdı.

Nuh onun gücünə görə də balta düzəltdirdi.

Pəhləvan baltanı götürüb ac qurd kimi meşəyə girişdi. On gün bəs deyincə kəsib tökdü.

Nuh pəhləvana bir öküz kəsdi. Ətini qızardıb qabağına qoydular. Pəhləvan öküzün bir budunu yedi, üstündən də bir tuluq su içib geri çəkildi. Doymağına heyrət etdi.

Nuh Nəbi dedi:

– Pəhləvan, bu, halal zəhmətin qazancıdır. Onun üçün də doydun. Haram yemək səni doyurmaz.

Pəhləvan o gündən əvvəlki peşəsindən daşındı.

Nuh Nəbi sənətkarlıqda mahir olan yeddi nəfər usta çağırdı. Əvvəldən gəminin xərcini verib, razı saldı. Ustalar işə başladı. Bir aydan sonra gəmi hazır oldu.

Bir gün Nuhun arvadı sırfa açıb, xəmir yoğururdu. Durub təndirə od salmaq istədi. Duvağı qaldıranda quruyub qaldı. Təndir yarıya kimi suyla dolmuşdu. Arvad gedib əhvalatı ərinə söylədi.

Nuh dedi:

– Get, sırfa-xəmiri yığışdır. Tez ol, dünyanın üzünü su alacaq. Yol tədarükündə ol. Üç aylıq azuqə götür.

Arvad tədarük gördü. Azuqəni gəmiyə yığdılar. Nuh öz ailəsini, əlavə də hər heyvandan, quşdan bir cüt götürüb gəmiyə mindi. Oğlanlarından biri Nuhu eşitmədi.

Dedi:

– Mən uca dağın başına çıxacam.

Nuh gəmidən yenib düşdü oğlunun dalına. Gördü, oğlu ona itaət eləmir. Qayıtdı mindi gəmiyə.

Qırx gün, qırx gecə yağış yağdı. Bir yağış ki, tut ucundan çıx göyə. Su qalxdı, dünyanın üzünü almağa başladı. Gəmi də suyun üzünə qalxdı. Uca dağlar görünməz oldu. Axırı-sonu görünməyən bir dərya yarandı. Nə qədər canlı vardısa, tələf oldu.

Gəmi Məğribdən Məşriğə üz qoydu. Günlər, həftələr dolandı. Gəmi bir gün nəyəsə toxunub keçdi. Gövdəsi bərk yırğalandı. Nuh Nəbi bildi ki, gəmi dağa toxundu.

– Pəh, nə ağır dağdı! – dedi. Başından heç qarın əskik olmasın.

Odu-budu, dağın adı "Ağrıdağ" qaldı. Başından da qar əskik olmadı.

Bir həftə də keçdi. Gəmi yenə silkələndi. Nuh Nəbi gəmidəkilərə:

– Bu da inan dağdı, – dedi.

Bu dağın da adı "İnandağ" oldu. Zirvəsi də zərbədən iki yerə haçalandı.

Gəmi səfərə davam etdi. Bir az getmişdilər ki, təkrar silkələndi. Nuh gəmidəkilərdən soruşdu:

– Bu dağ o dağdan kəm ki deyil?!

Dağın adına "Kəmki" dedilər. Gəmi burdan aralandı. Tufan da yavaşıdı.

Bir gün bir siçan gəmini deşdi. Su gəmiyə dolmağa başladı. Nuh Nəbi gördü ki, gəmi qərq olacaq. Üz tutdu gəmidəkilərə ki, kimin imkanı var əlac eləsin.

İlan dedi:

– Mən eləsəm, nə verərsən?

Nuh Nəbi dedi:

– Nə istəyirsən?

Dedi:

– Dünyada şirin nədirsə onu.

Nuh Nəbi razı oldu.

İlan quyruğuyla deşiyi tutdu. Qıvrılıb yatdı.

Gəmi bir dağa yan alıb ehmalca qayaya toxundu. Nuh buna "Gəmiqaya" adı verdi. Gəmidəkilər quruya çıxdılar.

Tufandan sonra bir gün Nuh Mozalana dedi:

– Get, fırlan, gör dünyada şirin şey nədir?

Mozalan havaya qalxdı. Hər otun, çiçəyin, canlının üstünə qondu. Hər şeydən daddı. Şirin olan bir şey tapmadı. Fikirləşdi ki, dünyada dadmadığı daha nə qaldı. Yadına düşdü ki, bir insan ətindən dadmayıb.

Mozalan bir dağa uçdu. Şirin yatmış bir ovçu gördü. Onun ovcunun içinə yapışıb, ətindən daddı. Gördü ki, şirindi. Geri qayıtdı.

Qaranquşa dedilər ki, get gör Mozalan niyə gecikdi. Qaranquş Mozalan gedən tərəfə uçdu. Yolda rastlaşdılar. Qaranquş soruşdu:

– Dünyada nə şirindi?

Mozalan dedi:

– İnsan əti.

Qaranquş fikirləşdi ki, bu ixtiyar ilana verilsə, dünyada insan qalmaz. İstədi Mozalanı dilə tutsun ki, bu sirri açma. Amma fikrindən daşındı. Dedi ki, birdən bunun faydası olmaz. Odur ki, hiylə işlətdi. Dedi:

– Gətir dilini dadım, görüm şirindi? Şirin olmasa ilan səni çalar.

Qaranquş Mozalanı aldatdı. Mozalan dilini ona uzatdı. Qaranquş onun dilini çəkib kökündən qopartdı, qabaqda qaçdı. Gəlib dedi ki, Mozalan gəlir.

Mozalan gəlib Nuhun qabağında yerə düşdü. Başladı fırlanıb vızıldamağa. Heç nə anlamadılar. Dedilər: "Yorulub, ya da dilin şəkər tutub".

Nuh Nəbi qaranquşdan soruşdu:

– Yolda sən görəndə dili var idi?

Qaranquş cavab verdi:

– Var idi. Dedi ki, dünyada torpaq şirindi.

Nuh Nəbi ilana dedi:

– Torpağı verdim sənə.

İlan qaranquşun hiyləsini duydu. Atılıb onu tutmaq istədi. Qaranquş uçanda quyruğu keçdi ağzına. Ləléyinin ikisini çəkib qopartdı.

O vaxtdan qaranquş haçaquyruq qaldı, xeyir xəbər müjdəçisi oldu. Mozalan lal olduğundan vızıldamağa başladı. İlan da torpaqda yaşadı.

Rəvayətə görə Nuh Nəbi də oğlanlarıyla Naxçıvanda məskən saldı. Gəmisi də Ordubadın Nəsirvaz kəndi yaxınlığındakı Gəmiqayada qaldı.

Bir gün Həzrət baba dağda maralları kotana qoşub daş-kəsəyi o üzə-bu üzə çevirirmiş. Cəbrayıl nazil olub ondan soruşdu:

– Həzrət baba, nə edirsən?

Həzrət baba dedi:

– Burada əkin əkmək istəyirəm.

Cəbrayıl dedi:

– Heç bu daş-kəsəkdə əkin əkmək olar? Özünə əziyyət vermə!

Həzrət baba dedi:

– Əgər Allah-taalanın könlü olsa, daş-kəsək arasında da ruzi olar.

Cəbrayıl göyə qalxıb getdi. Həzrət baba daş-kəsəyin içində qur-qur (balqabaq) əkdi. Səhəri gün baxdı qur-qur əmələ gəlib. Bir qur-qur götürüb kəsdi, onun içindən sarı buğda töküldü. Həzrət baba qaldı məhəttəl nə etsin. Bu vaxt yenə Cəbrayıl nazil oldu. Dedi:

– Həzrət baba, iki daş götür. Buğdanı daşların arasında üyüdüb un elə!

Cəbrayıl bunu deyib yenə göyə qalxdı. Həzrət baba iki daş götürüb buğdanı un elədi. İndi bilmədi unu nə eləsin. Bir də gördü Musa peyğəmbər onun yanında dayanıb. Musa peyğəmbər ona dedi:

– İndi undan xəmir düzəldib çörək bişirərsən.

Musa peyğəmbər əlindəki əsanı yerə vurdu. O saat həmin yerdən su çıxdı. Həzrət baba una su qatıb xamır elədi. Ocaq qalayıb çörək bişirdi.

Həzrət Əli eşidir ki, Salsal adlı bir pəhləvan var. Deyir: “Gedimgörüm o necə pəhləvandı elə?” Gəlir indiki Qalalıya, dönüb olur

qoca bir kişi. Salsal pəhləvan görür ki, onun otluğunda bir qoca kişi var – heç bunu saya salmır. Salsal öz adamlarına deyir:

– Gedin mənim qalxanımı, papağımı, qılıncımı gətirin.

Qırx pəhləvan Salsalın qalxanını, qırx pəhləvan papağını, qırx pəhləvan da qılıncını sürüyə-sürüyə gətirir.

Salsal pəhləvan deyir ki, mən vuruşmamışdan qabaq şərt qoyuram, sonra vuruşuram.

Həzrət Əli deyir:

– Şərtini de.

Salsal pəhləvan deyir:

– Gərək əvvəlcə mənim qalxanımı yerdən qaldırasan, sonra vuruşaq.

Həzrət Əli deyir:

– Mənim də şərtim var – gərək əvvəlcə mənim xəncərimi yerdən qaldırasan, sonra vuruşaq.

Salsal pəhləvan əlini atır, istəyir xəncəri qaldırsın, görür qaldıra bilmir. İkiəlli yapışır xəncərdən, qurşağatan batır torpağa. Həzrət Əli çeçələ barmağını ilişdirir Salsalın qalxanına, fırlayıb tullayır göyə. Salsal görür ki, qalxan yerə düşsə, yerin təkinə gedəcək, deyir:

– Qurban olum, elə elə ki, qalxan yerə düşməsin.

Həzrət Əli qalxanı yenə bir barmağıynan tutub yerə qoyur. Vuruşmağa başlayırlar. Salsal qılıncı çalmaq istəyəndə dərəni duman bürüyür. Duman çəkiləndə Salsal görür qabağındakı qoca yox, cavan bir oğlandır. Bilir ki, bu, Əlidir. Deyir:

– Vur.

Həzrət Əli xəncəri qoyur Salsalın başına, deyir:

– Haran ağrıyır?

Salsal deyir:

– Beynimin içi.

Həzrət Əli bir də soruşur ki, haran ağrıyır?

Salsal deyir:

– Ürəyim.

Həzrət Əli deyir:

– Sənin ürəyində gavırlıq var.

Xəncəri çəkib, Salsal pəhləvanı iki parça eləyir.

Xəbər gedib Salsalın bacısına çatır. Həzrət Əli görür budur, bir gözəl qız gəlir – baxırsan, hayıl-mayıl olursan.

Qız deyir:

– Hər kimsən – bilmirəm, əhd eləmişdim ki, zalım qardaşımı kim öldürsə ona ərə gedəcəm. İndi sən öldürübsən, gərək məni alasan.

Həzrət Əli deyir:

– Yaxşı, alaram, ancaq səfərdən qayıdandan sonra.

Həzrət Əli səfərə çıxır. Səfərdən qayıdanda görür ki, qız can üstədir. Gedib Amuduxda bir türbə tikdirir. Qız öləndə qızı aparıb o türbədə basdırır.

İndiki Amudux piri o qızın qəbridir.

Amudux pirinin yanında bir bulaq var – suyu qırx gün gəlir, qırx gün quruyur. Deyirlər ki, qız "lailahə illəllah" sözünü ürəkdən deməyib – yarı müsəlmandı, yarı gavır. Müsəlman olanda su gəlir, gavır olanda su quruyur.

Bir Rüstəm pəhləvan varıymış. Yekə bir adamıymış. Elə yekəymiş ki, hər qapıya sığışmazmış.

Bir gün Süleyman peyğəmbər deyir: "Nə ki inni-cinni var, hamısını qonaq çağıracağam". Hər quşdan ikisini, hər heyvandan ikisini, hər millətdən ikisini qonaq çağırır.

Hamı gəlir, keçib oturur. Divlərin padşahı da gəlir, o da keçib oturur. Axırda Rüstəm pəhləvan gəlir. Bir qapıya baxır, bir özünə baxır, deyir: "Mən burdan nə təhər keçim?" Qapının bir tərəfini uçurdur, keçir içəri.

Şeytan qaçır Süleyman peyğəmbərə deyir ki, sən Rüstəmi qonaq çağırmışdın, o da vurdu qapını uçurtdu.

Süleyman peyğəmbər deyir:

– Günah məndədi, Rüstəmdə deyil. Rüstəmi qonaq çağıran gərək onun qapısını da qoyaydı.

Bir padşah varmış. Bu padşahın bir oğlu olur. Mələklər bu uşağın hər yerinə əl çəkir, bircə gözlərinə çəkmir. Uşağın adını İsgən-

dər qoyurlar. İsgəndər böyüyüb güclü bir pəhləvan olur. Qabağına çıxan pəhləvanları qatlayıb dizinin altına qoyur. Bir gün bir pəhləvan ona deyir ki, oğulsan, get Rüstəmə cavab ver.

İsgəndər gəlib atasından Rüstəmi xəbər alır. Atası deyir, Rüstəm filan ölkənin pəhləvanıdı, hələ indiyətən onun qabağına çıxan olmayıb.

İsgəndər deyir:

– Gərək gedəm, Rüstəmlə vuruşam.

Atası çox yalvar-yapış eləyir ki, gəl daşı ətəyindən tök, bu yoldan qayıt, İsgəndər qulaq asmır, geyinib-kecinib yola düşür. Gəlib Rüstəmin ölkəsinə çatır. Rüstəmə xəbər eləyirlər ki, bəs filan vilayətdən İsgəndər adlı bir pəhləvan gəlib, səni davaya çağırır. Rüstəm dava libasını geyinib ata minir, İsgəndərlə üz-üzə dayanır. Qılınclaşırlar – bir mətləb hasil olmur. Güləşirlər – bir mətləb hasil olmur. Rüstəm nə qədər ox atır, heç biri İsgəndərin bədəninə batmır. İsgəndər neçə ox atır, Rüstəmi neçə yerdən yaralayır. Axşam düşür. Razılaşırlar ki, davanı sabaha saxlasınlar.

Rüstəm gəlir öz imarətinə, yaralarına məlhəm qoydurur. Ürək qızdırdığı adamları başına yığır, deyir:

– Bu nə sirdi – nə qədər ox atıram İsgəndərin bədəninə batmır?

Gedib bir baxıcı gətirirlər. Baxıcı deyir:

– İsgəndərin bədəninə mələklər əlini çəkib, onu ancaq gözündən vurmaq olar.

Səhər açılır. İsgəndərlə Rüstəm yenə davaya çıxırlar. Rüstəm oxu yaya qoyub atır. İsgəndərin iki gözünün ikisini də vurub çıxardır. İsgəndər deyir:

– Rüstəm, əgər igidsənsə, mənə bir qalaça tikdir. Qalaçanın içindən bir zəncir asdır, mən o zəncirdən tutub, qalaçanın içində gəzim. Hərdən özün də gəl, söhbət eləyək, fikrim dağılsın.

Rüstəm razılaşır. Qalaçanı tikdirməyə başlayanda baxıcı deyir:

– Rüstəm, qalaçaya iki qapı qoydur. İsgəndərin yanına gedəndə görəcəksən ki, İsgəndər qollarını qaldırıb, zənciri aşağı çəkmək istəyir. Onda sən o biri qapıdan çıxarsan eşiyə.

Qalaça hazır olur. İsgəndər zəncirdən tutub, qalaçada gəzib-dolanır. Bir gün Rüstəm İsgəndərin yanına gəlir. Söhbət eləməyə

başlayırlar. Rüstəm görür ki, İsgəndər yavaş-yavaş qollarını yuxarı qaldırır. Rüstəm yavaşca ikinci qapıdan eşiyə çıxır. İsgəndər zənciri çəkib, qalaçanı öz başına uçurdur. Daş-qayanın altında qalıb ölür.

Çərxi-dəvvarə adında bir əv varımış. Bı əvin bütün divarrarının içi də, çölü də qeyipdən yazılıydı. Bı yazılar tilsimatlıydı. Əv gecə-gündüz durmadan fırranırdı. Çox möhkəm fırrandığınnan yazıları oxumax olmurdu. Ancax ildə bir dəfə bı əv bir annığa dayanır, sora elə o sahat da başdıyırmış fırranmağa. Əvin dayandığı gün camahat bərəmum götürüp gedirmişdər ora. Elə əv dayanan kimi bərəmumu basırmışdar divara. Oradakı yazı düşürmüş bərəmuma. Ancax gərəh yazı bütöv düşəymiş ki, xeyri də olaymış. Heş kimin də bərəmumuna pütöv yazı düşməmişmiş, yarımçıx yazı düşüpmüş ki, bının da xeyri yoxuymuş.

Şah Abbas bı əv haqqında eşidip gedir ora. Girir əvin içinə. Namazın-zadın qılır, durup başdıyır gözdəməyə. Elə əv dayanan kimi bərəmumu basır divara. Sora bəxtinə düşən yazını oxuyur. Görür ki, bı yazı elə bir tilsimdi ki, bını oxuyanda ev dayanar, fırranmaz.

Şah Abbas gözdüyür, hamı çəkilip gedənnən sora tilsimi oxuyur, ev dayanır. İçərdəki, eşdəki bütün tilsimləri yazıp götürür, sora əv genə başdıyır fırranmağa. Ta o günnən Şah Abbas olur elm dəryası. Dünyanın bütün sirlərini bilir, heç kim ona dav gələ bilmir.

Bir gün Şah Abbasla vəzir səyahətə çıxırlar. Görürlər bir yerdə it hürür, bir yerdən işıq gəlir. İşıq gələn yerə gedirlər. Görürlər burda bir arvad hamilədir. Arvad doğur, qızı olur. Vəzir gülür. Şah Abbas soruşur ki, vəzir, niyə güldün?

Vəzir deyir:

– Bu qız sənin oğluna qismətdi.

Şah Abbas pul verib uşağı alır. Bir adama qızıl verir ki, apar bu uşağı qayadan bir kolun üstünə düşür. Bir ovçu götürür bu uşağı saxlayır. Qız böyüyür. Bir gün çaydan su gətirməyə gedir. Ayağı sürüşür, başmağının bir tayı düşür suya.

Şah Abbasın oğlu ova çıxıbmış. Çayın qırağından keçəndə görür ki, suynan bir qadın başmağı axır. Başmağı sudan çıxardır. Evə qayıdıb atasına deyir:

– Bu başmaq hansı qızın ayağına olsa, onu alacağam.

Bir qarıya deyirlər ki, gör bu başmaq hansı qızındı?

Qarı deyir:

– Filan yerdə bir ovçu yaşayır. O ovçunun bir qızı var, başmaq o qızın başmağıdı.

Qızı gətirirlər. Baxıb görürlər ki, başmaq düz onun ayağının üstündədi. Vəzirin sözü düz çıxır – o qız şah Abbasın oğluna qismət olur.

Deyirlər, keçmişlərdə iki cavan bir-birini sevirmiş. Nə gecələri gecə, nə də gündüzləri gündüz imiş. Aranı xəlvət eyləyib görüşər, "lal-dinməz" oyunu oynayarmışlar. Amma nə fayda... Qızı gözü yaşlı, ürəyi niskilli edib istəmədiyi qoca bir adama ərə verirlər. Ayrılığa tab gətirməyən oğlan yurd-yuvasından didərgin düşüb çöllərə pənah aparır.

Yaz başı el dağa köçürmüş. Qız gözdən yayınıb həsrətini çəkdiyi sevgilisiylə görüşür. Dərdini danışır, ərinin zalımlığını deyib acı-acı göz yaşları tökür. Bu görüşdən sonra qız uşağa qalıbmış.

Ay keçib vədə tamam olanda gözəl bir oğlan uşağı dünyaya gəlir. Yazıq qız iki daş arasında qalır. Bir yandan ər qorxusu, bir yandan ana ürəyi. Axırda körpəni əskiyə bükür, obalardan uzaq bir yerə aparıb bir kol dibində qoyur, xəlvətcə qayıdır. Bir dişi qurd uşağı tapıb döşünə salır, doyunca əmizdirdikdən sonra dişlərinə alıb aparır.

Qızın sevgilisi bir gün ana qurdla qarşılaşır, uşaq əmizdirdiyini görüb çaşbaş qalır. Aman vermir, qurdu öldürür, uşağı da götürüb öz yanında saxlayır.

Günbəgün böyüyən körpə onun özünə oxşayırmış. Oğlan başa düşür ki, bu uşaq sevgilisinin atdığı doğma balasıdı. Daha açıb-ağartmır.

Günlərin bir günü təzək yığmağa gedən ana həmin uşaqla qarşılaşır. Amma tanıya bilmir. Çünki o, adam yerişli, insan dilli, qurd

ağızlı bir məxluq idi. Uşaq qadını görəndə qurd kimi onun üstünə atılır, dişləri ilə bir göz qırpımında didib parçalayır.

Ovdan qayıdan ata qana boyanmış qadını görəndə şivən qoparır. Üzünü oğluna tutub deyir:

– Niyə öldürdün, oğul. O, mənim sevgilim, sənin də anan idi.

Qurdağızlı uşaq hər şeydən xəbərdar kimi cavab verir:

– Mənim süd anamı sən öldürdün, sümük anamı da özüm. Bil ki, hər kəsin süd anası sümük anasından daha əzizdi.

Ata daha bir söz deməyib qanlı yerdən uzaqlaşır. Deyirlər, ata-oğul həmin qocanı öldürüb son günlərinədək çöllərdə, dağlarda yaşayıb ömür sürmüşlər.

Qurddan adama ziyan gəlməz. Yanı ki, bir gün bir çoban sürüyə baxırmış. Bir də görür ki, o tərəfdən iki qurd gəlir, qorxusunnan tez ağaca çıxır. Qurdlar acıymış. Onlar uluyullar, uluyanda Allah onlara yeməh göndərir. Qurdlar yeməyi üç yerə bölüllər. İkisini yeyib, üçüncüyü çobana saxlayıb gedillər. Çoban bu yeməyi özü yemir, oğlağa verir. Oğlax tez böyüyür, yekə, yağlı keçi olur.

Bir kişi şər vaxtı çimib, başıaçıq çıxır eşiyə. Canavar öz dərisini atır bu kişinin üstünə. Kişi hər gecə qaçır çölə, səhərüzü qayıdır. Canavar dərisini soyunub peyinlikdə gizlədir. Kişini güdürlər, canavar dərisini götürüb yandırırlar. Kişi özünə gəlir, danışır ki, gecələr canavarlarnan bir gəzirdim. Çöldə qalan qoyunların işığı gəlirdi. Canavarlar deyirdi ki, bu qoyunlar bizim urzumuzdu. Tutub qoyunları yeyirdik.

Qədimlərdə bir Qaraca çoban varmış. Çox güclü imiş. Onun sapandının qorxusundan heç kim ona yaxın düşə bilməzmiş. Bir gün düşmənnər hiyləyə əl atırlar. Onların bir dəstəsi üz-gözlərini dəyişib çobanın yanına gəlir. Salaməleykümdən sonra ondan soruşurlar:

– Qaraca çoban, sən ki belə güclüsən, de görək, əllərini kəndirlə sarısaq qıra bilərsənmi?

Qaraca çoban deyir:
– Qıraram, inanmırsınız bağlayın.
Çobanın əl-qolunu kəndirlə bağlayırlar. O, bircə dəfə güc verən kimi kəndir parça-parça olub yerə tökülür. Düşmənlər Qaraca çobanın əl-qolunu nə ilə bağlayırlarsa da, çobanın gücünə tab gətirmir. Ondan soruşurlar:
– Ay Qaraca çoban, bəs nə ilə sarısaq qıra bilməzsən?
Çoban deyir:
– Qara keçimin qılı ilə hörülmüş kəndirlə sarısanız, gücüm çatmaz, qıra bilmərəm.
Düşmənə də elə bu lazım idi. Tez qara keçinin qılı ilə hörülmüş kəndir gətirirlər, çobanın əl-qolunu möhkəm-möhkəm sarıyırlar. Qaraca çoban nə qədər güc verirsə də, qara keçinin qılından hörülmüş kəndiri qıra bilmir. Yağılar bundan ürəklənib hər tərəfdən tökülüb hücum edirlər. Yazıq Qaraca çobanı qılıncla doğrayıb qanına qəltan edirlər.
Çobanın bir sevgilisi varmış. Adı Bəsti imiş. Özü də sürüsünü otardığı ağanın qızı imiş. Çoban onu istəyirmiş, o da çobanı. Qaraca çoban düşmənin hiyləsini başa düşür, görür ki, day iş işdən keçib, ölüm vaxtıdı. Tez tütəyini çıxarıb çalmağa başlayır. İstəyir ki, son nəfəsdə sevgilisi Bəsti tütəyin səsini eşitsin, başa düşsün ki, yağılar gəlir. Deyirlər onun tütəyinin səsi çox-çox uzaqlara gedirmiş. Çoban tütəyi çalan kimi, səs Bəstiyə çatır. Qız, qulaq asıb görür ki, Qaraca çoban tütəklə deyir:
Ağamın qızı Bəsti hey... Bəsti hey...
Keçi qılı qollarımı kəsdi hey... kəsdi hey...
Yağı torpağımıza ayaq basdı hey... basdı hey...
Bəsti tez atasına xəbər verir. Hamı atlanıb dağa axışır. Gəlib Qaraca çobanı parçalanmış tapırlar. Çobanı elə oradaca dəfn edirlər. O vaxtdan da həmin dağa “Qaraca çoban”, “Qaraçuq” dağı deyilmişdir.

Bir çoban çöldə qoyun otarırmış. Bir qurd gəlir deyir:
– Çoban qardaş, bu sürüdən mənə bir qismət ver, yeyim.
Çoban deyir:
– Gedim ağama deyim, razı olsa, baş üstə, verim ye.

Çoban, qoyunu qurda tapşırır, gedir ağasına deyir ki, bir qurd gəlib, sürüdən qismət istəyir.

Ağası deyir:

– Get kürə qoyunu ver yesin.

Çoban gəlir kürə qoyunu verir qurda. Qurd qoyunu parçalayıb yeyəndə qoyunun qarnındakı quzu çıxır. Qurd bu quzuya dəymir. Çoban deyir:

– Mən indi bu quzunu neyləyəcəyəm – götür bunu da ye.

Qurd deyir:

– Yox, yeyə bilmərəm – o, mənim qismətim deyil.

Qurd gedir. Allah quzunu çəkir göyə.

Bir gün duman-çiskin olur. Çoban sürüdəki qoyunların yarısını itirir. Ha axtarır, tapa bilmir. Əlacı kəsilir, deyir:

– Ey Allah, oğlumu qurban deyirəm, kömək elə qoyunları tapım.

Allah çobanın sözünü eşidir. Duman-çiskin çəkilir, çoban qoyunları tapır. Oğlunu qurban kəsmək istəyəndə göydən səda gəlir:

– Çoban, uşağa dəymə, kürə qoyunun balasını qurban kəs.

Çoban görür ki, kürə qoyunun balası göydən endi yerə. Uşağın əvəzinə kürə qoyunun balasını qurban kəsir.

Bir zalım şah varmış. Bu şahın zülmü ərşə dayanıbmış. Vəzir-vəkili də onun əlindən baş götürüb dağlara qaçıbmış.

Şahın xəzinəsində qızıl, gümüş, cavahirat ildən-ilə artdıqca ölkə xarabazarlığa çevrilirmiş. Kotan tutmalı, əkin əkməli olan əllər qılınc, nizə, qalxan tuturmuş.

Şah bir gün yenə də şeypurları səsləndirdi. Ən ucqar kəndlərə də yasavulların göndərib yenicə ərsəyə gəlmiş cavanları səfərbərliyə almağı tapşırdı. Ordugahlar quruldu, döyüşə hazırlıq işləri görülməyə başladı. Qoca bir qarının da bircə nəvəsi var imiş. Yenicə ərsəyə çatıbmış. Qarı nəvəsinə toy tədarükü görürdü ki, dünyadan nəvə toyu görməmiş köçməsin. Onun nəvəsini də zorunan düşərgəyə gətirib şahın döyüşçüləri arasına qatırlar. Atalar “dövlətdə dəvə, övladda nəvə” deyiblər. Qarı çox çalışır ki, nəvəsini dava-şavadan qurtarsın, bir şey çıxmır. Odur ki, üz tutub şahın çadır qurub

oturduğu yerə gedir. Keşikçilər qarını şahın yanına buraxmaq istəmirlər. Qarı yalvar-yaxar eləyir. Onun səsi şahın qulağına çatır.

Şah deyir:

– Qarını mənim yanıma gətirin.

Keşikçilər qarını şahın yanına gətirirlər. Şah bir ayağı burda, biri gorda olan qarının istəyini bilib qəzəblənir:

– Bəxtin kəsib. Səfər üstəyəm, istəmirəm səfər üstündə əlimi sənin qanına batırım. Mən adlı pəhləvanları, ordular basan, ölkələr tutan sərkərdələri bir həmlədə qanına qəltan edirəm. Mənə dua et, uğur dilə. Alqış elə ki, səfərdən əli dolu qayıdım. Səni bağışlayım.

Qarı deyir:

– Qibleyi-aləm, mən bağışlanmağımı istəmirəm. Mənə toy tədarükünə hazırladığım nəvəm lazımdır. Onu zorla sən döyüşçülərin sırasına qatdırmısan. Mən qarıya yazığın gəlsin. Ata, qardaş, oğul, qız dağı görmüş sinəmə nəvə dağı çəkmə.

Şah güldü:

– Qarı, cın-cındırınlamı toy tədarükü görürsən? Sən mənə minnətdar olmalısan ki, nəvəni döyüşə aparıram. Nəvən fərasətli olsa, hünər göstərsə çapıb-talayıb sərvət yığar. Geri qayıdandan sonra o sərvətlə özünə toy elər.

– Şah sağ olsun, nahaq qan bahasına əldə edilmiş var-dövlət nə mənə, nə də mənim gəlinimə lazımdır. Belə sərvət heç kimə ağ gün gətirməz. Gəl, qayıt bu yoldan. Axıtdığın qanlar, haqsız axan göz yaşları selə dönüb bir gün səni yer üzündən silər.

Qarının sözlərini eşitcək şahın halı dəyişdi. Hirsindən əlləri titrədi, gözləri hədəqədən çıxdı. Vəzir, vəkil, adlı-sanlı sərkərdələr onun sözünün qabağında söz deməyə cürət etmirdilər. İndi dilənçi bir qarı ona ağıl öyrədirdi, özü də harada. Sərkərdələrin, əyanların yanında. Şah var gücüylə çığırdı:

– Cəllad, bu qarını bir qatırın quyruğuna bağla!

Qarı nə əzab-əziyyətdən, nə də ölümdən qorxdu. Səsini qaldırıb dedi:

– Şah, ulu babaların da sənin kimi qəddarlıq elədiyindən yadellilər yurduna hücum çəkəndə qoşunun sayı düşməndən çox olsa da basıldı. Babanla atan vətəndən didərgin düşüb, qürbətdə öldü. Sən

də kimsəsiz bir gədə kimi dilənçi kökündə yaşayırdın. Yadellilərə nifrət vətən övladlarına ulu babanın qəddarlığını unutdurdu, düşməni qovmaq üçün elin hər yerində dəstələr düzəltdilər. Ağsaqqalların məsləhətiylə atam gedib səni yad ölkədən gətirdi. Hamının qarşısında and içdin ki, ağsaqqallarının məsləhətiylə oturub-duracaqsan. El ayağa qalxdı, yadelliləri qovdu. Amma sən verdiyin vədləri unutdun. Şahlıq taxtında yerini bərkidəndən sonra döyüşlərə hazırlaşdın. Xalqın başını aldatdın ki, öldürülmüş qardaşlarımızın, əsir aparılmış ana-bacılarımızın qisasını almağa gedirsən. Döyüşlərdə ölən igidlərin qanı bahasına sən xəzinələr, torpaqlar ələ keçirdin, qan içməkdən, ölkələr talamaqdan doymadın.

Qarı qəddarlaşmış şahı heç cür qarşıdakı döyüşdən çəkindirə bilmədi. Üz tutdu dağlara. Ulu Tanrıya yalvardı ki, şahın bu səfərinə imkan verməsin. Onun ləl-cavahiratını, qızıl-gümüş xəzinəsini daşa-torpağa çevirsin.

Göy guruldadı, şimşək çaxdı, aləm bir-birinə qarışdı. Şah qoşuna bu uğursuz yerdən uzaqlaşmağı əmr elədi. Xəzinəni yükləmək istəyəndə gördülər cavahirat, qızıl hamısı daşlara dönüb.

Həmin gündən bu yerlərə "Xəzinə qaya" deyilməyə başladı.

Pir babanın gözəl-göyçək bir qızı var idi. Pir baba onu evdən çölə çıxmağa qoymurdu. Bir gün Pir baba başının adamları ilə ova çıxası olur. Qız evdə tək qalıb, darıxır. Fikirləşir ki, evdə oturub neyləyəcəm ki, qoy çıxım bağda gəzim. Bəlkə ürəyim bir az açıldı. Atam hələ gec qayıdacaq. Qız çıxır bağa, başlayır gəzməyə. Birdən haradansa bir oğlan girir bağa. Onlar bir-birlərini görüb vurulurlar. Başlayırlar söhbət etməyə. Birdən qızın yadına düşür ki, atasının indi ovdan qayıdan vaxtıdı. Qorxusundan bilmir nə etsin. Atası gəlir qızın yanındakı oğlanı görür, bərk acıqlanır. Lakin oğlanın gözəl olduğunu görüb yumşalır. Oğlana deyir:

– Gəl vuruşaq, əgər üstün gəlsən qız sənindi, yoxsa ki, sən əjdahaya dönəcəksən. Çünki mən sehirliyəm.

Onlar vuruşurlar. Oğlan basılır, elə o saatca dönüb olur əjdaha. Əjdahanın gözündən yaş axmağa başlayır. Pir baba istəyir ki, onu

öldürsün. Yay-oxunu çıxarıb əjdahanın ortasından bir ox keçirir. Lakin əjdaha ölmür. Pir baba onu daşa döndərir. Qızının da ağladığını görüb onu oğlandan ayırmaq istəmir. Qızını həmin daşın yanında nar ağacına döndərir.

Deyirlər, çox keçmiş zamanlarda bir xan olur, bir də vəziri. Bu vəzirin adı Qara keşiş imiş. Xanın Kərəm adlı oğlu, Qara keşişin də Əsli adında qızı varmış. Onlar böyüyüb bir-birlərini sevirlər. Qara keşiş bu sevgidən xəbər tutan kimi fikrə dalır, iki ayağını bir başmağa qoyub olmaz ki, olmaz deyir. O, hara, mən hara. Mən öz qızımı dinimdən olmayan adama ərə vermərəm.

Xan oğlunun dərdindən hali olub çox sevinir. Qara keşişə sifariş göndərir. Qara keşiş işi belə görüb aradan çıxmağı qərara alır. Gecə ikən barxanasını yığıb külfəti ilə bərabər oradan uzaqlaşır.

Ay dolanır, il keçir. Kərəm öz sevgilisindən əl çəkmir. Nəhayət, Qara keşiş onların evlənməsinə icazə verir. Qəlbindəki kinini gizlədib Kərəm üçün bir toy xalatı tikir və ona deyir:

– Kərəm, oğul, mən sənə çox əzab vermişəm, bağışla. Al bu xalatı, toy gecəsi qızın yanına getməzdən əvvəl geyinib öz əlinlə düymələrini açarsan. Ondan sonra qızımla xoşbəxt olarsan.

Toy vurulur. Toy gecəsi Kərəmlə Əsli tək-tənha qalıb bir-birinə sarmaşırlar. Kərəm əl atır ki, xalatın düymələrini açsın, düymələr Kərəmin əli dəyən kimi öz-özünə açılır, axırıncıya çatanda təzədən hamısı düymələnir. Kərəm işi başa düşür. Bilir ki, Qara keşiş nə isə onların başına bir bədbəxtlik gətirəcək. Əsli də Kərəmə kömək edir. Bu dəfə isə düymələr açılıb Kərəmin sinəsinə düşür. Kərəm alışıb yanır. Bir göz qırpımında kül olur. Əsli hay-həşir salır, saçlarını süpürgə eləyib Kərəmin külünü ağlaya-ağlaya yığışdırmağa başlayır. Həmin küldən bir qığılcım da qalxıb Əslinin üstünə düşür. O da yanıb külə dönür. Bu vaxt səs-küyə el-oba adamları tökülüşüb gəlirlər. Otaqda bəylə gəlin əvəzinə ikicə topa kül tapırlar. Bilirlər ki, bu, Qara keşişin işidir. Hamı göz yaşı töküb ağlayır, hər iki nakam gənci basdırırlar.

Bir az keçməmiş Qara keşiş də azarlayıb ölür. Onu da Əsli və Kərəmin yaxınlığında basdırırlar. Nakam gənclərin qəbrinin üstündən gül kolları bitib bir-birinə sarmaşır, Qara keşişin də qəbrindən qaratikan boy verib güllərin arasına soxulur. Deyirlər gül kolları Əsli ilə Kərəmin ruhudur ki, o biri dünyada qovuşmaq istəyirlər. Qara keşişin ruhu isə qaratikana çevrilib onların qovuşmalarına mane olmaq istəyir.

Qədim əyyamlarda bir qız, bir oğlan olub. Bunlar bir-birini ürəkdən sevirmiş. Bir gün onların yaşadığı ellərə kafir hücum çəkir. Büsbütün kənd dağılır. Əlacsız qalan qızla oğlan əl-ələ verib qaçırlar. Ancaq bunları kafirlər görüblərmiş. Düşürlər arxalarınca. Elə kafirlər qızla oğlana çathaçatda hər iki cavan əl uzadıb yalvarırlar ki, ay Allah, kafir əlinə düşməkdənsə bizi daş elə.

Onların yalvarışı yerinə yetir. Qızla oğlan ağ daş olub bir-birinin yanına düşürlər.

El arasında "Oğlan-qız" adlanan bu daşlara niyyət eləyirlər.

Deyirlər ki, varlı bir kişi Ordubehiştdə yaşayıb, gözəlliyi dillər əzbəri olan bir qızı almaq istəyir. Buna görə də o, Ordubehiştə elçiliyə gedib qızın atası ilə danışır. Qızın atası həmin kişinin varına aldanıb iki-üç günə toyun başlamasına söz verir. Ancaq qızın həmin kişidən zəhləsi gedir. Çünki kişi həm yaşlı, həm də çox çirkin imiş. İxtiyarı atasında olan qız özünü öldürmək qəsdinə düşür. Dərdini qonşu qıza söyləyir. O, qızın sevgilisinə xəbər aparır, oğlan gəlib çıxır.

Qız öz sevgilisinə qoşulub qaçır. Bu işdən xəbər tutan varlı kişinin adamları onların dalınca düşürlər. Oğlanla qız yaxalanacaqlarını görüb dağlara üz tuturlar. Varlı kişinin adamlarının arxadan atdıqları ox onların hər ikisini yaralayır. Kürəyinə sancılan oxun ağrısına dözə bilməyən qız özünü oğlanın qolları arasına atır. Onlar düşmənin əlinə düşməsinlər deyə, Allaha yalvarırlar:

Bizi daş elə, daş elə,
Daşlara yoldaş elə.

Oğlanla qız ağır yaralanıb çoxlu qan itirdiklərindən ordaca ölürlər. Varlı kişinin adamları cəsədləri bir-birindən ayırır, basdırmırlar ki, qurd-quşa yem olsunlar.

İllər keçdikcə oğlanla qızın cəsədləri daşa, qayaya çevrilir, bir-birinə həsrətlə baxan qoşa dağ əmələ gəlir.

Elə o vaxtdan həmin qoşa dağ el arasında "Oğlan-Qız" adıyla tanınır.

Qədim zamanlarda Araz çayının qırağında iki qonşu kəndin adamları bir-biriynən yaxından dostluq edərmiş. Kəndlilər bir-birinin evinə gedər, hər dərdinə, sevincinə şərik olarmışlar. Bu kəndlərdən biri indiki Aza kəndi, o biri də Arazın o tayındakı kəndlərdən biri imiş.

Belə rəvayət edirlər ki, Aza kəndində bir kişinin gözünün ağı-qarası bircə oğlu varmış. Kişi bütün var-dövlətini oğluna qurban deyib onu böyüdürmüş. Aylar, illər keçir, bu oğlan böyüyüb boya-başa çatır. Eşq sevdası onun da başına dolur. O, Arazın o tayındakı kənddə bir qıza aşiq olur. Elə bil ki, oğlanın göbəyini həmin kənddə kəsiblərmiş, oğlan ordan əl çəkmir, qıznan tez-tez görüşürmüş.

Sən demə, qızı həmin kənddə çox varlı bir kişinin oğlu da istəyirmiş. Di gəl ki, qız varlı oğlana getmək istəmirmiş. Məsələ çox müşkülləşir. Qız da ki, açılışıb ürəyini heç kimə deyə bilmir. Xəlvətcə qonşu kənddə istədiyi oğlana xəbər göndərir. Özü də Araz çayının qırağına gəlir ki, qoşulub qaçsın.

Bu vaxt qızı güdən varlı bunları görür. Qan vurur onun beyninə. O, qızı istəyən oğlanı ağır yaralayıb atır Araza. Sonra da qızı qaçırmaq istəyir. Qız duyuq düşüb başlayır Arazın qırağıynan qaçmağa. Görür ki, çayın suları al qana boyanıb. Qızı qəhər boğur. Varlı oğlan da onun dalınca gəlir. Qız onun əlindən qurtarmaq üçün özünü çaya atır. Çayın burulğanı qızı da qoynuna alır. Hay-küyə gələnlər neyləyirlərsə onları qurtara bilmirlər. Çay hər ikisini aparır.

Hamı varlı oğlana nifrət yağdırır. Kasıb oğlanın atası var-yoxunu töküb hər iki gəncin nakam məhəbbətinə Aza kəndində qoşa məqbərə tikdirir. O vaxtdan da həmin qoşa məqbərəyə "Oğlan-qız məqbərəsi" deyirlər.

Bir gün düşmənlər qəfildən hücum çəkirlər. Eldə qaçhaqaç düşür. Adamlar özlərini itirir, hara qaşdıxlarını bilmirlər. El-obanın çox igidləri qırılır. Yağılar qabaqlarına keçənləri qoca demir, uşaq demir, qadın demir, hamısını qılıncdan keçirirlər. Bu qaçhaqaçda bir hamilə gəlin də gizlənməyə yer axtarır. Ha göz gəzdirirsə gizlənməyə yer tapa bilmir. Üz tutur ayaqyalın, başı açıq dağlara sarı.

Düşmənlər sən demə gəlini görüblərmiş. Düşürlər arxasınca. Gəlin piyada, həm də hamilə, düşmənlər də atlı, yazıq hara qaça bilər ki. Ələ keçəndə də onun başına nə gətirəcəklər, kim bilir. Düşmənlər çathaçatda üz tutur göylərə, yalvarış edir.

Elə bu vaxt düşmən atlıları özlərini yetirirlər. Amma yerlərindəcə donub qalırlar. Onların qarşılarında hamilə gəlin əvəzinə hamilə qadına oxşayan uca bir qaya peyda olur. Gəlin qayaya dönübmüş. Elə o vaxtdan da bu qayaya "Gəlin qayası" deyilir.

Qədim zamanlarda Şahbuzun çox ucqar kəndlərindən birində gözəlliyi aləmə yayılan sərv boylu bir gəlin varmış. Əri düşmənlə vuruşmada həlak olubmuş.

Gəlinin qumral gözləri, ilan kimi qıvrılan qoşa hörüyü cavanların canına od salarmış. Yaxından, uzaqdan gələn elçilər həmişə kor-peşman geri qayıdarmış.

Günlərin bir günü gəlini tanımadığı bir oğlan qaçırır. Oğlan qorxusundan gəlini dağlara aparır. Onlar başı göylərə dəyən Toğlu qayayla Salvartı dağının arasından keçəndə gəlin çırpınıb oğlanın əlindən çıxmaq istəyir, ancaq bacarmır. Əlacsız qalan gəlin uca qaya başında üzünü göylərə tutub aman istəyir...

Daşa dönmüş gəlinin abidəsi o vaxtdan el arasında "Gəlin qayası" adıyla tanınır...

Keçmişlərdə bir qadın olub. O qədər mehriban, gülərüz, hamının hoyuna çatan imiş ki, bütün el onun başına and içirmiş. Bu qadının da aman-zaman bircə inəyi varmış. Adına da Qara inək deyərmiş.

Günlərin bir günü bu qadın çox gözləyir, amma inək örüşdən qayıtmır. Şər qarışanda başlayır inəyi gəzməyə. Gəlhagəl, gəlib çıxır bir mağaraya. Baxır görür ki, inək burdadı, özü də yelini az qalır ki, süddən dağıla. Bundan inəyə bir xətər toxunar deyə, qadın elə oradaca başlayır inəyin yelinindəki südü sağmağa.

Adamlar səhər yuxudan oyanıb qadını görmürlər. Gün bir boy qalxır, ancaq ondan nə xəbər olur, nə ətər. Düşürlər axtarmağa. Axır onu zağada tapırlar. Ancaq qadın inəyi sağdığı yerdəcə daşa dönübmüş.

O vaxtdan həmin zağaya Qara inək zağası demişlər. Deyilənə görə oraya gedib qadını görmək istəyənlərin hamısı bu arzuya çata bilmirmiş. Kim əməli saleh adamsa, həmişə yaxşılıq edibsə, qadın inək sağdığı vəziyyətdə onun gözünə görünə bilər. Zağadan axan su da həmin inəyin yelinindəki süddür, su olub axır. Kim o süddən içərsə, dərdlərinə dəva tapar.

Borçalıda bir cinni qaltan var. Altında neçə sürü daldalanar. Dibi də dərədi. Bu yerlərdə çoxlu bulaq var. Bir gün xan qızı başında qırx qız seyrə çıxıbmış. Qəfildən şimşək çaxır, göy guruldayır, yağış yağır. Hər tərəfdən sel axmağa başlayır.

Elə bu vaxt bulud kimi qara bir şey bu qızları qoynuna alıb dumanlıqda itir. Ara sakitləşəndən sonra hay-küy düşür. Qızların yoxa çıxdığı hər yana yayılır. Xan qızının nişanlısı böyük bir dəstə ilə qızı axtarmağa başlayır. Gəlib qızların itdiyi yerə çıxanda həmin qara topanı orada görürlər. Qara topaya yaxınlaşanda bütün qoşun qayaya dönür. Elə bu vaxt şaqqıltıyla dağ aralanır, həmin qara bulud şəklində olan cin dağın arasında yox olur.

Deyirlər o vaxtdan oğlanlar qayaya, qızların göz yaşları bulaq suyuna çevrilibdi. Kim o bulağın gözündən su içə bilsə, canından azar-bezar yox olar, kim o böyük qayanın üstünə çıxmağı bacarsa, quş kimi istədiyi yerə uça bilər.

Qədim vaxtlarda yayın cırhacırında yer-yurd tamam yanıb susuzluqdan cadar-cadar olubmuş. Günlərin belə bir günündə bir çoban sürüsünü kölgəliyə verib tütək çalırmış. Belə eləyirmiş ki,

bəlkə susuzluğu yaddan çıxa. Ciyəri odlanan çobana tütəyin sehrli səsi də kömək edə bilmir, dodaqları torpaq kimi çat-çat olur. Başlayır yolu əlinə alıb dağı dörd dolanmağa. Hara baxırsa bulaqları, çayları qurumuş görür. Nəhayət, göylərə əl açıb deyir:

– Ey Allah, susuzluqdan tabım qalmayıb. Burada bir bulaq yarat, doyunca su içək, sənə qurban kəsəcəyəm, dua oxuyacağam.

Çobanın ağzından söz qurtarmamış dağ yarılır, durnagözlü bir bulaq peyda olur. O, buz kimi sudan ovuclayıb içir, sürünü də sulayıb rahatlaşır. Yenidən göylərə üz çevirib deyir:

– Ey Allah, su üçün sağ ol. Ancaq qoyunların öz sahibi var, mənim deyil ki, götürüm qurbanı kəsim. Özüm də günün istisindən bərk yorulmuşam, tütək çalıb vəsfini edə bilmərəm, molla da deyiləm ki, sənə dua oxuyum. Bir də nə üzünü görmüşəm, nə də səsini eşitmişəm, yerini də bilmirəm. Qoy səni kim görübsə, onlar da qurban kəssin, duanı oxusunlar.

Söz tamam olan kimi qəfildən gurultu qopur. Bulaqdan ötrü yarılmış dağ yenidən qovuşur. Bulaq da bu dağın arasında yoxa çıxır. Onun yerindən od püskürür. Bu od qoyunları yandırıb külə döndərir, çobanı qurudub qaxac edir. Çobanın əlindəki çomaq, ağzındakı tütək isə dik qayaya çevrilir.

Deyirlər, o gündən bu qaya "Tütək qaya" adlanıb. Gecə-gündüz "Tütək qaya"nın iniltisi kəsilmir.

Cavanşir Ata günbəzinin üstü tağbəndiydi, içinə daş döşənmişdi. Deyirdilər, kim gedib ordan bir daş gətirsə, dövlətli olar. Babam Kalbayı Mehdi gedib ordan bir daş gətirir. Gecə yuxuda görür ki, Cavanşir Ata deyir: "Kalbayı, mənim daşımı niyə gətiribsən? Apar qoy yerinə. Aparmasan, əvəzində oğlunu əlindən alacam".

Babam daşı aparıb yerinə qoymur. Günorta oğlu ölür. Ondan sonra "tobalatma" deyib, aparıb daşı qoyur yerinə.

Bir qız varmış. Bu qızı Arazın o tayından bir xan öz oğluna almaq istəyirmiş. Xan neçə dəfə elçi yollayır, qızın "hə"sini ala bilmir. Xan xəbər göndərir ki, qızı xoşluqla verməsəniz, gəlib zorla alacam.

Qızın qardaşları bir qala tikdirirlər. Neçə ilin azuqəsini yığıb, yerin altıyla su çəkdirib, qalada yaşamağa başlayırlar. Xan qoşun çəkib gəlir, nə qədər eləyir, qalanı tuta bilmir. Bir qoca, xana deyir ki, odunun yolunu, suyun yolunu kəssən, qalanı ala bilərsən.

Xan qalanın odun yolunu kəsir. Qızın qardaşları odun yerinə tüfəngin qundağını yandırırlar.

Xan nə qədər eləyir, qalanın su yolunu tapa bilmir. Qoca deyir:

– Gedin bir qatıra o ki var arpa yedizdirin, amma su verməyin. Aparın qalanın dörd bir yanını dolandırın, qatır harda ayağını yerə döysə – su yolu ordadı.

Elə də eləyirlər; qatır ayağını döyən yeri qazıb, qalanın suyunu kəsirlər, qızı götürüb aparırlar.

Qatır qalası o vaxtdan qalmalıdır. Bu qalaya Qız qalası da deyirlər.

Qədim əyyamlarda bir gəlin varmış. Özü də hamilə imiş. Bir gün yolu dağlardan düşür. Baxıb görür ki, iki çoban sürü otarır. Sürünün də nə ucu var, nə bucağı. Yaz vaxtı göy otlardan yeyib oynaşan əmlikləri görən hamilə qadının ürəyi əmlik əti istəyir. Nə qədər özünü ələ alırsa, bacarmır. Əlacsız qalıb üzünü çobana tutub deyir:

– Qardaş, Allah varını bol eləsin, süründən quzularını əskik eləməsin. Ürəyim əmlik əti istədi. Day nə edim, özümlə bacarmadım.

Çobanlardan biri irəli yeriyib acıqlı-acıqlı dedi:

– Ürəyin əmlik əti istəyir? Nə olar. Otur, bu saat qardaşın sənə əmlik əti verər.

Gəlin sevinə-sevinə göy otun üstündə oturub gözləməyə başladı.

Həmin çoban el adamlarından döyüldü. Onda insaf deyilən şey nə gəzirdi? Tez küçüklərdən birini xəlvətcə kəsdi. Ocaq çatıb küçüyü başladı qızartmağa. Onun bu işini görən yoldaşı dodağını gəmirə-gəmirə ocağa yaxınlaşdı. Dedi:

– Sən sürüyə baş çək, əmliyi özüm bişirərəm.

Çoban qalxıb sürünü geri qaytarmağa yollandı. O, aralanan kimi o biri çoban əmliyin birini boğazladı, dərisini soyub ocağa tutdu. Küçüyü aparıb daldada tulladı. Əmlik bişən kimi hörmətlə gətirib gəlinə verdi. Gəlin əmlik ətini iştahayla yeyib alqış elədi, sonra da yoluna düzəldi.

Çoban süfrəni yığışdırdı, ha gözlədi, yoldaşı gəlib çıxmadı. Gedim, görüm nə olub, deyə yoldaşının dalınca yollandı. Gəlib gördü ki, yoldaşı çiynində çomaq daşa çönüb.

Ağ zərət deyilən yerdə zağalar, otağa bənzər yerlər var. Keçmişlərdə buraya Yaycı elinin adamları pənah gətirərmişlər. Onlar arvad-uşaqları ilə zağalarda yaşayar, özlərini düşmənlərdən qoruyarlarmış. Gündüzlər hamı çöl işlərinə gedər, əkin-biçinlə məşğul olar, axşamlar zağalara yığışıb gecəni keçirərmişlər.

Günlərin bir günü Yaycı elinin adamlarının harada gizləndiyindən xəbər tutan düşmənlər oraya hücuma keçirlər. Qanlı döyüş başlanır. Lakin düşmən tərəf çox imiş. Yaycı elinin igidləri məğlub olur. Qırılan qırılır, sağ qalanlar uşaqların, südəmər körpələrin, qız-gəlinlərin ələ keçməməsi üçün Allaha yalvarırlar ki, onları daş eləsin. Onların arzuları yerinə yetir, sağ qalanların hamısı daşa dönür. Düşmən adamları zağalara girib insan deyilən məxluqdan əsər-əlamət görmürlər. Hər tərəfdə daş adamlarla rastlaşırlar.

Burada bir böyük daş var. Daş dalında uşaq olan bir gəlindi. Buraya gələnlər niyyətlərinin baş tutub-tutmayacağını bilmək üçün xırda daşlardan götürüb gəlin-daşın başına atarlar. Daş orada qalarsa, deməli, həmin adam da arzusuna çatacaqdı.

Dağyunusun zülmündən qaçan adamlara bir çoban da qoşulubmuş. Onlar az gedirlər, çox gedirlər, bir də görürlər ki, çobanın iti də onların dalınca düşüb gəlir. Başlayırlar iti qovmağa. Nə qədər çalışırlarsa, it qayıtmır ki, qayıtmır. Onda çoban itin bir qıçını qırır. Arxayın olub yollarına davam edirlər. Elə azacıq gedirlər, səs eşidib dönüb arxaya baxırlar. Görürlər ki, çobanın iti zingildəyə-zingildəyə, sürünə-sürünə onların dalınca gəlir. Əlacları kəsilib iti öldürməyi qərara alırlar. İt dil açıb deyir:

– Məni niyə öldürürsünüz, mən də Dağyunusun zülmündən qaçıram.

Amma çoban itin yalvarışlarına baxmayıb onu öldürür. Yamacda basdırıb çomağını da qəbrin üstünə sancır.

Deyirlər çomaq günü-gündən boy verib yaşıllaşır. Az keçmir ki, çomaq əməlli-başlı ağac olur.

El arasında Qıtmır adlanan bu ağac indi ziyarət sayılır.

Belə deyirlər ki, keçmişdə Ordubadın Nüsnüs kəndində gözəlliyilə aləmə səs salan sərv boylu yoxsul bir qız var imiş. Qızın qumral gözləri, qapqara uzun saçları çox cavanların canına od salıbmış. Yaxından, uzaqdan qıza tez-tez elçilər gəlirmiş. Ancaq gələnlərdən qızın ürəyinə yatanı olmadığından heç kimə razılıq vermirmiş.

Bir gün varlı bir bəy qızın gözəlliyini görüb ona elçi göndərir. Qız ona da razılıq vermir. Bundan qəzəblənən bəy and içir ki, o qızı ya zorla alacaq, ya da ona elə bir divan tutacaq ki, ölüncə dadı damağından getməsin. Bəy nökər-nayıbını da başına yığıb kəndə gəlir. Bu xəbəri eşidən qız baş götürüb dağlara qaçır. Bəy də adamlarıyla qızın arxasınca dağlara gedir. Qızı tuta bilməyəcəyini görən bəy, ox atıb onu ağır yaralayır.

Çox qan itirib taqətdən düşən qız Nüsnüsün başı üstündəki dağda bir anlığa dayanır, yarpaq kimi saralan üzünü sonsuz göylərə tutub Allahdan aman istəyir. Zavallı qız azğın bəylə onun adamlarının gözləri önündə "Yalqız ağac"a dönür.

Sonralar camaat uzun müddət "Yalqız ağac"a sitayiş etmişdir. Altında tonqal qalamış, qurban kəsmişlər.

Öz qəmli görkəmiylə adamı heyrətdə qoyan "Yalqız ağac" nə quruyur, nə böyüyür, nə də solur. Həmişəyaşıl qalır. Onun yarpağını qoparmaq, budaqlarını kəsmək, sındırmaq olmaz. Guya "Yalqız ağac"ın yarpağını, ya da budağını qırsan, həmən yerdən qan axar.

Belə danışırlar ki, Əlincə qalasından bir qədər aralıda indi xarabalıqları qalan Məzrə kəndindən Altun adlı bir oğlanla Berdi kəndindən Zeynəb adlı bir qızın toyları imiş. Qəflətən Teymurləng güclü qoşunla Məzrəyə hücum edib, camaatı qılıncdan keçirir. Bunu görən Altunla Zeynəb əyinlərinə polad don geyir, qılınc-qalxan götürüb iki yüz nəfərlik bir dəstəylə Teymurləngin qoşununa qarşı

vuruşurlar. Teymurləngin qoşunu sayca çox üstün olduğundan Altunla Zeynəb öz dəstələrini də götürüb gizli yolla Əlincə qalasına çəkilirlər.

Teymurləng uzun müddət Əlincə qalasını mühasirədə saxlayır. Qalanı ala bilməyəcəyini başa düşən Teymurləng and içir ki, qalanı ala bilməsə də, qaladakı döyüşçüləri acından qırmayınca çəkilib getməyəcək.

Teymurləngin niyyətindən xəbər tutan müdafiəçilər Altunun göstərişiylə qaladakı əhəngdaşını un halına salıb, qalanın sağ tərəfindəki sıldırım qayadan aşağı tökürlər.

İşi belə görən Teymurləng pərt olur. Sərkərdələrinə deyir ki, bunların çörək ehtiyatı çoxdur. İnnən belə yüz il də saxlasaq, yenə təslim olmayacaqlar. Teymurləng kor-peşman qaladan çəkilib gedir.

Rəvayətə görə, həmin vaxtdan qaladan aşağı tökülən əhəngdaşının izi hələ də qalanın daşları üzərində qalmaqdadır.

Belə deyirlər ki, Teymurləng Əlincə qalasından çəkilib gedəndən sonra Altun, qalanın müdafiəsini kiçik bir dəstəyə tapşırıb, Zeynəbi də öz kəndləri Berdiyə göndərir. Özü başının dəstəsilə Azərbaycanın hansı qalasınasa köməyə gedir.

Altunun Əlincə qalasından getmək xəbərini alan Teymurləng qayıdıb yenidən qalanı mühasirəyə alır. Nə qədər çalışırsa qalanı ələ keçirə bilmir. Necə olursa, Teymurləng Zeynəbin Berdi kəndində olduğunu öyrənir. Fürsəti əldən verməyib Berdi kəndinə hücum çəkir. Berdini dağıdır, viran qoyur. Düşmənə qarşı kişi kimi vuruşan Zeynəb özünü yaxındakı gölün kənarına çatdırır. Ağır bir daşı özünə bağlayıb, gölə atılır. Teymurləng boğulub ölən bu mərd qızın hünərinə, cəsarətinə heyran qalır. Zeynəbi diri tuta bilməməyinə heyifsilənir.

El içərisində indi də həmin gölə "Zeynəb gölü" deyirlər.

Arpaçay vadisində iki tayfa yaşayırmış. Bu tayfalar həmişə torpaq üstə dava salarmış. Bunlardan biri Muğanlı tayfası, o biri də

Aranlı tayfası adlanırmış. Muğanlı tayfa başçısının igid bir oğlu, Aranlı başçısının gözəl bir qızı varmış. Bir günləri oğlan bu tayfadan, qız da o tayfadan çayın qırağına yenirlər. Uzaqdan-uzağa bir könüldən min könülə bir-birinə aşiq olurlar. Oğlan çayı üzüb qızın yanına keçir. Görüşürlər, bir-birinə könül verib, əhd-peyman bağlayırlar. Heç kəs bilməsin deyə hər gün gecə görüşməyi qərarlaşdırırlar. Şərtləşirlər ki, görüşdən qabaq oğlan o tayda Qaratəpə dağında tonqal qalamalıdı, qız da bu tayda. Aralarında söz kəsirlər ki, kim əhdə vəfasız çıxsa özün tonqalda yandırsın.

Bu yolda onlar çox görüşürlər. Bir gün oğlan tonqal qalayıb gözləyir. Görür o tayda tonqal yanmır. İkinci gecə də belə keçir. Üçüncü gün oğlan qızın toyu olduğunu eşidir. Anlayır ki, sevgilisi əhdinə vəfasız çıxıb. Gen dünya oğlana dar gəlir. Fikirləşir ki, bundan sonra onun yaşamağı nə yaşamaqdı. Özünü qaladığı tonqala atır. Amma vəfasız olmadığından odda yanmır. Ağ bir daşa dönür.

Deyilənə görə, o vaxtdan el arasında bura Oğlanqala, qızın yaşadığı yer də Qızqala adlanır. Camaat indi də Axır çərşənbədə Ağ daşda od qalayır, oranı müqəddəs yer kimi tanıyır.

Rəvayətə görə, bir kişi çuxur bir yerdə şum edirmiş. Özü də, öküzləri də susayır. Kişi şum edə bilmir. Əl qaldırıb Tanrıya yalvarır ki, buradan su çıxartsın, əvəzində bir qurban kəsəcək.

Belə də olur. Burdan bir bulaq çıxır. Kişi özü, sonra da öküzləri sudan doyunca içirlər. Amma kişi vədinə xilaf çıxır. İkinci il kişi yenə oranı şumlayırmış. Birdən çuxurdakı su elə gur çağlayır ki, kişi öküzləriylə yerə batır. Üstündə də böyük bir göl yaranır. El-oba da adına “Qanlı göl” deyir.

Keçmişdə düşmən hücum edəndə qız-gəlini əlçatmaz, ünyetməz uca bir dağın başına yığarmışlar.

Günlərin birində düşmən yenə hücum edəndə qırx incəbel qızı dağın başına çıxarırlar. Aşağıda qızğın döyüş gedirdi. Atların kişnərtisindən, yaralıların iniltisindən qulaq batırdı. Savaş neçə gün,

neçə gecə davam elədi. Düşmən güc gəldi, elin varı yağmalandı, növbə qızlara çatdı. Qızlarla düşmən arasında bircə addım qalmışdı. Qırx qız əlini göyə qaldırıb Tanrıdan mərhəmət diləyərək dedi:

– Ey ulu Tanrı, bizi düşmənə qismət edincə ya daşa, ya da quşa döndər.

Dua qurtaran kimi qırx incəbel qız kəkliyə çevrilir. Ancaq uçmaq cəhdi uğursuz olur. Qırx yağı əlini uzadıb onların ayaqlarından yapışıb pərvazlanmağa qoymur. Qırx xınalı kəklik Tanrıya yalvarıb:

– Ey Tanrı, sən bizi quşa çevirdin, bəs niyə düşmən əlində əsir-yesir elədin?

Elə bu zaman kəkliklərin ayağından yapışmış yağılar kərtənkələyə çevrilirlər. Onların əl izləri isə kəkliklərin ayağında qalır.

Deyirlər ki, o vaxtdan həmin yer Qırxlar adlanır.

Belə danışırlar ki, Topal Teymurun oğlu Miranşah Əlincə qalasına hücum edəndə ətrafdakı kətdərə də olmasın zülm edir, onlardan ağlasığmaz xəraclar istəyir. O, öz carçılarını kətdərə göndərib car çəkdirir ki, əlincəlilərlə dilbir-əlbir olan adamlara divan tutacaq.

Carçılar dəvəyə minib kətdərə, obalara gedir, car çəkməyə başlayırlar. Bir gün də bı carçılardan biri Muğan kəndinə gedir. Camaata hədə-qorxu gələ-gələ car çəkir:

– Əlincəlilərə kömək edən dünya üzünə həsrət qalacaq.

– Əlincəlilərə kömək edən çaya atılacaq.

– Əlincəlilərə kömək edənlərin kəndi viran qalacaq...

Carçının bı hay-küyünü eşidən kənd camaatı qəzəblənib Miranşaha söyüşlər yağdırıb carçıları dəvənin üstündən yerə salıb boğur. Sonra da ölüsünü dəvəyə sarıyıb Miranşaha göndərirlər. Bı hərəkət Miranşaha çox ağır gəlir. O, bı təhqirə dözə bilməyib Muğan kəndinə qoşun çəkir. Kənt camahatı Miranşahın qoşununa qarşı çıxır. Bərk vırışma olur. Muğanlıların çoxusu ölür. Qanlı vırışmadan qorxuya düşən arvad-uşağın bağrı çatlayır. Bı qısasdan da Miranşahın ürəyi soyumur. O, bütün kənt camahatına ölüm hökmü verir. Sərkərdələrdən biri məsləhət görür ki, adamları qılıncdan keçirsinlər. Miranşah qəzəblə qışqırır:

– Carçıboğanları boğmaq lazımdı.

Vırışdan sağ qalmış beş-üç kəntlini də Miranşahın buyruğuynan boğub Arpaçaya atırlar.

Elə o vaxtdan Muğan kəndinin adı Carçıboğan qalır. Kəndin indiki adı Çərçiboğandı.

Deyirlər ki, qədim zamanlarda yer üzündə iki dev varımış. Bu devlərin biri Məğribdə, o birisi Məşriqdə yaşayırmış. Bunlar qolda-qüvvətdə bir-birindən geri qalmazmış. Hər ikisi öz igidliyindən dəm vurub "mənəm-mənəm" deyərmiş.

Onlar bir-birinin haqqında çox eşidibmiş, amma heç vaxt görüşməyiblərmiş. "İki qoçun başı bir qazanda qaynamaz!" – deyib, Naxçıvanda görüşmək qərarına gəlirlər.

Uzun səfərdən sonra onlar Naxçıvanda üz-üzə durub vuruşmağa başlayırlar. Vuruşları çox çəkir, heç biri üstün gələmmir. Bu minvalnan xeyli vuruşurlar, di gəl bir şey çıxmır.

Devlər qurşaq tuturlar, genə bir-birini yıxammırlar. Axırda toppuz vuruşuna keçirlər. Sən demə, bu devlərdən biri qadınmış, o biri kişi. Amma bu məsələdən kişi devin xəbəri yoxuymuş. Toppuz vuruşu da çox bərk gedir. Birinci, ikinci vuruşda toppuzlar göydə çox toqquşur. Üçüncü vuruşda toppuzu bir-birinin başına endirə bilirlər. Qadın devin toppuzu kişi devin başın haçalayır, kişi devin toppuzu da nə təhər bərk dəyirsə, qadın dev uşaq salmalı olur. Həm də zərbələrini bərk vurduqlarından bir-birindən aralı düşürlər. Kişi dev öz əməlindən peşman olur, yaralı-yaralı başını qaldırır ki, qadın devi görsün, amma qadın dev çox aralı düşmüşmüş.

Devlərin vuruşu göylərə xoş getmir. Hər iki devi Tanrı daşa döndərir. Üstündən xeyli keçəndən sonra devlər iki dağa dönüb aralıdan bir-birinə baxırlar.

O vaxtdan kişi dev "Haça dağ", qadın dev isə "Ağrı dağ" adıyla tanınır. Ağrı dağın yanında balası da var.

Qədim zamanlarda İran hökmdarı öz kəndlərindən əlavə, Naxçıvan ətrafındakı kəndlərdən də vergi alarmış. Günlərin bir günü

hökmdar öz adamlarını ucqar kəndlərdən birinə göndərib deyir ki, İran ayğırları Tehranda kişnəyib, onların atları quluna qalıblar. Həmin qulunları versinlər.

Kənd camaatı hökmdarın əlindən cana doymuşmuş. Ona görə vergi verməkdən boyun qaçırırlar. Şahın adamları çox çək-çevirdən sonra deyirlər:

– Sözünüzü hökmdara özünüz deyin.

Kəndin camaatından bir dəstə ayrılıb İrana gedir. Hökmdarın sarayına bir günlük yol qalanda dəstə başçısı yoldaşlarına əmr edir ki, qabağınıza çıxan itləri vurub öldürün. Sözü bir yerə qoyub harda it görürlərsə, öldürürlər. Xəbər hökmdara çatır. O, həmin adamları yanına çağırtdırıb itləri öldürmələrinin səbəbini soruşur. Dəstə başçısı deyir:

– Şah sağ olsun, bu itlər sizin də, bizim də düşmənimizdir. Canavarlar qulunlu atlara hücum edəndə, bu itləri nə qədər harayladıqsa, köməyə gəlmədilər. Atların çoxunu canavarlar parçaladı, qalanı da qorxudan bala saldı.

Şah özündən çıxıb deyir:

– Ordan haraylamağı itlər haradan eşidərdi?

Dəstə başçısı istehza ilə şaha baxıb deyir:

– Şah sağ olsun, bəs İranda kişnəyən ayğırların Naxçıvanda qulunları necə olurdu?

Şah dəstə başçısının qorxmazlığını, hazırcavablığını görüb deyir:

– Bu gündən kəndinizin adını “İtqıran” qoyuram. Kəndliləri də vergidən azad edirəm.

Elə o vaxtdan həmin kəndin adına el arasında “İtqıran” kəndi deyirlər.

Uzaq keçmişdə Mis adında hökmdar, onun da Gümüş adlı vəziri var imiş. Gümüş vəzir olsa da, mərifətdə, etibarda hökmdarı geridə qoyardı.

Günlərin birində o, qapısının döyüldüyünü eşidir. Gələnin qonaq olduğunu öyrənib, onu içəri aparır, qabağına cürbəcür yeməklər düzdürür. Yeməkdən sonra aralarında şirin söhbət başlanır. Söhbət

əsnasında Gümüş qonağının qonşu Qızıl şah olduğunu, ov zamanı yol azıb bura gəldiyini eşidir.

Hökmdarı Misin Qızıla düşmən kəsildiyini, onun torpaqlarına göz dikdiyini bildiyindən narahat olmağa başlayır. Ancaq mətləbi açıb qonağa söyləyə bilmir. Çünki bu qonağı başdan etmək kimi başa düşülərdi. Ona görə də Gümüş nə olar-olar, deyib gözləməyə başlayır.

Deyərlər, yerin də qulağı var. Çuğul Qızılın vəzirə qonaq olduğunu Misə çatdırmışdı. Bundan sevinən hökmdar Gümüşü yanına çağırıb Qızılı ondan tələb edir.

Vəzir əyilib hökmdarın qarşısında torpağı öpüb cavab verir:

– Şah sağ olsun, düz iyirmi ildir ki, sənə qulluq edirəm. Bu günə qədər səndən heç nə istəməmişəm. İndi isə sənə yalvarıram, onu mənə bağışla, onu məndən istəmə.

Vəzirin yalvarışına məhəl qoymayan şah deyir: "Onu əldən ötürsəm, mənə səfeh deməzlərmi?! Sən də bir belə danışınca onu təslim etsəydin daha yaxşı olardı".

Şahın tələbi qarşısında vəzir özünü itirsə də, inadından dönməyib deyir:

– Hökmdar, babadan qonaq xətirli saxlanıb bu yerlərdə. Qonağa xəyanət edənin qapısına xalq tikan əkibdi. El adətini ayaqlayıb, qonağı təslim edə bilmərəm.

Mis vəzirin bu cavabından qəzəblənir, cəlladı çağırır. Sonuncu dəfə vəzirdən Qızılı tələb edir.

Deyirlər, ölüm qarşısında insanın dili çaşır. Ancaq vəzir çox cəsarətli çıxır, son sözlərini təmkinlə deyir:

– Hökmdar, mən sənin qarşında üzüağ xidmət etmişəm. Əgər günahkar övladımın başını istəsəydin, etiraz etməzdim. Görünür, bunlar əbəs imiş. Daha səndən heç bir təvəqqəm yoxdu. Öldür məni. Beş gün tez, beş gün gec. Onsuz da bir gün yaranan bir gün öləcəkdir.

Bundan sonra vəzir diz üstə çöküb, əllərini göylərə qaldırdı, ürəkdən gələn bir səslə dua etdi:

– Xudaya, məni öz dərgahına üzüağ apar!..

Gümüşün başsız qalmış ailəsi məsələdən hali olsalar da, qonağın yanında ah-nalə etməyib susmağı lazım bildilər. Qonağın ürə-

yinə xal salmağı, evin kişisini onun ucbatından itirdiklərini bildirmək istəmədilər.

"Cidanı çuvalda gizlətmək olmaz!". Qızıl da məsələdən hali olur. O, insan dəyanəti, qonağa ehtiram qarşısında özünü itirir. Başsız qoyduğu ailəni atıb getməyi şahlıq qüruruna, mənliyinə sığışdıra bilmir. Burda qaldıqca ailəyə fəlakət gətirdiyini də hiss edir. Vəziyyətdən çıxmaq üçün çarə axtarır. Nəhayət, bir gün əllərini göylərə tutub deyir:

– İlahi, mənim ucbatımdan bir ailəköməksiz, başsız qaldı. Bu dərdi çəkməkdən gül rəngim saralıb soldu. Sənə yalvarıram, elə et ki, başsız qoyduğum ailəyə təsəlli olum.

Söz ağzından qurtaran kimi o, qiymətli daş-qaşa çevrilir.

Səxavətdə atasına oxşayan Gümüşün oğlu bu daş-qaşdan ovuc-ovuc el-obaya paylayır. Sonra hökmdara xəbər yollayır ki, Qızılı bütün elin qarşısında ona təslim edəcəkdir.

Mis sevinib razılaşır. O, təbilləri çaldırıb bütün camaatı meydana topladır. Hər şeylə maraqlanan əyan arvadları qabaqda dayanır. Onlar intizarla Gümüşün oğlunun yolunu gözləyirlər.

Gümüşün oğlunun tək gəldiyini görən hökmdar qəzəblənir. Uca səslə soruşur:

– Bə Qızıl hanı?

– Görmürsən?

– Yox!

– Gözündə tor var, hökmdar! Gözlərini silib, əyan arvadlarının boyun-boğazına bax.

Mis bir şey başa düşməsə də, diqqətlə qadınlara baxmağa başladı.

Arvadlarına acgözlüklə baxan əyanların nifrət dolu baxışlarına rast gələn Misin rəngi qızarmağa başladı. Elə bu zaman Gümüşün oğlunun sonuncu mühakiməsini eşitdi:

– Görürsənmi, o, səxavətlə cavab verdiyi üçün bu hala düşüb. Təəccüblənmə, arvadlar səxavəti, etibarı boyunlarında gəzdirir. Bəs sənin mənliyin hanı?

Sonuncu sözü eşidən Misin hikkəsindən rəngi tutulub boğulur.

Deyilənə görə, o vaxtdan qızıl, gümüş, bir də mis rəngləri daşıdıqları hökmdarların adıyla çağırıldılar.

Qədim zamanlarda aranda yaşayan camaat yaylağa çıxarmış. Onlar yaxşı otlaqlar tapıb orada məskən salar, qoyun-quzularını saxlayarmışlar.

O vaxtlar əri davada ölmüş ağır külfətli bir ana da yaylağa köçür. Onun yeddi qızı, bir oğlu varıymış. Ana uşaqlarını başına yığıb dolanırmış.

Bir gün onların yaylaqdakı alaçıqlarına qəfil basqın olunur. Ana da, qızlar da düşmənə qarşı vuruşur. Qardaş balaca olduğundan yaxşı vuruşa bilmir, bacılarından aralı düşür. Qardaşlarını itirmiş qızlar axıracan mərdliklə döyüşürlər.

Düşmənlər qızları analarından ayırıb aparmaq istəyirlər. Ana çox hay-həşir salır, amma ağır yaralandığından yerindən tərpənə bilmir. Ananın yarasından tökülən qan göz yaşlarına qarışıb axır.

Qızlar düşmənə baş əymək istəmirlər.

Böyük bacı deyir:

– Namusu itə atıblar, it yeməyib. Öləcəyik, düşmənə əyilməyəcəyik. Bacılarım, mərd dayanın, tək qardaşımın, ağsaqqal anamın heyfini alaq. Elə eləyin ki, bir-birinizdən ayrı düşməyin.

Qızlar ölənəcən düşmənlə vuruşur. Namərd düşmən bınnarın yeddisini də yaralı qoyub gedir.

Qızlar bir-birinə kömək eləyəmmirlər. "Ana", "qardaş" deyədeyə, ah-nalə çəkib dağı-daşı dilə gətirirlər. Onnar göz yaşı axıdaaxıda ölürlər.

Rəvayətə görə, qızların qəm-qubar dolu göz yaşları dumduru bulaq suyuna çevrilib axır. O vaxtdan həmin göz yaşları bir-birinə qarışaraq axıb ananın göz yaşlarına qovuşur, haradasa itmiş qardaşlarını axtarırlar. İndi də yan-yana düzülüb dumduru göz yaşı kimi axan həmin bulaqlar el arasında "Yeddi bulaq" adıyla tanınır.

Belə deyirlər ki, keçmişlərdə Noraşen tərəfdə bir qadının uşağı olmurmuş. Kükü kəndinin yanındakı Vənk pirinə niyyət edir ki, əgər uşağı olsa gətirib orada od yandıracaq.

Həmin qadın bu niyyətlə bir boş beşik götürüb Vəng pirinə gəlir. Beşiyin içinə uşax əvəzinə daş qoyub başlayır yürgələməyə.

Gecə olduğundan elə bir əli beşikdə başlayır mürgüləməyə. Yuxusunda görür ki, bir qara çarşoylu qadın onu dala çəkib deyir:

– Qızım, bura niyə gəlmisən?

Qadın cavab verir ki, uşağım olmur, onun üçün gəlmişəm.

Qara çarşoylu qadın deyir:

– Daha qanını qaraltma. Qismətində var. Get sənə bir uşax verdim.

Qadın diksinif yuxudan ayılır. Boylanır. Ancax heş kimi görmür. Beşiyi dalına alıf içindəki daşla bərabər götürüf gecəynən evə qayıdır.

Deyirlər ki, həmin gündən qadın hamilə olur, vədə tamamında dünyaya bir uşax gətirir.

Rəvayətə görə bir çoban Göygölün ətrafındakı səfalı yaylaqda qoyun otarırmış. Sürüdəki qoyunların qoça gələn vaxtıymış. Amma çobanın qoçu yoxuymuş. Odur ki, Allahdan arzu edir ki, ona qoç yetirsin, qoyunları qısır qalmasın. Qarşıdan gələn il yaylağa gələndə gölün kənarında bir qurban kəssin. Bir az keçmir ki, yer-göy titrəyir. Göygöl bərk təlatümə gəlir. Göldən bir ağ, bir qara qoç çıxıb sürüyə qarışır. Az keçir, qoçlar qayıdıb suya girirlər. Çobanın sevinci yerə-göyə sığmır.

Vaxt gəlib çatanda sürüdəki qoyunların hamısı quzulayır. Heyvanların sayı birə-iki çoxalır. İl dolanır, yenə yaylaq vaxtı çatır. Çoban quzuları da analarının yanında sərin Göygöl yaylağına gətirir.

Bəli, bir gün sürü çəmənliyə yayılıb şirin-şirin otlayırdı. Çoban da həvəslə gah sürüyə, gah da Göygölə tamaşa edirdi. Birdən yadına düşdü ki, keçən ilki vədinə görə gölün kənarında qurban kəsməlidir.

Çoban sürüdəki heyvanlarına qıymadı. Yerdən bir həşərat tutub öldürüb dedi ki, bu da buranın qurbanı. Çoban bunu demişdi ki, yenə yer-göy titrədi. Göygöl təlatümə gəldi. Keçən ilki qoçlar göldən çıxdı. Bir göz qırpımında sürünü döşləyib gölə tökdü.

Çoban başına döyə-döyə qaldı. Dediyinə peşman oldu. İtini yanına salıb gölün qırağına gəldi, heç nə görmədi.

Deyilənə görə, çobanla iti o qədər durub baxdılar ki, şəkilləri həmişəlik düşüb suda qaldı.

Əndəmişdə bir kişi varıdı, İrza adında. Vırıp-tutan bir iyididi, çoxlu da düşmannarı varıdı. Bir gün bı İrza qalada gecəliyir. Gecə yarı görür ki, qapı döyüldü. Tez durup geyinir, beşatılanı götürüp gəlir qapıya, soruşur:

– Kimsən?

Qapını döyən deyir:

– Məni qonaq elə.

Deyir:

– Çəkil oyza açım qapını.

Aylı gecəymiş, İrza qapını açanda görür ki, qabağında bir bəd-heybət şey durur. Boy iki adam boyundadı, əlləri dizinə çatır. Təpəsində də bircə gözü var, düz alnının ortasında.

İrza bını gülləyə tutur, vırıp öldürür. Səhərisi gün hay düşür, hamı gedip Kəlləgözün ölüsünə baxır. Mən də getmişdim. Gözümnən gördüm onu.

Bir çoban axşam vaxdı sürünü gətirirmiş kəndə. Qəbrisdannıx-dan keçəndə görür ki, bir əcayib adam qəbri eşəliyir. Bı əcayibin iri bıynızdarı, uzun caynaxları varıydı.

Çoban mısır. Görür ki, bı əcayib qəbri söhdü, ölünü çıxartdı, söykədi baş daşına. Sora ölünün dabanınnan dişdədi, başdadı ordan qan axmağa. Əcayib qanı görən kimi xeyləh dala çəkilir. Çoban bilir ki, bı ölü əslində ölmüyüp, bını ölü sayıp basdırıplar. Bı əcayib də görüp ki, bı ölmüyüp, dala çəkilir ki, gəlip bıynızlarıynan vırıp onu öldürsün. Bı əcayib də Adamcıldı.

Çoban tez ölünü çəkip salıp yerə, kərəntini götürüp qoyup onun yerinə. Adamcıl qaça-qaça gəlip bıynız vıranda kərənti keçip bının xirtdəyinə, ölüp sərələnip yerə.

Bı dəmdə ölü zarıldıyıp ayılıp. Çoban soruşub ki, bə bı nə haq-hesabdı? O da deyip ki, yatmışdım, dabanım ağrıdı, durdum. Çoban kəndə qaçıp kişinin qahımlarına deyir. Hamı tökülüp gəlir. Görül-lər ki, Adamcılın uzun caynaxları, iri buynuzları var, bədəni də heyvan kimi tühlüdü. Bını yandırıllar. Basdırılan kişi indi də yaşa-yır, əmbə bir dabanın yerə basammır, axsıyır.

Hal nənəsi avrat kimidi. Boylu qadınnara zəfər toxuyur. Özüm görmüşəm. Təzəcə yatmışdım, evdə də heş kim yoxuydu. Bir də baxdım ki, evdə yaşıl tuman, qırmızı köynək geymiş bir avrat var. Çıxıp oturup səndığın üstündə. Mən qorxdum, pismillax deyip yanımdakı şişi götürdüm. Avrat dedi ki, qorxma, yanında dəmir var, özün də Allahın adın verdin. Mən sənə heş bir şey eləmiyəciyəm.

Bir az oturannan sora çıxıp getdi.

Bir çoban çayın qırağında oturup çörəh yeyirmiş. Bir də görür ki, daha çox heyvana oxşuyan iki adam gəlir: biri uşaxdı, biri arvat. Bilir ki, bınnar cindilər.

Bala cin ağlıyıp anasına deyir ki, acınnan ölürəm. Ana cin də deyir ki, birəz dözgünən, indi gedirəm kəndə, çobanın gəlini zahıdı. Gedip girəciyəm gəlinin xörəyinin içinə. Sora da gəlinin ciyərini çıxarıp gətirəciyəm, yeyəssən.

Çoban bını eşidip tez qaçır əvlərinə ki, gəlini oturup xörəh yeyir. Çoban keçip oturur gəlinin yanında. Xörəyi qaşığınan götürüp baxır, sora başdıyır gəlinə verməyə. Birdən görür ki, qaşıxda xırdaca bir tüh var. Tez bını götürüp yandırır. Elə o dəyqə qəribə bir səs eşidilir, qışqırtı gəlir, sora sakitdih olur.

Çoban gəlininə deyir ki, ta çörəyivi rahat ye, qorxu savışdı.

Mən nökəriydim. Bir gün yatmışdım. Qışıdı, qar da dizəcən yağmışdı. Bir də gördüm ki, it həyətdə bərk basır. Qapının deşiyindən baxdım ki, eşiydə bir avrat dayanıp titrəyir. Soruşdum ki, kimsən? Dedi ki, aç qapını, qalım bırda.

İsdiyirdim qapını açam, birdən yadıma düşdü ki, ağam deyip kim gəlir-gəlsin, qapını aşma, həm də bəxdim ki, bı avradın döşdəri çox uzundu. Mən qortdum, qapını aşmadım. O da çıxıp getdi.

Səhər durdum, gördüm ki, qarın üsdündə bının ləpirləri qalıp. Əddımının biri bırdadı, o biri iki metir oyızda. Lap qortdum.

Əxşam ağam gəldi. Əhfalatı danışdım. O dəyqə dedi ki, yaxşı eləmisən aşmamısan. O avrat deyil, hal avratıdı. Bırdan çıxıp gedip Aşağı Əylisə. Orada da bir kişi bının üsdünə iynə taxıp aparıp əvinə. İki-üç günə kimin toylarıdı, onnan əvlənir.

Bir kişi töyləyə gedir kin, mal-qaranın axşam alafını versin. Görüp kin, töylədə bir gözəl qız var. Tutub əlindən öyinə gətirir, özünə arvad eliyir. Sən demə bu, cin nəslinnən iymiş.

Aradan xeylax keçir, onların iki uşağı olur. Gənə gəlir kin, həmin kişinin anası ölür. Ölən vaxt töylədən tapılan arvad hoppanıb yük üstə qalxır, şaqqanaq çəkib gülür. Kişi camaatdan utanır, həm də arından bir söz dəyəmmir. Camaat dağılandan sonra kişi cumur arvadın üstünə kin, o nəydi başıma gətirdin? Arvad deyir kin, gəl daşı tök ətəyindən bu sirri soruşma. Yazıxsan, iki uşağın var, sonra peşman olarsan. Kişi əl çəkmir kin, əl çəkmir. Kişi nə biləydi kin, arvad cin nəslindənmiş. Axırda arvad görür kin, kişi əl çəkmir, açıb sirri deyir:

– Ay kişi, mən cinəm. Yük üstə ona görə çıxdım kin, Əzrayıl arvadın boğazına xəncər çəkəndə qan evi bürüdü. Qana bulaşmayım deyin yük üstə çıxdım, bunu siz görə bilməzdiniz, amma mən görürdüm. Ona görə güldüm ki, ananı basdırmağa aparanda onun dalınca bir tay çarıx gedirdi, bir də süpürgə. Çünki anan heç kimə yaxşılıq eləməyib. Yaxşılıq edib verdiyi bir tay çarıq idi, bir də bir süpürgə. O da dalına düşüb gedirdi. Bunu da siz görmədiniz. Ancaq mən gördüyümdən gülməyimi saxlaya bilmədim.

Arvad sözünü deyən kimi yox oldu. Kişinin də bir əli oldu, bir başı. Çünki arvad öydə olanda hər şey də bol idi, yox yerdən hər şey olurdu. Kişi düşüb hər yanı axtardı, amma arvadı tapa bilmədi.

Əxşəm vəxdi avrat başıaçıq eşiyə çıxsa Qurt Zalxa olar. Qurt Zalxanın donu varıymış. Gecələr onu başına atıp adam yeməyə gedirmiş. Qəyidip donu çıxaranda olurmuş adam.

Bir qadın şər vaxtı suya gedirmiş. Bir canavar özünün örtüyünü atır bu qadının üstünə, qadın qurd olub, qurdlara qarışır. Bir müddət qurdlarla gəzib-dolaşır.

Bir gün bu qadın çöldə qurdlarla bir atın üstünə düşür. Atın belində yara varıymış. Ağzı yaraya dəyəndə arvad diksinib ayılır, yenə dönüb olur qabaqkı adam, qayıdır evə.

Bir kəndə adamcıl dadanmışdı. Üç pəhləvan gecə cəvizə çıxıp bını güdüllər. Gecəyarısı görüllər ki, yaxınnıxda bir dana böyürür. Bəxillar ki, bir yekə adamcıl gəlip dananın böyrünnən ciyarını çıxarır. Gülləynən vırıllar, əncax dəymir. Adamcıl çıxıp gedir, bir də o kəndə gəlmir.

Xanın dikində bir arvad vardı, Şərəbanı adında. Bir yol gecə bı Şərəbanı həyətdə su qızdırıb çimirmiş. Ancaq gecə vaxdı arvad xəylağının eşiyə çıxması günahdı, mütləq ona bir sədəmə toxunar. Elə Şərəbanı çiməndə gözünə nəsə görünür, qorxub qaçır əvə. Qapıya çatar-çatmaz göydən başına canavar donu düşür. Bı arvad olur aj qurt, düşür şəhərin canına. Yeməyə heş nə tapammır, qəyidib gəlir əvə. Əri, uşaxları yatmışdı. Gəlir xırda uşağının çeçələ barmağını yeyir, görür ki, çox şirindi. Gedir yeddi para kət gəzir, əlinə bir şey keşmir. Gəlir xırda uşağını təmiz yeyir.

Səhərisi əri durur ki, xırda uşağı yeyiblər, arvadın da ağzı-bırnı qannıdı. Bilir ki, uşağı arvad yeyib. Durur arvadı salır ağacın altına, vır ki, vırasan. Şərəbanı birtəhər qaçıb gedir, camahat başlıyır ona Qurt Şərəbanı deməyə.

Qurt Şərəbanı düşür kətbəkət gəzir, neçə kətdən uşax oğurruyub yeyir. Bizim kəndə də gəlibmiş. Yayımış, əmimgil damın üstündə yatıblarmış. Qurt Şərəbanı əmoğlum Həbibi götürüb aparanda əmcanım bilir. Durub Qurt Şərəbanıynan tutaşır. Səs-küyə əvdəkilər, qonşular tökülür gəlir. Şərəbanı qaçır, ancaq əmoğlumun yanağın qoparıb yeyir. Ona görə də əmoğlum çapıx qalmışdı.

Düşüllər Qurt Şərəbanının dalına. Əmə heş kim ona çatammır. Elə yeyin gedirmiş ki, ta atnan qavalasan da tutammazmışsan. Qurt Şərəbanı bir gecədə yeddi kət gəzib qəyidirmiş şəhərə, bir xarabada gecəliyirmiş. Hərdən də gəlib evinə baş çəkirmiş, ancaq ərinin qorxusundan içəri girməzmiş.

Bir gün adamlar mısıb görüllər ki, Qurt Şərəbanı donun çıxardıb kəsəklərin arasında gizlətdi. Gizdincə bı donu götürüllər. Şərəbanı o saat bilir, başdıyır ağlıyıb yalvarmağa, qışqırıb qorxuzmağa ki, bə mənim donumu verin. Ancax vermillər, atıllar oda yanır. Şərəbanı özünnən gedir, sora ayılır, ta qurt olmur, heş vaxt uşax yemir.

Bir kişinin bir oğlu, bir də qızı varmış. Bu qız özünü çox ayar (yüngül) aparırmış, gəlib-gedənə göz-qaş atırmış.

Bir neçə vaxt keçir, kişi ölür. Bu qız başlayır adam yeməyə, Yeyir, yeyir, axırda kənddə adam qalmır. Oğlan görür bacısı bunu da yeyəcək, evdən baş götürüb qaçır. Görür yolun qırağında bir bağ var. Bağa girib bir torba şaftalı yığır. Bir az gedir, qabağına bir aslan, bir qurd, bir ayı, bir qaplan, bir də bir tülkü çıxır. Qoşulur bunlara, bir neçə vaxt heyvanlarla gəzib-dolanır. Bir gün oğlan deyir: Gedim görüm, bacım neyləyir? Bəlkə ta adam yeməkdən əl çəkib?! Gəlib çatır kəndə, atı salır tövləyə, girir evə. Bacısı bunu görən kimi sevinir, durub boynunu qucaqlayır, deyir:

– Nə yaxşı gəldin, neçə gündü acam.

Qız çıxır eşiyə, çox keçmir, qayıdır, deyir:

– Qardaş, atının bir qıçını yedim.

Oğlan gedib baxır, görür atın bir qıçı yoxdur. Bir az da keçir, gedib görür atın o biri qıçları da yoxdur, bacısına deyir:

– Get atın leşini də ye.

Gecə bacısı deyir:

– Qardaş, atın leşini də yedim, indi növbə sənindi. De görüm, ayağından başlayım, ya başından?

Oğlan deyir:

– Bacı, atın başı qalıb, get onu da ye, sonra məni yeyərsən.

Qız gedir tövləyə, Oğlan tez ayaqqabılarını çıxardıb, içinə duz doldurur, bir ip tapıb, bacadan sallanır. Bacısı gəlir, deyir:

– Atın başını da yedim.

Oğlan deyir:

– Neylək, indi də məni ye, ancaq ayaqlarımdan başla.

Qız ağzını atıb, oğlanın ayaqlarını dartışdıranda ayaqqabının içindəki duz tökülür bunun gözlərinə. Qız başlayır gözlərini ovuşdurmağa. Oğlan macal tapıb qaçır. Qız başlayır bunu qovmağa. Oğlan qaçır, qız qovur, oğlan qaçır, qız qovur. Oğlan görür daha nəfəsi çatmır, qabağına şaftalı ağacı çıxır, tez dırmaşır ağaca. (Oğlan evdən qaçanda bağdan yığdığı şaftalını yeyib, dənəsini tökmüşdü yerə, o dənələrdən də bu ağac bitmişdi). Oğlan baxır ki, bacısı çataçatdadır, başlayır qışqırmağa:

– Aslan hey, qaplan hey, qurd, ayı, tülkü hey, çat dadıma!

Aslan, qaplan, qurd, ayı, tülkü özünü yetirib, qızı parçalayır. Qızın bir damcı qanı düşür şaftalı yarpağının üstünə. Oğlanın ürəyi durmur, bu yarpağı götürüb qoyur cibinə. Bir az gedir, görür nəsə böyrünü yeməyə başlayıb. Yarpağı atır yerə, heyvanlar qanı yalayır.

Deyirlər bu heyvanlar elə o vaxtdan yırtıcı olub.

Kəndimizdə Nəsir kişi var, yaşı yüzü çoxdan keçib. Bir dəfə nağıl eliyirdi ki, bir yol bir kişiynən yoldaş olmuşdux. Kişinin ayağı dizdən aşağı kəsilmişdi. Soruşdum ki, ayağıva nolub?

Kişi dedi ki, mən dəvə saxlıyırdım. Bir yol bazarda nər məni hersdəndirdi, mən də onu döydüm. Demiyəsən, bı nər mənə başdıyır kin saxlamağa, elə fürsət gözdüyür ki, əvəz çıxsın. Bir yol dəvələri aparmışdım çölə. Çöldə də heş kim yoxuydu. Bir də gördüm ki, nər ağzı köpüklənə-köpüklənə cumdu üstümə. Başdadım qaşmağa. Nər az qalırdı mənə çatsın, bir adam da yoxuydu ki, mənə kömək eləsin. Ölümümü aldım gözümün altına. Ancax can şirin olar, gücüm yetdikcə qaçırdım, hər addımda da Allaha yalvarıb kömək isdiyirdim. Ta nəfəsim qalmamışdı qaçam, dizlərim bükülürdü. Gördüm ki, qabaxda kol-kos basmış bir çuxur var. Birtəhər özümü yetirdim çuxura, sərələndim kol-kosun üstünə. O dəyqə hiss elə-

dim ki, altında nəsə tərpəşdi. Balaca dikəlib baxdım, az qaldı dəli olam, bədənim buza döndü. Dörd-beş qəriş qabaxda bir əjdaha mənə baxırdı, başı pişik başı boyda, xırdaca da buynuzları vardı. Quyruğuynan bədəninin yarısı altımda qalmışdı.

Bı dəmdə nər özünü yetirdi. Qabax ölüm, dal ölüm. Əjdaha sürünüb altımnan çıxdı. Elə bircə onu dedim ki, Tanrım mənə mədəd! Ta dalını bilmədim. Huşum dağıldı, bayılıb yerdə qaldım.

Hannan-hana ayılanda yanımda nə əjdaha vardı, nə də nər. Dizdərim əsə-əsə birtəhər ayağa durdum. Əlli-altmış addım oyızda nər uzanılı qalmışdı. Qulağıma bir səs gəldi ki, çıx get, nərə baxma. Yan-yörəmə göz gəzdirdim, heş kimi görmədim. Fikirləşdim ki, gərək nərə yaxınnaşım. Gəldim nərin yanına, gördüm ki, nər həm qaralıb, həm də şişib. Əjdaha da heş yanda görsənmirdi. Ürəyimdə dedim ki, xudaya, kəramətinə min şükür, sən olmasaydın, bı qızıxmış murdar məni öldürəcəydi.

Bı fikirnən nərə təpik vırdım. Bir də gördüm ki, dizəcən ayağım girdi cəmdəyə. Tez çəkib çıxardım, bir üfunət yayıldı ki, az qaldı boğulam. Qaçıb ordan uzaxlaşdım, əmə ayağım bir ağrıyırdı ki, nəfəsim kəsilirdi. Ta gördüm ki, yeriyəmmirəm, ayağım qızarıb, yavaş-yavaş şişir. Qabaxdan iki-üç adam gəlirdi. Onnarı çağırıb özümnən getdim. Adamnardan bir qocası mənə baxan kimi deyir ki, gərək ayağı kəsilsin, yoxsa şiş bütün canına yayılacax, əti çürüyüb töküləcək.

Balta çıxarıb ayağımı dizdən kəsillər, yağlıqara eləyib dizimə basıllar. Xeyli sora ayıldım, ayağımı kəsilmiş görüb ağladım. Birdən əjdaha görünüb mənə dedi ki, bə sənə deməmişdim cəmdəyə baxma? Niyə sözümə qulax asmadın?

Gözlərimi silib bir də baxdım. Əjdaha-zad yoxuydu. Adamlar məni qəzilin üsdünə qoyub şəhərə aparırdılar. O vaxtdan da çolax qaldım.

Qağam Aşıx Ələhpər nağıl eliyirdi ki, erməni-müsəlman davasında Osmanlı qoşunu gəlmişdi kəndimizə. Əsgərlər iki-iki, üç-üç, paylaşmışdı əvlərə. Qoşunun böyükləri – Əli paşaynan Həsən çavış

düşmüşdü bizə. Gecələr gəldən-getdən danışardıx. Bir gün paşa öz başına gələn bir əhvalat danışdı.

– Neçə illər bınnan qabax alayımız Təbriz civarında durmuşdu. O vaxtı cavanıydım, orduya təzə gəlmişdim. Yaxşı qullux elədiyimə görə məni əvə buraxdılar. Bı arxadaşım Həsən çavışı da götürüb getdim əvə. Yolda bir yolçu da qoşuldu bizə. Axşamacan getdik, hava qaralanda bir qayalıxda gecələdik. Tüfənglər əlimizdə, badronnar belimizdə, yanaşı uzanıb yatmışdıx. Gecəyarısı ayılıb eşiyə çıxmax istədim. İki addım atmamışdım ki, yumşax, soyux bir şeyə toxundum. Hər nəyidisə, ətiydi. Bir az yana döndüm, gördüm ki, bu yan da elədi. Qorxdum, tez arxadaşlarımı durğuzdum. Qarannıxda heş nə görsənmirdi, gözdədik səhər açılsın.

Hava işıxlanar-işıxlanmaz qorxudan gözdərimiz bərəldi. Gördük ki, dirək yoğunnuğunda bir əjdaha bizi alıb çevrəyə, başını da qoyub quyruğunun üstünə yatıb. Pıçıldadım ki, üçümüz də birdən əjdahının başını tutax gülləyə. Yolçu qoymadı, dedi ki, əjdaha bizi öldürmək istəsəydi, ta mansırıya alıb səhərəcən gözdəməzdi. Bırda nəsə bir iş var, bir az gözdüyək.

Bı dəmdə əjdaha başını qalxızıb baxdı bizə. Sora quyruğunu dolandırıb açıldı. Qabağımızda uzun bir tir durmuşdu. Əjdaha bizə baxdı, baxdı sora yavaş-yavaş sürünüb getməyə başladı. Yolçu dedi ki, gəlin biz də dalınca gedək.

Düşdük əjdahanın dalına, xeyli gedib bir meşəyə tuş gəldik. Meşəynən gedib bir talıya çıxdıx. Əjdaha dayanıb bizə baxdı, sora qabağa sürünüb ucadan fısıldadı. Talanın oyızınnan da fısıltı eşidildi. Bir də gördük ki, bınnan da yekə bir əjdaha peyda oldu. Bınnar başdadı bir-birini didib parçalamağa. Hiss olunurdu ki, bizi gətirən əjdahanın o birinə gücü çatmır, tez-tez bizə baxırdı. Yolçu dedi ki, bı əjdaha bizi köməyə çağırır. Gecədən indiyə bizdən əl çəkməməyinin səbəbi də bıdı.

Mən dedim ki, gəlin elə ikisini də öldürək, Yolçu qoymadı, dedi ki, yox, Tanrıya xoş getməz. Bı əjdaha bizə pənah gətirib. Yəqin Tanrının hökmüdü. Gərək o birini öldürüb bını sağ buraxax.

Nəsə, fürsət tapıb o biri əjdahaya bir neçə qatar boşaltdıx. Gəbərib yerində qaldı. Bizi gətirən əjdaha çox yerdən yaralanmışdı,

parça-parça əti sallanırdı. Yavaş-yavaş sürünüb girdi meşiyə. Biz də "axırı nolur?" deyib düşdük onun dalına. Əjdaha gedir, hərdən, də dayanıb yaralı yerrərini bir ota sürtürdü. Fikir verib gördük ki, əjdaha hər dəfə eyni cür ota sürtünür, özü də sürtünəndə bizə baxır.

Yolçu dedi ki, bı otda hikmət var, gəlin biz də onnan yığax.

Otdan xeyli yığdıx. Bir az gedəndən sora düzənniyə çatdıx. Əjdaha dayandı, ta getmədi. Biz onu orda qoyub uzaxlaşdıx. Xeyli gedənnən sora yolçu bizdən aralandı. Biz də öz kəndimizə gəldik. Kənddə ağsaqqal, çox savadlı bir bilici vardı. Onun yanına gedib əhvalatı danışdım, otu göstərdim. Bilici baxan kimi dedi ki, bı ot bütün dərdlərin dərmanıdı. İllah da, ilan vıran adam bı otdan yesə o dəyqə sağalar. Yəqin ki, əjdaha onu bizə yaxşılığın əvəzi kimi veribdi...

Qonşuluqda yaşayan iki qarı varmış. Bu qarıların əməllərinə görə birinə İpək qarı, o birinə isə Köpək qarı deyirmişlər.

Günlərin bir günü İpək qarı görür ki, evinin eyvanına bir quş düşüb, uça bilmir. Qarı quşu götürüb baxır ki, quşun qanadı sınıb. Evə gətirib quşun qanadını sarıyır, yem, su verir. Quş sağalıncaya qədər evdə saxlayır. Gün gəlir ki, quş tamam sağalır, uçub getmək vədəsi gəlib çatır. Quş evin başına bir neçə dəfə dövrə vurub gəlir qonur qarının əlinə, bir toxum qoyub göyə qalxır. Qarı həmin toxumu basdırır, ona qulluq edir. Bu toxumdan böyük bir qovun əmələ gəlir. Qarı qovunu gətirir evə, kəsəndə görür ki, qovunun içi ağzınacan dolu ləl-cavahirat, qiymətli daş-qaşdı. O günnən İpək qarının gün-güzəranı yaxşılaşır. Qonşuluqdakı Köpək qarı bunu görür və gəlir İpək qarının yanına ki, hardandı səndə bu var-dövlət. İpək qarı hər şeyi olduğu kimi, danışır. O günnən Köpək qarını fikir alır, qonşusuna tuş gəlmiş qisməti gözləyir.

Bir gün görür ki, eyvana bir quş qonub. Bir ağac götürüb quşun qanadını sındırır. Sonra quşun qanadını sarıyır, onu bəsləyir. Bu quşun da sağaldığı gün gəlir. Uçub getmək məqamında quş Köpək qarının ovcuna bir toxum qoyur. Qarı sevincək toxumu basdırır, səbirsizliklə toxumun yetişməsini gözləyir.

Nağıl dili yüyrək olar, deyərlər. Günlər keçir, vaxt gəlir ki, bu qovun da yetişir. Köpək qarı sevinə-sevinə qovunu evinə gətirir. Ləl-cavahir, varlanmaq ehtirasıyla qovunu kəsir. Qarının tamahkarlıqla alışıb-yanan gözləri kəlləsinə çıxır, qorxudan dili tutulur. Qovunun içərisindən çıxan ilanlar qarını tas-tas eliyir.

Belə rəvayət edirlər ki, bir kənddə gözəl-göyçək bir qız varmış. O, kasıb bir kəndlinin qızıymış. Həmin kasıb kişi də qızını böyüdür, özünə bab bir kişinin oğluna nişanlayır. Özü də gözləyir ki, payız gəlsin, azdan-çoxdan yır-yığış eləyib qızını köçürsün.

Amma bu kəndin bir zalım katdası varmış. Katda biləndə ki, belə gözəl-göyçək qız kasıbın birinə gedir, heç özünə sığışdırmır. Götür-qoy eləyir ki, gərək belə bir qızı katda ala.

Günlərin bir günü qız bulaqdan su gətirəndə katda onu qaçırmaq istəyir. Qız onun əlindən çıxıb dağlara üz tutur. Ona görə Allaha yalvarıb deyir: “Bu zalım ağaya arvad olmaqdan, ölüm yaxşıdı”.

Əfsanəyə görə, Allah qızın yalvarışını eşidib onu daşa döndərir.

Qədim zamanlarda Fərhad adlı bir oğlan varmış. O, cüssəli, igid, mərd bir oğlanmış, həm də sənətkarmış. Gözəl şəkillər çəkər, heykəllər yonarmış. Adı-sanı hər tərəfə yayılıbmış. Uzaq ölkələrdən gəlib onu sarayları bəzəmək üçün aparırmışlar.

Fərhad sənətində kamil olduğu kimi, sözündə, məhəbbətində də dediyindən dönməzmiş. Günlərin birində Fərhad eşidir ki, Bərdədə Şirin adlı bir gözəl var. O, Şirini görmək üçün Bərdəyə üz tutur. Fərhad dostlarıyla Naxçıvan torpağından keçir, Şahbuzun sərin bulaqları, gur çayları Batabat dağları onu heyran qoyur. O, bir neçə gün burada qalır, bir gün üzünü yoldaşlarına tutub deyir:

– Mən bu yerlərə heyran olmuşam. Gərək bu gözəlliyə bir naxış vuram.

Fərhad külüngünü əlinə alır, uca dağlar qoynuna hücum çəkir. Az müddət içərisində qayalıqda bir ev düzəldir.

Fərhad işini qurtarıb Bərdəyə doğru yol alır. O vaxtdan Batabat yaylağında gecələyənlər həmin evin qonağı olur, Fərhadın sənəti qarşısında baş əyirlər.

İndi də Batabat yaylağında qalan həmin ev el arasında "Fərhad evi" adıyla tanınır.

Zalım bir atanın ağıllı-kamallı bir qızı var imiş. Kişi qızını döyüb incidirmiş. Qız bilmirmiş ki, atasının əlindən hara qaçsın.

Bir gün kişi qızını bulaqdan su gətirməyə göndərir. Qız səhəngi götürüb bulağa yollanır, geri qayıdanda yıxılır. Səhəng əlindən çıxıb dığırlanır, su yerə tökülür. Qız səhəngi çiyninə alıb yenə bulağa qaçır. Tələsik doldurub geri dönəndə görür ki, atası səbir etməyib başılovlu bulağa gəlir. Qız qorxusundan yerində quruyur, ayaqları yerimir, üzünü göylərə tutub aman istəyir: "İlahi, belə yaşamaqdansa məni döndərib daş elə". Sözü tamam olan kimi qız səhəng çiynində dönüb daş olur. Hamı o vaxtdan bu yerə Daş qız deyir.

Zalım bir padşah var imiş. Zülmü yerə-göyə sığmazmış. Bir gün padşaha xəbər gəlir ki, gözünün ağı-qarası bir oğlu yatağa düşüb can üstədi. Padşah hər yerə car çəkdirir ki, kim oğlumu ölümdən qurtarsa, ona nə istəsə verəcəm. Təbiblər, bilici adamlar oğlanın dərdindən baş aça bilmir. Padşahın hökmü ilə tutulub zindana salınırlar.

Bu əhvalatdan xəbər tutan yoxsul bir qarı padşahın yanına gəlib deyir:

– Oğlunu sağaldaram. Şərtim də budur ki, sən gərək zindana saldırdığın bütün adamları buraxasan.

Padşah razı olur. Qarı dava-dərman düzəldib iki günə oğlanı sağaldır. Padşaha muştuluq gedir ki, gözün aydın olsun, oğlun sağaldı. Padşah muştuluq gətirənə ənam verdirir. Amma zindandakı günahsız adamları buraxdırmır. Qarı bunu eşidib oğlanı əvvəlki vəziyyətə salır. Qarının cəsarəti padşahı bərk qəzəbləndirir, sərkərdələrinə əmr edir ki, böyük qoşunla qarını aparıb daş-qalaq eləsinlər.

Qarını şəhərin kənarına aparırlar. Hərə onun üstünə bir daş atır, böyük bir dağ əmələ gəlir. El arasında bu yerə Qarıdağ deyirlər.

Deyilənə görə, Lalə ağappaq bir qız imiş. Dərd, möhnət nə olduğunu bilməzmiş. O böyüyüb boya-başa çatır. Elçi ayaqlarının mübarək qədəmləri onların qapısını da açır.

Laləni ürəkdən sevdiyi bir oğlana nişanlayırlar. O sevincini mahnılarla bölüşdürür. Vaxt çatır, Laləyə toy edirlər. Günlər ötdükcə Lalə daha gözəl olur.

Bir gün hökmdar şəhərin adamlarını mübarizəyə aparır. Ayrılarkən əri Laləyə deyir:

– İnşallah, baharda görüşərik.

Lalə çox darıxır. O, "Pis günün ömrü az olar", – deyib, baharı gözləyir. Aylar ötür, qar əriyir, bahar nəfəsi duyulur. Lalə ərini yol kənarında, düzənliklərdə, dağ döşündə qarşılamaq üçün al qırmızı paltarını geyinib onu gözləyir...

Lalə baharın ortalarına kimi dözür. Ərindən bir xəbər gəlmir. Lalə göz yaşları axıdır. Dərd əlindən onun bağrı qaralır. Ərinin gəlmədiyini görən Lalə Tanrıdan ölüm diləyir. Tanrı Laləni qıpqırmızı paltarındaca gülə döndərir. O, çox təmiz, pak qız olduğuna görə qırmızı paltarı içərisindən bağrının qaraldığı bilinir.

O vaxtdan bağrı qara Lalə hər il yaz çağında yol kənarına, düzənliklərə, dağ döşlərinə çıxaraq hələ də sevgilisinin yolunu gözləyir.

Saranın gözəlliyi bütün el-obaya yayılmışdı. Obanın cavanları günün çoxunu Saragilin evlərinin həndəvərində gəzirmişlər ki, onun ayüzlü camalını heç olmasa bircə dəfə də olsa görə bilsinlər.

Saranı çoxları istəyirdi. Ələlxüsus cilovdar Mahmud. Cilovdar Mahmud nə yolla olursa olsun, Saranı alıb aparmaq istəyirdi. Ancaq qızın könlü xalaoğlusu Xançobana bağlanmışdı.

Qızın yaşı on beşə çatanda razılığını Xançobanın elçilərinə verdilər. O gündən hər iki tərəf toy tədarükü görməyə başladı. Xançobangilin evləri Arpaçayın sağında, Saragilinki solunda idi. Vədə

yetişdi, üç gün-üç gecə toy çaldırdılar. Saranı bəzəyib ata mindirdilər Xançobangilə aparmağa. Gətirdilər Arpaçayın kənarına.

Arpaçayın hər iki tərəfi adamla dolu idi. Hamı dayanıb Saranın çayın o tərəfinə necə keçəcəyinə tamaşa edirdi. Cilovdar Mahmud da bir tərəfdə dayanıb onlara baxırdı. Atı çaydan keçirmək vaxtı çatanda cilovdar Mahmud dərhal düşündü: "Saranı qaçırmağın məqamıdı!" Odu ki, cəld irəli çıxıb dedi:

– Ay camaat, əhd eləmişəm. Dostum Xançobanın gəlinini çaydan mən keçirəcəm. Odu ey, Xançoban o tayda dayanıb bizi gözləyir.

Camaat bir ağızdan:

– Nə olar, əhd eləmisən, buyur, əhdinə əməl elə, – dedi.

Cilovdar Mahmud bir göz qırpımında irəli cumub atın yüyənindən tutdu. Onu o saat çaya tərəf dartdı.

Sara cilovdar Mahmudun fikrini başa düşdü. Özünü atdan yerə tullamaq istədi. Ancaq, artıq gec idi. At çaya girmişdi. Sara çıxış yolu tapmayıb üzünü göyə tutub dedi:

– Məni bu rüsvayçılıqdan xilas elə, ey Tanrım!

Elə bil Tanrı Saranın xitabını gözləyirmiş. Bir anda qasırğa yaratdı. Yer-göy bir-birinə qarışdı. Arpa çayı təlatümə gəldi. Coşdu-daşdı, güclü sel yaratdı. Daşqın-sel Saranı bir göz qırpımında ağuşuna alıb apardı. Saranın anası fəryad qaldırdı:

Arpa çayı aşdı-daşdı,
Sel Saranı aldı qaşdı.
Sara gözəl, qələm qaşdı,
Apardı sellər Saranı.

Arpa çayı onu aldı,
Aparıb dəryaya saldı.
Cilovdarı dalda qaldı,
Apardı sellər Saranı.

O yan qumdu – bu yan qumdu,
Sara atdan düşcək cumdu,
Cilovdar gözünü yumdu,
Apardı sellər Saranı.

Qırx adamla çıxdıq düzə,
Sarğı başmaq göldə üzə.
Bıçaq batsın yaman gözə
Apardı sellər Saranı.

Arpa çay dibdən qurusun,
Kökünə balta vurulsun.
Cilovdar, əlin qurusun
Apardı sellər Saranı.

Düyünü tökdüm qazana
Qaldı uzana-uzana.
Qismətmiş qəbir qazana
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Səməndər quşu Qaf dağının əl çatmayan, ün yetməyən bir yerində yuva qurub. Özünün də ildə cəmi-cümlətanı bircə dənə yumurtası olur. Gözləyir, yetirir, vədə tamamında bir bala çıxır. Səməndər quşu balasını yemləyib bəsləyir, ətə-qana doldurur. Vaxt o vaxt olur ki, çevikləşmiş balaya uçmaq öyrətməyin məqamı yetişir.

Bir iş də var ki, Səməndər quşunun ayaqlarıynan dimdiyi çaxmaq daşındandı. Gərək uçanda nə ayaqları bir-birinə toxunmaya, nə də dimdiyini ayaqlarına vurmaya. Yoxsa çaxmaq daşından qığılcım çıxar, həmən qığılcım da Səməndərin qu tükündən də yumşaq tüklərini alışdırar. Səməndər quşu hər dəfə uçurtmazdan qabaq balasına dönüb-dönüb eşitdirir ki, bax ha, nəbada uçanda ayaqlarını bir-birinə toxundurasan, dimdiyini ayağına vurasan! Balası onu arxayın eləyir ki, qorxmasın, toxundurmayacaq. Amma bala Səməndər göy üzünə qalxandan sonra süzüb uçmağından elə söyüncək olur ki, özü də bilmədən ayaqlarını bir-birinə çırpır. Çırpındığından da göy üzündə bir şimşək görünüb yoxa çıxır. Demə, ayağından qopan qığılcım bala Səməndəri yandırıb külə döndərir.

Bu minvalnan ana Səməndər Qaf dağında hər il yumurta qoyub bala çıxardır, di gəl axırda balası yanıb kül olur. Balası qalmır deyin

Səməndər quşu artıb çoxalmır, onçun da o, bircə dənədi. Deyillər ki, hər dəfə balası yanıb külə döndüyündən Səməndər quşu harda od-yaloy görsə elə bilir ki, balasıdı. Ona görə də o, həmişə oda-yaloya doğru can atır...

Qədim zamanlarda bir kişi yer şumlayırmış. Bir gün o, şumda qıçı qırılmış bir quş tapır. Qocanın ona yazığı gəlir. Quşu evə aparıb sağaldır. Sonra da quşu havaya buraxır. Quş xeyli müddətdən sonra ağzında bir neçə toxum gətirib qocaya deyir:

– Bu toxumları əkərsən.

Qoca həmin toxumları əkir. Bir müddətdən sonra qoca əkinə baş çəkməyə gəlir. O, gözlərinə inanmır, görür ki, ləklərdə çoxlu qarpız bitib. Qoca indiyə qədər bu böyüklükdə qarpız görməmişdi.

Qoca fikirləşir ki, bu qədər qarpızı padşahdan gizli satıb sova bilməyəcək. Ona görə qarpızlardan birini zülmkar padşaha hədiyyə aparır. Padşah qarpızı kəsəndə onun içindən qızıl tökülür. Hamı bu işə mat qalır. Padşah qocanı yanına çağırıb deyir:

– Bu sirdən məni agah elə.

Qoca quş əhvalatını başdan-ayağa nəql eləyir.

Padşah bunu eşidən kimi əmr edir: “O quşu tutub gətirin”.

Quşu tutub padşaha gətirirlər. Padşah onun qıçını sındırıb təzədən sağaldır. Sonra qıçına bir üzük keçirib onu havaya buraxır.

Bir neçə gündən sonra quş dimdiyində padşaha bir neçə toxum gətirir. Padşah sevincək həmin toxumları bostana əkdirir. Bir səhər oyanıb görür ki, səpdiyi toxumlardan qaratikan cücərib. O, nökər-naibi tökür ki, tikanları təmizləsinlər. Onlar axşama qədər tikanları təmizləyirlər. Səhər yenə həmin yer qara tikanla dolu olur.

Padşah quşa zülm elədiyini başa düşüb peşman olur. Zülmdən əl çəkəcəyinə and içir.

Günnərin bir günü Təbrizdən Naxçıvana bir adam gəlir. Şəhər bazarına gedib camahatdan soruşur ki, məni filan pirə kim apara bilər? Camahatdan səs çıxmır. Hannan-hana bir hambal deyir ki, mən apararam. Qonax hambala deyir ki, pirə getsək, orda mənim

dediklərimi yerinə yetirsən, sənə özün ağırlığında qızıl verəcəyəm. Onnar razılaşıb yola düşüllər, gəlillər pirə. Pirin içində bir qəbir vardı, özü də qəbrin üstünə qara örtük çəkilmişdi. Qonax heybəsindən bir cür dərman çıxarıb hambala deyir:

– Bax, qardaş, mən soyunacıyam, sən də bu dərmanı mənim bədənimə sürtəssən. Elə olsun ki, iynənin ucu boyda belə dərman sürtülməmiş yer qalmasın. Dərman sürtülənnən sora mən bayılıb huşsuz düşəciyəm qəbrin yanına. Sən oyuzda gizdənib baxarsan. Qəbirdən bir ilan çıxacax, mənim bütün bədənimi iyliyəcək, sora yıxılıb öləcək. Elə ki gördün ilan tərpəşmir, ala bu biri dərmanı da tutarsan mənim burnuma. Qalanıynan sənin işin yoxdu. Özün ağırlığında qızılı al, çıx get.

Hambal razılaşır, qonağı soyundurub başdıyır dərman sürtməyə. Bütün bədənini dərmannıyır, ancaq yadından çıxır, qoltuğunun altına dərman sürtmür. Qonağın huşu gedir, bayılıb yerdə qalır. Hambal oyuzdakı otağa girib gizdənir, başdıyır güdməyə. Bir də görür ki, qəbrin yuxarı tərəfindən bir ilan çıxdı, bir ilan çıxdı ki, adamı dirigözlü udar. Bı ilan başdıyır qonağı başdan-ayağacan iyləməyə. Hər dəfə ilanın ağzı qonağın bədəninə toxunanda acıxlanır, fısıldaya-fısıldaya başını dala çəkirdi. Birdən ilan qonağın qoltuğunu iylədi. O saat ordan çalıb, gəldiyi kimi də çıxıb getdi.

Hambal bir az gözdüyür. Sora yaxınlaşıb ikinci dərmanı qonağın burnuna tutur. Ancax qonax ayılmır. Hambal bir də baxır ki, ay dadi-bidad, qonax çoxdan ölüb. Qorxusunnan bilmir neynəsin. Çox çək-çevirdən sora, aparıb meyiti başqa bir yerdə basdırır, qonağın paltarrarını da öz evinə gətirir. Sirri də heş kimə demiyib gizli saxlıyır.

Bir müddət keçir. Bir gün hambal oturmuşdu bazarda, müştəri gözdüyürdü. Birdən görür ki, həmin qonax budu gəlir, ancax bir az cavannaşıb. Hambalın gözdəri dörd olur, qaçıb qonağı qucaxlayır ki, bə ağa, başıva dönüm, sən sağsan? Tanrıya min şükür... Paltarıvı saxlamışam, buyur gedək evə...

Qonax bir söz demiyib hambalın yanına düşür, evə gəlir. Hambal sandıxdan paltarrarı çıxarıb qonağa verir. Qonax onnarı görən kimi başdadı hönkür-hönkür ağlamağa. Hambal soruşur ki, bə niyə

ağlıyırsan? Qonax dedi: – A kişi, sən məni yox, mənim atamı pirə aparmısan. Bu paltarrar da onunkudu. Neçə ildi ki, atam Təbrizdən çıxıb; öldüsü-qaldısı xəbərin bilən yoxdu. Evdən çıxanda mənə demişdi ki, əyər qayıtmasam, işimi yarımçıx qoyma, dalımca gəl Naxçıvandakı piri tapıb dediklərimi elə... İndi mən də gəlmişəm...

Hambal bir az qorxdu. Elə fikirləşdi ki, onu qannı tutacaqlar. Oğlan dedi:

– Əşi qorxma, işdi olub. Ancaq yəqin ki, sən onun bədənini yaxşı dərmannamamısan, harasısa açıx qalıb, ilan da atamı vırıb. Hambal başdadı başına-gözünə döyüb ağlama ki, bə mən onun qoltuğunun altını dərmannamamışdım, ilan da ordan vırdı. Qonax dedi, nəsə, olan olub. İndi dur gedək əvvəlcə atamın qəbrini göstər, sona da məni apar o pirə.

Hambal qonağı gətirdi atasını basdırdığı yerə. Bir az ağlaşdılar, sora gəldilər pirə. Qonax heybəsinnən dərmannarı çıxarıb hambala verdi, dedi ki, ala, atam sənə necə demişdisə o cür də elə. Ancax yadından çıxartma ki, gərək iynənin ucu boyda dərman sürtülməmiş yer qalmasın.

Hambal dərmanı qonağın bədəninə sürtüb bir tərəfdə gizdəndi. Bir də gördü ki, həmin ilan gəldi, başdadı bayılmış qonağı iyləməyə. Ancaq bu dəfə hambal dərmanı elə sürtmüşdü ki, iynənin ucu boyda da açıx yer qalmamışdı. İlan qonağı iylədi, iylədi, açıx yer tapbıyıb hirsinnən, hikkəsinnən bağrı çatdadı, qonağın yanında uzanıb öldü. Hambal gördü ki, ta ilan tərpənmir, yaxınlaşıb ikinci dərmanı tutdu qonağın burnuna. Qonax ayıldı, ilanı ölmüş görüb çox sevindi. Geyinənnən sora heybəsinnən tava çıxartdı, bıçaxnan ilanın başınnan, quyruğunnan bir qəriş kəsib atdı, qalanını da doğruyub tavaya tökdü, ocax qalayıb başdadı qızartmağa. İlan öz yağında qızardı, qonax tavanı qabağına çəkib ətin hamısını yedi. Sora durub harasa getdi.

Hambalın ağzı açıla qalmışdı. Fikirləşirdi ki, görən, bu nə sirdi. İlanı niyə yeyirlər? Çəkinə-çəkinə tavıya baxdı. Tavada təkcə bir az yağ qalmışdı. Hambal nə olur olsun deyib barmağını bı yağa batırdı, ağzına qoydu. Gördü ki, çox daddıdı, bütün tavanı sivirdi. Birdən qulağına bir səs gəldi. Baxdı ki, xırdaca bir ot deyir:

– Mən filan dərdin dərmanıyam. Böyründəki bir daş da pıçıldayır ki, mənim altımda qızıl var, qaz onu çıxar. Hambal bildi ki, bı ilanı yeyən adam bütün cannıların, bütün cansızların dilini başa düşür.*

Bı zaman qonax qayıdıb gəldi, hambala dedi:

– Qardaş, atamla şərtləşdiyin kimi, özün ağırlığında qızıl sənin haqqındı. Haqqını göndərdim əvinə, dur get, ona yiyə ol.

Birdən qonağın gözü sataşdı tavıya. Gördü ki, hambal tavadakı yağı sivirib. Fikirləşdi ki, bı sirri ikinci adam da bilsə, batil olar. Tez cibinnən bir ot çıxarıb verdi hambala ki, ala bunu da ye. Hambal otu yedi, hər şey yadınnan çıxdı. Elə bil arada heş nə olmuyub, hambal elə əvvəlki hambaldı. Durub gəldi əvinə, qonağı da heş vaxt xatırramadı. Ancaq hərdən təəccüblənirdi ki, kisə dolu qızılı onun əvinə kim göndərib?

Qonax da qayıdıb getdi Təbrizə.

Sirab kəndindən xeyli aralıda boz bir təpəcik var. Bu təpəciyin güneyində mağara ağzı görünür. Deyirlər ki, bir vaxtlar bura sirli bir qalaya gedən yolun girəcəyi imiş.

Rəvayət edirlər ki, bu qalanı saldıran hökmdar bir gün camaatı yığıb deyir:

– Qalanın girəcəyi bəllidir, çıxacağını heç kəs tapa bilməz. Kim bu çıxacağı tapsa mən onu qızıl-gümüşə tutaram.

Şərəfxan adında pirani bir qoca irəli durub deyir:

– Mən qalanın çıxacağını taparam. Ancaq mənə üç gün möhlət verin.

Hökmdar razı olur. Şərəfxan kişi evə qayıdır. Yekə bir kələfcə götürüb qalaya gedən yolun girəcəyinə gəlir. Yerə bir mıxça çalıb kələfcənin taxalağını ona keçirir. Kələfcəni aça-aça mağara boyu getməyə başlayır. Bir xeyli gedəndən sonra kələfcə qurtarır, di gəl nə işıq görünür, nə də yolun qurtaracağı. İpi yığa-yığa dolanbac yolla geri qayıdır.

Ertəsi gün həyətdə oturub götür-qoy edəndə görür ki, qara bir pişik qızıl xoruzu qabağına qatıb qovur. Barmağını dişləyir. Durub xoruzu da, pişiyi də tutur. Gətirib mağaranın girəcəyindən əvvəl

xoruzu, onun dalınca da pişiyi içəri ötürür. Girəcəyi qapayıb təpənin üstündə oturur. Öynə vaxtından gün batana kimi gözləyir. Bir də görür ki, heç kəsin ağlına gəlməyən bir yerdən xoruz eşiyə çıxıb qaçmağa başladı, pişik də onun dalınca. Şərəfxan kişi durub gəlir həmən yerə. Bilir ki, çıxacaq elə buradı. Manşır qoyub vədə tamamında özünü yetirir hökmdarın hüzuruna: Deyir:

– Hökmdar sağ olsun, qalanın çıxacağını tapmışam.

Hökmdar inanmır. Belə olanda Şərəfxan kişi camaatı yığdırır təpənin başına. Yenə xoruzla pişiyi girəcəkdən içəri buraxır. Xeyli keçəndən sonra xoruzla pişik kişinin manşır qoyduğu yerdən çıxır. Hamı görür ki, qalanın sirri açıldı. Hökmdar deyir:

– Camaat, bu sirri bir siz bilin, bir biz. Bura bizim ayaqdakı sığınacağımızdı. Qaldı Şərəfxan kişiyə. Onun ənamı bir kisə qızıldı.

Söz-söhbəti dildən düşən bu qalanın sirri indi heç kəsə bəlli deyil.

Yaylax vaxtıyımış. Bir oba köçür dağda yurt tutur, çadırların qurur. Elə bı vaxt güjdü yel əsir, yağış yağır, boran olur. Camahat bir də baxır ki, göydən boynu zincirli bir əjdaha endi. Tez gətirip bına bir öküz qurban kəsillər.

Əjdaha heş kimə dəymir, ancaq bir cavan iyidə deyir ki, mən hara getsəm, sən də dalımca gəl.

Bınnar yola düzəlip gedillər. Xeyləh gedənnən sora Asnı dağına çatıllar. Asnı dağında bı əjdaha üzün tutur Arğı dağına sarı, bir üşkürəh atır. Arğı dağınnan bir əjdaha yenir ki, bınnan da yekə. Demiyəsən, bı əjdahalar düşmandılar. Neçə dəfə vırışmışdılar. Hər dəfə də Arğı dağındakı güjdüyümüş. İndi bı əjdaha oğlanı özünə arxa gətiripmiş.

Əjdahalar başdıyır vırışmağa. Arğı dağının əjdahası bı birin az qala basırmış. Bı əjdaha oğlana işarə eliyir. Oğlan qılıncın sivirip Arğı dağının əjdahasını öldürür.

Sora əjdaha oğlana deyir ki, dalımca gəl. Bınnar gəlip bir zağıya girillər. Oğlan görür ki, bırda üş xum var, qızılınan doludu. Əjdaha oğlana deyir ki, nəqqədər başarırsan götür. Ancaq elə götür ki, bir də peşmannıyıp bıra qəyitmiyəsən. Yoxsa zərəl çəkərsən.

Oğlan pütün ciblərini, qol-qoltuğunu doldurur qızılınan, sora çıxıp gedir. Bir müddət keçir. Oğlan bı qızılları sağa-sola xəşdiyip qutarır. Təzədənnən durup qəyidir həmin zağıya. Görür ki, əjdaha başını qoyup qızıl xumnarının üsdünə, yatıp.

Oğlan yavaşca yaxınnaşır, xumun ağzın açıp gizdincə qızıllardan götürməh isdiyir. Bı dəmdə ədjaha oyanır. Baxır ki, oğlan qızıl götürür. Tüpürür bının üzünə ki, adam oğurrux eləməz. Ta oğlan heş zad götürmüyüp dala qəyidir. Ancax əjdahanın tüpürdüyü sifəti qapqara qaralıp çürüyür.

Mən çox mahir bir ovçuydum, hələ ovdan əliboş qayıtdığım olmamışdı. Ancax günnərin bir günü atdığım boşa çıxdı, ceyran qaçıb getdi. Möhkəm hirsdəndim, dedim ki, gərək bı ceyranı tapıb öldürəm. Ta axşam düşdüyünə görə orda gecələməli oldum. Yatıb yuxuda gördüm ki, qan içindəyəm, qan düz xırtdəyimə çıxıb, az qalıram boğulam. Ayıldım, ta yata bilmədim. Fikirləşdim ki, bı ceyranı öldürənnən sora ovçuluğun daşını atacıyam.

Obaşdannan durub ceyranın iziynən getdim. Günorta üstü onu tapdım. Bı dəfə atdığım boşa çıxmadı, ancax ceyran yüngülcə yaralanmışdı deyin, genə qaçıb getdi. Mən də qan izin tutub düşdüm bının dalına. Xeylək yol getdim, sora gördüm ki, qan izi bir mağaraya girir. Elə mağaraya yaxınlaşmışdım ki, içəridən yekə bir ilan çıxdı. Bı ilanı vırdım. Sora gördüm ki, bir ilan da çıxdı. Ancax elə yekəydi ki, başımın tükləri biz-biz durdu qorxudan. İlanın zəhmi məni basdı, silah əlimnən düşdü, taqətim qalmamışdı ki, əyilib götürüm. Elə quruyub key-key baxırdım ilana. Bir də gördüm ki, ilan ağzın açıb tüpürdü üzümə. Sora düzəldi yola getdi. Mən də başdadım bı ilanın dalınca getməyə. Bir az gedəndən sora ilan dayandı, quyruğuynan yeri eşdi. Gördüm ki, yerdən qızıl çıxdı. İlan genə başdadı mənə baxmağa. Qorxa-qorxa əyilib beş dənə qızıl götürdüm. Sora isdədim genə götürüm, ilan quyruğuynan qızılın üsdün torpaxladı. Onnan sora xeylək qabağa sürünüb dik dayandı. Mən də çıxıb getdim. Gözdən itənəcən gördüm ki, dalımca baxır.

Gecəyarı gəlib çatdım evə. Yatdım, səhərisi duranda gördüm ki, arvadım, uşaxlarım mənnən qorxub qaçırlar. Güzgüdə özümə baxdım ki, belə əcayib şəklə düşmüşəm. O vaxtdan şəhərbəşəhər gəzirəm, ancax dərdimə əlac tapammıram.

Qaracux kəndində bir kişi yaşayırmış. Bı kişi bir bərə düzəldib camahatı Arazdan oyuza-bıyıza keçirir, çörək pulu qazanıb ayiləsini dolandırırmış.

Bir gün bı kişi evində yatmışdı. Gecənin yarısı bir də eşidir ki, qapını döyüllər. Tez durub geyinir, sora qapını açır. Görür ki, qapının ağzında yekə bir ilan durub. Kişi qorxub qapını örtür. Görür ki, qapı genə döyüldü. Bir az qapını aralayıb baxır ki, həmən ilandı. İlan başıynan kişiyə işarə edir ki, dalımca gəl. Kişi fikirləşir ki, bırda nəsə bir sirr var. Dinməz-söyləməz düşür ilanın dalına. Get-haget, gəlib çıxıllar Arazın qırağına. Kişi baxır ki, bının bərəsinin üstündə o qədər ilan var, o qədər ilan var ki, ta ayaq basmağa yer yoxdu. İlannar kişini görəndə birtəhər oyıza-bıyıza sıxlaşıllar, ona yer düzəldillər. Kişi bərəni o taya sürür. Qırağa çatanda ilannarın hamısı düşüb gedir.

Bı əhvalatdan bir neçə gün keçir. Bir səhər kişi həyətdəki səs-küyə ayılıb eşiyə çıxır. Görür ki, həyətdə bir neçə fil durub, üstdəri də doludu ilannan. İlannardan birinin quyruğu yoxdu, birinin başı qannıdı, birinin bədəni yaralıdı, ta xülasə, çoxu əzilib. Kişi annıyır ki, ilannar savaşdan gəlillər.

Kişini görəndə ilannar bir-bir filin üstünnən sürüşüb yerə düşür, onun qabağına gəlib yerə tüpürüllər. Kişi baxır ki, hər ilanın ağzınnan bir tikə qızıl düşür. Çox keşmir ki, yekə bir qızıl qalağı yaranır. Sora ilannar genə fillərin üstünə dırmaşıb çıxıb gedillər. Qızıllar da kişiyə qalır.

Şərurda bir ovçu varmış, adına ovçu Əhməd deyərlərmiş. Ovçu Əhməd bir gün ova çıxır. Gəlib oturur bir daşın üstə. Bir də görür ki, bir yaralı ağ ilan ona tərəf sürünür. İlan ona çatıb arxasınca gəl-

məsini işarə edir. Ovçu Əhməd durub ilanın dalınca gedir. Gəlib bir qara daşın dibinə çatırlar. İlan girir bir mağaraya, bir azdan bir qara ilanla vuruşa-vuruşa gəlir. Ovçu Əhməd oxunu qoyub qara ilanın başını vurur. Bu vaxt ilanın başı atılıb ovçu Əhmədin üzündən vurur. Əhməd özündən gedir. Bir vaxt ayılıb görür ki, ağ ilan onun üzünün yarasını yalayır. Ovçu Əhmədin üzünün yarası sağalır. O gündən ovçu Əhməd ağ ilanla dost olur.

Haça dağa həm də İlanlı dağ deyirlər. Bu dağda ilan çox olar. Deyilənə görə, onlar qoşun çəkib başqa dağların ilanları ilə vuruşarmışlar.

Bu dağın yaxınlığında, Araz çayının qırağında bir kişi yaşayırmış. O, Arazın bu tayından o tayına adam keçirər, bundan aldığı xırda-xuruşla ömür-gün sürərmiş.

Günlərin bir günündə kişi yatdığı yerdə gecənin bir vaxtı qapının döyüldüyünü görür. Hövləng yerindən qalxıb əyin-başını geyinir, çölə çıxır. Qapını açanda bir böyük ilanla qarşılaşır. Qorxub qapını örtmək istəyəndə ilan başı ilə ona işarə edir. Kişi bu işə mat qalıb çar-naçar ilanın arxasına düşüb başlayır yol getməyə. Gethaget gəlib çıxırlar Araz çayının qırağına. Bu həmin yer imiş ki, orada kişinin qayığı dururmuş. Kişi baxıb görür ki, Araz çayı boyunca bir ilan var ki, bir ilan var ki, nə sayı var, nə hesabı. İlanlardan bir zorbası kişini qarşılayıb başı ilə qayığa yığılmış ilanları çayın o tərəfinə keçirməsini əmr edir. Kişi əhvalatı başa düşüb tez qayığa minif, kürəkləri əlinə alır, sübh açılanacan qayığı o tay-bu taya qovub bütün ilanları sahilə keçirir. Bundan sonra kişi evinə qayıdıb dincini almaq üçün yerinə uzanır.

Aradan bir neçə gün keçməmiş gecə vaxtı qapı bir də döyülür. Kişi qapını açıb o dəfəki ilanı görür. Bir söz demədən əynini geyinib ilanın dalınca sahilə gəlir. Bu dəfə kişi onları o biri taydan bu biri sahilə çatdırmalı olur. Kişi baxıb görür ki, onların çoxu yaralıdı, tamam qızıl qana boyanmışlar. Bilir ki, bunlar İlanlı dağın ilanlarıdı. Araz çayının o biri tərəfində yaşayan ilanlarla davaya getmişlər.

Kişi ilanların hamısını çayın bu biri tərəfinə keçirib qurtarır. İlanların böyüyü ona yaxınlaşıb ağzından bir qiymətli daşı yerə salır və onu götürməsini işarə edir. İlanlar gedəndən sonra kişi sevincək ilanın ona bağışladığı daşı yerdən götürür.

Rəvayətə görə, dünyada iki ilanlar padşahı varmış. Bunlardan biri Naxçıvanın Əlincə çayındakı İlandağda, biri də İranın Diri dağında imiş. İlanlar padşahlarının böyük mülkü, tükənməz xəzinələri varmış. Ancaq bu mülk, xəzinə İrandakı ilanlar padşahına az görünürmüş. Tamah güc gəlib onu qonşu malına şirnikdirirmiş.

Bir gün İrandakı ilanlar padşahı güclü qoşunla Araz çayını keçib İlandağa hücum edir. Ölüm-dirim vuruşması başlanır. Onlar bir-birini didib dağıdır, boğub öldürürmüşlər. İlanların qanı dərələrdə selə dönür, Əlincə çayıyla Araz çayına qarışır, suları qızardır.

İlandağdakı ilanlar sayca çox olan düşmənə qarşı mərdliklə vuruşub, yeddi gün, yeddi gecə çəkən qanlı döyüşdə qalib gəlirlər. Onlar düşməni sıxışdırıb qovurlar.

Deyilənə görə, ilanların qanlarının qızartısı indi də İlandağın qayalarında, bir də yanındakı təpələrdə görsənir.

Keçmiş zamanlarda Ərəş mahalında Dərgah adlı bir ovçu olur. O, quş ovlamaqdan ötrü bir gün Arçan dağına gedir. Çoxlu quş ovlayır, lakin qaranlıq qovuşduğundan geri qayıtmır, dağda gecələyir. Səhər tezdən yuxudan duranda bir ağ ilanın onun başı üstündə duraraq dilini çıxartdığını görür. Ovçu əvvəlcə qorxur. Sonra fikirləşir ki, bu ilan məndən kömək istəyir. İlan bunun fikrini anlayıb çevrilir. Bu zaman ovçu görür ki, ağ ilanın bədəni tamamilə yaradır. Bundan sonra ilan getməyə başlayır. Özü də tez-tez geri baxır. Ovçu tüfəngini də götürüb ilanın arxasınca gedir. Bir qədər getdikdən sonra ilan bir quyunun yanına gəlib bərkdən səs çıxardır. Bu zaman quyudan bir qara ilan çıxaraq ağ ilana hücum edir. Ovçu qara ilanı tüfənglə öldürür. Ağ ilan bunu görcək tez quyuya girib bir muncuq gətirir, ovçuya verir. Ovçu muncuğu da götürüb evə gəlir. Deyirlər ki, bu muncuq həmişə evi, həyəti işıqlandırarmış.

Bir kişi atınan gedirmiş. Bir ocağın yanından keçəndə görür kün, bir uşax yolda dayanıp ağlıyır. Soruşur kin, niyə ağlıyırsan? Deyir ki, filan yerə gedəcəm, əncax yorulmuşam, gedəmmirəm.

Kişi bını atın təkinə mindirir. Xeylah gedənnən sora baxır ki, bı uşağın ayaxları başdadı uzunamağa. Kişi qorxur, əncaq heş nə deyəmmir. Birəz gedənnən sora bını öz adıynan çağırıllar. Kişi bı dəfə çönüp baxır. Görür ki, dalda yekə bir əjdaha durup. Əjdaha kişiyə deyir ki, anan namaz üsdəymiş, əyər birinci dəfə çağıranda çönsəydin, səni parça-parça eliyəcəydim. Onnan qabax da məni bıra gətirməsəydin, gənə səni öldürəcəydim. İndi get.

Şahab məhləsində Məmən adında bir kişi varmış. Bının evində ocax ilanı yaşayırmış. Bı ilan hər gün üç balasını da yanına salıb evi, həyət-bacanı dolanır, ancax heş kimə zərəl vermirmiş. Bir gün Məmən fikirləşir ki, qoy bı ilanın balalarınnan birini gizlədim, görüm, neynir?

Məmən aşsüzəni çevirir bala ilannardan birinin başına. İlan çıxmağa yer tapmıyıb qalır aşsüzənin altında. Ocax ilanı bir də baxır balalarınnan biri yoxdu. Başdıyır axtarmağa. Nəqqədər axtarırsa tapammır. Bərk hirsdənir. Pəncərədə qatıx dolu kasa vardı. İlan gedir bu qatığı zəhərriyir. Sora su qabına girir, onu da zəhərriyir.

Məmən qorxub aşsüzəni götürür, ilanın balasını buraxır. Ocax ilanı balasını görəndə duruxur. Sora gedib kasanı aşırır, qatığı yerə tökür. Onnan sora da gedib özünü palçığa bələyir, qayıdıb su qabına girir. Bir neçə dəfə belə edir, su bulanır, ta işməli olmur.

Sora da ocax ilanı balalarını da götürüb gedir. Məmən bir də onnarı görmür. İlanınnan bərabər xoşbaxtlıx da Məməngildən gedir.

Belə deyirlər ki, bir kənddə bir kişi varmış. Bu kişinin daxmasının ətrafı bağ-bağat imiş. Kişi həmişə tezdən durub bağ-bağatla məşğul olarmış. Bir səhər adəti üzrə yenə də bağa çıxır. Hava da yavaş-yavaş istiləşməyə başlayır. Kişi görür ki, bir böyük ilan daşın

üzərində qıvrılıb özünü günə verir. İstəyir öldürsün, ilan fışıltıyla daşların arasında görünməz olur.

Kişi bu əhvalatı qoca adamlara danışır. Ona məsləhət edirlər ki, ilana toxunmasın. O, ocaq ilanıdır. Yurdun bərəkətidir. Onu incidib eləsə, küsüb gedər, yurdun bərəkətini də özü ilə aparar. Əgər öldürsə, böyük bəla üz verər. Çünki onlar yeddi qardaş olurlar. Harada olsalar, gəlib öz qardaşlarının intiqamını alarlar.

Kişi qocaların sözünə əməl etmir. Səhər durub ilanı güdməyə başlayır. Gün qızanda ilan yenə də daşın üstünə qalxıb qıvrılıb, özünü günə verir. Kişi fürsəti verməyib bir daş götürüb ilana atır. Ancaq daş ilana dəymir. İlan səsə oyanıb dimdik qalxır, qəzəbli-qəzəbli fışıldamağa, dilini çıxartmağa başlayır. Sonra da sakitləşib öz yerində uzanır. Kişi bir daş da atır. Bu da ilanı tutmur. İlan birdən yerindən sıçrayır. Sürünüb oradan uzaqlaşır.

Bu əhvalatdan xeyli keçir. Kişi hər səhər gizlənib ilanı güdsə də, ondan əsər-əlamət görmür. Belə-belə günlər bir-birini əvəz eləyir. Kişinin bağ-bağatı tamam quruyur, tez-tez bədbəxt hadisə baş verir. Kişi başa düşür ki, nahaq qocaların sözünə baxmayıb, ocaq ilanını küsdürmüşdür. Ona görə də ona bədbəxtlik üz verir.

Muradxanlının qırağında bir böyük qarağac varmış. Ocağıymış. Bir gün bir oğlan uşağı ocağa gələn ilanı öldürür. Atası deyir:

– Bala, Allah sənə lənət eləsin, sən bu ilanı niyə öldürdün?

Bir gün bunlar ata-bala gedirlər kövşəndə cüt sürürlər. Günorta qarağacın dibində oturub çörək yeyirlər. Bir də görürlər budur bir ilan gəldi. Kişi durur ayağa, deyir:

– Allah sənə lənət eləməsin, niyə gəlmisən? Bu öküz lazımdısa, apar.

İlan deyir:

– Yox.

Kişi deyir:

– Onda mənim özümü apar.

İlan yenə deyir:

– Yox.

Oğlanı qatır qabağına, aparır. Kişi də dallarınca gedir. Bir dərəyə çatanda kişi görür, ilan da, uşaq da yox oldu.

O vaxtdan o dərəyə İlanlı dərə deyirlər.

Belə deyirlər ki, bir kişi təzə ev alır. Dədə-babadan bı evdə bir ocax ilanı üç balasıynan yaşayırmış. Ancaq bı kişi ilanla bir evdə yaşamaxdan qorxur, ilannarın hamısını öldürür.

Çox çəkmir ki, kişinin iki oğlu qəzıya düşüb ölür. Qız özünü yandırır. Bınnarın dərdinə dözməyib arvadıynan kişinin özü də ölür. Bu ayilədən bir nəfər də sağ qalmır.

Bir şahın oğlu xəstə idi. Nə qədər loğman gəlir, dərdinə əlac edə bilmir. Loğmanlardan biri deyir ki, buna əlac yoxdur. Çox çəkməz, ölər. Bunu eşidən oğlan baş götürüb diyarbadiyar gedir. Gedir bir çobana rast gəlir. Ondan süd istəyir. Çoban bir çanaq süd sağıb oğlana verir. Oğlan südü bir daşın üstünə qoyur. Bu vaxt daşın altından bir ilan çıxır, oğlanın başı qarışanda südü zəhərləyir. Sonra daşın altına girir. Oğlan südü içib gedir. Yolda yenə həmin loğmana rast gəlir. Loğman deyir:

– Oğlum, hara gedirsən?

Oğlan cavab verir:

– Dərdimə əlac yoxdu, baş alıb gedirəm.

Loğman deyir:

– Oğlum, sən sağlamsan, qayıt evinizə.

Oğlan inanmır.

Loğman deyir:

– Bir ilan səni sağaldıb.

Oğlan deyir:

– Bu necə ola bilər?! Mən ilan-zad görməmişəm.

Loğman deyir:

– İlan sənin gözünə görünməyib. Çobandan aldığın südü xəlvəti zəhərləyib. Sən də bilməyib içmisən. O da sənə şəfa verib.

Oğlan gördü loğman deyən düzdü, şəfa tapıb, sevincək evlərinə qayıtdı.

Deyilənə görə Dərəlikdə bir sarban yaşayırmış. Bir gün sarban dəvələri yığıb aparır otarmağa. Necə olursa dəvənin biri hirslənir, düşür sarbanın dalınca. Sarban canını qurtarmaqdan ötrü arxın üstünə düşmüş daşın altına girir. Bu vaxt görür ki, daşın altında bir ilan yatıb. Qorxudan istəyir ordan da çıxıb qaçsın. Baxır ki, dəvə yuvanın ağzını kəsdi. Bu vaxt ilan başını çıxardıb nəfəs alır, dəvə yavaş-yavaş əpriyib ölür. Sarban ordan çıxıb düz gəlir atasının yanına. Bu sirri atasına deyir.

Bir gün sarban atasıyla dəyədə oturmuşdu. Görürlər ki, yolla bir kişi gedir. Oğlanın atası kişini qonaq çağırır. Ondan soruşur ki, hardan gəlib hara gedirsən?

Kişi deyir:

– Burda filan nişanda bir ilan var, ondan ötrü gəlmişəm.

Oğlanın atası deyir:

– Sən dediyin ilanı mənim oğlum görüb.

Kişi bildirir ki, ilanın yerini desələr onlara yeddi kisə qızıl verər. Oğlan demir. Amma atası tamahsılanıb ilanın yerini nişan verir. Kişi gedib arxın kənarında bir xəndək qazıb gizlənir. İlanın gəlməsini gözləyir. Oğlan tez dağa qaçıb ilanı tapır. Vəziyyəti ona bildirir. İlan çıxıb harasa gedir.

Belə deyirlər ki, Ölən şəhərdə tək bir kişi varmış. Bu kişi hər dərdin dərmanın, hər tilsimin sirrin bilirmiş. Kişi qocalır, ölüm vaxtı gəlib çatır. Ölüm yatağında gözünün ağı-qarası bircə qızını yanına çağırıb deyir:

– Qızım, mən ölürəm. Məndən sonra sənə yaşamaq çətin olacaq. Ona görə mən deyənə əməl edərsən. Bizim zirzəmidə bir ilan var. Əlini üç dəfə ilanın qarnının altına çəkərsən. Gedib ondan sonra hər şeyin sirrini biləcəksən. Xoş güzəran keçirəcəksən.

Kişi ölür. Qız atasını dəfn edir, zirzəmiyə gəlir. İlanı görüb qorxur, istəyir qaçsın. Bu vaxt ilan arxası üstə çevrilir. Qız özündən asılı olmayaraq gedib əlini üç dəfə ilanın qarnına çəkir. O gündən qız hər şeyin sirrini bilir, xoşbəxt ömür sürür.

Evimizdə ilan vardı. Sofu İsmayılı gətizdirdik. İlanı adıyla çağırdı, dedi:

– Ay mamayi, day mamayi, dağda gəzən, daşda gəzən...

Bir də gördük qırmızı bir ilan gəldi durdu Sofu İsmayılın qabağında. Başını qaldırdı Sofu İsmayıla baş əydi. Sofu İsmayıl dedi:

– Ay Allahın heyvanı, burdan çıx get.

Elə bu söznən də ilan çıxıb getdi.

Sofu İsmayıl dedi:

– Ta bu ilan sizin evinizdə görünməyəcək. Qorxmayın. Payımı-qismətimi verin, varım gedim.

Nənəm getdi, Sofu İsmayıla un gətirdi verdi...

Bir gün axşamtərəfi Hacı Zeynalabdin ağanın həyətində oturmuşduq. Bir ilan gəldi düz Hacı Zeynalabdin ağanın həyətinə. Bir gürzəydi. Uşaqlar qışqırışdılar, hay saldılar ki, Zeynalabdin ağa, ilan, ilan! Hacı Zeynalabdin ağa dedi: "Allah sənə lənət eləsin, yenə neyləmisən, gəlmisən bura?" Hacı bir dairə çəkdi. İlan bu dairədən kənara çıxmadı. Sonra Hacı, çəliyinin ucuyla dairədən bir cızıq çəkdi, dedi: "Allahın heyvanı, indi gedə bilərsən".

İlan da bu cızıqla sürünüb getdi. Aradan bir az keçməmiş bir nəfər gəldi ki, ağa, məni ilan çalıb.

Demə, ilan onu çalıb gəlibmiş Hacı Zeynalabdin ağanın ocağına.

Keçmişlərdə Arpa çayının sahilində bir kişi varmış. Onun da bir qızı ki, day tayı-bərabəri yoxmuş. Bu qız bir oğlanı istəyirmiş. Bir əjdaha da qıza bənd olubmuş. Hey qızı pusurmuş.

Bir gün oğlanla qız görüşür. Əjdaha da bunu görür. Bərk qəzəblənir. İstəyir ki, qıznan oğlanı kamına çəksin.

Elə bu vaxt qızın atası böyürdən çıxır. Hal-qəziyyəni bilir. Üzünü tutur göylərə yalvarır ki, onları Allah əjdahadan xilas etsin. Kişinin yalvarışı yerinə yetir. Əjdaha daş olur. O vaxtdan həmin daşa da "Əjdaha burnu" demişlər.

Sədərəyin yaxınlığında Əjdəkom dağı var. Dağın altından bir bulaq çıxır, adına Cincili bulaq deyirlər. Rəvayətə görə, bulaq yeddi ildən bir çıxır. Deyirlər, bu bulaq çox suluymuş. Əkini, bağ-bağatı onun suyuyla suvarırmışlar. Bir əjdaha gəlib suyun qabağını kəsir, əvəzində gündə bir adam qurban istəyir. Qurban vermirlər. O vaxtdan bulağın suyu kəsilir. Əjdaha yeddi il bir tərəfi üstə yatır, yeddi il də o biri tərəfi üstə. Yeddi ildən bir tərpənib yerini dəyişəndə su gəlir, sonra kəsilir.

Deyilənə görə bir gözəl qız var imiş. Bu qızın varı-yoxu bir qoca anası var imiş. Qız həddsiz gözəl olur. Bir gün qıza elçi gəlir. Elçilər qızgilə gəlib çatanda onların qabağına qızıla çalan, gözəl bir ilan çıxır. İlan insan kimi dil açıb bunlara yalvarır. Sizi and verirəm duz-çörəyə buradan uzaqlaşın.

Elçilər ilanın dil açmağına məhəttəl qalırlar. Onlardan biri ilanı öldürmək istəyir. İlan çıxıb gedir. Elçilər qızın razılığını alıb gedirlər. Sonra isə toyu başlayırlar. Gəlin gedən zaman həmin ilan yenə də gəlir, bir qıraqda durub tamaşa edir.

Qız gedənnən bir ay sonra qızın həyat yoldaşı ölür. Qız gözü yaşlı yenə də qoca anasının yanına qayıdır. Aradan bir müddət keçir. Qız fikirli-fikirli yatır. Bu zaman ilan gəlib pəncərədən içəri girir, başlayır qıza tamaşa eləməyə. Səhər açılanda ilan çıxıb gedir. Belə-belə ilan hər gün gəlib qıza tamaşa eləməyə başlayır. Bir gün qız yuxu görüb qorxulu-qorxulu oyanır. Qız baxır ki, bu ilandı. İlan qıza sarı gəlir, qız qışqırmaq istəyir. İlan dönüb gözəl bir oğlan olur. Oğlan qızın xoşuna gəlir, onlar bir müddət görüşürlər. Lakin qız dözə bilmir, yalvarır ki, bu sirri açıb ona desin, görək bu nə işdi. Oğlan sirri açıb deyir ki, mən bir pəriyəm. Mən sənin eşqindən ilan cildinə girmişəm, indi isə səni and verirəm o bir Allaha, bu sirri heç kimə deməyəsən. Qız sirri saxlaya bilmir. Əhvalatı qonşu qadına danışır. Qonşu qadın ona tapşırır ki, özünü mundarlasın, bəlkə oğlan bundan əl çəkə. Qız özünü içki ilə mundarlayır. Oğlan bunu bilir, elə o saat yox olur.

Bir ailə olur. Həmin ailənin övladı olmur. Uzun illər övlad həsrəti çəkirlər. Axırdan-axıra onların bir qızı olur. Bir dəfə ana qızını yatırdıb çölə çıxır. Qayıdanda uşağın sinəsində balaca bir ilan görür. Qocaların məsləhəti ilə ilanı öldürmürlər. İlan ananı görəndə dilini çıxarır, demək istəyir ki, onun qızına xəta yetirməyəcək. Ana qocaların məsləhəti ilə ilana and içdirir. Yəni onun qabağına duz-çörək qoyur, ilan düz-çörəyi yalayır. Uzun illər keçir, uşaq böyüyür. O, həmişə ilanla oynayır. İlan da həmişə qıza baş çəkir. Məlum olur ki, bunlar bir-birinə aşiq olublar. Bir dəfə ilan gəzməyə gedir. Qızı öz evinə gətirir. Qız yaraşıqlı evi görüb təəccüblənir. Burada bir sirr olduğunu bilir.

Axşam olur, ilan öz cildini dəyişir. Ucaboylu, yaraşıqlı bir oğlan olur. Qız gözlərinə inanmır. Sirri öyrənməyə çalışır. Bir müddət ilan qıza heç nə demir. Ən nəhayət, qıza bu sirri heç kimə açmayacağına and içdirir. Sonra deyir ki, onun bir paltarı vardı. O, həmin paltarı geyinəndə ilan cildinə girir, soyunanda adam olur.

Oğlan hər gün səhər evdən çıxır, axşamlar qayıdır, oğlanın gec qayıtmağı qızı narahat eləyir.

Bir gün ilan evə gəlir, öz paltarını soyunur, başının altına qoyub yatır. Qız oğlanı həmişə insan görmək istəyir, buna görə də həmin paltarı götürüb yandırır, özü də yıxılıb yatır. Səhər ayılanda heç nə görmür, nə oğlan var, nə də ilan. Qız paltarı yandıranda o da qeybə çəkilir, yox olur.

Qız kor-peşman atası evinə gəlir.

Keçmiş zamanlarda bir qarı var imiş. Qarının da bir oğlu. Bu arvadın oğlu uzaq yerdə işləyirmiş. Bir gün oğlan işdən qayıdarkən görür ki, təpənin üstündə gözəl bir qız oturub. Qız oğlana deyir ki, mənimlə getməlisən. Oğlan həmin qızla gedib görür ki, onun gözəl bir imarəti var. Qız deyir ki, bir yerdə yaşayacağıq.

Az keçir, çox keçir, oğlanın anası xeyli vaxt gözləyir, ancaq oğlu gəlib çıxmır. O, çox narahat olur, əlinə əsa alıb, oğlunu elbəel axtarmağa başlayır. Gəlib bir kəndə çatanda, bir ağsaqqal kişi deyir ki,

qarı, sənin oğlun gündüzlər işləyir, ancaq gecə bilmirik ki, hara gedir. Qarı həmin iş yerinə gəlir, oğlunu gözləməyə başlayır. Nəhayət, oğlu gəlib çıxır. Ana, oğlu ilə birlikdə qızın imarətinə gedir. Qarı əl çəkməyib, oğlunu da, gəlini də öz vilayətlərinə aparır.

Gəlin öz ərinə deyir ki, mən olan evə gəzginti adam gəlməyəcək.

Ay dolanır, il keçir, qapıya bir ovsunçu çıxır. Ovsunçu deyir ki, sizin evinizdə ilan var. Gəlin cavab verir ki, bizim evdə ilan yoxdu. Həmin ovsunçu gedir, gecə bir də qayıdıb gəlir. Oğlana deyir ki, sənin arvadın ilandı. O deyir ki, elə iş ola bilməz. Ovsunçu tapşırır ki, sən get ət al gəti. Yoldaşına ver, qoy duzlu kabab bişirsin. Sonra ikiniz də yeyin. Ancaq evdə su qoyma. Çünki ilan çox su içəndi. İnanmırsan gözlərinlə bax.

Oğlan gedib ət alır, kabab bişirtdirib yeyirlər. Evdə olan suyun hamısını yerə tökür, qapını da bağlayıb açarı cibində gizlədir. Başlayır arvadını güdməyə. Görür ki, arvadı qalxıb su axtarır, nə qədər çalışır, qapını aça bilmir. Kişi görür ki, arvadı qadın cildindən çıxıb, ilan oldu. Qapının baş tərəfindən sürüşüb yox oldu. Oğlan bu hadisəni görür, gözünə yuxu getmir. Bir qədər sonra həmin ilan cildini dəyişib qayıdıb öz yerinə uzanır. Səhər gəlin bilir ki, əri işi başa düşüb. Deyir ki, mən sənə demədimmi bu evə gəzginti adam gətirmə. Bu kəlməni deyib, gəlin evdən yox olur.

Maqsudlu kəndində oğulsuz-uşaqsız bir kişi varmış. Tərəkəmələr arandan gəlib dağa gedəndə onun evinə düşərmiş. Bir gün bir tərəkəmə kişiyə deyir ki, uşağın olmasa, bir də bu evə ayaq basmayacayıq.

Kişi bu sözdən çox pərt olur.

Ay keçir, il dolanır, tərəkəmələrin yaylağa qalxmaq vaxtı yaxınlaşır. Kişinin arvadı çıxır uca bir yerə, görür ki, budur, tərəkəmələr gəlir. Götürür həyətdəki bitili bir ağacdan yüyrük asır. Yüyrüyün içinə çəltik dibəyi qoyur, üstünü örtür. Tərəkəmələr gəlib ağacdan asılan yüyrüyü görürlər, sevinirlər ki, ev sahibinin uşağı olub. Kişiyə gözaydınlığı verib, keçirlər içəri. Bir az keçəndən sonra görürlər uşaq səsi gəlir. Ev sahibinin arvadına deyirlər ki, uşaq ağlayır, niyə gedib götürmürsən?

Arvad bir az da ağır tərpənəndə qonaqlar özləri çıxırlar çölə. Arvad da onlarla çıxır. Baxıb görürlər ki, beşikdə sarı bir uşaq var, ağlayır. Sən demə, ilahinin əmriylə çəltik dibəyi dönüb olub uşaq, Uşağın adını Sarı qoyurlar. Uşaq böyüyüb haqq aşığı olur. Ona Sarı Aşıq deyirlər.

Qədim zamanlarda bir kişi olur. Onun da üç arvadı olur. Bu kişi yay vaxtı öz arvadlarını yaylağa aparармış.

Bir dəfə yenə yay vaxtı arvadları yaylağa qoyub qayıdır ki, onlara yemək aparsın. Geri qayıdanda bir bulağın üstündə atdan düşür ki, su içsin. Bu vaxt arvad cildinə girmiş bir ilan kişiyə yalvarır ki, onu da özü ilə aparsın. Kişi razılaşır, arvadı özü ilə yaylağa aparır.

Vaxt keçir, həmin arvaddan iki oğlu olur. Bir gün kişi bir dər-vişdən üç dənə üzük alıb evə arvadlarına gətirir.

Həmin arvad deyir ki, ay kişi, bu qızıl deyil, çürükdü. Apar onu yiyəsinə qaytar. Kişi üzüyü dərvişə qaytarır. Dərviş soruşur ki, ay kişi, sən bunu haradan bildin?

Kişi deyir ki, arvadım mənə dedi.

Dərviş deyir ki, ay kişi, sən nə danışırsan o, arvad deyil, ilandı.

Kişi deyir, elə şey olmaz. Həmin arvaddan mənim iki uşağım var. Dərviş deyir ki, sən gərək onu öldürəsən. Əgər öldürməsən sənin özünə zərər toxunacaq.

Kişi deyir:

– Bəs mən onun ilan olduğunu haradan bilim?

Dərviş deyir:

– Bir axşam arvadın bişirdiyi xörəyə çoxlu düz tökərsən, evdəki suyun da hamısını eşiyə tökərsən, qapını bağlayarsan, ayağından bir az ət kəsib yerinə də duz basarsan ki, yata bilməyəsən. Qoy xörəyi arvad özü tək yesin, sən yemə. Bir də baxacaqsan ki, o arvad dirəyə sarmaşıb, qıvrılıb bacadan bulağa su içməyə gedəcək. Gördüyünü gəlib mənə söyləyərsən.

Kişi belə də eləyir. Bir də baxır ki, arvad su axtarıb tapmır, axırda dirəyə sarmaşıb bacadan çıxır.

Sabahısı gün kişi gördüyünü dərvişə xəbər verir, ondan soruşur ki, arvadı necə öldürüm.

Dərviş deyir:

– Arvad çörək bişirəndə, xəmiri təndirə yapan vaxt daldan itələ təndirə sal, ağzını da ört. Sənə çox yalvaracaq, amma fikir vermə, təndirin ağzını açma, ta mən gəlincə.

Kişi arvadı təndirə salır, arvad çox yalvarır, amma kişi təndirin ağzını açmır.

Dərviş gəlib təndirin ağzını açır baxır ki, arvad əriyib bütün qızıl olub. Qızılı yığır xurcununa aparıb gedir.

Qədim zamanlarda qayda-qanuna görə padşahla işi olan elçi daşının üstünə oturarmış. Bir gün elçi daşının üstündə bir ilan oturur. Nökərlər onu padşahın hüzuruna aparırlar. İlan padşahın qabağında bir balta, bir mişar şəkli çəkir. Padşah çağırıb cavan bir oğlana tapşırır ki, balta ilə mişar götürüb ilanın arxasınca getsin.

Onlar yola düşürlər, gəlib ilanların məskəninə çatırlar. Oğlan görür ki, ilanların padşahı maral udub, amma maralın buynuzları çöldə qalıb. Oğlan tez mişarla maralın buynuzunu mişarlayır, ilan rahat nəfəs alır.

İlanlar padşahı oğlanın dəsmalının arasına bir ovuc un tökür.

Oğlan padşahın yanına gəlir, unu ona verir. Padşah əmr eləyir ki, o undan ona çörək bişirsinlər. Çörəkçi unu yumurlayıb təndirə vurur. Lakin başı qarışır, kökə yanır. Yanmış kökəni götürüb atır, əvəzinə başqa undan yaxşı bir çörək bişirir. Həmin oğlan yanmış kökəni yeyir. Bu zaman bütün bitkilər dil açır, hərəsi bir dərdin dərmanı olduğunu söyləyir. Oğlan əhvalatı padşaha danışır. Padşah işi başa düşür, oğlana deyir ki, daha sən loğman oldun. Bu sənin qismətin imiş.

Ördəkli kəndində bir qız varmış. Bir gün bu qız yolnan gedirmiş, qabağına bir ilan çıxır. Görür ki, ilanın üstündə qara yaylıq var. İlan qıza deyir ki, götür bu yaylığı, sənə vergi verirəm.

Qız qorxub qaçır evlərinə. Qızın dili tutulur, onu rəhmətlik Seyid Hüseyn ağagilə aparırlar. Üç-dörd gün orda qalandan sonra qızın dili açılır, Seyid Hüseyn ağaya deyir: Bəs gedirəm, qabağıma

bir ilan çıxdı – üstündə qara yaylıq. Dedi, bu yaylığı götür, sənə vergi verirəm."

Seyid Hüseyn ağa deyir: Bala, sən gərək gedib o yaylığı götürəsən, yoxsa dilin yenə tutulacaq".

Qız gedib ilandan o yaylığı alır. Qıza vergi verilir.

Qız yaylığı sonsuz arvadların belinə bağlayır – uşağa qalırlar, əlini naxoşun boğazına çəkir – boğaz ağrısı keçib gedir.

Bir kişi özünə dolanışıq yeri axtarırmış. Bir qoca deyir:

– Gəl mənim bağrımda bağbanlıq elə, dolan.

Kişi, qocanın bağında bağbanlıq eləməyə başlayır. Bir gün pencəyini çıxardıb atır otun üstünə, gedir ağacların dibini belləməyə. İşini qurtarıb, pencəyini götürəndə görür pencəyin altında iki dənə ilan var. İlanlar qaçır. Kişi görür ilanlar yatan yerdə bir ləl var. Ləli götürüb gəlir evə.

Bir gün kişinin əvəzinə oğlu gedir bağda işləməyə. Oğlan da pencəyini çıxardıb atır otun üstünə. İşini qurtarıb pencəyi götürəndə görür iki ilan var. İlanın birini vurub yaralayır. İlanlar qaçır.

Bir gün kişi oğluna toy eləyir. Qoca gəlib deyir:

– Gəlinin gərdəyinə girəndə oğlunu ilan çalacaq.

Toy qurtarır, oğlan girir gəlinin gərdəyinə. Bir az keçməmiş görür eşikdən səs gəlir. Tez çıxır eşiyə, görür cır-cındırın içində bir arvaddır. Arvad deyir:

– Qardaş, uşaqlarım acından qırılır. Mənə əl tut.

Oğlan çıxardır arvada xeyli pul verir, qayıdır gəlinin yanına.

Səhər kişi oğlunu sağ-salamat görüb sevinir, qaçır qocanın üstünə, deyir:

– A kişi, bəs sən deyirdin oğlunu ilan çalacaq?

Qoca gəlir təzəbəylə gəlin yatan döşəyi qaldırıb kişiyə deyir:

– Bax.

Kişi baxır ki, döşəyin altında bir ilan yatıb.

Qoca ilana deyir:

– Ey Allahın heyvanı, oğlanı niyə çalmadın?

İlan deyir:

– Oğlan bu gecə elə savab iş tutdu ki, günahından keçdim.

Bir ovçu varmış. Bu ovçu ova çıxır, axşam evə qayıtmır. Aradan üç gün, beş gün keçir, yenə qayıtmır. Qohum-qardaş, qonum-qonşu dağa-daşa düşüb onu axtarır – heç bir nişanəsi tapılmır. Deyirlər, yəqin hardasa başına bir iş gəlib, ölüb. Odu ki, ovçuya yas saxlayırlar, ehsan verirlər. Mərəkədə camaatın lap gur vaxtı ovçu, çiynində tüfəng qayıdıb gəlir. Camaat nə qədər soruşur ki, hardaydın, bu vaxta qədər harda qalmışdın – ovçu dinmir. Camaat dağılandan sonra arvadına danışır ki, kolluğnan gedirdim, ayağım boşa çıxdı, düşdüm dərin bir quyunun dibinə. Əlimi işıqlı dünyadan üzdüm, dedim, yəqin bir günahın yiyəsiymişəm ki, düşdüm bura, qalacam burda, qurd-quş basıb yeyəcək məni. Bir az keçdi, gördüm quyunun dibində yol var – ordan işıq gəlir, işıq yavaş-yavaş yaxınlaşır. Yaxına gəldim, gördüm bir ilandı – məni tüfəngli-zadlı udar. İlan yaxınlaşdı mənə, başını qoydu yerə, başladı mənə baxmağa. Qaranlıq düşdü.

İlanın yanında gecələdim. Səhər oldu. İlan quyudan çıxıb getdi. Bir-iki saatdan sonra gəldi, quyunun başından bir dovşan atdı, çör-çöp atdı. Sonra özü də düşdü gəldi yanıma. İşarə elədi ki, çör-çöplə dovşanı bişir. Çör-çöplə od qalayıb, dovşanı bişirdim. Verdim ilana, yemədi. İşarə elədi ki, dovşanın dərisiylə başını ver mənə. Verdim yedi. İşarə elədi ki, dovşanın ətini ye. Yedim. Yeddi gün bu minvalla keçdi. Yeddinci gün yenə səhər durub getdi. Həmişə qayıdanda başı üstə gəlirdi, bu dəfə quyruğu üstə gəldi. İşarə elədi ki, quyruğumdan yapış. Qorxa-qorxa yapışdım quyruğundan. İlan qaldırdı, quyudan çıxartdı məni. Bir əlik vurdum, verdim ona. Quyruğunu qoydu quyunun qırağına, başını yellədi. Yəni mənim barəmdə heç kimə heç nə demə. Ordan birbaş gəldim evə.

Ovçu bunları arvadına danışır. Bərk-bərk tapşırır ki, bu barədə heç kimə bir söz demə.

Aradan xeyli vaxt keçir. Bir gün kəndə bir ovsunçu gəlir. Yekə bir ilanı oynadıb camaata göstərir. Camaat baxıb deyir:

– Nə yekə ilandı.

Ovçu özünü saxlaya bilməyib deyir:

– Bu nə ilandı? Mən bir ilan görmüşəm ki, bu onun yanında yalandı.

Ovsunçu ovçudan əl çəkmir ki, de görüm o ilan hardadı? Yerini görsət, gedim tutum.

Ovsunçu nə qədər yalvarır, ovçu ilanın yerini demir. Çox yalvar-yaxardan sonra ovçu əlacsız qalıb deyir:

– Filan yerdə bir quyu var, ilan ordadı.

Ovsunçu deyir ki, apar məni ora, camaatın gözünün qabağında o ilanı ovsunlayıb tutum, sən də bax.

Ovçu, ovsunçunu həmən quyunun başına gətirir. Ovsunçu bir dua oxuyur, quyunun başında dairəvi bir cızıq çəkir. İlan quyudan çıxır, cızığın içinə girib qıvrılır. Camaatın içində ovçunu görəndə tüpürür onun üzünə. Ovçunun sifəti əpriyib yerə tökülür.

Keçmişdə hardansa seyidlər, dərvişlər gəlib, bizim Zəngilanın Sobu kəndində yurd-yuva salıb. Bu kənd uca bir yerdədir, ondan yuxarıda kənd-kəsək yoxdur. Sobunun suyu başqa kəndlərdən keçib gəlmir deyin, tər-təmizdir. Dərvişləri bu təmizlik çəkib gətirib bura.

Sobuda bir kişi varmış, çayın suyunu üfürürmüş, su qayıdıb geri axırmış. İlanı qamçı eləyib əlinə götürürmüş, divarı at kimi minirmiş. İlanı divara vururmuş, hamının gözünün qabağında divar yeriyirmiş.

Belə deyirlər ki, bir bağban varmış. Bu bağbanın gözünün ağı-qarası bir oğlu varmış.

Bu bağban oğluna yaxşı tərbiyə veribmiş. Bir gün bağban həyətində yer belləyəndə bir qara ilanla ağ ilanın bir-birinə sarmaşıb yatdığını görür. Bağbanın ağ ilanın qara ilanla sarmaşıb yatdığına acığı tutur, o bel ilə qara ilanı vurmaq istəyir, bel ağ ilana dəyir. Qara ilan qaçıb gedir. Bağban ağ ilanı torpağa basdırıb evinə gedir.

Bu hadisədən neçə illər keçir. Bağbanın oğlu böyüyür. Onun evlənmək vaxtı gəlib çatır. Bağban kənd ağsaqqallarını yığıb məsləhət eləyir. Ağsaqqalların biri bağbana deyir ki, toy elə, amma ehtiyatlı ol. Gəlini evə salanda qapıda dur, içəri hər adamı buraxma. Bağban toy edir, gəlini gətirəndə qapıda durur. İçəri heç kəsi buraxmır.

Qara ilan gəlinin donunun altında içəri keçir. Gecə neçə dəfə istəyir ki, bağbanın oğlunu çalsın, eşikdəki adamların bağbana etdikləri duanı eşidib, oğlanı çalmır. Səhər olur. Həmin ağsaqqal kişi səhər tezdən bağbanın evinə gəlir. Bağbandan soruşur ki, bir hadisə baş verməyib ki? Bağban söyləyir ki, yox. Ağsaqqal deyir:

– Oğlun yatan otağa keçək.

Həmin otağa keçirlər. Ağsaqqal deyir:

– Döşəyi qaldırın.

Döşəyi qaldırırlar, altından qara ilan çıxır. İlan getmək istəyəndə, ağsaqqal onu saxlayır. Soruşur ki, ey Allahın heyvanı, bəs nə yaxşı sən bu oğlanı çalmadın?

İlan deyir:

– Bağbanın adamlara elədiyi yaxşılığa görə, oğlunu vurmadım.

Ağsaqqal soruşur:

– Daha bağbanla işin yoxdu ki?

İlan deyir:

– Bağban mənim istəkli sevgilimi öldürüb, mən də onun bircə oğlunu öldürməliyəm.

Ağsaqqal deyir:

– Sənin sevgilini diriltsəm bağbandan əl çəkərsənmi?

İlan deyir:

– Yox.

Ağsaqqal səbəbini soruşur. İlan deyir:

– Bu hadisədən on il keçib. Mənim sevgilim həmənki kimi qalıb, mən isə qocalmışam. Ola bilsin ki, o daha məni sevməsin.

Ağsaqqal deyir:

– Səni necə, cavanlaşdırsam bu bağbandan əl çəkərsənmi?

İlan xeyli düşünür. Nəhayət, razılaşır. Ağsaqqal bağbandan soruşur:

– Ağ ilanı harda basdırdığını bilirsənmi?

Bağban deyir:

– Bilirəm.

Həmən yerə gəlirlər. Bağban yeri qazır, ağ ilanı çıxarırlar. Ağsaqqal onu dirildir. Ağ ilan doğrudan da qara ilana nisbətən cavan olur. Ağsaqqal qara ilanı cavanlaşdırır. Hər iki ilan qol-boyun olurlar.

Sonra qara ilan ağsaqqalla xudahafizləşib gedir. Özü də söz verir ki, bir də bağbanla işi olmayacaq.

Bağban da ağsaqqala minnətdarlıq eləyir. O gündən bağban şad-xürrəm ömür sürməyə başlayır.

Kim ilan bıynızı tapıb nehrəyə atsa, çalxaladığı bütün süt çönüp yağ olacax. Bir arvad nehrəyə süt töhməh isdiyəndə görür ki, içəridə bir ilan var. Qorxup ərini çağırır. Əri maşayınan ilanı nehrədən çıxarır, əmə öldürəmmir. İlan tez bir çatdağa girip gizdənir.

Arvad südü töküp çalxalayır, sora görür ki, pütün süt yağa çevrilip. Nehrənin içini axdarıp ilan bıynızı tapıllar.

Behiştin qapıçısı varıdı. Tavız mələk adında. Bı Tavız mələk şeytanı içəri bıraxdığına görə Allah onun qanadların qırıp göndərdi yerə. İlannar onun nəslidi.

# Mifoloji inamlar

Yer üzündə bir qəriş yer əyəsiz deyil. Hər şeyin öz əyəsi var. Suyun da, evin də, bəğin də, dəğ-dərənin də, ta gözümüzünən nə görürüksə, hammısının əyəsi var. Bı əyələr insana görsəmməz. Gərəh bıllara səlam verəsən.

Hər bir əvin əyəsi var. Əv əyəsi gözə görsəmməz. Ona görə əvə girəndə gərəh bı əvin əyəsinə salam verəsən. Yoxsa sənə də, əvə də sədəmə toxundurar.

Evdə adam olmasa da, içəri girəndə salam verərlər. Deyərlər, evdə kimsənələr var. Onlar evə xeyir-bərəkət gətirir, qaranquş-filan donunda adamın yuxusuna girir.

Suya salam verməsən, sənə qarğış eliyər.

Səhər-səhər durup çayın üsdünə gedəndə salam verəllər. Yoxsa adama zəfər toxunar.

Siftə bişən çörəkdən qurda-quşa atarlar ki, evdən bərəkət kəsilməsin.

Sübh vaxdı, axşam çağı suyun başına gedəndə salam vermək lazımdı. Suda Qarı nənə adlı bir şəxs yaşayır. Əyər ona salam verməsən, acığı tutar, sənə xətər toxundurar.

İnsan sudan əddıyanda səlam verməlidi. Yoxsa su əyəsi acıxlanar, adama zəfər toxundurar.

Su əyəlidi. Suya gedəndə gərəh səlam verəsən. Yoxsa su əyəsi sənnən inciyip zərəl vırar.

Əyər bilmiyip çörəyi ayaqlasan, gərəh üç dəfə öpüp gözüvün üsdünə qoyasan, yoxsa çörəh sənə qənim olar.

Ocağa tüpürməh, üsdünə su töhməh, ya da ayaxlayıp söndürməh olmaz. Yoxsa ocax sahabının acığına gələr, adama zəfər toxuyar.

Ocaxlara gedəndə səlam verəllər.

Boş evə girip səlam verəndə Allaha səlam verillər.

Əxşam evə girəndə səlam verip deyillər ki, qorxma, a əv əyəsi, mən sənnən heş bir şey götürmüyəciyəm.

Boş əvə girəndə gərəh salam verəsən. Əvdə adam olmasa da, əvin sahabı ki əvdədi.

Əvdən çıxanda da deyillər ki, səlamat qal, a əv əyəsi, mən getdim, genə qəyidəciyəm.

Ayın içində bir qızınan bir oğlan oturub. Hər kim onnarı görsə xoşbaxt olar, deyəllər.

Xırmanı savıranda deyillər ki, Yel baba, Yel baba, gəl atıva saman apar. Onda yel əsir, xırmanı yaxşı savırıllar.

Elə ocax var ki, orda qara qoç qurban kəsəllər. Elə ocax var ki, orda səkil qoç (qara, ayağı ağ qoç) qurban kəsəllər.

Qaramannı pirinin qurbanı iribuynuzlu mal, qara qoyun, nəziri qızıl onluxdu.

Elə dədə-babadan Şahpur dağını ocax sayırıx. Kimin nəziri varsa, aparır qoçu, ya qoyunu dağın yanında kəsir. Sora dağın dibində bulax var. Şahpur bulağı. Həm qurbanı, həm də bı qurbanı kəsən pıçağı o bulaxda yuyullar. Ancax kəsilmiş qurbanı heş vaxt Şahpur dağında yeməzlər. Gətirip kətdə əv-əv paylıyallar.

Novruz bayramında hamı gedir Şahpura. Dağın lap aşağısında taxçalar var. Orıya şam qoyup yandırırıx. Sora hərə ürəyində bir niyyət tutup dağa xırdaca daş atır. Kimin niyyəti bitəcəksə, daş yapışır dağa. Kiminki yerinə yetmiyəcəksə, yapışmaz, düşər yerə.

Bı dağ ocaxdı. Hər yannan bıra adamnar gəlir. Ant içəndə üzümüzü tutarıx Şahpura, deyərik: “Bı ocax haqqı”.

Bizim kənddə at heykəlləri var – qara daşdandır. Uşaqları aparıb bu atların üstünə mindirərik ki, diribaş olsunlar. Xəstə uşaqları bu atların qarnının altından keçiririk ki, şəfa tapsınlar.

Bizim kəndin üstündə bir qaya var – ay şəklindədir. Yeriməyən uşağı aparıb o qayanın altından keçirirlər.

Deyirlər, Humay adlı bir qadın varıymış, uşağı olmurmuş. Niyyət eləyib gedir, başını bir qayanın üstünə qoyub yatır. Ondan sonra

uşağa qalır. O vaxtdan o qayaya Humay qayası deyirlər. Camaat ora ziyarətə gedir.

Humay qayasının altında bir daş var – deşikdi. Özüm görmüşəm. Şüşə arvad nəvəsini gətirib o deşikdən keçirtdi ki, uşağın sümüyü bərkisin, tez yerisin.

Baba dağınnan gətirilən daşı suya qoyanda yağış yağır.

Göbəkdaşı bizim Üçtəpə tərəfdə, Arpa dağıyla Buğda dağının arasındadır. Uşağı olmayan qadınlar Köbəkdaşına gedərlər. Qarınlarını açıb, göbəklərini o daşın göbək yerinə qoyarlar, fırlanarlar ki, uşaqları olsun.

Kimin dalağı uzanarmış, aparıb Sandıqdaşın dibinə buz basdırarmış, qarnını bu daşa sürtərmiş, bunnan da sağalarmış. Qulunc xəstəliyi olanlar da gedib o daşda quluncunu qırarmış ki, azar-bezarı çəkilib getsin.

Bir kişinin qırx oğlu varmış. Bir gün onlar namaz qıldıqları yerdə daşa dönüblər. Kişi Allaha şükür eləyib ki, mənim balalarım ibadət vaxtı ölüblər. Allahın xoşuna gəlib, kişiyə bir oğul da verib.

Qırxlar piri o vaxtdan qalmadır.

Qaracallının üstündəki düzdə bir Çobandaş var. Baxırsan, elə bil yapıncıya bürünmüş bir çoban durub.

Deyirlər, bir çoban qoyunu gətirib bu düzdə yatırır. Birdən göy guruldayır, ildırım şaqqıldayır, çoban qoyunlu-quzulu dönüb daş olur.

Kimin həyətində qoyun varsa, hər gecə onun üstünə yeddi dəfə nur gələr. Qoyunun yiyəsi pak adam olmazsa, nur evin dövrəsini fırlanıb qayıdar.

Deyillər ki, bulut əjdaha şiklinə düşüb yerə sallanarsa, ona qurban kəsillər ki, ziyançılıq törətməsin.

Görürsən ki, bir uşax bir şey yeyir, o birinə vermir. Onda, o biri deyir ki, mənə də ver, yoxsa ilanım səni vırar... Nə bilim axı, deyillər ki, hər adamın bir ilanı var.

Hansı öydə ilan var, o öydə xeyir-bərəkət olar. Ona deyillər öy ilanı. Öy ilanını öldürməzdər. Öldürəndə öydən xata-bala əysiy olmaz. Bizim kətdə biri öldürmüşdü. Başına neçə iş gəldi.

İlan yatan yerdə xəzinə olar.

Gül iyinə, insan nəfəsinə gələn ilanlar var – onları öldürmək günahdı.

Sobuda ilan ocağı var. O ocaqdan torpaq götürüb gətiririk. Əskiyə büküb, tutiya eləyib, uşağın yaxasına tikirik.

Xudavəndi-aləm hər nəslin özünə görə ilanını verib. Hər sofunun öz ilanı var.

Bir gün Hümbət adlı bir sofunu ilan çalır. Öz ilanı çalmır, başqasının ilanı çalır. Hümbət zəhəri sümürüb tökür yerə, ilanı tutub gətirir. Səftər adlı bir kişi vardı – bu kişi gəlir. Deyir:

– Evin tikilsin, hələ bu ilanı salamat saxlayıbsan?

Səftər kişi vurub ilanı öldürür. Hümbət zülüm-zülüm ağlayır ki, ilanı niyə öldürdün?

Ocax ilanını öldürməh olmaz, günahdı. Hər evdə yeddi ocax ilanı olur. Biri fərəhdi, biri mələhdi, qalan beşi evə dirəhdi. Fərəh ilan ziyannıx eliyər. Mələh ilan köməhliy eliyər, qalanları da əvə bərəkət, urzu gətirər.

Ziyannıx eliyən fərəh ilanı öldürməh lazımdı. Onda əvdə həmişə xoşbaxtlıq olar. Əncax bı birilərdən öldürsən, evin urzusu qaçar, ocağın sönər.

İlanın özündə ağı olmur. Ona ağını siçovul verir. Onun iyi gələndə ilan qorxmur. Kim üstündə siçoyul dərisi gəzdirsə onu heçavax ilan vurmaz. İlan adamı qorxusunnan vurur.

Əgər öydə bir torvada, ya bir xəlvət yerdə qurdun aşıx sümüyünü saxlasalar, o öydə həməşə bollux, bərəkət olar.

Bir heyvan itəndə qurdun ağzını bağlıyallar ki, ona dəyməsin. Amma heyvan tapılanda gərəh qurd ağzını açasan. Yoxsa günahdı, qurd aj qalar.

İnəyi çöldə qalan əlinə qazan götürüb üç dəfə hərləyir, deyir: “Allah, sən canavarların dilini-azğını bağla, mənim heyvanıma dəyməsin”. Bu sözləri deyəndən sonra qazanı ağzı üstə yerə qoyur.

Bir adamın gəbəsi-filanı itəndə qurd əli yandırırlar, oğrunun əl-ayağı qıc olur.

Qurdun əlini harda yandırsan, orda quraqlıq olar. Ona görə də qurdun əlini aparıb uzaqda yandırarlar ki, quraqlıq uzaq olsun.

Əyər qurd dişi tapıb cibivə qoysan gecə hara gedirsən – get, heş nədən qorxmuyassan.

Ağacın, otun, çiçəyin – hər şeyin murazı var. Oları yaşıl vaxtı qırmaq olmaz. Bu vaxdı olar muraz üstündə olullar. Qıranda murazı gözündə qalır, adama qarğıyır.

Qarağac, dağdağan ocaxdı. Oları qırmax, kəsməh günahdı. Adama qarğıyar; işi düz gətiməz.

Kəndimizdə bir ocax tut varıdı. Onun putağın qıranda yerinnən qan axırdı. Qıran adamın da kökü batırdı, nə qədər qahım-əqrabası ölürdü.

Pirdən ağaş qırıp həyətə gətirməzdər. Yoxsa pir sahabı pütün əvi oddar.

Qarağaclıyla bizim kəndin arasında bir tut ağacı var. Niyyət eləyirsən, niyyətin hasil olanda aparıb o ağacın altında ehsan verirsən.

Bir tut ağacı da kəndin ortasındadı. Başı ağrıyanı, ağzı əyiləni gətirirlər, ağacın dibinə nəzir qoyurlar, deyirlər: "Ey pir, sən kömək ol, filankəs qada-baladan qurtarsın!"

Niyyət eləyib, gecə bu ağacın altında qalanlar da olur.

Deyirlər, bu ağaca ilanlar da gəlir. İlanın boğazında sür-sümük qalır, gəlir bu tutun dibinə. Ağac kömək olur, ilanın canı sür-sümükdən qurtarır.

Bir tut ağacı da var – köhnə qəbiristanlıqdadı. Mən gözümü açandan o ağacı orda görmüşəm. O ağaca Ələm ağacı deyirlər.

Dağdağan ağacını qırmazdar. Çünki adama qarğış eliyər, bı qarğışın altınnan çıxmax da çox çətindi.

Əyər qırmısansa, gərəh üsdünnən asasan ki, sənə göz dəyməsin.

Avdalanlının yanında bir dağdağan var. Bu dağdağana Diş ağacı deyirlər. Ağacın yanında günbəz də varıymış – bir "incinar" uçurdub. O "incinarı" güllələyiblər.

Aparıb Diş ağacının dibinə nəzir qoyurmuşlar, ağacın budaqlarına qırmızı yaylıq bağlayırmışlar.

Hacı Qaramana bir çəlik verirlər, deyirlər bu çəliyi harda yerə sancsan, orda məskən salarsan.

Hacı Qaraman çəliyi gətirib burda torpağa sancır. Çəliyin yerindən bir ardıc ağacı bitir. İndi o ardıc pirdir. Aparıb o ağacın dibində çıraq yandırırlar.

Qaramux, çinar, saqqız... ağaclarını kəsmək günahdır. Bir saqqız ağacı var – pirdir. Bu ağacın altında başını qoyursan daşın üstünə, yatırsan. Əgər yuxuda bir nurani dərviş, bir əlində ağac, bir əlində də təsbeh gəlib dursa başının üstə, desə ki, filankəs, sənin payını verdim, onda muradına çatacaqsan. Yox, əgər dərviş yuxuna girməsə, onda muradın hasil olmayacaq.

Bir oğlan gedib, Buğukər pirinin yanındakı ağacların birini kəsir. Görür ki, ağacın kəsilən yerindən qan damır. Qorxudan oğlanın dili tutulur.

Oğlanı aparıb baxıcıya göstərirlər. Baxıcı deyir ki, oğlan günaha batıb, aparın Buğukər pirində qurban kəsin.

Buğukər pirində qurban kəsirlər, oğlanın dili açılır.

Tup-tup piri var – mağara kimi bir yerdir. Daşdan damcı damır. Quraqlıq vaxtları aparıb Tup-tupda xoruz kəsirlər (heyvan kəsmək olmaz). Pirin suyundan gətirib zəmiyə səpirlər ki, yağış yağsın. Ancaq suyu gətirəndə gərək dönüb dala baxmayasan.

Yazı düzündə taxıl susuzluqdan yanırmış. Camaat Allaha üz tutub deyir: "Ay Allah, yağış yağdır, bulaq üstə qurban kəsəcəyik!"

Yağış yağır, camaat aparıb Yazı düzünün yuxarı dərəsindəki bulağın üstündə öküz kəsir. O vaxtdan o bulağın adı qalır Nəzir bulağı.

Hansı həyətdə bayquş ulasa ev yiyəsi qorxar. Tez duz-çörək gətirip quşun qabağına qoyar və deyər: "Səni and verirəm bu duz-çörəyə, çıx bırdan get, bizdən uzax ol".

Quş həmin yerə bir də gəlməz.

Xıdır Nəvi giçcih çilədə olar. Xıdır Nəvidən üç gün qavaq, üç gün də sonra yel əsir. Ona deyillər "Xıdır Nəvi yeli". Xıdır Nəvi bayramında yaxşı taxıl qoyrurux, qoyud çəkirih. Axşam qoyudu bir cəmdə pəncəriyə qoyurux. Yanına da bir dolça su, bir dənə də güzgü, diləy elyirik – Qurvanı olduğum gələndə sudan atına içirdir, özü də qoyudun üstündə bir iz qoyuf gedir. İz qalanda deməh yerinə yetəjəh. Onda gərəh savah açılan kimi bir qurvan kəsif camahata paylıyasan.

Xıdır bayramı Kiçih Çillədə olar. Bayram vaxdı qavırğa qavırallar, gəlinnərə Xıdır xonçası aparallar. Uşaxlar bir torba götürüp qapı-qapı gəzər, Xıdır payı isdiyəllər.

Xıdır bayramında axşam qızdar çoxluca duzlu çöçə yeyip su işməzdər. Gecə yuxuda hansı küçədən, hansı həyətdən su işsələr, deməh, bınnarın qisməti ordadı.

Xıdır Nəbi bayramında buğdanı yağın içində qovurarlar. Sonra onu kirkirədə üyüdüb "qovud" adlanan narın hissəsini və "yarmalıq" adlanan digər iri hissəsini ayrı-ayrılıqda qablara tökərlər. Bayram ediləcək vaxtdan bir gün əvvəl evin kiçik evladını (oğlan uşağı) alma çubuğu dalınca göndərirlər. Gətirilən şövlər uc tərəfdən səliqə ilə pambığa sarınıb yağda qızardılar. Axşam evin böyüyü (ana) bir-bir şövləri götürüb niyyətlərini sadalayar. Hər şöv bir niyyət üçündü. Yurdun salamatlığı, mal-qaranın məhsuldarlığı, bağ-bağçada bolluq, oğul-qız toyu və s. niyyətlər edilər. Sonra həmin şövlər dəstələnib orta hissədən pambıqla bağlanar və qabdakı unun üstünə sancılar. Burada Xıdır Nəbinin onların üstündə göz olması üçün də ayrıca çubuq qoyular.

Gecə düşəndə həmin dəstələnmiş çubuqlar şam kimi yandırılar. Özü yanıb keçənədək ona toxunulmaz. Həm də səhərə qədər qablardakı una əl vurulmaz. Çünki əvvəlcə Xıdır Nəbi gəlib öz payını götürməlidi.

Novruz bayramında ağaclar yatırlar.

At ancaq Novruz gecəsində üç dəfə göyşüyür. Deyərlər ki, kim onun göyşəməyin görsə ona vergi verilər.

Çərşənbə gecəsi sular dayanar, bütün ağaclar isə başını aşağı salıb yatar, səhərisi durarlar.

Axır çərşənbədə qızlar yumurtayla cövhəri götürərdilər, aparıb bir çəmənliyə qoyardılar. Əgər o gecə çəmənliyə şeh düşsəydi, yumurta cövhərə dəyib qırmızı boyansaydı, onda qızların niyyəti hasil olardı.

İlin-ayın axır gejəsi ağaşdar səjdiyə gedəndə su durur. Su duranda elə ki, at kişnədi, nəyi desən o, qızıla çöyrülür.

İlin-ayın axır gejəsi axar su durur. Suyun qırağında nə ki, gözün görən nəfəssiz şey varsa hamısı başını əyif suya səjdiyə gedir. Ağaşdar dümdüz yerə sərilir. Sonra genə qalxır. Həmin vaxtı sudan kim götürsə ona deyillər, "zəmzəm suyu". Ona "lal suyu" da deyillər. Onu gətirən gedif-gələndə danışmır.

İlaxırın səhərisi obaşdannan gedərdik çaya. Suyun üsdünnən tullanardıx, sora suyun içinnən çınqıl götürərdik, ağaşdan xırdaca çöplər qırıb sapınan bağlıyardıx, qablarımıza doldurardıx gətirərdik əvə. Çöpləri qoyardıx buşqağa, çınqılı qoyardıx buğdanın içinə, unun içinə, çörək taxçasına, yağ qabına, pul kisəsinə. Elə yerə qoyardıx ki, bərəkət gətirsin. Suyu səpərdik əvə, həyətə.

İl təhfil olanda bir yumurta, bir qırmızı, bir də qara karandaş aparıp qoyursan çay qırağına, ürəyində də niyyət tutursan. Səhərisi gedip görsən ki, yumurtanın üstündə qırmızı xətt çəkilip, bil ki, niyyətin bitəcəh, əyər qara xətt çəkilipsə niyyətin bitmiyəcəh.

İl təhfil olanda su dəyişir. Təzə sudan gətirip həyətə, evə, tavlıya səpillər, evdə yatannarın gözünə tökülləр ki, aydınnıx olsun.

İl təhfil olanda söyütdər başın əyip suya dəyər, sora düzələr.

Yazda birinci dəfə sel gəlir ha, onda, o selin qabağınnan kim su doldurub işçə bütün xəsdəlikləri sağalar.

Göydə hər adamın bir ulduzu var. Bı ulduz batanda, yaxut axanda adam ölər.

Ölünü təh qoymazdar, yoxsa şeytan gəlip imanını aparar, o dünyaya imansız gedər.

Ölü basdırılanda üç gün keşik çəkmək lazımdı. Həm də qəbrin yanında şam yandırarlar ki, ölünün ruhunu şər qüvvələr apara bilməsin.

Bəzi yerlərdə ölü çox düşəndə güman edilər ki, kiminsə qəbirdə əl-ayağı tərpənib. O qəbri tapmaq üçün qəbristanlıqda at gəzdirərlər. At hansı qəbrin yanında dayansa, deməli o qəbrin ölüsü əl-ayağını tərpədibmiş.

Ölü yuyulan yerdə gərəh gecələr üç gün ya çırax, ya da şam yansın.

Deyillər ölən adamın üstündə pişih gəzsə o dirilər.

Yas yerində üç gün ayaxqabını qapı ağzında cütdəməzdər. Çünki bı, Allaha xoş getməz, o əvdə həmməşə ölü ölər.

Ölüyü basdırıp qəyidəndə ölü qalxır, başı əhlət daşına dəyəndə çığırır. Onun səsini bir molla, bir qara qoyun, bir də xoruz eşidir.

Ölüyü basdıranda onun qavrının üstündə gərəy üç gün işıq yandırasan. İşığı görəndə ərdoy, kaftarküsdü, göreşən-zad yaxın gəlməz.

Üç günnən sonra qavır köhnəlir. Daa ona heş nə yaxın durmur.

Meyitin üstünə daş qoyarlar. Torpağa basdırmağa aparanda isə həmin daşı dalınca atarlar ki, xata-balanı özü ilə aparsın, bir də ölü düşməsin.

Qəbir üstünə gedəndə bir daş götürüp baş daşını taqqıldadırsan, adıvı deyirsən. Onda ölü bilir ki, kim gəlip.

Adına axşamı qaş qaralanda ölülər paya gəlir. Gərəy öydə yağlı yeməh pişə ki, ölü də doyub gedə. Hər ölü öz ocağının başına gəlir.

Cuma axşamnarı ölünün urufu gəlip öz evinə baş çəkir. Gərək həmən gün əvdə yaxşı xörəh olsun, şaddıx olsun ki, ölünün urufu da irazı qalsın.

Hər cümə axşamı ölülərin ruhu gəlir öz evinə. Əyər əvdə deyip-gülməh olursa, bı ruhlar şad qəyidillər. Əyər dava-dalaş olursa, ruhlar da söyüp, qarğış tökə-tökə gedillər.

Şər vaxdı su içməzdər. Çünki şər vaxdı ölülərə su verillər. Hər kim şər vaxdı su içirsə, öz yaxın ölülərinə veriləsi suyu kəsir.

Əri, yaxud arvadı ölmüş adam təzədən əvlənəndə suynan dolu bardağı ölən yoldaşının başdaşında sındırar.

Cümə axşamı kimi torpağa tapşırsalar ona sorğu-sual olmur.

Ölünü basdıranda üsdünə güzgü, qəyçi, ya da pıçax qoyallar.

Uşağın yanında şeşənin adını çəhməzdər. Yoxsa şeşə gəlip uşağı vırar.

Şeşə qız yox, oğlan uşağına zərər toxuyur. Şeşə vıranda uşağın boğazınnan vırır, uşax qərəlip boğulur. Ona gora da oğlan uşağını altı aylığına qədər gözdəmək lazımdı.

Şeşə – qəyıpdan gələn bir quşdu. Əncax gecələr uçur. Qırxlı uşağın üsdündən keşsə uşax qərələr, boğulup ölər.

Gərəh şeşəni tutan kimin öldürəsən. Əgər öldürsən, sən olursan şeşə anası. Onnan sora hansı uşağı şeşə vırsa gedip əlivi çəkirsən uşağın boğazına, səğalır.

Şeşəni tutanda miras qalmış qızılınan başını kəsəllər. Bıçağınan kəsəndə o, təsirdən düşər, şeşənin başını kəsməz. Elə ki, şeşəni miras qızılınan kəsdin, sora onu qurudursan, əzip un kimi döyürsən. Sora da barmağıvı bı şeşə tozuna batırıp vırırsan uşağın damağına. Ta heş vəxdi şeşə bı uşağı vırammaz.

Şeşə bir quşdu. Uşax olanda bı quş əvə girsə, uşax qalmaz, ölər. Arvad uşaq gətirəndə şeşəni tutup miras qızılınan başını kəsip əvə gətirəllər. Onnan sora uşax doğulanda diri şeşə gəlsə də uşağa heş-dad olmaz.

Şeşə uşağı təh qalanda vırar, öldürər. Gərəh şeşəni tutasan, miras qızılınnan başın kəsəsən, bədənin müşəmbiyə bükəsən, bını uşağın üstünə tikəsən. Onda, bı uşağa şeşə heç bir şey eliyəmməz.

Uşağın adını bələhdə qulağına deməsən, uşax yekələndə yalan-çı olar.

Qırxlı uşağın üsdünə qızıl üzüh, sırğa, bilərzih taxan adam gəlsə, uşax sarılıx tutar. Belə adam gələndə uşağı qaldırıp baş üstündə tu-tallar. O adam uşağın altınan keçər. Onda uşağa heş dad olmaz.

Qırxı çıxmamış uşağın üsdünə ölü yerinnən gəlməzlər. Həmən adam əvvəl bir həyətə girif sonra gələr.

Uşağın başına sancax taxıllar ki, bizdən yeylər ona yaxın dü-şəmməsin.

Uşağın başının altına pıçax, çaxmax daşı qoyanda qorxmaz.

Dağdağanı deşip uşaxların üsdünə tikillər ki, nəfəs dəyməsin.

Uşağı bəliyənnən sora əlivi yerə toxundurup kürəyinə vırırsan, deyirsən ki, yuxum sənin. Onda uşax irahat yatır.

Uşax yıxılanda barmağı basallar onun yıxıldığı yerin torpağına, sürtəllər uşağın damağına. Əyər belə eləməsən torpağın sahabı uşağa sədəmə toxundurar.

Uşax ki uca yerdən yıxıldı, heşdad olmadı, deyəllər ki, onu göydə mələhlər tutup. Çünki mələhlər həmişə xırda uşağı qoruyar.

Yeriyə bilməyən uşağa "çiləli uşaq" deyirlər. Gərək onun çiləsini tökəsən. Bundan ötrü uşağı daşın, qayanın deşiyindən, dəyirman novunun altından keçirirlər, böyürtkən kolunun başına dolandırırlar.

Çiləli uşağı üç cümə axşamı xəlbirə qoyub, evbəev gəzdirirlər. Hər evdən bir çörək alıb, naxırçıya verirlər.

Uşağın qorxuluğunu götürmək üçün çərşənbə günü ərsini odda qızdırırlar. Bir cam su götürürlər. Uşağın baş tərəfində, orta tərəfində, ayaq tərəfində ərsini suya basırlar. Sonra camdakı sudan götürüb, uşağın üz-gözünə çəkirlər.

Uşax qundaxda gülsə, deyəllər ki, şeytan dədəsinin məzəsini çıxarıp, uşax da gülür.

Əyər ağlasa, deyəllər ki, şeytan deyip: "Anavın əmcəyini kəsəciyəm". Uşax da ağlıyır ki, aj qalacıyam.

Uşağın kürəyi pütün olanda gərəh onu heş kim görməsin. Görməsələr uşax pəhlivan olacax. Görsələr uşax öləcəh.

Birinci kərəm kim görsə, gərəh uşağın çeçələ barmağını sındırsın, sora uşağın kürəhpütünlüyünü qoyunun qulağına desin. Sora bı qoyunu uşağa qurban kəssinlər. Onnan sora isə sirri hamı bilsə də uşağa heş dad olmaz.

Zahını təh qoymazdar, yoxsa hal anası gəlip onun ürəyin, ciyarın çıxarıp aparar.

Qırxlı uşağı da təh qoymazdar. Çünki hal anası ya bacadan düşər, ya da divardan çıxar, uşağı əmizdirər. Onnan sora o uşağın ağlı-huşu olmaz.

Elə arvaddar olur ki, doğduğu uşax qalmır, ölür. Onda deyillər ki, bı arvad həmzaddıdı. Əyər bı arvad həmzadın töhməsə, uşağı həmməşə öləcəh. Qəlbiqara, paxıl adamnar həmzadın tökər başqa adamın üsdünə, öz uşağı diri qalar, onunku ölər. Əmə qanacaxlıları

həmzadın tökər it-pişiyin üsdünə. Bı belə olur: həmzadlı arvat gedir təzə doğmuş itin, pişiyin, ya da başqa bir heyvanın yanına. Ürəyində deyir ki, həmzadımı tökürəm sənin üsdüvə.

Bınnan sora o heyvanın balalarınnan biri ölür, arvadın uşağı isə ta ölmür.

Qırxlı uşax əvdə təh qalsa cin gəlib onu öz uşağıynan dəyişdirər. Gərəh uşağın paltarına sancax vırasan ki, cin onu dəyişdirəmməsin. Əgər dəyişdirsə, onda bı dəyişilmiş uşax həmmişə arıx-sısqa olur, heç artıp-ağarmır. Bına deyillər cin dəyişəyi.

Qırxlı uşağı təh qoyanda cin gəlip onu dəyişir, öz uşağın qoyup bını aparır. Bı uşağa cin dəyişəyi deyəllər, o nə artar, nə ağarar, elə ömrü boyu bədənnən sısqa olar, ağıldan kəm olar.

Öz uşağıvı qəytərməh üçün gərəh gedəsən qəbirsənniyə. Yeddi qəbir keçip yeddi iynə, yeddi irəh sap quyluyasan: uşağı da ora qoyup gizlənəsən. Cin dəyişəyi ağlıyacax. Onun səsinə cin gələcəh o, öz uşağın götürüp səninkini qəytərəcəh.

Hal anası cinnərin anasıdı. Cinnər yerin altında yaşıyıllar.

Hal nənəsi soğanınan şişdən qorxur. Ona gora da zahının başı altına soğan, yanına şiş qoyullar. Həm də zahının dört bir tərəfinnən cızıx çəkillər. Ta onnan sora hal nənəsi zahıya yəxın düşəmmir.

Zahı tək qalanda hal anası zahıya deyər ki, ver uşağıvı əmizdirim. Əyər zahı uşağı versə, hal əmizdirən kimi uşax dəli-cinni olacax. Əyər verməsə, hal zahının özünü aparacax, ciyərini çıxarıp suya çəkip yeyəcəh. Gərəh hal zahını aparan kimin suyu qılışdıyasan. Onda hal qorxup zahının ciyərin qəytərəcəh.

Mal ciyərin suya pütün basmazdar, onda hal hardasa bir zahını aparar. Gərəh ciyəri doğruyup yuyasan.

Zahı arvadın ayağının altına qayçı, bıçaq, tüfəng qoyurlar, yaxasına iynə-sancaq taxırlar, dörd tərəfinə sicim sərirlər, yastığının altına duz, çörək qoyurlar, suyu xəncərləyirlər ki, hal gəlib onu aparmasın.

Halın boynundakı muncuğu götürüb evdə saxlasan, hal o evə yaxın düşməz.

Hal anasının mıncığını nehrənin üstünə qoyanda südün kərəsi çox olar.

Hal həmlə arvadların qabağına çıxıp iynə-sancax istiyər. Olmıyanda daşa çırpıp öldürər, içini çəkip çıxarar eşiyə.

Həmlə arvat yatıp qurtarannan sora başının altına bir şiş, bir soğan, bir iynə, qapının dalına isə bir şana qoyallar. Gərəh zahının yanında üç gün kişi olsun, onda hal anası ona yaxın düşəmməz. Əyər hal anası zahını aparsa, kişi tez eşiyə çıxıp güllə atar. Hal qorxup qaçar, zahı da sağalar.

Hal hündür, caydaq arvatdı. Yekə seyrəh tişdəri, sarı saşdarı olur. Uzun əmcəhləri var, hərəsini bir çiyninin üstünnən geri atıf gəzir. Qavaxdan baxanda halın təhcə ciyarrarı görükür. Amma geridən baxanda görürsən ki, yekə, uzun arvatdı.

Bir adam halı tutannan sonra buraxsa, hal bir söz dəər, bir duya eliyər. Onda öydən bərəkət əysiy olmaz. O öydə xamır qatılanda nə

qədər kündələsən qutarmır. Gərəh kündədən kəsdiyini geri təhniyə tulluyasan ki, xamır qutara. Ama ayrı vaxtı olmaz. Kündədən kəsiləni geri tullasan bərəkəti tükənər.

Bir adam tutduğu halı yazığı gəlif buraxsa, hal onun yeddi arxadan dönəninə dəyməz.

Hal adamı aparanda dəmir qavları döyüllər, tüfəy atıllar, xançalnan suyu doğruyullar. Gərəh hal ciyarı aparıf suya çəhməmiş suyu doğruyasan. Onda ciyar geri qayıdır. Zahı ölmür.

Hal anasının mıncığı olar. Gələr bı mıncığı bacadan sallıyıp zınqıldadar. Gərəh zahı bını görən kimi tez qarmaxlı şişinən dartıp mıncığı qıra. Əyər qırmasa mıncığın zınqıltısına uyacaq, huşu gedəcəh. Hal da bının ciyarın çıxarıp aparacax.

Hal anası insan şəklində olub, həm də kiçik qız uşağı şəklində gözə görünər. Yalnız yeni doğan qadınların ciyərini apararlar. Ona görə də hamiləlikdən qurtaran qadının sinəsi üstünə sini qoyar, üstündə təzək yandırarlar.

Hal anası uzun əmcəhli bir arvatdı. Əmcəhlərini atır çiyninə, gəlir zahı arvadın ciyarını çıxarır. Gərəh zahının başı altına bir dəmir parçası, birəz çörəh, bir də Quran qoyasan. Onda hal anası zahıya yaxın düşəmməz.

Fatmeyi Zəhra bütün doğan arvadları hal anasından, cinnərdən qoruyur. Əyər zahı həmməşə Fatmeyi Zəhranı köməyə çağırsa ona heş dad eliyəmməzdər.

Bir də baxırsan bir yanda yağış yağır, bir yanda gün çıxır, Fatma ana hanasını uzadır.

Fatma ana – dünyanın anasıdır. Fatma ana hanasını quranda kim ətəyini daşnan doldurub, hananın altından keçsə, daş dönüb qızıl olar.

Fatma ananın hanası – dünyanın dolağıdır, yağış yağanda çiçəklərin rəngini çəkir özünə. Deyirlər bu dolağın altından keçən oğlan dönüb qız olar, qız dönüb oğlan olar.

Cin geyilməmiş təzə paltarı aparıp geyir, sora gətirip yerinə qoyur. Bir də görürsən ki, geymədiyin paltarda ləkə var, ya da bir yeri cırılıp. Əyər isdiyirsən ki, təzə paltarıvı cin aparsın geyməsin, onda gərəh paltara səncax vırasan, iynə taxasan.

Cinnər toy eliyəndə gəlip əvlərdən qəzan, düyü, yağ oğurruyup aparallar, plov pişirəllər. Onnar toyda əncax plov yeyillər. Əyər bir adamı alladıp öz plovlarınnan ona yedirtsələr, o adam da olur cinnərin tayı.

Adamı cin vıranda ona tas qurullar. Bının üçün yazılı kasıya su töküllər. Tütəh çalıllar. Cin nə şəklində adamı vırıpsa şəkli düşür suya. Bilillər ki, adamı hansı cin vırıp. Ona yalvarıllar ki, vırdığıvı bağışla, günahınnan keç. Cin də ya keçir, ya keçmir.

Çox vaxt cin it şəklində adamı vırır.

Çər də Çor da bizdən yeylərdəndi. Onnar həmməşə insanın var-dövlətinə zərəl vırallar. Çər tərri atı vırıp öldürər ki, insan piyada qalsın, yol gedəmməsin.

Çor isə iki cürdü: Biri Ağ Çordu ki, bostanı vırar, bostan ağarar, məhsul zay olar.

İkincisi Qara Çordu ki, bağ-baxçanı, ən çox da üzümü vırar, qaraldıp xarap eliyər.

Bir də görürsən at hürkək-hürkək dönüb dala baxır. Bilirsən ki, atı çər vurub, qorxub. Atı aparırsan qəbiristanlıqda dolandırırsan, at çərdən qurtarır.

At çərləyəndə onun gəmirçəyindan qan alırlar.

Evdə oturup çörəh yeyəndə gərəh pismillah deyəsən. Çünki bizdən yeylər də sənnən oturup yeyillər. Pismillah desən, onnar çıxıp gedəcəy, çörəyivi rahat özün yeyəcəhsən.

Çörəy açanda bizdən yeylər də adamın yanında olur, çörəydən yeyillər. Gərəh Allahın adını tutasan ki, bınnar qaşsın, çörəyini rahat yeyəsən.

Cini tutanda soruşullar ki, bı əvin nəyinə bərəkət? Cin nəyi desə, evdə o şey bol olar.

Bizim əyağımızın altı bizdən yeylərinən doludu. Onnar iyniyə cici deyillər. Bizdən yeylər iynədən, sancaxdan qorxur, heş vəxdi də qoyun, keçi olan yerrərdə olmur.

Bizdən yeylər ağaş altında, su qırağında olur. Özlərinin də imarəti olur. Bınnar insannardan yaxşıdılar.

Uşağın üsdünə bərk çığırıp yüyürsən, onda bizdən yeylər sənnən qəbax çatıp uşağı vırar.

Dəmiri çalanda bizdən yeylər qorxup qaçar.

Gecə vaxdı arvadlar başıaçıx eşiyə çıxsa, başına qurt donu düşər, qəyidip evdəkiləri yeyər.

Zahı arvad navdan altında otursa, başına qurt donu düşər, olar adamcıl. Başdıyar uşax yeməyə.

Cinnər köhnə dəyirmanda, tavlada, hamamda yaşayır, ən çox da uçux, xaraba yerrərdə olur.

Adam üsdünə qara şəvə taxanda onu qara basammaz.

Yerə isdi su atanda gərəh pismillah deyəsən ki, cinnər qaşsın. Yoxsa cinin balasını yandırarsan, sənə zərər toxundurar.

İsdi suyu yerə tökəndə bizdən yeylərin (yanı əcinələrin) balası yanır. Bizdən yeylər də hirsdənip suyu tökəni vırır, ağzı, gözü əyilir.

Yağış yağmayanda bir adam niyyət eləyib gedir qəbiristanlığa. Şəhid qəbrindən daş götürür, arxaya baxmadan gətirib suyun içinə qoyur. Yağış yağandan sonra daşı sudan çıxardır ki, yağış kəssin.

Gün çıxmayanda da şəhid daşını gətirib atırlar ocağa, gün çıxır.

Vırğın dediyimiz şey elə əcinnədi. Hər yerdə əcinnə var. Onnar oddan yaranıplar. Bı əcinnələrin içində kafiri də olur, müsəlmanı

da. Əcinnələr adamı ancax şər vaxdı ya sudan keçəndə, ya əyilip su içəndə, ya ağaş altında vırar. Vırılanın bədəni göyərər, özü də tezdiyinən ölər. Onu sağaltmaq üçün duva yazallar, tas qurallar. Əyər əcinnə müsəlmandırsa vırdığın tez bağışdıyar, əyər kafirdirsə çox çətin bağışdıyar.

Gecə vaxdı ağaş altında durmazdar, xərabəxanalıx yerdən getməzdər. Yoxsa adama cinnərin şəpəsi toxunar.

Gün doğanda deyirik ki, "gün anasının qoynunnan çıxdı". Batanda da deyirik "gün anasının qoynuna girdi".

Gün düşən yer mındar olammaz.

Suya murdarlıq düşəndə deyərlər: – "İrax Fatma suyunnan".

Günün işığı dəyən yer təmiz olar. Mundar olanlar da təmizdənər.

Göy qurşağının altınnan keçən adam oğlandısa qız olur, qızdırsa oğlan.

Göy qurşağını görəndə deyərlər: "Qarı nənə hana uzadır, qırmızısı mənim", yəni hava açılsın.

Gecə ulduza çox baxmazdar, çünki hər kəsin göydə bir bəxt ulduzu var. Ulduza çox baxanda adamın ulduzu axar, adam da ölər.

Hər kəsin göydə bir tale daşı var. Kim onun haqqında pis danışsa o daş başına düşər.

Hər kəsin bir bəxti var. Bəxt oyaq qalanda, ağıllı olanda o adamın işi üzünə gülər, bəxt yatanda isə həmin adamı bədbəxtlik basar.

Qadın, qız xəstələnəndə başının örpəyi ilə dirsəkdən əlinin ucuna qədər ölçəllər. Əgər örpək dirsəkdən barmaqlara qədər düz gəlsə, onda deməli onun bədənində pis ruhlar yoxdu, əgər artıq, ya əskik gəlsə onda deyərlər onun bədəninə pis ruhlar girib, onları qovmaq lazımdı.

Xasdıya nar verəllər. Xasdanın dərmanı o narın bir dənəsindədi. Gərəh narı elə yeyə ki, bircə dənəsi də yerə tüşməyə. Onda tez sağalar.

Xəstənin yanına duz, kömür, çörək qoyarlar.

Gəlin gələndə bir quru çörəyi avıp töküllər onun başına ki, ruzusu bol olsun. Hər kəs bı çörəh avıntısınnan yığıp yesə sağlam olar, heş vaxdı xəsdələnməz.

Çörəh yapannan sora təndirin başında qalan qara-qura gərəh süpürülə.

Əppəyi ayağ altına atmazdar. Yoxsa əppəy çəkilər göyə, insannar əcınnan qırılar.

Duzu bı dünyada töhsən o dünyada kirpihlərinlə yığəcəhsan.

Pis yuxu görəndə daş qaldırıb yuxunu danışıllar. Sora genə daşı qoyullar yerin. Daş o pis yuxunu puç eliyər.

Keçmişdə bir oğlan bir qızı istəyəndə oğlanın ata-anası gedərdilər qızgilin həyətdərinnən xəlvətcə bir daş gətirib qoyardılar öz həyətdərinə. On gün, bir həfdə gözdüyərdilər. Xeyir çəksəydilər, qızı alardılar oğullarına.

Biri birinin qızını oğluna almaq istəyəndə gedərdi, bir yerə bir daş qoyardı. Aradan bir xeyli vaxt keçəndən sonra gələrdi, daşı çevirib baxardı. Əgər daşın altında bir cücərti olsaydı, ot-zad göyərsəydi, onda gedib öz istəyini qız yiyəsinə bildirərdi. Çünki bilərdi ki, daşın altında cücərti əmələ gəldisə, demək, onların qohumluğu xeyirli olacaq.

Gəlini atdan düşürəndə qaynata gəlinə atdandüşdü (inək, qoyun) verərdi. Gəlinin ayağının altında qoyun kəsərdilər. Gəlin gələndə ayaqyalın gələrdi. Çünki ayaqqabı darlıqdır; ayaqqabı qız evindən şər gətirir. Əgər gəlin ayaqqabıyla gəlsəydi, qapının ağzında çıxartmalıydı ki, onunla gələn şər evə ayaq açmasın.

Bir heyvan alıb, qapıya gətirəndə heyvanın ayağının altına dəmir atırlar ki, dırnağı bərk olsun, xeyirli-bərəkətli olsun.

Təzə gəlinin ayağının altında kəsilən qoyunun ətini, illah da başını, ayağını üç gün qonum-qonşuya vermək olmaz. O qoyunun əti ancaq gəlin gələn evdə yeyilər. Pay verilsə, üç gün sonra verilər.

Təzə ev tikəndə tikilinin üstünə yumurta qoyarlar ki, bədnəzər-dən uzaq olsun.

Torpağa dən səpəndə, təzə-təzə dil açan bir uşağın ovcunu toxumla doldurub əkinə atarlar. Deyərlər ki, uşaq əli haram görmə-yib, qoy səpinin sifdəsini halal əl başlasın. İnanarlar ki, bu qayday-nan başlanan səpin sayalı olar.

Nalı ağzı yuxarı vırallar əvin qapısına ki, xoşbəxtlih gətirsin. Əyər ağzıaşağı vırılsa, bədbəxtlih gətirər.

Qatıx çalanda belə deyəllər: – "Bismillah, bismillah, ayranı göz yaşıyca, yağı inək başıyca. Mənim əllərim olmasın, Aşa Fatma nə-nənin əlləri olsun".

Baş-əyəx pişirəndə göz yağını yeməh pisdi. Əyər iki adam hərəsi bir gözün yağını yesə ömürrüh tuşman olallar. İki adam bir-birinnən yola getmiyəndə camaat deyər ki, göz yağı yeyiflər.

Siçan donuzun burnunnan tüşüf, pişik pələngin. Onçun da siçan murdardı, pişik yox.

Əsniyəndə, gərnəşəndə gərəy yönunu bir qırağa çöyrəsən. Bir adama tərəf əsniyəndə, ya gərnəşəndə ağırrığın-uğurruğun üstünə tökülər, başına iş gələr.

Pis yuxunu axar suya danışallar ki, yuyup aparsın. Yaxşı yuxunu da danışallar ki, aydınnıx olsun.

Qorxulu yuxu görəndə yuxunu suya danışıb deyərlər: – “Axar su, yuxumu sənə deyirəm, qoy su yuxumu aparsın”.

Əgər yuxunu işığa danışsan deməlisən: “Aydınlığa yoz”.

İlanı görəndə deyərlər: – “Ay heyvan, mənə dəymə, dəysən Süleyman peyğəmbərin, Həzrət Fatmanın yanına üzüqara gedəssən”.

Kaftarkis adamnan dönmədi. Bıynızları var. Gecələr gələr qəbirsənniyə. Təzə qəbri eşip ölünü çıxarar, söyküyər başdaşına. Sora dala çəkilip bıynızlarıynan ölünü vırar, dalına atıp aparar yeyər.

Bir kankan varımış. Bı kankan quyu qazanda yekə bir daş bının qabağına çıxır. Kankan nəqqədər eliyirsə bı daşı qıra bilmir. Qalır məhətdəl, bilmir nə qəyirsin? Axır da bına deyillər ki, bə get filan nəzərçini gəti, sənə köməh eləsin.

Kankan gedir onu gətirir. Nəzərçi bir dəfəm daşa baxıp deyir: “Pah atavınan, nə yaman daşdı, ə!”.

Bir də görüllər ki, daş parça-parça olup dağıldı.

Bir kəndə yol çəkirmişdər. Yol gəlip bir qayaya dirənir. Camahat nəqqədər eliyillərsə də, bı qayanı qırağa çəkəmmillər. Bir nəzərçi bını görüp deyir: “Pah atavınan, nə yekə qayadı, ə!”.

O sahat qaya ikiyə bölünür. Hər parçasın bir tərəfə atıp yolu çəkillər.

Bir arvat varımış. Hammı bına deyirmiş ki, sən nəzərçisən. Ancax arvat boynuna almırmış. Deyirmiş ki, nəzərçi dədəvizdi.

Genə bir gün belə deyəndə arvat həsdənir. Bının da bir qavırmalıx qoçu varımış. Deyir ki, həyəm nəzərçiyəmsə, bı qoçu nəzərriyirəm. Görəh bına nolacax?

Səhərisi durullar ki, qoç mındar olup.

Bir yaman nəzərçi varımış. Nəyi nəzərriyirmişsə, o sahat ona bir şey olmalıymış.

Bının bir qonşusu da varımış ki, bınnan yola getmirmiş. Qonşunun da yaxşı bir öküzü varımış. Qonşu bilir ki, nəzərçi bının öküzün nəzəriyyəcəh. Gətirip öküzün boyunduruğun dağdağan ağacınnan düzəldir.

Bir gün qonşu yer şumladığı vax nəzərçi gəlir, bı öküzü nəzərriyir, əmə öküzə heş dad olmur. Nəqqədər orda durup öküzə baxırsa, bir şey çıxmır. Axırda qonşusu deyir ki, lənət gözüvə, çıx get, onsuz da bir şey eliyəmmiyəssən, boyundurux dağdağanandı.

Nəzərçi kor-peşiman çıxıp gedir.

Taxıla siçan dadananda gedib oxçu gətirərmişlər. Oxçu kəndin kövşənində cızıq çəkə-çəkə gedərmiş, kövşəni dolanıb gələrmiş cızığı başladığı yerə. Ancaq cızığı birləşdirməzmiş, arada yer saxlayarmış ki, siçanlar o yerdən cızığa girib ölsünlər, ya da çıxıb getsinlər.

İt kəlləsin bağa qoyullar ki, nəzərrəməsinlər. İt kəlləsi bağı bəd nəzərdən qoruyur.

Bağı bədnəzərdən qorumax üçün ya at, ya da it kəlləsin payıya keçirip qoyallar bağa.

Bir adam səni nəzərləyəndə cibindən yumurtanı çıxardıb vurursan daşa, deyirsən: “Filankəs, gözün çıxsın!”. Bunnan da o adamın bədnəzərindən qurtarırsan.

Dağdağan ağacının çubuğunu kəsib muncuq kimi düzəldir, sonra da həmən muncuğu sancağa keçirib uşağın paltarının kürək tərəfinə taxırsan. Bunun adı olur "göz muncuğu". "Göz muncuğu" uşağı bədnəzərdən, qara-qorxudan, sədəmədən qoruyub uzaq saxlar. Dağdağan ağacından çubuq kəsməmişdən qabaq gərəkdi ki, ona sədəqə ayırıb, niyaz eləyəsən. Yoxsa kəsilmiş çubuğun düşər-düşməzi olar.

Uşağa göz dəyəndə duzu uşağın başına fırladıb ocağa atarlar, deyərlər: "Balama dəyən göz bu duz kimi çırtlasın".

# Yasaqlar

Şər vaxdı qapı ağzında oturmazdar. Çünki bı vaxdı cinnər keçir bırdan, adama şəpələri dəyər.

Şər qarışanda yatmazlar. Şər qarışanda qismət paylanır, deyirlər.

Günəş batandan sonra evdən başqasına heç nə vermək olmaz. Yoxsa evin bərəkəti də gedər.

Axşamlar evi süpürmək olmaz. Süpürəndə də zibili çölə atmaq olmaz. Yalnız zibili evin bir küncünə qoyub səhərisi atmaq lazımdır.

Zibil atılsa, evin bərəkəti yoxa çıxar.

Axşam naxır gələnnən sora başqa adama həyətdən su verməzdər, yoxsa əvin xeyri-bərəkəti qaçar.

Gecə vaxdı axar suya əl basmazdar, çünki su gecələr mələhlərin olur. Onnarı narahat eləsən, sənə zəfər toxuyallar.

Gecə vaxdı suyun başına getsən bizdən yeylər vırar səni.

Gecə vaxdı ağacın altına, suyun başına getməzdər. Yoxsa adam vırmalı, çalmalı olar.

Qaranlıq vaxtı körpə uşağı bir yerdən başqa yerə aparsan, gərək kömürü çörəyə büküb uşağın bələyinə qoyasan ki, uşağa sədəmə toxunmasın.

Bir arvat şər qarışanda bulağa gedir. İtdəri də düşür bının yanınca gedir. Arvat nəxətər eliyirsə, it qəyitmir. Gəlip çatıllar bulağa. Elə isdiyir ki, su doldursun, birdən səs eşidir. Kimsə bına deyir ki, qurban olasan yanındakı itə. Əyər o olmasaydı, bilərdim sənə neynirəm. Bı vaxdı da suya gələllər?

Arvat oyız-bıyıza baxır, əmə heş kimi görmür.

Gecələr suyun üstündən keçmək olmaz. Yoxsa su ruhları bundan acıqlanıb həmən adama xətər yetirər.

Gecə vaxdı evi süpürüp zibilin eşiyə atmazdar, yoxsa həmən əvdə ölü ölər.

Gecə qırxgözlü şeyi (yanı ələyi, xəlbiri, aşsüzəni) əvdən çıxartmazdar.

Gecə vəxdi adama səlam verməzdər.

Gecə qonşudan ələh, xəlbir, tərəzi almazdar, yoxsa inəyin, qoyunun ölər. Gərəh alanda bir şey verəsən.

Gecə qonşuya süd verməzdər, yoxsa əvin bərəkəti qaçar.

Gecə əvdən ələh, xəlbir, aşsüzən verməzdər başqasına, çünki onda mal-dövlətivi verirsən. Əyər məcbur olup versən, gərəh mütləq əvəzinə bir şey alasan.

Gecə vaxdı cavan adam barrı ağacın altına getməz. Yoxsa bizdən yeylər onu vırar.

Gecələr ağlamax olmaz. Çünki ağlıyanın səsi, göydə bir mələykə var, onun xoşuna gəlir. O isdiyir ki, ağlıyan adam həmişə ağlasın.

Gecə vaxtı güzgüyə baxmazdar, yoxsa adamın bəxdi bağlanar.

Gecə vaxdı baş daramazdar, çünki hər adamın başında bir bəxt tükü var, o düşə bilər.

Gecə dırnax tutmazdar, çünki gecə vaxdı ölülərin dırnağın tutullar.

Gecə dırnax tutmazdar, yoxsa ruhlar adamnan inciyər.

Gecə dırnax tutmax, günüz nağıl deməh günahdı. Onları cəhənnəmdə odlu kösövnən döyəcəhlər. Döyə-döyə də ölülər oxuyacax:

Gecə dırnax tutannar,
Günüz nağıl deyənnər,
Həyə bıra gələrsiz
Oddu kösöv yeyərsiz.

Gecələr yuxu danışmazdar. Əgər danışsan, gərəh deyəsən ki, çırağa danışıram. Onda zərərli olmaz.

Mal gələn vaxdı tavlanı süpürməh olmaz, yoxsa malın damazdığı kəsilər.

Qavırı əlnən göstərməy olmaz. Onda ölü adamı çəkif yanına aparar. Gərəh göstərənnən sonra barmağını tişdiyif, əyəğiyin altına qoyasan.

Göy guruldamasa çöldən göyərti, per-pencər yığıb yeməh olmaz, haramdır.

Göy guruldayanda salavat çevirərlər.

Ay təzə çıxanda salavat çevirərlər.

Düyünü tapdamax olmaz, günahdı. Deyərlər ki, bir düyü dənəsində yeddi qulfullah var, bu da bir yasinə bərabərdir.

Danaqıran gülünü qırmazdar, ölüm-itimi var.

Əvdən başqasına gül verməzdər. Gül əvlatdı, sevincin gedər.

Yemişəni, ağ gülü evə gətirmək olmaz, ondan xata gələr.

Bar ağaclarını mundarlamaq olmaz, yoxsa ondan insana xətər gələr.

Meyvə gətirən ağacı kəsməh günahdı. Ağacı kəsəndə ağaş əyəsi insana zərər toxuyar.

Çinar ağacını nə kəsməh, nə də yandırmax olmaz. Ona görə ki, günaxdı, adam zərəl çəkər.

Çinarnan əncir ağacını kəsip yandırmax günaxdı.

Həftənin birinci günü ağac kəsmək günahdı. Deyirlər ki, həmin gün ağacların ruhu ziyarata gedər. Kim o günü ağac kəssə, ağacın ziyarattan qayıdan ruhu hansı bir günsə ona sədəmə toxundurar.

Adna günü heç bir ağacı kəsməzlər.

Adamı süpürgüynən vurmazdar, şərə düşər.

İki qızın arasından keçməzdər, adam şərə düşər.

Suya tüpürməh, murdarramax olmaz, günahdı.

Ocağa su tökməzlər – ocaqda məleykə var.

Ocağı suynan keçirməzdər.

Uzanmış adamın üstünnən addamaq olmaz; onda həmən adam ölər. Addasan gərəh tez geri keçəsən.

Süpürgəni ayaqlayanda gərək üç dəfə yerə tüpürəsən.

Uşağı, mal-heyvanı, heş nəyi hündürdən tərifləməzdər. Tərifliyəndə ya cin-şeytan toxunar, ya göz dəyər.

Döl vaxtı yaxınlaşanda qoyun sürüsünün yanında qurddan-quşdan söhbət eləmək olmaz. Deyirlər, elədə qoyunların qarınlarındakı quzular qurdun adını eşidib bağrıqan olar, anadan ölü doğular.

İki adamın bir yerdə süpürgə çalmağı günahdı, çünki əvdən ölü çıxar.

İlanı öldürmək olmaz. Çünki onlar yeddi qardaş olurlar. Qalanları harada olsa, həmin adamı tapıb cəzalandırarlar.

Hər əvin bir ocağ ilanı var. Onlar evin, yurdun bərəkətidirlər. Həmin ilanı qovmaq, öldürmək olmaz. Ocaq ilanı inciyib gedəndə yurdun bərəkətini də özü ilə aparar.

Yerə qaynar su tökmək olmaz. Qaynar su yer altındakı cinnərin balaların yandırar. Ona görə də cinnər suyu tökəndən hayıf alarlar.

Qaynar suyu torpağa tökmək günahdı. Deyilənə görə, töksən, torpaq əyəsini yandırarsan, o da qəzəblənib sənə nəsə bir sədəmə toxundurar.

Qadın saçını darayandan sonra tökülən saçları oda atmaq olmaz, yoxsa az vaxtda onun saçı tamam tökülər.

Pay verilən qavı boş qaytarmazdar. İçinə şəkərdən, duzdan bir şey qoyallar.

Xəmiri kündələyəndə xəmirin qır-qırıntısını qaytarıb təhnəyə atmazlar.

Uşağın avcını yumazdar. Deyəllər ki, avıcdakı kir uşağın yuxuluğudu. Yuxuluğu yusan, uşax yatammaz.

Dörd yaşına qədər uşağa mal-heyvan, qoyun-keçi ürəyi yedirtməzlər ki, uşaq qorxaq olmasın.

Ocağı suyunan keçirtməzdər. Çünki ocax sahibi həmməşə ocağın yanındadı, sənə zəfər toxuyar.

Göydən durna qatarı köçəndə daşa toxunmazlar, səfləri pozular.

Uşağı gecə cəviz ağacının altında saxlasan, suyun üstündən adlatsan, vurğun vurar. Uşağı gecə cəviz ağacı altda yatırmazlar, uşağa gecə bulaqdan su içirtməzlər.

Barlı ağacın altında yatmazlar – ağırdır.

Leyləyə daş atmazlar, küsüb gedər, yaz yubanar.

Süd bişirəndə ocaqdan qonşuya köz verməzlər. Əgər versən, onda gərək süd qazanının üstünə kömür, ya da göy ot atasan. Yoxsa mal-heyvan süddən kəsilər.

Yemək zamanı duz tökülsə ehtiyatlı olmaq lazımdı, dava düşə bilər.

Çatmaqaş adam qohuma öylənəjəh.

Əli ağır olan oğlan qohuma öylənəjəh.

İki qaşın arasında anadangəlmə yarıx, çapıx olmax xoşbəxtdıx nişanıdı.

İt uluyanda heş vaxtı xeyir çəhməzdər.

Bayquş qapıda xeyirliyə ulamaz. Ona görə kösöv atıb, onu qovarlar. Ya da bayquş qonan ağacın altına duz-çörək qoyub deyərlər: “Sən bu duz-çörək, çıx get”.

Həyətdə at kişniyəndə xeyrə deyil.

İt uluyanda bəla gələr, bayquş uluyanda ev dağılar, toyux banıyanda ev sahibinə zərər dəyər.

Əxşam it uluyanda vay gətirər.

Gecə yuxunu qarışdırıbsansa, səhər durub itə çörək atırsan, toyuğa dən verirsən, sonra gedib yuxunu suya danışırsan, xətər sovuşar.

Savah öydən çıxanda itə rast gəlsən işin düz gətirəjəh.

Meyit götürüləndən sora əvi kim süpürsə, gərəh üş gün süpürsün. Əyər süpürməsə, onun öz əvində ölü ölər.

Ölmüş əziz adamdan söhbət eləyən vaxtı kimsə qəfildən asqırsa, onun paltarının ətəyinnən üç dəfə dartıf deyəllər: "Bizimsən, bizimsən, bizimsən!".

İnəh doğanda qatıx çalıb qonum-qonşuya aparallar. Qonşu da gərəh qaba şirinnih qoysun, yoxsa inəyin südü azalar.

Səhər doğulan adamın ayağı yüngül, gecə doğulanın ayağı ağır olar. Çörək yapanda, hana toxuyanda səhər doğulan gəlir, "işin irəli" deyir. Sora işə başdıyıllar.

Uşax var ki, doğulanda çox xırda olur, heş artmır. Onu aparıllar qəbiristannığa. Yeddi qəbir keçib uşağı qoyullar köhnə bir qəbirə, özdəri mısıllar. Uşax ağlasa, demək sağ qalacaq, ağlamasa bil ki, öləcəy.

Əyər uşax gözdəymədən ağlağan olsa, “bismillah, qulvullah” deyif kağıza iynə batırarlar. Sonra kağızı yandırıf külünü uşağın alnına, sinəsinə, dizlərinə sürtərlər.

İlan qurvağıyı udanda gərəy ilanı öldürüf qurvağıyı ağzınnan alasan. Kim belə eliyif ilanın ölüsünən qurvağının arasınnan keşsə, əli tüşümlü olar. Boğazı ağrıyan adamın boğazını sığasa sağaldar.

Hamilə arvadın nəyi olacağını bilməh üçün xalçanı toxuyup qurtarannan sora gücünü götürüp at kimi minərsən, çıxarsan eşiyə. Qabağıva oğlan çıxsa oğlan, qız çıxsa qız doğulacax.

Heş vaxtı çörəh yemədiyin bir əvdə çörəh yeyəndə o çörəhdən birəz dilivin altına qoyup niyyət eliyirsən, üzüvü tutursan bir adama sarı. O adamın ağzınnan yaxşı söz çıxsa niyyətin pitəcəh, pis söz çıxsa pitmiyəcəh.

Qurd kəsən bıçaq qınından çıxmaz. Çünki qurdu kəsmək günahdı.

Təzə doğulmuş uşağın dişi varsa, gərəh ona qurban kəsilsin. Yoxsa o uşax əvdəkilərin başını yeyər.

Qulax cingildiyəndə o deməhdi ki, bir yerdə kimsə sənnən danışdı. Dodaq səyrisə dalaşassan, sağ gözün səyrisə, istəkli qonaq gələjəy, sol gözün səyrisə pis iş olajax, bədən səyrisə xəstələnəjəhsən.

Duz günü (bazar ertəsi) səfərə çıxmazlar. Həftənin cüt günləri səfərə çıxsan, xeyir taparsan.

Yol üstə qabağına dovşan çıxıb, sağdan-sola qaçsa, səfərin uğurlu olar; soldan-sağa qaçsa, səfərin uğursuz olar.

Əppəy yanıp təndirə düşəndə, əyər sağ tərəfə düşüpsə – sağ tərəfdə, sol tərəfə düşüpsə – sol tərəfdə adam ölür.

Əlinnən qaşıx düşsə, deyəllər ki, arvad qonağı, pıçax düşsə, kişi qonağı gələjəh.

Pişih ayağın yalıyanda qonax gələr.

Qara süpürgə boldusa – qış sərt gələcək.

Bıçağın tiyəsi ağzıyuxarı dursa, demək, qurban istəyir – qurban kəsmək lazımdır.

Canavar hansı kəndin yanında balalasa, o kəndin mal-heyvanına dəyməz, – deyirlər.

Ayağıvın altı qaşınanda yol gedəssən.

Əlivin içi qaşınanda pul tapassan.

Kərtənkələnin quyruğun qırıp cibinə qoysan, pul tapassan.

Yuxuda çiçəkləmiş ağac görmək ya özünün, ya da qohumlarından birinin evində uşaq dünyaya gələcəyindən soraqdı.

Yuxuda xalça görməh yoldu, səfərə çıxmax xəbəridi.

Yuxuda nurani qoca görmək işlərinin uğur üstündə olacağını göstərir.

Yuxuda leylək uzaq bir yerə səfər mənasındadır.

Yuxuda papax görəndə adamın vəzifəsin böyüdəcəhlər.

Yuxuda toy görməh sıxıntıdı.

Yuxuda ölmüş bir adam sənə nə isə versə, xeyir çəkəcəhsən.

Özünün, ya da başqa bir adamın öldüyünü yuxuda görmək ömür uzanmağı hesab olunur.

Yuxuda ölü sənnən bir şey alsa, zərəl çəkəcəhsən.

Yuxuda görsən ki, divar uşdu, tir düşdü, diş çəhdirdin, sənə zərəl dəyəcəh, bir adamın öləcəh.

Yuxuda çaxmaq daşı görmək gözlənilməz bir hadisənin baş verəcəyindən xəbərdir. Belə yuxunun şad üzü də ola bilər, bəd üzü də.

Yuxuda inci almaq da, inci vermək də çox yaxşıdı. Muncuq da ürəkaçan bir hadisə olacağının müjdəsidir.

Yuxuda namaz qılmaq, xeyirə əlamətdi. Məscid də mübarək yuxudu.

Sevən qız, ya oğlan yuxuda nar görübsə, istədiyinə qovuşacaq.

Yuxuda yumurta görməh laxdı, yuxun düz deyil.

Yuxuda sənə qənt, noğul versələr, şaddıx olacax.

Hamilə qadın yuxuda ləçək görübsə, qızı olacaq.

Yuxuda bir ölünü görəndə zərəl çəkirsənsə, soğanı üş dəfəm dişdiyip atırsan damın üstünə. Ta həmən ölü yuxuva girmir.

Yuxuda təndir görməh qəbirdi.

Yuxuda görsən ki, ölmüsən, ömrün uzanacaq.

Yuxuda qan görməh qavışıxdı, qəriplihdə olanınnan qavışassan.

Yuxuda qızıl görməh səsdi.

Yuxuda tüfəh atılsa səsdi, bir xəbər çıxacax.

Yuxuda çəkic ağırlıqdı, çəkic görənin əhvalı qarışar.

Yuxuda saç görməh yoldu, qonax gələcəh.

Yuxuda it görməh düşmandı, səni it kimin çeyniyəcəhlər.

Yuxuda qurd görmək sağlamlıqdı, gümrahlıqdı. İşlərin qaydasınca gedəcək, ağrı-acı görməyəcəksən.

Yuxuda ilan görsən, deməh nəsə yemisən, kiməsə verməmisən, onun da ilanı səni qavır.

Yuxuda özüvü ayaxyalın görsən, deməh darrığın qutarır.

Yuxuda at görməh ucalıxdı. At nalı görən də muradına çatar.

Yuxuda axar su görmək aydınlıqdı. İşlərin uğur üstündə olacaq.

Yuxuda görsən ki, çimirsən, aydınnıxdı.

Yuxuda üzüm görsən, ağlıyassan.

Yuxuda ət görsən, ağlıyassan.

Yuxuda ağ paltar geyməh pisdi.

Yuxuda dərviş müjdədir. Ən çox övlad müjdəsi kimi yozulur.

Yuxuda corab, ayaqqabı geyməh darrıxdı.

Yuxuda qoyun, buğda, un görsən, urzun artacax.

Yuxuda alma görməh, şirinnihdi.

Yuxuda dağdağan görmək qada-bəladan, bədnəzərdən uzaq olmaq əlamətidir.

Yuxuda ləmpə görməh, işıxlıxdı.

Yuxuda öpüşməh, ayrılıxdı.

Yuxuda duvaq görən muradına çatar.

Yuxuda savaşmax barışmaxdı.

Yuxuda bal yeməh, varranmaxdı.

Yuxuda uşax görməh, səsdi.

Sonsuz arvad yuxuda beşik görsə, uşağı olar.

Yuxuda boxça görməh uşaxdı, uşağın olacax.

Yuxuda süpürgə ilə evini süpürmək dərddən-qəmdən azad olmaq deməkdi.

Yuxuda sevinmək həyatda kədərlənmək kimi yozulur.

Yuxuda tərəzi görənin işləri düzələcək.

Yuxuda yumşax bir yastığa söykənməh rahatlıxdı.

Yuxuda saz çalmaq xeyir xəbər əlamətidi.

Yuxuda sarı hər şey xəstəlik deməkdi.

Yuxuda sədəğə verməh bir təhlükədən sovuşmaxdı.

Yuxuda orax görməh urzuya, bəzən də ömrün sonuna işarədir.

Yuxuda bir ocağın başında tək oturmaq uğursuzluqdu.

Yuxuda gecə görənin işi düz gətirməz.

Yuxuda səni duman bürüyərsə, qayğıya bürünərsən, başına çoxlu işlər gələcək. Yuxuda çəkilib gedən duman görübsənsə, qayğıların yavaş-yavaş azalacaq.

Yuxuda vurulmaq – qüvvətdir; ilan – nəfəsdir; çadır – ölümdür; ölüm – ömürdür; ölüdən pay almaq – qismətdir; ölüyə pay vermək – qisməti əldən verməkdir; ölünün evə gəlməyi – ölünün evdən adam aparmağıdır; arxalıq – arxadır; yaylıq – göz yaşıdır.

# Ovsunlar

Yağış yağmıyanda cavannar bir yerə yığışardılar. Bir çömçə götürüp üstünə qara parça salar, qapı-qapı gəzip oxuyaraq pay istərdilər. Hər evdə uşaxlara pay verərdilər, çömçəyə də bir az su tökərdilər. Gəzmək qutarannan sora uşaxlar payı özdərinə götürər, çömçədəki suyu bir ağacın dibinə tökər, çömçəni də həmin ağacdan asardılar. Çox keşməzdi ki, yağış yağardı.

Bu mərasimə Çömçəxatun gəzdirmək deyilir. Çömçəxatun gəzdirərkən xorunan belə oxunardı:

Çömçəxatun nə istər?
Allahdan yağış istər,
Qoyunnara ot istər,
Quzulara süt istər...
Mə... mə... mə... mə...

Çömçəxatun nə istər?
Allahdan su istər,
Ağaşdara bol məhsul,
Çobannara quzu istər...
Mə... mə... mə... mə...

Çömçəxatun nə istər?
Göylərdə bulut istər,
Mal-qaraya çoxlu süt,
Dağlarda çox ot istər...
Mə... mə... mə... mə...

Çömçəxatun duz istər,
Çiçək dolu düz istər,
Havaları buludlu
Bol yağışlı yaz istər!
Mə... mə... mə... mə...

Çömçəxatun gül istər,
Çaylar dolu sel istər,
Zəmiləri saçaxlı
Məhsulunu bol istər!
Mə... mə... mə... mə...

Çömçəxatun su istər,
Qabları dolu istər.
Nənələrdən pay istər,
Cibləri dolu istər.
Mə... mə... mə... mə...

Çömçəxatun su istər,
Dolu-dolu çay istər.
Quzusu bol çobandan
Pendiri lay-lay istər!
Mə... mə... mə... mə...

Çömçəxatun pay istər,
Cavannara toy istər.
Allahdan yağış istər,
Bol məhsullu yay istər...
Mə... mə... mə... mə...

Çömçəxatun pay istər,
Quzulara hay istər.
Çobanlara çoxlu ot,
Cavannara toy istər!
Mə... mə... mə... mə...

Çömçəxatun od istər,
Çəmənnərdə ot istər.
Ağacdarda bol məhsul
Meyvəsində dad istər!
Mə... mə... mə... mə...

Çömçəxatun dağ istər,
Qoyuna yaylaq istər.
Çəmənə çoxlu yağış,·
Məhsulu bol bağ istər.
Mə... mə... mə... mə...

Ay nənə, get pay gəti,
Çörəyə pendir yay, gəti.
Çömçəxatun qızına
Məhsulu bol yay gəti!
Mə... mə... mə... mə...

Anam-bacım götür gəl,
Çömçəyə pay gətir gəl.
Yağış gəti, bizə gəl
Çömçəyə yetir, gəl!
Mə... mə... mə... mə...

Yağış yağmıyanda palçıx yoğurup təndirə yapıllar. Palçıx qupquru quruyannan sora çıxarıp suya salıllar, oxuyullar:

Ay can, ay can, torpağım
Odda az yan, torpağım,
İndi yağış yağacaq
Sən düş islan, torpağım.

Yandı torpax qupquru,
Suya saldım dupduru.
Yağ, yağışım, çoxlu yağ,
Çöllər oldu qupquru.

Torpax, qurutdum səni
Birdən unutdum səni.
Gördüm yağış yağmayır
Tez suya atdım səni.

İsladın, arzu gəlir
Çaylara bol su gəlir.
Qarılara çoxlu yun
Çobana quzu gəlir.

Bunnan sora bollu yağış yağır.

Yağış yağmayanda qurban kəsib deyərlər: “Allah, biz sənə can borcluyuq, qurban borcluyuq, sən də bizə çörək borclusan”.

Yağış yağmayanda bir cöngəni aparıb kövşənin başına dolandırarlar. Sonra seyid dua oxuyar, cöngəni kəsərlər, ətini oradaca bişirib yeyərlər (o əti evə gətirmək olmaz). Bundan sonra yağış yağar.

Xırman savıranda külək əsməsəydi, süpürgə yandırıp deyərdilər:

Yan, süpürgə!
Yel gətir, gəl!
Süpürgə yandı,
Yandı, oddandı,
Yanmağa tələs,
Əs, küləyim, əs.

Süpürgə yanannan sora külək qalxar.

Külək əsmiyəndə, xırman savırmax üçün külək lazım olanda belə oxuyardılar:

Heydər, Heydər, əsə gəl,
Yeddi xırman basa gəl.
Qırıldı oğul-uşax
Dəsmal götü, yasa gəl.

Çətir-çətir bulut gəl,
Uşaxları ovut gəl.
Xırman savırır baba
Arpa, buğda, noxut gəl.

Heydər, əsip su gəti,
Uşağa yuxu gəti,
Keçip çəmən-çiçəkdən
Ətirri qoxu gəti.

Heydər gəl ha, Heydər gəl!
Çiçəkləri hey dər, gəl!
Qardaşımın toyuna,
Ellər səni Heydər, gəl!

Heydər, gəl sən, haya gəl!
İsti qızmar yaya gəl!
Sərin çinar altında,
Kəndimizə toya gəl!

Heydər, Heydər, əs gəti,
Yarpaxlara səs gəti.
Qız bacımın toyuna
Yeddi toğlu kəs, gəti.

Heydər, Heydər, çörək ver,
Kişilərə ürək ver!
Xırmannarı yığmağa
Sərin-sərin külək ver.

Küləyi yatırmax istəyəndə ananın ilki yorğanı ilə ələyin üstünü örtüf deyər:

Külək yat,
Ələk yat.
Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm.
Külək yat,
Ələk yat.
Külək baba,
Ələk yatdı,
Sən də yat!

Gecə əxrəp olan yerdə yatanda əxrəp vırmasın deyə belə avsın oxuyallar:

Əxrəp-əxrəp ahına
Əxrəplərin şahına,
Əxrəp oldu bir kişi
Bağladı qurdu-quşu,
Puf... puf... puf...

Əxrəp-əxrəp qaçmasın,
Gəlip məni sancmasın,
Sancsa ətir sürtəllər,
Onu sancan ölməsin
Puf... puf... puf...

Qaç-qaç, a nankor əxrəp,
Quyruğu var, zor əxrəp.
Gəlmə, gəlmə yaxına
Get uzaxda dur, əxrəp.
Puf... puf... puf...

Quraxlıx vaxdı uşaxlar çömçənin başına qara cında salıp kətdə gəzdirərdilər. Bu çömçəyə deyərdilər Çömçəxatun. Onu gəzdirəndə belə oxuyardılar:

Çömçəxatun nə isdər?
Allahdan yəğiş isdər.
İnəhlərə ot isdər
Buzovlara süt istər!

Qarabağın buludu,
Yetimlərin umudu.
Allah, bir yağış yetir
Demilərim qurudu.

Bınnan sora yəğiş yəğardı.

Çömçəni beziyillər. Uşaxlar onu götürüp ev-ev gəzdirir. Hamı onnara pay verir, çömçəyə də su tökür. Çömçəni aparannar belə oxuyullar:

Çömçəxatun nə istər?
Allahdan yağış istər.
Fatma nənənin əli xəmirdə,
Bircə qaşıx su istər.

Çömçəxatun adında gözəl bir qız varımış. Bı qız o qədər pak, mömün adammış ki, Allah yanında hörməti hamıdan artığımış.

Bir dəfə il çox quraxlıq keçir. Camahatın pütün məhsulu yanıp tələf olur. Ta camahat hər şeyi yeyir qurtarır, pütün heyvannarı kəsir. Sora yeməyə heş dad tapbıllar. Göydən də bir damcı yağış düşmür ki, düşmür. Əyər belə getsəymiş, adamnar qırılacaxmış.

Çömçəxatun işi belə görüp çıxır bir təpənin başına. Üzün göyə tutup Allaha yalvarır ki, yağış yağdırsın.

Allah bını eşidip yağış yağdırır... Qız yağışın altınnan getmir, o qədər durur ki, cum-çulux isdanır, axırda da yamyaşıl bir ağaca çevrilir.

O vaxtdan yağış yağmıyanda, quraxlıx olanda camahat ağaşdan bir çömçə düzəldip bəziyir, qapı-qapı düşüp pay yığa-yığa Çömçəxatını köməyə çağırallar. Özü də belə oxuyallar:

Çömçəxatun nə isdər?
Allahdan yağış isdər.
Qoyunnara ot isdər,
Quzulara süt istər...

Çömçəxatuna pay qatıx verəllər, süd, çörəh, duz verəllər. Özü də hər əvdə çömçüyə birəz su tökəllər.

Sora çömçədəki suyu bir ağacın dibinə töküp, çömçəni də ağaşdan asallar. Bınnan da yağış yağar.

Yağış yağdırmaq üçün mis camları odda qızdırıb sonra suya salarmışlar.

Yağış yağmayanda Qoşqar dağından daş gətirib suya salarlar. Həmin daşdan oda salanda isə gün çıxar.

Dolu yağanda uşaqlardan biri doludan götürüb dişinin arasına qoyar, qırar və deyər:

Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm,
Mən kəsdim, sən də kəs.

Yağış kəsməhdən ötəri duz-çörəyi daşın üsdünə qoyup deyirdih:

Mən anamın ilkiyəm
Ağzı qara tülküyəm.

Daşı çöyrəndə yağış kəsir.

Adam əlini yağışın altına tutanda qırx gün yağar.

Göy otu yandıranda yağış yağar.

Güclü yağış yağanda anasının ilki dəhrəni atıp deyərdi:

Mən nənəmin ilkiyəm,
Ağzı qara tülküyəm,
Yağış kəs-kəs,
Mən kəsdim, sən də kəs.

Nəsə bir paltarı tərsinə çevrillər ki, yağış kəsib gün çıxsın.

Göy birinci dəfə guruldüyəndə yerdən torpax götürüp əvin puş-qağına, tavlıya atallar ki, əv bərəkətli olsun.

Duman-çən olanda – gün çıxmayanda uşaqlar kösövü ocaqdan götürüb qaça-qaça deyirlər:

Çən, qaç, qaç,
Cəhrə topun yumala qaç.
Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm.
Mən səni yandırdım,
Sən də məni yandır.

Yağış çox yağanda çömçəni gəlin kimi bəzəyirdilər, qapı-qapı gəzdirib, oxuyardılar ki, gün çıxsın:

Çatma, çatma, çatmaya,
Çatma yerə batmaya.
Goduya pay verməsən.
Sicimin dönsün qatmaya.

Goduya qaymaq gərək,
Goduya doymaq gərək.
Godu gün çıxartmasa
Gözlərin oymaq gərək.

Godu gəldi, dindirin,
Godunu ata mindirin.
Godu gün çıxartmasa,
Vurun onu sındırın.

Godu gəldi, düşürün,
Süddülü aş bişirin.
Godu gün çıxartmasa,
Vurun boynun düşürün.

Çox yağış yağıb kəsmək bilməyəndə yağış suyundan bir qazana götürüb quruyuncaya qədər qaynadarlar. Su tamam quruyub çəkiləndən sonra həmən qazanı isti-isti aparıb ağzı aşağı yağışın altına qoyarlar. Yağış damcıları isti qazana dəyib cızıldayanda tez belə oxuyurlar:

Qayna, qazanım, qayna
Oyna, qazanım, oyna.
Bəsdi daha buğladın,
Bəsdi daha dağladın.
Yağış çıxıb gedəcək,
Saçın yığıb gedəcək.

Sınayıblar ki, bir az keçəndən sonra yağış ara verib yavaş-yavaş səngiyər.

Birinci dəfəm göy guruldayanda toyuğun üstünə bir avış torpax atsan, toyux yaxşı kürt yatar.

Yazda göy gurullamamış nə qulançar, nə də heş bir pencər yeyilməz. Göy gurullayanda uşaxlar bir yastı daşı, ya da kərpic qırığını başına qoyuf, bir əyəğinin üsdündə hoppana-hoppana deyir:

Tişim-başım ağrımasın,
Tişim-başım ağrımasın.
Bizimkilər ölməsin,
Düşmənlərin biriciyi də qalmasın.*

Axır çərşənbə günü axşam qızdar yığışar bir əvə. Ortalığa suynan dolu bir mis qab qoyallar. Hərə ürəyində bir niyyət tutar. Qabın başında oturan adam iki iynənin ucuna pambıx doluyup hərəsin qabın bir tərəfinnən salar suya. Bir nəfəri nəzərdə tutup gözdüyər. Əyər iynələr baş-başa dəysələr, həmən adamın niyyəti bitəcəy, əyər dəyməsələr, yox.

Çərşənbə gecəsi suyun üstündən hoppanıb deyərlər:

Atıl-ütül çərşənbə,
Çilləm tökül çərşənbə,
Baxtım açıl çərşənbə.

İlaxır gecəsi qızdar əllərində güzgü tutallar, ayın şikli düşər güzgüyə. Şəklin içində sevdiyi oğlan görsənsə, demək, onnar əvlənəcəklər.

Novruz bayramında tezdən axar çayın içindən xırdaca daşlar götürüb unluğa, çörək təknəsinə, yağ qablarına qoyarlar. Gələn Novruz bayramına qədər onlar tərpədilməz. Daşlar nə qədər ki öz yerindədi, o evdən bolluq əskik olmaz.

Novruz bayramında səhər tezdən gedib bulaqdan su gətirib həmin su ilə xəmir qatar, uşaqların üstünə səpərlər.

Ay onbeşliyəndə kimin qəriblikdə adamı varsa, gecə güzgüdə aya baxar. Qəriblikdəki adamın vəziyyəti güzgüyə düşən ayda görünər.

Əlin ziyilin aparmax üçün ay onbeşliyəndə süpürgəynən ziyili süpürüp deyillər:

Ayım, səni xoş görüm,
Ziyilin yerin boş görüm.
Ay göründü xoş oldu,
Ziyilin yeri boş oldu.

Gözdə titə olanda qırx dənə düyünü su dolu parçın içinə atırsan. Xəstənin başına qara yaylıq örtüb, parçın suyunu tökürsən onun başına, deyirsən:

Mən aşığam, sucuğaz
Sudan içdim bucuğaz.
Gözündən titə düşsün,
Dərmanıdı bucuğaz.

Gərək bunu üç çərşənbə (günün eyni vaxtında) eləyəsən ki, gözdən titə düşə.

Bir şey itirəndə sapı, yaylığın ucunu, ya da başqa bir şeyi düyünnüyüp deyillər ki, şeytanın quyruğun düyünnədim. Onda itih tapılar.

Boğazı gələn uşağın boğazını ilan öldürmüş yaşlı bir kişi xeylağına üç dəfə sığatdırarlar. Sığayan adam bu sözləri deməlidir ki, əli lap düşərli olsun.

Gündüz gəlibsən,
gündüz qayıt.
Gecə gəlibsən,
gecə qayıt.

Necə gəlibsən,
eləcə qayıt,
qayıt, qayıt, qayıt...

Sınayıblar ki, bu minvalla boğazgəlməsi qayıdar.

Ağzın içi yara olanda obaşdannan gedirsən suya. Deyirsən ki:

Salam Məlik sucığaz,
Əleyk salam bacığaz.
Ağ gümbəzivə od düşüp
Dərmanıdı bıcığaz.

Əlivi suynan doldurup ağzıva atırsan. Onnan da yara sağalır.

Ağzın içi yara olanda obaşdannan gedirsən suya. Salam verib deyirsən: "Salam Məlik sucığaz". Sora əlivi suynan doldurup ağzına atırsan, deyirsən: "Dərmanıdı bıcığaz".

Öydə qav-qacağ bulaşanda təmizdiyillər. Bu yuməknən təmiz olmur. Gərəh yüyənnən sonra salavatdıyasan. Salavatdıyanda belə deyillər:

Mis-misdən arı gərəh,
Mis sudan duru gərəh,
Misin haxdan xavarı gərəh!

Qəcələ həyətdə oxusa xeyir xəbər gətirər. Ya səfərdə olan yaxın adamın qəyidər, ya məktubu gələr. Odur ki, həyətdə oxuyan qəcələyə belə deyərlər:

Qəcələ, can qəcələ,
Dimdiyi novdan, qəcələ.
Get mənə xəbər gətir,
Sənə verim dən, qəcələ.

Qəcələ, qırıldama,
Mən sənin balan deyiləm.
Yun ilə ipək gələ
Sapınnan alan deyiləm.

Oxudun sən bu səhər
Qəcələ, xeyli xəbər.
Uç, mənə xəbər gəti
Oxuma, sən bu qədər.

Birinin oğlu, birinin qızı olan zahı arvadlar irasdaşanda bir-birinə iynə verməlidi. Yoxsa uşaxları həmməşə xəsdə olallar.

Zahı qadının üznüyünü götürmək üçün, axşam mal-heyvan örüşdən gələn vaxtı, qadını qapının ağzına uzadırlar. Bir qadın bir kasa suyu şahlı tərəzinin bir gözünə qoyur. Tərəzinin gözünü üç dəfə xəstə qadının başından ayağına tərəf yellədir, deyir:

Mən aşığam, sucuğaz,
Sudan içdim bucuğaz.
Üzüldü, üznüyün götürdüm,
Dərmanıdı bucuğaz.

Xəstə qadın deyir:

Yer, üznüyümü verirəm sənə,
Qüvvəni ver mənə.

Üznüyü götürən qadın kasadakı sudan xəstə qadının dörd bir tərəfinə səpir. Su səpildikcə xəstə qadın deyir:

Yer, üznüyümü verirəm sənə,
Qüvvəni ver mənə.

Suyu, xəstə qadının üstündə dolandıranda xəstənin üzünə bir damcı da düşməməlidir.

Beləcə üç çərşənbə axşamı dalbadal zahının üznüyünü götürürlər.

Zahı qadın qırxı çıxana qədər tək qalıb eləsə onu hal basır. Adamı hal basanda nəfəsi daralır, boğulur; ağzı, dodaqları köçür. Zahının başının altına Quran, tapança, bıçaq qoyulur. Əyninə də gərək qırmızı paltar geyinmiyə. Ya qara, ya da göy geyinə. Yatağının qırağına zincir çəkilir. Ocaxdan bir köz götürüllər, bir adam bu közü onun dörd yanında gəzdirir. Bir dəfə dolananda üç yerdə deyir ki, "halı gördünmü?", gəlib əvvəlki yerə çatanda deyir ki, "yox". Üç dəfə belə deyə-deyə dolanır. Onda hal gəlmir.

Hal anası zahı arvadın ciyərin çıxarıp aparır, suya salan kimi zahı ölür. Ona görə gərəh zahı heş vaxtı təh qalmasın.

Uşax doğulan kimi bir şiş götürüp zahının dört tərəfini cızığa alıllar. Zahının yaxasına iynə, sancax taxıllar. Şişinən cızanda bir nəfər soruşar ki, neynirsən?

Şişinən cızan da deyər ki, zahıya otax tikirəm. Soruşan da deyər ki, Allah mübarək eləsin.

Sora şişi qoyallar zahının yanına. Zahı eşiyə çıxanda bı şişi əlinə alar ki, bizdən yeylər ona toxunmasınnar.

Hal anası hamilə qadına toxunmasın deyə yan-yörəsinə sicim dolayarlar.

Zahı gecə eşiyə çıxanda əlinə şiş alar, başına soğan qoyar ki, cinnər yaxın düşməsin.

Çillə ən çox uşaxlarda olur. Uşağı çillə basanda gej yeriyir, qışdarı əyri olur. Uşağı çillə basanda gərəh bı çilləni kəsəsən. Bının üçün uşağın qışdarın yeddi irəh sapınan bağlıyıllar, sora qalın yapıllar. Onnan sora uşağı da, qadınnardan birini də götürüp aparıllar axşam naxırın qabağına. Naxırçı qalını götürür, uşağın qışdarındakı sapı da kəsir. Bınnan da uşağın çilləsi kəsilir.

Uşağın bələyinə iynə-sancaq təxməsən, şeşə gəlip uşağı vırar, uşax qərələr.

Qırxlı uşağa dovşan tükü, dağdağan, üzərriy vırıllar ki, ona nəzər işləməsin. Başının altına sarımsax, iynə-çörəy qoyullar ki, sədəmə toxunmasın.

Qırxlı uşağı əvdə təh qoymazdar, yoxsa uşağı şeşə vırar, göyərip boğular. Uşağı şeşə vıranda barmağı duza batırıp uşağın damağına sürtəllər. Sora da onu tüfəngin altınnan keçirəllər.

Uşax qorxanda yeddi qapının cəfdəsin suya tutullar. Sora o suyu uşağa gətirip içirillər. Əmə gərəh yolda heş kiminən danışmıyasan, yoxsa bir xeyri olmaz.

Qırxı çıxmıyan uşağın üsdünə gərəh heş kim gəlməsin. Əyər gəlsə, uşağı çillə basar. Onda uşağın ayağın yeddi irəh sapınnan bağlıyıllar, aparıllar çoban çilləsin kəsir.

Əyər toydan, yaxud yasdan çıxan adam qırxlının üsdünə gəlirsə, onda gedillər toyu olanın əl-üzünü yudurdullar, həmən suyu gətirip, töküllər uşağın başına. Ya da gedillər həmən yası olan ölünün qəbrinnən birəz torpax gətirip töküllər uşağın başına. Onda uşağın çilləsi kəsilir.

Qırxlı uşağı şeşə quşunnan qorumax lazımdı. Zahı qadını da qorumax lazımdı ki, hal anası onu aparmasın. Zahının başı altına bir şiş qoyullar, onun da ucuna soğan taxıllar. Sora zahı yatan otağın divarrarının dört bir tərəfini cızıllar. Zahının yatdığı yeri hasara alıllar ki, ora heş bir şey girə bilməsin.

Divarrarı cızanda zahı cızıx çəkənnən soruşur ki, nə çəkirsən?

Cızıx çəkən də deyir ki, həzrət Əliyə qurşax çəkirəm.

Hər divarı cızanda belə deyillər. Onnan sora tə zahının heş bir qorxusu qalmır.

Qırxlı uşağın papağına sancax bağlıyıllar ki, cinnər uşağı dəyişməsin. Uşağın başının altına duz-çörəh qoyullar ki, qorxmasın.

Uşax ağlağan olsa, heş dadın üstündə ağlasa dədəsinin, anasının başın yeyər. Gərəh onun ağzına duz töküp başmax tayıynan vırasan.

İtin tükünnən uşağın üsdünə tikillər ki, göz dəyməsin.

Dağdağan ağacınnan kəsip uşağın çiyninə tikillər ki, göz dəyməsin.

Uşağı çimizdirənnən sonra əyəği üstə saxlayıf başınnan su tökürük. Suyu töhdühcən deyirik:

Ağırrığın-uğurruğun
Dağlara, daşlara.
Göydə gedən quşlara,
Göldə yatan comuşdara,
Qoyundakı qoşdara,
Ürüşən itdərə,
Mırtdaşan arvatdara.

Uşağı gözdəymədən, nəzərdən qorumaq üçün üzərrik yandırıllar. Üzəriyi yandıranda deyillər ki:

Çıxdım Savalan dağına,
Çağırdım ya Əli, ya Məhəmməd!
Dedi, nədir fağır beçarə?
Dedim, nədi bu dərdə çarə?
Dedi, kollu-koslu üzərrik,
Başı börklü üzərrik!
Üzərriksən havasan!
Yetmiş dərdə davasan!
Tökürəm səni oda
Göstər hökmün üzərrik.
Bir, iki, üç, dörd,
Çırtdasın, pırtdasın,
Yaman gözdər pırtdasın.

Uşağı olmuyan arvadı aparardılar Qoç üsdünə. Orda arvad sürünüp daş qoçun ayaxları arasınnan keçərdi. Əyər keçə bilsəydi, uşağı olacaydı, keçəmməsəydi olmuyacaydı.

Ölü yuyulan taxtanın üstündən doğmayan, yaxud uşağı durmayan qadın keçərsə, onun uşağı olar, yaxud uşaqları yaşayar.

Uşağı olmuyan arvadı barlı ağacın altına aparallar. Çörəh ki yapanda iki çörəh yapışır bir-birinə, o çörəyi arvadın başı üstündə ayırardılar. Onda arvadın uşağı olardı.

Bir adam dəli-cinni olanda ona tas qurullar. Əvvəlcə əvin ortasına bir tas qoyullar, bı tasın üsdündə bir adam oturur. Ancax bırda hər adam otura bilməz, gərəh ürəkli adam otursun.

Sora tasın yanına suyunan dolu bir cam qoyullar. Tasda oturanın başına qara yaylıx salıllar. Bı adam mis qaşıxla camı tıkqıldadır. Tas quran da başdıyır pıçıldaya-pıçıldaya cinnəri çağırmağa. Cinnər yığışır.

Tas quran cinnəri dilə çəkip yığır bir bardağa, onnara and işdirir ki, bir də dəli adamnan işdəri olmasın. Əyər cinnər irazılaşsalar, dəli sağalır.

Cin birinə xətər yetirəndə tas qurub cini tuturdular. Cini tutan iki nəfər olurdu – bir molla, bir də görücü. Sobuda İtay adlı bir arvad vardı – görücüydü.

Molla bir qaba su töküb, qoyurdu qabağına, cinləri bir-bir adıyla çağırırdı:

– Əli, Vəli, Qulu, gəl!

Görücü deyirdi:

– Budu, gəldilər!

Cinlər gəlirdi, molla dua oxuyub, cinləri yığırdı qarğıya. Deyirdi:

– Filankəsə toxunubsan, xəstələnib.

Cinlər də and-aman eləyirdilər ki, ta bir də o adama yaxın düşmərik.

Molla Tağıyla görücü Murad tas qururdu. Molla Tağı cinləri adıyla çağırırdı. Görücü Murad deyirdi:

– Filan cin gəldi, filan cin gəldi. Amma bir axsağı var – qadın şəklində – o gəlmir.

Molla Tağı dua oxuyub, o cinə qarğış tökürdü ki, Allah sənə lənət eləsin, niyə gəlmirsən?

Görücü Murad birdən deyirdi:

– Molla, budu gəlir, vahiməsi basır məni!..

Sofu gəlirdi, ilan duası oxuyurdu:

Talxam, haydı,
Şalxam, haydı,

Cəfəri, Cəfəri.
Cinni bəşər.
Şahmar.
Yelmar,
Gülmar.
Mələyim, quzum,
Şünağzı məndə.
Dəyməsin, aşmasın.
Yüzənni gəmsin,
Ya Süleyman peyğəmbər, –

deyib dua püf eləyirdi, ilanları adamın başına dolandırırdı. O duzu həyətə səpirdilər, heyvanlara verirdilər ki, mal-qara, həyət-baca sədəmədən, xata-baladan uzaq olsun.

Bir çoban çöldə gecəməli olur. Bir də baxır ki, heyvannardan biri sürüdən ayrılıp gedir. Çombağını atır bının dalınca ki, qəyitsin. Demiyəsən bir cin öz balasıynan oturupmuş yolda. Çombax gedip cinin balasına dəyir, onu yaralıyır. Cin də durup kişini vırır, kişi dəli olur.

Əvdə bı çobana tas qurullar. Bir möhkəm ocax qalıyıp yanına da suynan dolu mis qab qoyullar. Bir dayirə çəkillər. Çoban durur dayirənin ortasında. Tas quran soruşur ki, bı çobanı hansıvız vırmısız. Bir cin deyir ki, mən vırmışam.

Deyir: "Niyə vırmısan?" O da deyir ki, ağacı atıp balamı yaraladı, ona görə.

Deyir ki, bə o yazıx nə bilsin ki, siz orda oturmusuz, o ki sizi görmürmüş.

Cin deyir ki, nolsun? Tas quran deyir ki, bı dəyqə bını bağışdamasan səni odda yandırıp, suda qeynədəciyəm.

Cin qorxur, çobanı bağışdıyır. Çoban da sağalır.

Heyvan-zad çöldə qalanda gərəh qurdun ağzın bağlıyasan, yoxsa heyvanı yeyər. Qurdun ağzın qara pıçaxnan bağlıyıllar. Qara

pıçağı götürüp tutursan ağzıva sarı, yavaşca Qurandan bir ayəni üç dəfəm oxuyursan, hər dəfəm oxuyanda da pıçağı birəz qatdıyırsan. Üçüncü dəfəm oxuyannan sora pıçağı təmiz qatdıyırsan, nəfəs almadan itən heyvanın dörd tərəfin nəzərdə tutup pülüyürsən. Bınnan da qurdun ağzı bağlanır, o heyvana yaxın düşəmmir.

Bir də görürsən ki, yarımçıxlar pütün çölü bağlıyıllar, qurt aj qalır, heş nə yeyəmmir. Bı günahdı, qurt qarğış tökər, bı qarğışın altınnan çıxmax olmaz. Gərəh ancaq itən heyvan harda olursa olsun, onun dört tərəfin nəzərdə tutup bağlıyasan. Qurt bı heyvana yaxın düşəmmiyəcəh, bının yanındakı başqa heyvannarı isə yeyəcəh.

Bir kişinin heyvannarı itmişdi. Getdi bağlatdı. Heyvannarı tapannan sora and içirdi ki, qurt pütün kandarları şalğamlıyıp, ancax bı heyvannara yaxın düşəmmiyip.

Mal-heyvan itib, gecə çöldə qalanda qurdağzı duası oxuyub, bıçağın ağzını bağlayırdılar. Bunnan da qurdun ağzı bağlanırdı. Mal-heyvan tapılanda bıçağın ağzını açırdılar ki, qurdun ağzı bağlı qalmasın (deyirlər, qurdun ağzını söymək də olmaz – qurdun ağzı dualıdır).

Bir gün bizim inək axşam evə qayıtmamışdı. Əmim arvadı qurdağzı duası bilirdi. Çağırdım, Mina dostu gəldi. Dua oxuyub, qurdun ağzını bağladı.

Gecə yarıdan keçmişdi. Gördüm inəyin böyürtüsü gəlir. Çıxdım Yuxarı düzə. Gördüm inək burdadı, canavar neçə yerdən cırmaqlayıb, amma yeyə bilməyib.

Mal-heyvan itəndə, axşam naxırdan qayıtmayıb çöldə qalanda "qurdun ağzı"nı bağlayarlar. Yoxsa heyvan qurd-quşdan salamat qurtarmaz. Odur bir bıçaq götürüf belə deyərlər:

Hasarım hasar olsun,
Bezarım bezar olsun.
Qırx illik üçün,

Qırx damar üçün,
Qurdun, quşun yönü o yana,
Dabanı bəri hasar hasarlayıram.
Hasar mənim olmasın,
Aşa-Fatma nənəmin olsun.

Birinin mal-qarası, qoyun-quzusu itsə, "qurdun ağzı"nı bağlayarlar. Bir bıçax götürüb heyvanın gedə biləcəyi dörd tərəfi nəzərdə tutub bıçağa bu sözləri deyərlər:

Hasarın hasar olsun,
Hasarın günbasar olsun.
Əbi hasarın çəksin,
Peyğəmbər möhrün vursun.
Ona gələn qurd-quşun –
Allah da yolun kəssin.

Bunu deyib bıçağı yerə basdırarlar, ya da qatlayıb bir yerə qoyarlar. Mal-heyvan, qoyun-quzu tapılanda, evə sağ-salamat qayıdanda bıçağı açarlar ki, qurd ac qalmasın.

Qurdun ağzını bağlamaqdan ötrü bu duanı oxuyurdular:

Şəmsü,
Həvə,
Qərux,
Əfət,
Dəmdəmə,
Əleyhim,
Rəbbihim,
Müzəmmim,
Fəqsəfi,
Valihi,
Ya xəfi,
İqbahi.

İqbahi – qurdun adıdır.

Maldan, qoyunnan biri itəndə arvatdar qırxılıq götürüb bir düzənniyə, ya da eləcə öyün qavağına çıxıb dua eliyillər. Sonra dua oxuya-oxuya qırxılığın ağzını ipnən, ya da kəndirnən bağlıyıllar. Buna deyillər qurd ağzı bağlamax. Belə eliyəndə itən heyvana qurd-quş dəyməz. Sağ-salamat gəlif çıxar.

Canavarınan qarşılaşsan, gərəh qaşmıyasan, başdıyasan adam adı saymağa, özü də ucadan. Onda, canavar çıxıp gedəcəh.

Bir yerdə oğurrux olanda qurdun zingin yandırallar. Qurdun zingi onun biləyidi. Zingi yandıranda oğru hərrənip-fırranıp gəlip düşər həmin ocağa, yanar.

Qurt yağını arvadın üsdünə sürtəndə əri onu danışdırmır, zəhləsi gedir, boşuyur.

Əyər kişinin üstünə sürtüllərsə, arvadın onnan zəhləsi gedir, isdiyir ki, boşansın.

Qurdu ki vırırsan ölür, öləndə onu mırdarlasan, ta heş bir şey olmaz, nə yağıynan cadı eləmək olar, nə də başqa şey.

Əmzihli arvadın döşü şişəndə qurdun pəncəsiynən üç dəfə döşünə vırırsan, şiş çəkilir.

Uşağı olmayan qadını içinə ilan qabığı, qurd kəlləsi salınmış su ilə çimizdirəndə onun uşağı olar.

Əyər bir adam üstünə ilan qavığı, ya da ilan dili asıb gəzsə, ona heçvaxt it hürməz.

İlanın qabığını evə qoyanda o evə şər qüvvələr gələ bilməz, həm də evdə bərəkət olar.

Gün tutulanda gur axan suyun yolunu dəyişdirillər.

Gün tutulanda qırxlı uşağı bayıra çıxarıllar.

Durna qatarı gedəndə daşı çevirsən, qatar pozular. Daş onnarın yolun kəsir.

Göz səyriyəndə bəla olar. Bəlanı ötüşdürmək üçün gözün qırağına qırmızı parça kəsib qoymaq lazımdı.

Dağdağan daşı müqəddəsdi. Yumru, içi deşik olur. Onu heyvan boynundan asarlar, təzə ev tikəndə isə barının bir küncünə qoyarlar.

Gəlin gedən zaman adamların üstünə su səpələyər. Kim o sudan içsə, uzun zaman xəstə olsa belə şəfa tapar.

Gəlin bir almanı alıb bıçaqla balaca dilimlərə bölər, sonra həmin dilimləri oğlan uşaqlarına paylayar ki, oğullu-uşaxlı olsun.

Gəlin aparılanda qabağında şam, çırax yandırıllar, ətrafında güllə atıllar ki, pis ruhlar ona yaxın düşməsin.

Ərə gedən qızın toy günü saçından kəsərlər. Bu işi görən yalnız qızın yaxın adamlarından olmalıdı. Kəsilən saçı qızın anasına verər, əvəzində şirinlik alarlar. Ana həmin saçı qızın cehizlik balıncının,

yaxud döşəyinin içinə qoyar. Guya saç nə qədər qoyulan yerdədi, qızın getdiyi yerdə xeyir-bərəkət olar. Naxçıvan tərəflərdə yeddi qız gələr, onlardan hər biri gəlin gedəcək qızın saçından bir tel qoparar. Sonra həmin qoparılan telin yeddisi də dəstələnib qızın anasına verilər. Ana da onları səliqə ilə balıncın içinə qoyub ər evinə göndərər.

Qıza nişan taxanda qucağına bir oğlan uşağı oturdallar.

Gecə evi süpürəndə gərəh deyəsən ki, "toy evi" süpürürəm.

Əvi süpürəndə üsdüvə süpürgə dəysə, gərəh süpürgədən bir çöp qırıp atasan, yoxsa şərə düşərsən.

Yola çıxanda bir adamınan irasdaşırsan ki, ayağı sənə düşmür. Onda gərəh qəyidip güzgüyə baxasan, sora yola çıxasan.

Qabaxdan pişih keçəndə bir daş atıllar, sora keçillər. Yoxsa zərələ düşəllər.

Qara basan adamın üsdünə şəvə bağlıyıllar, iynə taxıllar. Qara qazannan su içirillər ki, ta onu qara basmasın.

Qapını daraxlıyanda ölü ölər, əyər daraxlasan gərəh çəpih çalasan.

Qəbri əlinən göstərməzdər, yoxsa ölü ölər. Əyər əlivinən göstərmisənsə, gərəh barmağıvı dişdiyip ayaxlıyasan.

Ölünü basdırmağa aparanda əvə bir daş qoyallar. Ona görə daş qoyallar ki, ölünün dalıyca daş getsin, adam getməsin.

Axşam isə şam halvası çalıp atallar damın üsdünə ki, ölünün gözü yığılsın.

Yasdan çıxıp tanış bir evə gedəndə gərəh başmağıvı taykeş geyəsən.

Tüfəh düz vırmıyanda deyəllər ki, bını çillə basıp. Tüfəngin çilləsin kəsməh üçün onu arvat tumanının altınnan keçirəllər.

Ocağa su töküp söndürəndə gərəh pismillax deyəsən. Yoxsa cinnər səni vırar.

Çörəh yapmağa başdıyanda təndirin üsdündə bir qap su hərriyəllər ki, çörəh küt getməsin.

Çərşənbə günü suya getsən, əvə ağ daş gətir ki, evində bollux olsun. Ağ daşı gətirip əvin hər bıcağına dört daş at, var-dövlət əvə axışacax.

Əyər əvizə bədnəzər gəlipsə gedəndə dalınca ərov at ki, zərəli dəyməsin.

Bədnəzəri görəndə ürəyində deməlisən ki, ay it, gözündəkini sal yerə.

Evə, bağa-bağçaya at nalı, inək başı qoyarlar ki, pis gözlər dəyməsin.

Təzə evə köçəndə lap birinci çırax, bir də güzgü aparallar.

Tez-tez yuxuda qorxup dihsinən adamın başı altına pıçax qoysan daha diysinməz.

Yağ əridəndə içinə bir çimdih xam torpax atsan, bərəkətdi olar.

Duz yerə töküləndə savaşma olar, gərəh duzun üsdünə qənd qoyasan.

Bir adam durduğu yerdə qızdırıb xəstələnsə, deyərlər filankəsi ruf tutub. Çox vaxt adamı Allah rəhmətinə getmiş yaxın adamlarının, qohumlarının rufu tutur, axı rəhmətliklərin gözü-nəzəri burdadı, yanımızdadı. İllah ki, qəbir üstünə gedib rəhmətlik qohumlarını yad etməyəsən. Onda onlardan birinin rufu gəlib səni tutacaq.

Belə olanda xəstəni aparırlar ruf ölçənin yanına. Hər adam ruf ölçə bilməz. Ruf ölçən udumlu olmalıdı – bu ona ata-anasınnan, nəsilliknən verilir.

Elə ki xəstəni gətirdilər rufçunun yanına, o, bir yaylıq, örpək götürüb bir ucuna kömür, qənd, çörək düyünləyib verir xəstəyə. Örpəyin o biri ucunu da özü sol əlinə alıb kimin rufunnan şübhələndiyini bir-bir xəbər alır.

– Kimin rufu səni tutmuş ola?

Xəstə deyir:

– Rəhmətlik babamın.

Rufçu sağ əlini dirsəkdən qatlayıb sol əlinin baş barmağı üstə qoyub deyir:

– Filankəsi babasının rufu tutubsa, sür başa çıx, tutmayıbsa, yerində qal!

Ruf ölçən bunu deyib dirsəkdən barmağının ucuna kimi örpəyi ölçür, sonra bir də bunu təkrar eləyir. İşdi ruf ölçənin barmağı örpəkdən ötüb keçsə, deməк, xəstəni adı çəkilən adamın rufu tutub.

İndi də ruf ölçən deyir bəs bu ruf nə istəyir? Xörəklərin adını sadalamağa başlayır:

"Əriştə istəyir, umac istəyir, cılbır (şorba) istəyir, yarma istəyir, halva istəyir və s. Yenə bu xörəklərin birinin adı çəkiləndə ruf ölçənin barmaqları örpəyi ötüb keçir. Tutaq ki, ruf halva istəyir, rufçu tapşırır ki, halvanı bişirib yeddi qapıya versinlər.

Cadı iki cürədi: biri adamı gözdən salır, o biri adamı məhəbbətdi eliyir. Birinci cadını sındırmax üçün gərəh cadı olunan adam çimə, sora yazılı kasadan başına su tökə. Ya da uşağın sidiyinnən suya qatıp ona içirillər, cadı murdarlandığından sınar. Məhəbbət yaradan cadını ağaşdan asıllar, yel vırıp tərpədir. Kimi nəzərdə tutuplarsa, o, cadı yazdırannan yana sinov gedir.

# ŞƏRHLƏR

Elmi təsnifata görə, miflər bir neçə başlıca qrupa bölünür: kosmoqonik, etnoqonik və təqvim mifləri. Bunlarla yanaşı ovçuluğa, ruhlara, qeyri-adi varlıqlara aid mifləri bəzən müəyyən prinsiplər üzrə seçərək xüsusi bölgülərə daxil edirlər. Hər bir bölgü daxilindəki miflər o birilərdən mövzusuna, strukturuna və funksional istiqamətinə görə fərqlənir.

Təqdim edilən kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulduğundan, burada təsnifat bərpa prinsipləri əsasında iri bölgülər üzrə aparılmamış, onun sadə, anlaşıqlı olmasına daha çox diqqət yetirilmişdir. Bölgülərin düzülüşündə isə bu tipli nəşrlərdəki ardıcıllıq əsasən gözlənilmişdir.

*Səh.26*. **İlkin su**. Bu anlayışla, demək olar ki, bütün mifoloji sistemlərdə qarşılaşırıq. Əksər xalqların inanışına görə, kainat ilkin sudan (lil, xaos) yaranmışdır (bax: Мифы народов мира, т.I. – М: 1980., с.240; *Е.М.Мелетинский*. Поэтика мифа. – М.: 1976, с.206-207; *М.Шахнович*. Первобытная мифология и философия – Л.: 1971). Bu akt həmişə fövqəltəbii bir qüvvə – ilkin yaradıcı tərəfindən yerinə yetirilir. Buradakı mətndə onu Allah əvəz edir. Şübhəsiz ki, belə bir arxaik mətndə Allah adı çəkilə bilməzdi və onun meydana çıxması sonrakı islam təsiri kimi anlaşıla bilər. Qeyd etmək gərəkdir ki, bu xüsusiyyət bir sıra başqa mətndə də gözə dəyməkdədir. Bizcə, həmin mətnlərin mifoloji məzmununu düzgün dərk etmək üçün bu cəhət elə bir ciddi çətinlik törətmir. Buna görə də onu aşağıda hər dəfə ayrıca qeyd etməyə ehtiyac qalmır.

*Səh.26*. Göyün, yaxud Kainatın bir neçə qatdan ibarət olması mifoloji dünya modelinin əsas xüsusiyyətlərindən biridir. Sonralar bir sıra dinlərdə (o cümlədən islam dinində) geniş yer almışdır.

*Səh.28*. Göy ilə Yerin çox yaxın (bəzən hətta bitişik) olması barədə təsəvvür arxaik mifoloji sistemlərdə geniş yayılmışdı. Onların bir-birindən ayrılması hər mifoloji ənənədə bir cür izah edilir. Ortaq cəhət isə ondan ibarətdir ki, kainatın nizama salınması, mifoloji kos-

mosun formalaşması prosesi bütün ənənələrdə məhz bu aktla – Göyün Yerdən ayrılması ilə müşayiət edilir (bax: *Е.М.Мелетинский.* Поэтика мифа. – М.: 1976, с.207).

*Səh.29.* Ay və Günəş haqqında süjetlər türk mifoloji ənənəsində böyük yer tutur. Bu süjetlərdə onların hər biri öz növbəsində gah oğlan, gah qız kimi təqdim edilsə də, Ayın oğlan, Günəşin isə qız olması barədə təsəvvürlər daha geniş yayılmışdır. Tək-tək hallarda onlar bu mətndə olduğu kimi, bacı-qardaş, əksərən isə sevgililər kimi təqdim edilirlər. Həmin süjetlərdə Ay və Günəşin rəngi, onların görüşə bilməmələri, tutulmaları, Aydakı ləkələr və s. izah edilir.

*Səh.29.* Bu süjet geniş yayılmışdır. Arxaik inanışa görə, Günəş və Ay yeraltı dənizdə yaşayırlar. Bəzən bu, ölüb-dirilmə kimi anlaşılır: Günəş hər axşam yeraltı dənizə daxil olaraq ölür (yaxud həmin dənizdəki əjdaha onu udur), səhərlər isə dirilərək gündoğan tərəfdən yenə öz səyahətinə başlayır. Bu inanışın izləri türk xalqlarının qədim təsviri sənət nümunələrində və dil faktlarında yaşamaqdadır (bax: *А.И.Окладников, А.И.Мартынов.* Сокровища томских писаниц, – М.: 1972, с.234; *В.Е.Ларичев.* Древнейшие люди Сибири. – Курьер ЮНЕСКО, 1980, декабрь). Buradakı Gülənbər obrazına məlum mətnlərin heç birində rast gəlinməmişdir. Daha doğrusu, bu funksiyada çıxış edən obrazlardan heç biri bu adı daşımır. Ona görə də Gülənbər adının mifoloji semantikasını düzgün açmaq hələlik mümkün deyil. Ayı görərkən salavat çevrilməsi isə onunla izah edilir ki, ta qədimlərdən o, müqəddəs, mübarək sayılmışdır. Bu cəhət onun arxaik türk görüşlərində tutduğu müstəsna mövqe ilə bağlıdır. Bəlli olduğu kimi, Ay orta əsrlərəcən (Oğuz ənənəsi) əcdad sayılmışdır. Onun nur və təmizliyi təcəssüm etdirməsi ilə bağlı inamlar isə bügünəcən yaşamaqdadır.

*Səh.34.* **Ülkər** (Dan ulduzu, Zöhrə) ulduzuna inanış və uyğun miflər ən qədim dövrlərlə bağlıdır. Onun ilk örnəkləri ilə qədim şumer mifologiyasında qarşılaşırıq. Həmin ulduz və onun təcəssümü olan Tanrı (İnanna) Şumerdə də bərəkət, sevgi və gözəllik hamısı kimi tanınırdı (bax: Поэзия и проза древнего Востока. – М.: 1973. с.143–164; *С.Н.Крамер.* Мифология Шумера и Аккада. – Мифо-

логии древнего мира. М., 1977, с.122–146; *С.Н.Крамер*. История начинается в Шумере. – М.: 1966). Bu inanış antik Avropaya məhz Ön Asiyadan keçmişdir (bax: *А.Карпенко*. Названия звездного неба. – М., 1981, с.76).

*Səh.35*. Dağlara tapınış kosmoqonik görüşlər sistemində mühüm yer tutur. Daha geniş və sistemli şəkildə isə türk xalqlarının mifologiyasında qorunmuşdur. Onlar bir çox dağları və dağ zirvəsini tarixən müqəddəs bilmişlər: Altay, Xan-Tenqri, Ural, Qafqaz, Baba dağ, Savalan və b. Türk xalqları arasında geniş yayılmış olan bu tapınışla bağlı bir sıra araşdırmalar vardır (ümumi təsəvvür əldə etmək üçün bax: *M.Seyidov*. Alı kişi və Koroğlu obrazlarının prototipləri haqqında. – "Azərbaycan" jurnalı, 1978, № 3).

*Səh.36*. **Tanrı**. Bu ad-termin türk xalqlarının mifologiyasında mərkəzi anlayışdır. Qədim türklərin tanrıçılıq sistemi birbaşa onun üzərində qurulmuşdur (daha geniş tanışlıq üçün bax: *С.Г.Кляшторный*. Мифологические сюжеты в древнетюркских памятниках. – Тюркологический сборник 1977, М., "Наука", 1981; *И.В.Стеблева*. К реконструкции древнетюркской религиозно-мифологической системы. – Тюркологический сборник. 1971, М., 1974; *О.Сулейменов*. Аз и Я. – Алма-Ата, 1975, "Тенгрианство" fəsli). İşlədilmə tarixini qədim Şumer abidələrinə qədər izləmək mümkündür (şumercə: dinqir – Tanrı). Türk dillərində Tanrı, Tenqri, Tenqir və b. variantları var. İslamiyyət meydana çıxandan sonra Allahın adı çox vaxt Tanrı əvəzinə işlənsə də, onun mövqeyini əsaslı şəkildə sarsıda bilməmişdir.

*Səh.37*. **Uğuz (Oğuz)** – türk etnoqonik miflərinin mərkəzi surəti. Qorunmuş orta əsr mətnlərində türk xalqlarının ulu babası və mədəni qəhrəman (demiurq) kimi təqdim edilir (bax: *Н.Я.Бичурин*. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена, т.I. – М.-Л. 1950; *А.М.Щербак*. Огуз-наме Мухаббат-наме. – М.: 1959; *Рашид ад-Дин*. Сборник летописей, т.I, кн. I. – М.-Л.: 1952; *А.Н.Кононов*. Родословная туркмен (Сочинение Абулъ-гази хана Хивинского. – М.-Л.: 1958; *Хафиз-и Таныш Бухари*. Шарафнаме-и шахи. – М., 1984). Buradakı süjet başlıca cizgilərinə görə Rəşidəd-

din, Əbülqazi xan, Salar baba və b. tarixçilərin əsərlərində verilən variantlara uyğun gəlir. Həmin mətnlərin hamısında Oğuz xanın islamı qəbul etdiyi göstərilsə də, bunun sonradan artırıldığı göz qabağındadır. Belə ki, qədim uyğur əlifbası ilə yazılmış "Oğuznamə" nüsxəsində bu barədə qətiyyən danışılmır (bax: *А.М.Щербак.* Göstərilən əsəri). Unutmaq olmaz ki, oğuznamələrdə haqqında danışılan təkallahlıq heç də islam demək deyil. Burada monoteist sistem olmaq üzrə qədim türk tanrıçılığı nəzərdə tutulmalıdır.

*Səh.38.* Bu mətn bütövlükdə qədim oğuznamələri yada salır və onların tipoloji baxımdan daha arxaik variantı sayıla bilər. Buna oxşar süjetlərlə bir çox orta əsr abidəsində və başqa türk xalqlarının miflərində, rəvayətlərində tez-tez qarşılaşmaq mümkündür. Buradakı boz qurd türk mifologiyasında böyük yer tutan surətlərdəndir (bax: *Н.Я.Бичурин.* Göstərilən əsəri, c.222-224; *Урманчеев.* По следам белого волка. – В его кн.: Эпические сказания татарского народа. Казань, 1980; *В.А.Гордлевский.* Что такое "босый волк" – Избранные произведения т.II, M., 1961 və b.) Türk xalqlarının şəcərəsinin Nuh peyğəmbərə bağlanması da qədim tarixi olan ənənədir.

*Səh.39.* Mətn ümumtürk etnoqonik miflərinin bir növüdür.

*Səh.39.* Oğuzların bədəncə çox nəhəng olması və sonradan məhv olaraq aradan çıxması barədə miflər, mifoloji rəvayətlər türk xalqları arasında geniş yayılmışdır. Gürcü folklorunda qarşılaşdığımız eyni süjet (bax: Грузинские народные предания и легенды. – M., 1973) də bu dairəyə daxildir və görünür nə vaxtsa Azərbaycandan alınmışdır.

*Səh.45.* **Dirilik suyu** və ümumiyyətlə əbədi həyat axtarışı barədə eyni sonluqlu süjetlər nə qədər çox olsa da, köhnə dünya mədəniyyətlərində cəmi bir neçə şəxslə (Bilgəmiş, Oğuz xan, Dədə Qorqud, Zülqərneyn) əlaqələndirilir. Onların bir-biri ilə əlaqəsi araşdırılmış və ilkin mənbənin Şumer eposunda ("Bilgəmiş boyları") olması fikri bir sıra tədqiqatçı (Y.E.Bertels, V.M.Qocatürk, Y.A.Kostyuxin və b.) tərəfindən irəli sürülmüşdür (bax: *Е.Э.Бертельс.* Роман об Александре и его главные версии на Востоке. – М.–Л.: 1948, c.15-16;

*Е.А.Костюхин.* Александр Македонский в литературной и фольклорной традиции. – М.: 1972, с.154-156; *V.M.Kocatürk.* Eski Türk edebiyatı. – İstanbul, 1960, s.135). Aparılan araşdırma Oğuz xan obrazının Bilgəmişdən daha arxaik olduğunu göstərir və bizcə, süjetin kökünü müəyyən dövrdə Şumer-türk mədəni birliyini şərtləndirmiş olan daha qədim ənənələrdə axtarmaq gərəkdir (Əlavə məlumat üçün bax: *А.Аджалов.* Трансформации одного дресневосточного эпического образа в сравнительно-типологическом освещении. – Azərbaycan filologiyası məsələləri. II buraxılış, Bakı, 1984, s.223-227).

*Səh.49.* **Koroğlu** obrazı Azərbaycan və başqa türk xalqlarının folklorunda epik qəhrəman kimi təqdim edilsə də, onun mifoloji cizgiləri hələ də aydın görünməkdədir. M.Seyidovun araşdırmaları göstərir ki, o, mənşəyini mifologiyadan alır və başlıca mifoloji atributlarını qoruya bilmişdir (bax: *M.Seyidov.* Alı kişi və Koroğlu obrazlarının prototipləri haqqında. – "Azərbaycan" j., 1978, №3). Mətnlərdə onun ad verməsi, qayda-qanunlar, sosial normalar təsis etməsi ilkin əcdada – demiurqa aid funksiyalardır. Buna görə də Koroğluya daha çox mifoloji obraz kimi yanaşılması özünü doğruldur.

*Səh.51.* **Əyə** (bəzi türk dillərində "eezi", "iyase") – müəyyən təbii obyektləri qoruyan və onların təcəssümü olan mifoloji varlıqlar, yaxud hami ruhlar. Bu inanışın meydana çıxması, görünür, daha qədimlərdə tanrıçılıq, sonralar isə şamanlıq görüşləri ilə bağlıdır. Başqa türk xalqlarında (xüsusən Volqaboyu və Sibirdə) bu inanış geniş şəkildə öyrənilməkdədir (daha yaxın tanışlıq üçün bax: Мифы народов мира, т. I. – М., 1980, с. 22, 600; т.II. – М.: 1982, с.247, 471, 474, 538, 540).

*Səh.53.* **Yel dağı** – Gürcüstanın Bolnisi rayonunda Kəpənəkçi kəndinin yaxınlığındadır. Yerli azərbaycanlılar (müəyyən qədər də yunanlar, gürcülər) arasında müqəddəs sayılır. Onlar bu dağa nəzir gətirir, qurban kəsir və and içirlər.

*Səh.58.* Azərbaycan təqvim miflərində Novruz bayramı ilə bağlı mövzular geniş yer tutur. Orta əsrlərdən indiyəcən Novruz bayramı gah fars mədəniyyətinə, gah ərəb-islam ənənəsinə aid edilsə də, onun

kökləri daha qədimdir. Belə ki, yazın başlanğıcında gecə ilə gündüzün bərabərləşməsi bir çox Şərq ölkəsində, o sıradan qədim Şumerdə təntənə ilə qeyd edilmiş, yeni ilin başlanğıcı sayılmışdır (Novruz bayramının mənşəyi, məzmunu və təkamülü haqqında geniş məlumat almaq üçün bax: *M.H.Təhmasib*. Adət-ənənə, mərasim və bayram. – "Ədəbiyyat və incəsənət", 1966-cı il, 12 mart; *M.Hatəmi*. Novruz bayramının mənşəyi haqqında. – Azərbaycan EA-nın Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1970, № 3; *M.M.Yusifov*. Bahar bayramı haqqında. – Azərbaycan filologiyası məsələləri, II c., Bakı: Elm, 1983.

*Səh.61*. Aprel ayının birinci 10 günü (köhnə üslubla) Borçalının bir çox kəndlərində "qarının borcu" adlanır. Bu vaxt havalar adətən soyuq keçdiyindən belə bir inam yaranmışdır ki, bu on günü qış yazdan borc alıb. Sentyabrın ilk 10 günü haqqında slavyan xalqlarında da uyğun inanışlar var.

*Səh.80*. Mətn Həzrəti Süleymanın adı ilə bağlansa da, öz başlıca məzmununa görə əfsanə yox, mif sayılmalıdır. Yeri gəlmişkən göstərmək gərəkdir ki, Həzrəti Süleymanın dini obraz sayılması və yalnız xristian, yaxud islam ənənəsinə aid edilməsi düzgün deyil. Bu obrazın göstərilən dinlərdən qabaq yarandığını və onun formalaşmasında Mərkəzi Asiya (türk-monqol) ənənələrinin böyük rol oynadığını akad. A.N.Veselovski və Q.N.Potanin hələ XIX əsrdə sübut etmişdir (bax *А.Н.Веселовский*. Славянские сказания о Солмоне и Китоврасе и Западные легенды о Морольефе и Мерлине. – СПб.: 1872; *Г.Н.Потанин*. Восточные мотивы в средневековом западноевропейском эпосе. – М., 1899. Kitabın bir çox səhifələrində bu mövzuya toxunulur; yenə də onun: Сага о Соломоне. – Томск, 1912).

*Səh.89*. **Ovçu Pirim** nağıl obrazı kimi tanınmaqdadır. Lakin həmin nağılların strukturu üzərində diqqətli müşahidələr və obrazın semantik təhlili onu daha çox mifoloji aspektdə yozmağa imkan verir.

Oxuculara təqdim edilən bu və bəzi digər mətnlər Ovçu Pirim obrazının mifoloji mənşəyi barədə qənaəti bir qədər də dərinləşdirir.

*Səh.95*. **Xıdır** (Xızr) obrazı türk xalqlarının mifoloji görüşlərində başlıca yerlərdən birini tutur. Onun islamiyyətdən qabaq yaranmasını

və Xızır adının türkmənşəli olmasını Mirəli Seyidov sübut etmişdir (bax: *M.Seyidov*. Azərbaycan mifik təfəkkürünün qaynaqları. – Bakı, 1983, s. 102–131). Əlavə olaraq demək lazımdır ki, Xıdır adının da ərəbmənşəli olmadığı bir sıra qədim Şərq, o sıradan türk dillərinin materialı əsasında izah edilə bilər. Y.E.Bertelsin göstərdiyi kimi, qədim şumer mifologiyasındakı Xasisatra (Zisudra) ilə bağlı olan bu obraz (*Е.Э.Бертельс*. Роман об Александре и его главные версии на Востоке. – М.: 1948, с.15) altı min il ərzində dəfələrlə dəyişmiş, nəhayət, islam dövründə formalaşmış bəzi mətnlərdə onu Əli əvəz etməyə başlamışdır (bax: *M.H.Təhmasib*. Azərbaycan xalq dastanları. – Bakı, 1972). Əldə olan materialların təhlili göstərir ki, hər ikisi türkmənşəli olsa da, Xıdır adı Xızr variantından daha qədimdir.

*Səh.104*. **Boyu bir qarış, saqqalı yeddi qarış** (yaxud "boyu bir qarış, saqqalı iki qarış") mifoloji obraz olub nağıllarda da rast gəlinir. Haqqında məlumat azdır. Azərbaycan folklorşünaslığında xüsusi olaraq öyrənilməmişdir.

*Səh.104*. **Təpəgöz** (Kəlləgöz) – Azərbaycan, eləcə də başqa türk xalqlarının folklorunda geniş yayılmış mifoloji obrazlardandır. Mif, əfsanə, rəvayət və dastanlarda nağıllara nisbətən daha aktiv çıxış edir. Dünya folklorunda onunla bağlı bəzi qədim süjetlər məlumdur. Və görünür, "Kitabi-Dədə Qorqud"dakı uyğun boy, mütəxəssislərin göstərdiyi kimi, onlardan heç də cavan deyil. Bu məsələni ayrıca öyrənmiş Xalıq Koroğlu bizdəki Təpəgözün kənar qaynaqlardan təsirlənmədiyini, müstəqil yaradıcılıq məhsulu olduğunu göstərir (*Х.Г.Кероглы*. Из восточно-западных фольклорных связей. Темяглаз (Депегез) и Полифем. – Типология и взаимосвязи средневековых литератур Востока и Запада. М., 1974, с.275-287).

*Səh.108*. **Ucubılıx** obrazı barədə nə şifahi, nə də yazılı bir məlumat yoxdur. Bu obrazın Azərbaycan nağıllarında rast gəldiyimiz "Ocıbınıx padşah" obrazı ilə bağlılığı şübhə doğurmur.

*Səh.115*. **Hal anası** (Hal nənəsi, Al arvad) – Azərbaycan xalqı arasında ən geniş tanınan mifoloji varlıqlardan biridir. Başqa türk xalqla-

rında Albastı, Almastı, Jalbastı və b. variantlarda tanınan bu varlıq xalqımızın mifoloji görüşlərinin öyrənilməsində müstəsna dəyərə malikdir. Azərbaycan torpağında onun ilk izləri hələ Elam dövründən (b.e.ə. IV–III minilliklər) bəllidir. Sonralar İber-Qafqaz və Hind-Avropa dilli bir sıra qonşu xalqların mifologiyasına da keçmişdir.

Bu inanış kompleksi barədə daha ətraflı təsəvvür əldə etmək üçün bir neçə məqaləyə müraciət etmək olar (Мифы народов мира, т. I. –M.: 1980, c. 58; *B.Abdullayev*. Bir əsatirin yadigarı. "Elm və həyat" jurnalı, 1977, № 6; *A.Acalov, M.Novruzov*. "Al" tapınışı və onun izləri. – Azərbaycan filologiyası məsələləri, II c., Bakı: Elm, 1983, s. 247-258). Bu məqalələrdə daha qabaqlar çıxmış əksər əsərlərin xülasəsi ilə tanış olmaq və mövcud ədəbiyyat barədə məlumat almaq mümkündür.

*Səh.124*. Cinlərə nəyə görə "**bizdən yeylər**" ("bizdən yaxşılar") deyilməsi buradakı mətnlərin özündən aydın olmur. Söyləyənlər də elə bir dəqiq məlumat verə bilməyiblər. Bu məsələ hələlik öyrənilmədiyinə görə onun sözə (xüsusən mifoloji adlar) qoyulan qədim tabu (yasaq) ilə bağlı olduğunu güman şəkildə söyləmək mümkündür.

*Səh.126*. **Vırma** – bu xəstəliyə həm Naxçıvanın özündə, həm də başqa ləhcələrdə daha çox "vurğun" deyilir.

*Səh.131*. Cinləri təkcə itin görə bilməsi inamı, görünür, itin xtonik qüvvələrlə bağlı olması barədə görüşlərə söykənir.

*Səh.133*. **Ərdov** (ərdov, ərdoy) – Azərbaycan inanışlarında gah meşə ruhu, gah gecələr gəzən yaman ruh, gah da bu mətndəki kimi cinlərin bir növü olaraq təqdim edilir. Elmi ədəbiyyatda xüsusi olaraq öyrənilməmişdir.

*Səh.138*. **Dönərgə** (bəzi ləhcələrdə "dönəlgə"). Mif, nağıl və dastanlarda bir sıra obrazlar öz cildini dəyişərək başqa varlığa çevrilir ("dönür"). Bu xüsusiyyət onların funksional xarakteristikasında başlıca yer tutduğundan belə adlanırlar. Bu obraz sonradan folklorda (xüsusən, eposda) transformasiyaya uğramışdır. Əvvəllər diqqətdən kənarda qalan dönərgəlik hadisəsi sonralar ciddi şəkildə öyrənilmişdir

(Bax: *Т.Н.Свешникова.* Волки-оборотни у румын. – Balcanica. – Лингвистические исследования. М., 1979, с.208-221. *С.Ю.Неклюдов.* О кривом оборотне (к исследованию мифологической семантики фольклорного мотива). – Проблемы славянской этнографии. Л., "Наука", 1979).

*Səh.148.* Əzrayılın (ölüm mələyinin) müxtəlif donlara girməsi türk xalqlarının folklorunda geniş yayılmış motivdir. "Dəli Domrul" boyundakı uyğun epizodla səsləşməkdədir.

*Səh.198.* Bu mətndə qədim mifoloji inanışlar və onlarla bağlı olan orta əlkimya təsəvvürləri bir-birinin üzərində təbəqələşmişdir. Görünür, ilan ətini yeyən adamın təbiətin dilini anlaması ilan müdrikliyinə olan qədim inamın qalığıdır. Ot yeməklə "yaddaşın" itirilməsi isə daha çox ilkin mifoloji strukturlara yox, orta əsr əlkimyasında mərkəzi yer tutan sehrli metamorfozlara uyğun gəlir.

*219-292-ci* səhifələrdə təqdim edilən materiallar dörd bölməni (mifoloji inamlar; yasaqlar; sınamalar, yozumlar; ovsunlar) əhatə edir ki, onların əksəri tarixən Azərbaycanın, demək olar, bütün yerlərində müşahidə edilir.

*Səh.274.* Bu mətnin arxaik mifoloji görüşlərlə bağlı olması şübhəsizdir. Lakin son misralar ilkin mətndə bu şəkildə ola bilməzdi. Görünür, onlar sonradan dini təəssübkeşlik nəticəsində meydana çıxmışdır.

## MÜNDƏRİCAT


*Ön söz* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .4

**Miflər**

Kosmoqonik miflər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .26
Etnoqonik miflər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .37
Kosmik qəza. Tufan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .41
İnsan ömrü. Dirilik suyu . . . . . . . . . . . . . . . . . . . . . . . . .45
İlkin əcdadlar. Mədəni qəhrəmanlar . . . . . . . . . . . . . . . . .48
Hami ruhlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .51
Təqvim mifləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .57
Heyvanların və bitkilərin mənşəyi . . . . . . . . . . . . . . . . . .66
Ovçuluq mifləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .89
Müqəddəs daşlar. Daşa dönənlər . . . . . . . . . . . . . . . . . .94
Bərəkət və paklıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .101
Qeyri-adi varlıqlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .103
Hal anası – Al arvad . . . . . . . . . . . . . . . . . . . . . . . . . .115
Cinlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .124
Dönərgələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .138

**Mifoloji rəvayət və əfsanələr** . . . . . . . . . . . . . . . . . . .148

**Mifoloji inamlar** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .219

**Yasaqlar** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .248

**Sınamalar. Yozumlar** . . . . . . . . . . . . . . . . . . . . . . . . .255

**Ovsunlar** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .265

*Şərhlər* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .293

# ƏSATİRLƏR, ƏFSANƏ
# VƏ
# RƏVAYƏTLƏR

"ŞƏRQ-QƏRB"

BAKI-2005

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Korrektor: *Pərvanə Məmmədova*

Yığılmağa verilmişdir 13.11.2004. Çapa imzalanmışdır 27.05.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 19. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 139.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.